The author skillfully uses the details in order to indicate the psychological experiences dynamically with the choice and order of them. "For some reason, he became sad and felt uncomfortable. Raised his head and stared at the red lampshade, which was hanging from the middle of the ceiling. The big, black shadow of the lampshade caught his eye. It seemed to him as if the shadow is slipping on the wall, one minute it is shrinking, the next it is bloating." (Samadoglu, 2005: p.263) By the way, the author's "shadow detail", which indicates the psychological experiences dynamically on the third part of this artistic detail, is somewhat exaggerated. The light-shadow concept, which is the embodiment of the stream of consciousness in the story, can be characterized as an evident philosophical category, a dialectical conflict, a struggle and unity of the opponents. The complexity of the whole world and notions about the existence are hidden behind those simple words. From this point of view, the depiction of the shadow in the story – its shrinking and bloating was referring to the divergence in the personage's mood…

"Today the words, which had been told to him by the prosecutor, were so tough as if they drilled his ears: "Your son's sin is very big. The interrogator questioned him a couple of times and he confessed everything." The man had asked madly after hearing those words: "So, it is impossible to get my son out of prison?" The prosecutor had answered him with a shrug…" (Samadoglu, 2005: p.263) Indicating the real truth, which happens to be different from the process of speech and other purposes are in the center of attention in this sample. The main point of the occurrence, which was happened in the story, becomes uncovered in this example. The narrator only performs the role of the depicter here. The dialogue between the prosecutor and the man itself elucidates the occasion to the reader, but the narrator visualizes the man's mood for the reader by repeating the words, which will be said by the prosecutor. The apathetic attitude of the society towards a poor father, who can't help to his son's tough fortune and all of these happenings, is displayed with the "shrug" of the "prosecutor."

As it was said, the components of the occasion, which happened, in reality, are in a mutual relationship with the detail, each demand and complete the other one. Indeed, detail is usually picked up from the components. One of the characteristics that draw attention in another example from the story is that it emphasizes that this occurrence is a common problem of the society in a unique way. The narrator indicates the man's thoughts about the young people he had seen in the street and then delivers his inner speech about that: "The man remembered those young people again. "Why did I mistake them for Agil?" – he questioned himself, but afraid to answer that question…" As can be seen, the writer shares the anxiety of a father, who senses a threat of destruction of the moral values on the growth of the youth instinctively through the Agil phenomenon, who doesn't deal with the rules of the society with a short sentence.

Yousif Samadoglu managed to indicate the specific life – living mottos and moral-spiritual characteristics of the personages using their own behaviors and styles without giving a way to Pathetics, Didactics, and subjective opinions in this story, like he did in his other works.

Reference

1. Контекст (1976). Литературно-теоретические исследования. – Москва: Наука. – 318 с.
2. Bakhtin M. (2012). Theory of the novel (1930-1961). // Languages of Slavic Cultures. – P. 880.
3. Genette G. (1998). Figures: in 2 volumes. Vol 1-2. – Sabashnikov. – P. 944
4. Səmədoğlu Y. (2005). Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb. – 384 s.

UOT: 398

SHIRVAN EPOS CREATIVITY AND EPIC MEMORY OF ETHNOCULTURAL SYSTEM

Tariyel Gani
PhD, Associate Professor
Azerbaijan University
Doctoral student of the National Museum of Azerbaijan Literature
named after Nizami Ganjavi, ANAS
qenitariel@mail.ru
Orcid id: 0000-0002-2972-0795

Summary: Epics have a special content in the richness of Shirvan folklore environment. It serves as a basic source in terms of clarifying the general flow of the ethnocultural system, its content and the direction of the historical and cultural process. The possibility of the saga as a form has a special texture in terms of showing the local, national, human level. In the example of all this, it is necessary to analyze the Shirvan saga environment in the context of the epic. Necessary steps have been taken in the field of studying Shirvan folklore environment in folklore studies, successful work has been done in terms of collection, publication and research. It includes those in the field of epos. However, the analysis of the epic (as well as myths) in the synchronous and diachronic context and the clarification of the essence it signifies, the typology of the text, the landscape of symbolism, etc. has always been relevant in the richness of the genre of the environment, and is still the case today. Those who come from the old Turkish saga tradition ("Yaradilish", "Alp Er Tonga", "Oguz Kagan", "Shu", "Manas", "Alpamish", "Koblandibatir", "Kitabi-Dada Gorgud", "Koroglu", "Jorabatyr", "Edige", "Maday Kara", etc.), as well as monuments created in the Shirvan saga environment ("Koroglu's visit to Shirvan", "Koroglu's visit to Bilhadi", "Shirvanli Gahraman Shah", "Adgozel and Aslan Shah", "Ashig Tahmiraz", "Shahzada Gasim", "Shahzada Abulfaz and Rena khanum", etc.) as a whole have been passed down from century to century as an example of the spiritual memory of ethnic memory. At the level of Shirvan saga creativity, their analysis as a whole provides the necessary material to clarify the general historical and cultural flow, while allowing systematic approaches and is the basis for achieving perfect results.

Keywords: Epos, saga, epic tradition, saga, story, Shirvan ashugs, etc.

ŞİRVAN DASTAN YARADICILIĞI VƏ ETNOMƏDƏNİ SİSTEMİN EPOS YADDAŞI

Qəni Tariyel Seyfəddin oğlu
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Universiteti, AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı

Xülasə: Şirvan folklor mühitinin zənginliyində dastanlar xüsusi məzmun daşıyır. Etnokulturoloji sistemin ümumi axarını, sərgilədiyi məzmunu aydınlaşdırmaq və tarixi-mədəni prosesin hansı istiqamətdə gedişini aşkarlamaq baxımından əsaslı mənbə funksiyasını yerinə yetirir. Dastanın bir forma olaraq imkanlılığı lokal, ümummilli, bəşəri səviyyəni sərgiləmək baxımından da xüsusi fakturaya malikdir. Bütün bunlar

timsalında Şirvan dastan mühitinin epos kontekstində təhlilə gətirilməsi bir zərurət olaraq qarşıda durur. Folklarşünaslıqda Şirvan folklor mühitinin öyrənilməsi sahəsində gərəkli addımlar atılmış, toplama, nəşr və tədqiq baxımından uğurlu işlər görülmüşdür. Dastan yaradıcılığı sahəsində olanlar da bura daxildir. Lakin mühitin janr zənginliyində eposdan dastana gələnlərin (eləcə də miflərin) sinxron və diaxron kontekstdə təhlilə gətirilməsi və onun işarələdiyi mahiyyətin aydınlaşması, mətn tipologiyası, simvollaşma mənzərəsi və s. həmişə aktuallıq kəsb etmiş və bu gün də belədir. Əski türk dastan ənənəsindən gələnlər ("Yaradılış", "Alp Ər Tonqa", "Oğuz Kağan", "Şu", "Manas", "Alpamış", "Koblandıbatır", "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Corabatır", "Edige", "Maday Kara" və s.), eləcə də Şirvan dastan mühitində yaranmış abidələr ("Koroğlunun Şirvan səfəri", "Koroğlunun Bilhədi səfəri", "Şirvanlı Qəhrəman şah", "Adgözəl və Aslan şah", "Aşıq Təhmiraz", "Şahzadə Qasım", "Şahzadə Əbülfəz və Rəna xanım" və s.) bütünlükdə etnik yaddaşın mənəviyyat örnəyi olaraq əsrdən-əsrə daşınmışdır. Şirvan dastan yaradıcılığı səviyyəsində bunların bir bütöv olaraq təhlili sistemli yanaşmalara imkan yaratmaqla, həm də ümumi tarixi-mədəni axarı aydınlaşdırmaq üçün lazımı qədər material verir və mükəmməl nəticələrə gəlmək üçün əsas olur.

Açar sözlər: Epos, dastan, epik ənənə, dastan, əhvalat, Şirvan aşıqları və s.

Giriş. Şirvanın zəngin mənəvi mədəniyyətində mühüm hissəni etnosun folklor yaddaşında olanlar təşkil edir ki, bu da müxtəlif müstəvilərdə sinxron və diaxron yanaşmaları gərəkli edir. Çünki folklor bir bütöv olaraq etnosun bədii-estetik, tarixi-mədəni, kulturoloji yaddaşında oturuşmuş sistemin dinamikasını, genetik mənzərəsini aydınlaşdırmaq üçün ən əsaslı mənbədir. Ona görə də Şirvan folklor mühitinin zəngin janr fakturasında hər bir kanonik sistemin, janr yaddaşının müxtəlif aspektlərdən araşdırılması ciddi məsələ kimi həmişə mühüm önəm kəsb etmişdir. Dastanın bir forma olaraq kəsb etdiyi mahiyyət, mətn paradiqması, etnosun gerçəkliyə münasibətinin epik mənzərəsi baxımından imkanlılığı mühit səviyyəsində məsələnin mahiyyətinin aydınlaşdırılmasını aktuallaşdırır. "İstər yazılı, istərsə də şifahi ədəbiyyatımızda dastan daha çox ədəbi istilah kimi işlədilmiş və müxtəlif mənalar daşımışdır.

Məlum olduğu üzrə, klassiklərimiz bu sözü əhvalat, hekayə, macəra, tərifnamə, tərcümeyi-hal, hətta tarix mənalarında işlətmişlər. Eyni zamanda bu söz rəvayət, hətta xalq romanı, xalq kitabı mənalarını da daşımışdır" **(**Təhmasib, 1972: s. 57). Göründüyü kimi, bu anlamların hamısında etnik yaddaş baxımından bir-birinə yaxın təsəvvürü formalaşdırır. Çünki dastan bir forma olaraq elə geniş mahiyyətli ədəbiyyat hadisəsidir ki, onun janr səciyyəsində fundamental bir zənginlik özünə yer alır. Ozan və aşıq yaradıcılığının ədəbi faktı kimi yüz illər boyu bu forma bütünlükdə xalqın bədii-estetik, tarixi-mədəni gücünü ortaya qoya bilmək imkanı ilə seçilmişdir. "Yaradılış"dan, "Alp Ər Tonqa"dan, "Oğuz Kağan"dan, "Şu"dan, "Manas"dan, "Alpamış"dan, "Koblandıbatır"dan, "Kitabi-Dədə Qorqud"dan, "Koroğlu"dan, "Tahir və Zöhrə"dən, "Qurbani"dən, "Abbas və Gülgəz"dən, "Əsli və Kərəm"dən, "Aşıq Qərib"dən, "Valeh və Zərnigar"dan və s. gələn bu ənənə çoxçeşidli və çoxspektrli bir mənzərəni özündə ehtiva edir.

Şirvan folklor mühiti və ənənənin yaşarlığı. Şirvan folklor mühiti dastan ənənəsinin yaşarlığı və zənginliyi baxımından əsaslı bir faktura ilə səciyyələnir və bütünlükdə türk dastan düşüncəsinin genetik mənzərəsini, dinamik istiqamətini aydınlaşdırmaq üçün gərəkli faktlarla səciyyələnir. Şirvan folklor mühitinin tədqiqatçısı S.Qəniyev vurğulayır ki, "Azərbaycan şifahi poetik söz sənətinin regional özünəməxsusluğunu Şirvan folklor örtüyü əsasında araşdırmaq üçün öncə bu mühitin regional janr coğrafiyasını müəyyənləşdirmək lazım gəlir. Çünki ərazi folklorunun regional özünəməxsusluğu hər şeydən qabaq, konkret ərazidəki folklor janrlarının işlənmə tezliklərinin müxtəlifliyində qabarıq şəkildə nəzərə çarpır" **(**Qəniyev, 1997: s. 6). Dastan yaradıcılığı Şirvan folklor yaddaşında möhtəşəm bir imkanlılıqla, zəngin mahiyyət faktları ilə səciyyələnir.

Çağdaş mühitin mənzərəsi arxaik mədəniyyət faktı kimi onun mahiyyətində nələrin yaşandığını, bazis kimi hansı etnokulturoloji layları mahiyyətində qoruyub saxladığını aydınlaşdırmağı zəruri edir. Çünki Şirvan bir bütöv olaraq mədəniyyətimizin, ictimai, siyasi, mədəni düşüncəmizin beşiyi olan məkanlardandır. Onun arxaik qatı, etno-mədəni sistemi yaddaş

stixiyasında mif əcdaddan bu yana olanlarla müəyyənləşir. Lokal səviyyədən qlobal səviyyəyə qədər ümumi mənzərənin çeşidlənməsi qarşımızda ciddi mənzərə yaradır və daha təfərrüatlı təhlillər aparmaq üçün material verir. Burada diqqəti cəlb edəcək istiqamətlərdən birisi aspektlərin (məhəlli aspekt, ortaq türk aspekt, Şərq aspekt və s.) aydınlaşmasıdır. Bunlar regionun folklor örtüyünün bütünlükdə janr və məzmun paradiqmalarına ciddi şəkildə aydınlıq gətirmək üçün material verir və məsələnin açılması gərəkliyini ortaya qoyur.

Epos yaradıcılığı və klassik epik ənənənin ümumi məzmunu zəngin bədii nümunələrlə faktlaşır ki, bu da Şirvan folklor mühitində yaranmış dastanların təhlili baxımından məsələyə diqqət yetirməyi zəruri edir. Burada digər istiqamət isə mühitin sənət repertuarında özünə yer tapmış klassik dastan nümunələridir ki, tipoloji təhlil müstəvisində daha dolğun və əsaslı nəticələrə gəlməyə imkan yaradır. Çünki Şirvan aşıq mühiti özünün tarixi səciyyəsi, ifa və repertuar mənzərəsi ilə ciddi təsəvvür formalaşdırmışdır. Aşıq yaradıcılığının tədqiqatçıları bu mühitin tarixi dinamikasını, sənət şəcərəsini, onun genetik sistemini açmaq baxımından əsaslı işlərə imza atmışlar. Ayrı-ayrı dövrlər üzrə aparılan araşdırmalar, eləcə də ustad sənətkarların yaradıcılığı ilə bağlı yazılan monoqrafik tədqiqatlar, toplama işləri və s. bunun göstəricisidir. "Şirvan ərazisi coğrafi baxımdan qədim Qəbələ şəhəri, şərqdən mavi gözlü Xəzər dənizinə, qərbdən Yevlax ərazisinə, cənubdan isə Kür çayına qədər baş alıb gedən cənnət misallı bir diyarı əhatə edir" **(**İsmayılov, Qəniyev, 2005: s. 13). Bu ərazilər təkcə tarixi tikililəri, maddi mədəniyyət abidələri ilə səciyyələnmir, onun digər istiqamətdə ağırlıq mərkəzini zəngin mənəvi sərvəti, folklor örnəkləri əhatə edir. Həmin zənginliyin bir bütöv olaraq müəyyənləşməsi müstəvisində əfsanə, əsatir, rəvayət, nağıl, dastan nümunələrinin, eləcə də mərasim folklorunun müstəsna rolu vardır.

Dastan yaradıcılığı Şirvan folklor zənginlikdə mühüm əhəmiyyətə malik olub etnosun kulturoloji düşüncəsini qoruyub saxlamaq və spesifikasını, özünəməxsusluq qatlarını aydınlaşdırmağa ciddi əsas verir. Onu da əlavə edək ki, "Şirvanda sufi poeziyasının, o cümlədən sufi ocaqlarının zənginliyi bu folklor mühitinə böyük təsir göstərmişdir. Onların arasında biri digərini zənginləşdirən çoxşaxəli əlaqələr və qarşılıqlı təsirlər mövcud olmuşdur" **(**İsmayılov, Qəniyev, 2005: s. 12). Ozan-aşıq ənənəsindən süzülüb gələn bu zənginliklər tarixi-mədəni səviyyənin ümumi fondunu ortaya qoymaqla prosesin istiqamətini düşünməyə əsas verir.

"Koroğlunun Şirvan səfəri", "Koroğlunun Bilhədi səfəri", "Şirvanlı Qəhrəman şah", "Adgözəl və Aslan şah", "Aşıq Təhmiraz", "Şahzadə Qasım", "Küçə Rza", "Seydi və Pəri", "Aşıq Ağaməmməd və Məryəm", "Aşıq Bilalın dastanı", "Şirvanlı el şairi Püstə Şikar qızı", "Barıdday Soltan", "Yasər Xəzri və Səhər Təbrizi", "Arif və Qərənfil", "Gəlin və qaynana dastanı", "Canbaxış və Qudyal", "Aşıq və falçı", "Şahzadə Əbülfəz və Rəna xanım", "Nadir şah və Murtuzəli", "Mikail və Aybəniz", "Səfili Məmməd", "Bikəs", "Yetim Aydın" və s. kimi dastan nümunələri klassik epos sisteminin dinamikasını, yaddaş fasiləsizliyini aydınlaşdırmaq üçün əsaslı material verir. Motiv və hadisə zənginliyi baxımından bunun klassik örnəklərini görürük. Məsələn, "Kitabi-Dədə Qorqud" timsalında "bəli, məqsudum budur. Mənim dəxi oğlum olsa xan Bayındırın qarşısın alsa dursa, qulluq eləsə, mən dəxi baxsam, sevinsəm, qıvansam, güvənsəm – dedi.

Böylə degəc Qalın Oğuz bəyləri üz göyə tutdular. Əl qaldırıb dua elədilər" **(**Kitabi-Dədə Qorqud, 1978: s. 45-46). Ozandan aşığa gələn ənənənnin ümumi mahiyyətində duran məsələlər bədii-estetik təfəkkürdə olanlardan tutmuş mənəvi dəyər qəliblərinə qədər bütöv bir zənginliyi əhatə edir ki, onun da rəngarəngliyində motivləşmə bir model olaraq müxtəlif səviyyələrdə özünə yer alır. Çünki çeşidli dastan nümunələri möhkəm bazaya əsaslanmaqla etnik-mədəni şüurun davamlılığını və bədii yaddaşın mükəmməl sistemə əsaslandığını göstərir. Onarın etnokulturoloji mənzərəsinin bir bütöv olaraq izlənməsi və janr informasiyasında boy göstərən fasiləsizliyin tipoloji müstəvidə nələrlə səciyyələnməsi məhəlli xarakteri, regional səviyyəni aydınlaşdırmaq üçün mühüm önəm daşıyır. Burada qaldırılan problemlər bir istiqamətdə qlobal səviyyəni müəyyənləşdirir ki, onun da konkret nümunələr əsasında təhlilinə zərurət artmaqdadır.

Dastan yaradıcılığı və Şirvan aşıq mühitində onun ümumi mənzərəsi. Şirvan aşıq mühitinin zəngin fakturasında dayanan özünəməxsusluq xüsusiyyətlərindən biri dastan yaradıcılığındakı gedən proseslərin ümumi mənzərəsinə bağlanır. Şirvanlı Molla Qasımdan bu yana olan proseslərin ümumi mənzərəsi müstəvisində etnokulturoloji təfəkkürün arxaik qatları burada daha spesifik xüsusiyyətləri işarələyir. "Musiqi repertuarından fərqli olaraq Şirvan aşıq mühitinin saz repertuarı digər mühitlərdən regional əlamətlərlə seçilmir. Ənənəvi klassik aşıq dastanları, eləcə də saz-söz ustadlarının poetik irsi burada da söz yükünün əsasını təşkil edir" **(**Qasımlı, 2011: s. 214-215). Şirvan folklor mühiti üzərində aparılan müşahidələr, söyləyici repertuarının sistemli şəkildə mənimsənilməsi bu bağlılığın, tarixi ənənənin yaşarlığının mühit üçün özünəməxsusluq olaraq görünüşünü düşünməyə əsas verir. Ona görə də Şirvan dastan yaradıcılığı klassik epos sisteminin tərkib hissəsi olaraq özlüyündə bir sıra istiqamətləri müəyyənləşdirməsi ilə səciyyələnir.

a) etnosun arxaik yaddaş modellərinin qorunuşu və bütün olanları özündə ehtiva etməsi imkanları ilə;

b) gerçəklik haqqında təsəvvürlərin epik sisteminin kulturoloji mahiyyətini aydınlaşdırmaq xarakteri səviyyəsində;

c) ritual mənzərəsini və söyləyicilik mühitini bir ənənə olaraq müəyyənləşdirmək baxımından;

ç) klassik epos ənənəsinin tarixi dinamikasını və texnoloji sistemini bir bütöv olaraq ortaya qoymaq müstəvisində və s.

Bütün bunlar Şirvan dastan yaradıcılığının genetik sistemini, etnomədəni mənzərəsini aydınlaşdırmaq anlamında kifayət qədər zəngin materialla faktlaşır. Məsələn, diqqət yetirsək və tipoloji müstəvidə mühitlərlə bağlantıların ümumi mənzərəsinə baxsaq görərik ki, Şirvan dastan yaradıcılığı klassik epos ənənəsinin tərkib hissəsi olaraq daha çox arxaik elementlərlə səciyyələnir. "Qurbani" dastanının Zəncan versiyasının Şirvanda qorunuşu bunun örnəyidir. "Ustadlar belə deyirlər ki, baş Xudafərin körpüsü ilə Araz-Kür qovşağı arasında Araz boyu yeddi yüz yetmiş iki ev yaşayırdı. Bunların içərisində bir çox bəylər, bəyzadələr var idi. Ancaq bunların hamısı Dirili Hüseynalı xana baxırdı. Hüseynalı xan çox arxalı, çox varlı, dövlətli xan idi" **(**Aşıq ədəbiyyatı antologiyası**,** 2017: s. 102). Şirvan dastan mühiti və onun genetik sistemini bütün varlığı ilə özündə ehtiva edən epos ənənəsi ozandan aşığa gələn yolun mahiyyətini əks etdirir.

Aşıq yaradıcılığı türk düşüncəsinin, mənəvi mövcudluğunun özünəməxsusluq funksiyası kimi şəriksiz olandır. Onun ehtiva etdiyi yaddaş konstruksiyası, düşüncə sxemləri bütünlükdə əski təsəvvürdə olanlarla, onun ilkin nümunələrindən bu yana gələnlərin dinamikası ilə səciyyələnir. Ona görə də Şirvan epos ənənəsi, onun mahiyyətində aparıcı xətlərdən biri kimi diqqət mərkəzində saxlanan və günümüzə qədər etnosla birgə addımlayan dastan mühiti yaşarlığı ilə əsaslı bir məzmunu ortaya qoyur. Ümumiyyətlə, "dastanlar bütünlükdə dünyanın ayrı-ayrı zamanlara və məkanlara səpələnmiş dərsliklərdir. Keçib gəlinən yollar və gediləcək yollar daha dürüst və dəqiqliklə orada özünün əksini tapmışdır" **(**Allahmanlı, 2017: s. 5). Azərbaycan xalqının mənəvi düşüncəsinin möhtəşəmliyini əks etdirən iki eposun biri ("Kitabi-Dədə Qorqud") ozan təfəkkürünün məhsuludursa, digəri ("Koroğlu") aşıq düşüncəsinin mükəmməllik faktıdır. Dünya epos sənətinin ən möhtəşəm abidəsi kimi bu nümunələr bütünlükdə türk təfəkkürünün, Şərq mənəvi zənginliyinin hadisəsi olaraq üfiqi və şaquli istiqamətlərdə şifahi və yazılı mühitdə tipik ənənənin gedişini izləməyə əsas verir. Burada digər məsələ ozandan aşığa gələn türk və Şərq mədəniyyətinin bütün müstəvilərdə arxitektonikası, paradoksal mənzərəsi və fövqəlgücü sərgilənir.

Ənənənin ümumi sistemi, invariantları, arxetiplərin formul zənginliyi və s. bu fakturanın daha geniş mahiyyətliliyini və çox dərin qatlara gedib çıxdığını düşünməyə əsas verir. Bunu Şirvan aşıq mühitinin bizə yaxın olan mənzərəsindəki zənginlik də təsdiqləyir. Aşıq Mirzə Bilal, Aşıq Məmmədağa, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Pənah, Aşıq Şamil, Aşıq Bəylər, Aşıq Xanış, Aşıq

Hacalı və s. kimi onlarla ustad sənətkarın repertuarında özünə yer alan dastan nümunələri özünəqədərki prosesin məzmununu səciyyələndirir.

Təkcə onu demək kifayətdir ki, Şərq xalqları arasında "Koroğlu" dastanı qədər yayılacaq ikinci bir abidəni ortaya qoymaq mümkün deyildir. Zənginliyin mahiyyəti və genetik sistemi o qədər çoxlaylı və dərin qatlıdır ki, onun açılışı bütünlükdə etnosun mənəvi zənginliyinə, onun təsəvvürlər sisteminə bağlanmaqla, eyni zamanda bütün olanları özündə ehtiva edir. Təkcə Şirvan mühiti müstəvisində onu da əlavə edək ki, "Koroğlu" eposu kontekstində dastanın qollarından biri şirvanla bağlıdır. Xalq, etnosun güclü yaradıcılıq təxəyyülü, ustad ənənəsinin dinamikası Koroğlunu bir el qəhrəmanı, xalqın qəhrəmanlıq ruhunun ifadəsi olaraq Şirvana aparıb çıxarmışdır. Necə ki, müəyyən məqamlarda tipoloji müstəvidə təhlillər zamanı qeyd edirik ki, Qafqaz, Kiçik Asiya və Orta Asiya xalqlarının böyük bir qismi Azərbaycan "Koroğlu"sunun təsirində özlərinin "Koroğlu"sunu yaratmaq məqsədində olmuşdur. Bunun formalaşdırdığı təsəvvür isə məhz Azərbaycan "Koroğlu"sunun bir epos kimi möhtəşəmliyi və onun yaratdığı təsir idi. Bu təsirin isə memarı ustad sənətkarlar olmuşdur və xalqın təfəkküründən, ruhundan, tarixi düşüncəsində olanlardan qopub formalaşmaqla bir epos ənənəsi formalaşdırmışdır. Daha doğrusu, "Koroğlu" eposunun timsalında "Koroğlu" epos ənənəsi ortaya qoyulmuşdur. Azərbaycan folklorşünaslığında bu məsələlərlə bağlı müsbət istiqamətdə təhlillər aparılmış, fərqli-fərqli mövqelər ortaya qoyulmuşdur. Lakin bu dastan möhtəşəmliyi timsalında olanlar baxımından çox azdır və müəyyən tendensiyalar səviyyəsində yanaşmalar da boy göstərir. Onda dastana yeni baxış müstəvisində milli məfkurə, türkçülük və dastançılıq kontekstində yanaşmalara ehtiyac yaranır. Çünki eposşünaslığın problemləri anlamında "Kitabi-Dədə Qorqud"dan "Koroğlu"ya gələn yol və onun dinamikası sinxron və diaxron müstəvidə etnokulturoloji arxetipləri müəyyənləşdirməyə, klassik epos ənənəsi haqqında bütöv təsəvvür formalaşdırmağa imkan yaradır. Ona görə də Şirvan dastan yaradıcılığı kontekstində məsələnin mahiyyətinin təhlili bütünlükdə ozandan aşığa və epik yaddaşın nələrlə xarakterizə olunmasına əsaslı şərait yaradır.

Şirvan dastan yaradıcılığı bütün parametrlərdə türk epos ənənəsindən qaynaqlanmaqla onu motivləşmə, struktur sxemləri, etnos təsəvvürlərinin sistemli ifadəliliyi və təfərrüatlı ehtiva olunması keyfiyyətlərini özündə cəmləşdirir. Bunun isə ən başlıca daşıyıcısı söyləyici və auditoriya müstəvisində olanların qarşılıqlı münasibətindən, milli yaddaşın qəliblənmiş təsəvvürlərini kutsal kimi qoruma istəyindən irəli gəlir. "Kitabi-Dədə Qorqud"dan "Koroğlu"ya gələn möhtəşəmliyin, milli mənsubluğun dinamikası, kimliyin bədii-estetik nümayişi ozandan aşığa gələnlər timsalında bütövləşir və etnosun bədii kamillik haqqında təsəvvürlərinə bağlanır. Bu sıralanma ozandan aşığa gələnlər timsalında "eldən-elə, bəydən-bəyə ozan gəzər" təsəvvürü ilə xalq arasında özünə geniş şəkildə yer almış "aşıq elin anasıdır" düşüncəsində bütövləşir. Şirvan aşıq mühitinin dastan yaradılcılığı bu bütövlüyün ümumi məzmununda əsaslı faktura ilə təmsil olunur. Məhz yuxarıda "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qəhrəman şah" timsalında verdiyimiz nümunələr mühit səviyyəsində prosesin gedişini, mətn paradiqmalarının, arxetiplərin ümumi səviyyəsini müəyyənləşdirir. Bunlar təkcə eposdan dastana gələn yol üçün xarakterik deyildir, yazılı və şifahi ədəbiyyatın proyeksiyalaşdırdığı təsəvvürdə də belədir. Məsələn, "qədim ədəbiyyatla orta dövr ədəbiyyatı biri digəri ilə xüsusilə möhkəm bağlıdır. Birinci dövr əsasən epos, ikinci dövr isə, əsasən lirika dövrüdür" (Cəfərov, 2004: s. 5). Epos ənənəsində də bu bir sistem, bədii-estetik model, yaddaş hadisəsi, etnosun müəyyənlik nümunəsi olmaqla qəlibləşir. Təbii ki, epos ənənəsində ikinci dövr (dastan) birinci dövrün (epos) davamı olaraq keyfiyyət və kəmiyyət müstəvisində zənginləşmələrlə, eposdan dastana gəlişin əlavələri ilə ciddi və həm də tipik nitq janrları ilə səciyyələnir.

Nəticə. Şirvan dastan mühiti bütünlükdə Şirvan aşıq mühitinin zənginliyini, onun geniş mahiyyətliliyini, ümumiyyətlə sənət və həyat təsəvvürlərini, dünyagörüşünün alt və üst qatlarında dayananları aydınlaşdırmaq üçün mühüm əhəmiyyət daşıyır. Eposun bir model və yaradıcılıq hadisəsi olaraq özündə formalaşdırdığı təsəvvürlə dastanın janr hadisəsi kimi ehtiva etdiyi yaddaş

bir-biri ilə ciddi bağlantılara, tarixin və zamanın ortaya qoyduğu yaşam prinsiplərinə, auditoriyanın ehtiyaclarına nizamlanır.

Ümumiyyətlə, aşıq yaradıcılığının türk dastan mühiti kontekstində işlənməsi bu mədəniyyət layının bir kulturoloji düşüncə modeli olaraq müstəsnalığını deməyə əsas verir. Şirvan aşıq mühitinin çağdaş Carlı-Cəyirli, Şamlı, Kolanı, Padar, Təklə və s. kimi kəndlər aşıq ocaqları olaraq böyük funksiyanı, mənəvi dəyərlərin qorunuş və gələcəyə daşınışı kimi amala köklənmişdir. Bütün bunlar Şirvan dastan mühitinin etnomədəni yaddaş müstəvisində epos təfəkküründə bağlanmasını və bir qaynaq olaraq mahiyyəti özündə ehtiva edə bilmək gücünü aşkarlayır.

İstifadə edilmiş ədəbiyyat

1. Allahmanlı, M. (2017). Dastanlaşan tariximiz. Aşıq ədəbiyyatı antologiyası. Qəhrəmanlıq dastanları. 3 cilddə, II c. – Bakı: Meqa print nəşriyyatı. – s. 5-9.
2. Aşıq ədəbiyyatı antologiyası. (2017). Tərtib edənlər: M.Qasımlı, M.Allahmanlı. Məhəbbət dastanları: 3 cilddə. III c. – Bakı: Meqa print nəşriyyatı. – 736 s.
3. Cəfərov, N. (2004). Klassiklərdən müasirlərə. – Bakı: Çaşıoğlu nəşriyyatı. – 272 s.
4. İsmayılov, H., Qəniyev, S. (2005). Şirvan folkloru. Azərbaycan folkloru antologiyası. XI c. Şirvan folkloru. – Bakı: Səda nəşriyyatı. – s. 5-34.
5. Kitabi-Dədə Qorqud. (1978). – Bakı: Gənclik nəşriyyatı. – 182 s.
6. Koroğlu. (1956). Tərtib edəni M. Təhmasib. – Bakı: Elm nəşriyyatı. – 452 s.
7. Qasımlı, M. (2011). Ozan-aşıq sənəti. – Bakı: Uğur nəşriyyatı. – 304 s.
8. Qəniyev, S. (1997). Şirvan folklor mühiti. – Bakı: Ozan nəşriyyatı. – 260 s.
9. Təhmasib M. (1972). Azərbaycan xalq dastanları (orta əsrləri). – Bakı: Elm nəşriyyatı. – 400 s.

UOT: 82.(091).

HISTORICAL AND HEROIC THEMES IN THE CREATİVİTY OF JAFAR JABBARLI: "BRIDE OF FIRE»

Ellada Gerayzade
PhD, Associate Professor
Kafkas University, Turkey
ladaisa@rambler.ru
Orcid id: 0000-0003-0299-390X

Abstract. The tragedy "Bride of Fire" is dedicated to the actual events of the VIII century and the struggle of Azerbaijan people's commander Babek, who led the national liberation movement against the Arab invaders. The ideological and thematic framework of the tragedy is significantly expanded: the idea of fighting against foreign invaders develops into the idea of fighting against oppression and exploitation in general.

The main character of the play, Elkhan – is not only a leader of the masses, but also an outstanding thinker and reformer. Elhan is a revolutionary who has realized the unfitness of the existing social order and is determined to change it. From this point of view, Elkhan is a completely new hero not only in the works of Jabarli, but also in all Azerbaijani literature, In Elkhan's dreams of a happy future, he finds expression of the dreams and aspirations of the enslaved people. Elkhan heroically defends the interests of the people, showing exceptional steadfastness in defending his ideas, for which he sacrifices his beloved Solmaz and brother Akshin.

Key words: Jafar Jabarlı, "Bride of Fire", historical tragedy, srtuggle against oppression

ИСТОРИКО-ГЕРОИЧЕСКАЯ ТЕМАТИКА В ТВОРЧЕСТВЕ ДЖАФАРА ДЖАБАРЛЫ: «НЕВЕСТА ОГНЯ»

Герайзаде Эллада Иса гызы
доктор философии по филологии, доцент

Кавказский университет, Турция

Аннотация. Трагедия «Невеста огня» посвящена действительным событиям VIII века и борьбе народного полководца Бабека, возглавившего всенародное освободительное движение против арабских захватчиков. Идейно-тематические рамки трагедии значительно расширяются: идея борьбы против иноземных захватчиков перерастает в идею борьбы против гнета и эксплуатации вообще.

Главный герой трагедии Эльхан – не только, вождь народных масс, но и выдающийся мыслитель и реформатор. Эльхан – революционер, осознавший негодность существующего социального строя и твердо решивший изменить его. С этой точки зрения Эльхан – совершенно новый герой не только в творчестве Джабарлы, но и во всей азербайджанской литературе В мечтах Эльхана о счастливом будущем находит выражение мечты и чаяния порабощенного народа. Героически отстаивает Эльхан интересы народа, проявляя исключительную стойкость в защите своих идей, ради которых он жертвует любимой Солмаз и братом Акшином.

Ключевые слова: Джафар Джабарлы, «Невеста огня», историческая трагедия, борьба против гнета

«Невеста огня» отражает переход писателя на новый этап идейно-творческого развития. Революционная романтика этой пьесы связана с историко-героической тематикой. Писатель, наконец, нашел своего народного героя, последовательно борющегося за ясную и высокую цель.

Главный герой пьесы Эльхан – не только, вождь народных масс, но и выдающийся мыслитель и реформатор. Эльхан – революционер, осознавший негодность существующего социального строя и твердо решивший изменить его. С этой точки зрения Эльхан – совершенно новый герой не только в творчестве Джабарлы, но и во всей азербайджанской литературе (Герайзаде, 2014: с. 215).

Мысль о создании исторической трагедии «Невеста огня» впервые возникла у Джабарлы в 1924 году. В это время он интересовался историческими и легендарными темами, взятыми из азербайджанской жизни. Изучив историю освободительного движения азербайджанского народа, связанные с этим движением народные легенды и другие произведения, писатель в системе своих образов стремился отразить духовную мощь народа.

Первоначально пьеса носила название «Бабек», но автор не хотел ограничивать идейно-тематические рамки произведения, стремясь придать ему более широкое содержание. Трагедия «Невеста огня» посвящена действительным событиям VIII века и борьбе народного полководца Бабека, возглавившего всенародное освободительное движение против арабских захватчиков. Идейно-тематнческие рамки трагедии значительно расширяются: идея борьбы против иноземных захватчиков перерастает в идею борьбы против гнета и эксплуатации вообще. В мечтах Эльхана о счастливом будущем находит выражение мечты и чаяния порабощенного народа.

Бабек, бежавший от арабов и живущий под именем Эльхана, является рабом Алтунбая. Жалкий раб, купленный за несколько дирхемов, возглавляет народное восстание и начинает решительную борбу против угнетателей своей родины.

Сын угнетенного народа, Эльхан сам испытал неимоверную тяжесть судьбы раба, он увидел собственными глазами ужасы неограниченной власти феодалов. И здраво размышляет: почему, обладая полным превосходством над своим хозяином Алтунбаем, он – Эльхан, должен терпеть любые оскорбления, покоряться и молчать? Потому что он раб, бесправный раб? А почему он раб? Потому, что Алтунбай обладает богатством, а он – Эльхан, беден.

Почему Солмаз, которую он любит, должна принадлежать Алтунбаю, лишенному чувства возвышенной любви? Потому, что Алтунбай богат. Эльхан понимает весь ужас социальной несправедливости: «Вот грозное чудовище, что долгие века терзает человечество! Вот беззаконие, что веками именем закона правит!.. Скажи, кому принадлежать должны зеленые луга, холодные и чистые источники в горах, обширные поля и нивы плодородные, что щедро так природа-мать в дар детям своим создала? Чьи они и почему его?» [2, с.].

Поиски ответа на эти «почему» зажигают в сердце раба Эльхана первые искры протеста против социального неравенства, против строя рабства и насилия. Сама жизнь делает из него предводителя

народного движения. Его, дважды сидевшего в заточении, бежавшего из-под виселицы, в трудные дни народ посылает в первые ряды самоотверженных борцов за свои права.

Эльхан – народный вождь, который глубоко задумывается над жизнью и старается найти причины, обрекающие трудящихся на мучения. Непримиримый враг всякого рабства, он решительно отвергает предложение Алтунбая о союзе против арабов.

Видя причину народных волнений в подстрекательстве Эльхана, наместник арабского халифата Абу-Убейд приказывает своему подчиненному отыскать его и доставить живым или мертвым. За голову Эльхана, купленного на рабовладельческом рынке за пятьдесят дирхемов, арабские властители сулят десять тысяч дирхемов, а за его укрывательство грозят повешением. Но им не удается заставить простых людей выдать своего предводителя (Герайзаде, 2014: с.217).

Героически отстаивает Эльхан интересы народа, проявляя исключительную стойкость в защите своих идей, ради которых он жертвует любимой Солмаз и братом Акшином.

Акшин, подстрекаемый Абу-Убейдом, хочет убедить Эльхана, что цель армии ислама не захват и завоевания. Она хочет вести заблудшее человечество на верный путь, к спасению и счастью. Но Эльхан не настолько наивен, чтобы поверить этим проповедям, даже если он слышит их из уст горячо любимого брата. Он отказывается от помощи Акшина, пришедшего спасти его от виселицы. С исключительной поэтической силой нарисована сцена идейного столкновения двух братьев: полное напряженного драматизма словесное единоборство фанатика со свободомыслящим человеком.

Не может сломить волю Эльхана и любовь к Солмаз, которую его коварные враги также стараются использовать против него. В этих сценах Эльхан встает перед нами как человек исполинской нравственной силы, большого ума и прекрасного сердца. Он непоколебим в своей борьбе против рабства и против его духовной опоры — религии, в какой бы форме она ни проявлялась.

Но Эльхан одновременно борется и за переустройство общества, за создание новой, более высокой и совершенной формы общественных отношений. Образ Эльхана дан как образ прогрессивного реформатора. В противовес феодально-клерикальным порядкам он создает в горах своеобразное демократическое общество, свободное от насилия, рабства и социального неравенства, основанное на свободных действиях свободных людей, не приносящих зла друг другу. В обществе, созданном Эльханом, нет частной собственности, все принадлежит людям, которые трудятся сообща. Собирая плоды своего труда, они распределяют их поровну. Труд здесь обязателен и одинаков для всех. Каждый день поочередно один из членов общества возглавляет государственные дела. Представитель Византии, прибывший в эту страну, находит прославленного Эльхана, «на протяжении двадцати лет борющегося с арабскими войсками», за самым простым занятием – он рубит дрова во дворе.

Эльхан упорно стремится к осуществлению утопической идеи о новом жизнеустройстве. Выступая против всякой эксплуатации, против власти религии, против общественных порядков, обрекающих народ на материальное и духовное угнетение, он как бы реализует в этой утопии свой выстраданный социальный идеал.

Показывая Эльхана как народного героя-патриота, Джабарлы изображает исторические события и самого героя в реалистическом плане. Но в своем стремлении показать его как мыслителя и утописта-реформатора драматург явно отходит от реализма, создает отвлеченно-фантастический образ. Эльхан, бичующий и разоблачающий, ведущий непримиримую борьбу против господствующих феодальных отношений, стоит намного выше и выглядит намного реальнее и убедительнее Эльхана – реформатора-утописта.

Образ Эльхана получился противоречивым. Собирая сведения о Бабеке-Эльхане, Джабарлы недостаточно критически отнесся к источникам реакционных арабско-исламских историков. При изучении реформаторской программы Бабека автор уделял больше внимания на проблемы семьи и брака, нежели на социальные вопросы, и в разрешении семейно-бытовой проблемы изобразил Бабека анархистом. Придав учению, пропагандируемому Эльханом, уродливую форму свободы половых влечений, Джабарлы исказил социальную сущность этого учения. В этом, на наш взгляд, слабая сторона художественной характеристики Эльхана, не соответствующая общей высокой идее произведения. Интересен тот факт, что в одном из вариантов трагедии Эльхан выступает против собственного же учения и не соглашается допустить Солмаз в среду чужих мужчин.

Говоря о положительных идеалах Эльхана, мы должны отметить, что утопические иллюзии делают его исторически обреченной личностью. Эльхан – трагический герой. Между его прекрасными

мечтами и конкретными историческими условиями существуют непреодолимые противоречия. В силу этого Эльхан обречен на поражение, невзирая на все положительные личные качества, на свой легендарный героизм и стойкость.

В трагедии верно показаны народные истоки движения Эльхана, обусловленность его конкретными обстоятельствами жизни азербайджанского народа. Интересы народа Эльхан всегда ставит выше собственных побуждений. Любовь к Акшину и Солмаз не только не может поколебать его решение, но и напротив, заставляет с еще большей настойчивостью стремился к достижению поставленной цели. Порывая с Акшином, принявшим исламскую веру и ставшим изменником родного народа, тоскуя по Солмаз, Эльхан все больше отдается справедливой борьбе.

Образы Эльхана и окружающих его людей – Акшина, Солмаз, Горхмаз и Тогрула драматург рисует реалистически, наделяя их индивидуальными чертами. Поэтому главный герой не растворяется в массе, и, в свою очередь, масса не обезличивается. Однако не все положительные герои трагедии изображены одинаково сильно. Образ Солмаз, если исключить диалоги с Алтунаем, дан несколько схематично. То же можно сказать и о Горхмазе. Гораздо всесторонне изображен Эльхан. В ходе развития драматического конфликта писатель показывает Эльхана во взаимодействии с Алтунбаем, затем с Акшином и Солмаз. Эти сцены (особенно сцена встречи Эльхана с Акшином) в драматическом отношении наиболее живые и яркие. Вместе с тем они имеют большое композиционное значение, помогая раскрытию внутреннего мира действующих лиц. Именно в этих сценах определяются силы, против которых борется Эльхан, раскрывается политический облик его врагов. В то же время постепенно вырисовывается цельный характер Эльхана.

Неразрывная связь Эльхана с интересами народа в финале пьесы выражена в наиболее яркой и обобщенной форме. После поражения бабекидов раненый Эльхан, схваченный жестокими преследователями, остается один на один с врагами, которые требуют, чтобы он хотя бы перед смертью, принял ислам и произнес слова: «Нет бога, кроме бога». Но Эльхан по-прежнему непоколебим, в этой драматически сильной сцене он словно олицетворяет собою духовную мощь и величие целого народа: «И только я один тех слов не повторю. И только я один, стоя под знаменем великим братства и свободы, что воплощает солнца луч, биение сердца, мысли дерзновенье, громко возглашаю: Бога нет… Лишь я в последний час жизни, лицом к лицу со лживыми законами, обычаем, религией, несущими отраву, рабство и насилье… твержу: нет бога! Сам я — бог! Я — сам создатель жизни, счастья на земле — творец!» (*Джабарлы,* 2005: с.129). Эти слова, произнесенные перед виселицей, показывают, насколько глубока и неистребима вера в сердце Эльхана: «Сам я бог» выражает несокрушимую веру гуманизма. Донмез вполне справедливо называет его «великим другом человека» (Məmməd, 1961: с. 98).

Солмаз рисуется в пьесе героиней, судьба которой неразрывно связана с судьбой отечества, с освободительными идеалами Эльхана. Свои прогрессивные устремления Эльхан связывает с именем Солмаз. Для него «в каждом взгляде Солмаз улыбается солнце нового мира», «чудесное воплощение красоты», хотя для Алтунбая Солмаз – всего лишь обыкновенная красивая женщина.

Джабарлы неразрывно связал личные чувства и переживания своих героев с их социальными идеалами и стремлениями, исторически прогрессивными и для изображаемой эпохи.

Список литературы

1. Məmməd A. (1961).Творчество Дж. Джабарлы, – Баку: Изд-во Акад. наук АзССР. – 237 с.
2. Герайзаде Э.И. (2014). Курс лекций по азербайджанской литературе. Учебное пособие для сдутентов с русским языком обучения. II ч. – Баку: Мутарджим. – 368 с.
3. *Джабарлы Дж.* (2005). Произведения: в четырех томах. Т. I. – Баку: Шарг-Гарб. – 416 с.

UOT: 82-053.2

THE PLACE OF CHILDREN'S PUBLICITY IN OUR LITERATURE

Samangul Qafarova
PhD, Associate Professor
Baku Slavic University, Azerbaijan
Gulhusu01@gmail.com
Orcid id: 0000-0002-3548-8937

Abstract. Literature is a source of educational, moral, human feelings. Although the sphere of influence of literature is very wide, the materials of life are very rich. It is a literature that reflects the materials of life: realities, passivity, friendship, companionship, patriotism, moral purity.

Children's literature is a branch of fiction. Literature, which is a source of joy for millions of people, is a revolution in ideas and practices in the younger generation. Children's literature must grow up as a strong defender of our liberated lands and a mature person, whose children possess the most humane knowledge.

Keywords: children's literature and education, children's literature and moral purity, the power of children's literature, the characteristics of the ideas of children's literature.

ƏDƏBİYYATIMIZDA UŞAQ ƏDƏBİYYATININ YERİ

Qafarova Səməngül Hüsü qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti, Azərbaycan

Xülasə. Ədəbiyyat – tərbiyəvi, əxlaqi, insani hisslərin yaranmasının mənbəyidir. Ədəbiyyatın tərbiyəvi təsir dairəsi çox geniş olmaqla yanaşı, həyat materialları olduqca zəngindir. Həyat materiallarını: reallıqları, gerçəkliyi, dostluğu, yoldaşlığı, vətənpərvərliyi, əxlaqi saflığını əks etdirən ədəbiyyatdır.

Uşaq ədəbiyyatı, bədii ədəbiyyatın bir qoludur. Milyonlarla adam üçün sevinc mənbəyi olan ədəbiyyat gənc nəslin ideya və amalında bir inqilabdır. Uşaq ədəbiyyatı uşaqları ən humanist biliklərə yiyələnən, azad olmuş torpaqlarımızın güclü qoruyucusu və yetkin bir insan kimi yetişdirməlidir.

Açar sözlər: uşaq ədəbiyyatı və tərbiyə, uşaq ədəbiyyatı və mənəvi təmizlik, uşaq ədəbiyyatının təsir gücü, uşaq ədəbiyyatının ideya xüsusiyyətləri.

Bu gün cəmiyyətdə baş verən dəyişikliklər onun bir parçası olan insanları da yaxından maraqlandırır. Bu dəyişikliklər, dəyərlərə münasibətə də öz təsirini göstərir. İnsanlar tərəfindən unudulmuş dəyərlər sisteminin gənc nəslə təbliğ edilməsinin həm bu günümüz, həm də sabahımız üçün əhəmiyyəti böyükdür. Bu baxımdan gələcəyimiz olan uşaqların tərbiyə olunmasına xüsusi diqqət yetirilməsi vacibdir. Uşaq ədəbiyyatı nümunələri də uşağın öz mənliyini formalaşdırmaqda mühüm bir funksiyanı yerinə yetirir.

Ədəbiyyat – tərbiyəvi, əxlaqi, insani hisslərin yaranmasının mənbəyidir. Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir. Ədəbiyyatın tərbiyəvi təsir dairəsi çox geniş olmaqla yanaşı, həyat materiallarıda olduqca zəngindir. Həyat materiallarını: reallıqları, gerçəkliyi, vətənpərvərliyi, dostluğu, yoldaşlığı, ədəbi qəhrəmanların mənəvi zənginliyini, əxlaqi saflığını,duyumlarını əks etdirən ədəbiyyatdır. Bədii ədəbiyyatın tikinti materialı hesab edilən sözlərdir. Elə sözlərdən istifadə olunmalıdır ki, yeniyetmə və gənclərin qəlbi riqqətə gəlsin. Mirzə Şəfi sözü yüksək qiymətləndirir, onun gücünə, qüvvəsinə böyük inam bəsləyir. Hafizin şeirlərinə işarə ilə dediyi bu sözlər diqqəti cəlb edir: “Hafizin sözləri bizi inandırdı ki, Şirazdan gözəl diyar yoxdur. O, doğma şəhərini dostlarının gözündə söz vasitəsilə almaza çevirə bilmişdir.”

Bədii ədəbiyyat, milyonlarla adam üçün sevinc və ilham mənbəyi olmalı, onların iradəsini, duyğularını və fikirlərini ifadə etməli, onları ideyaca zənginləşdirən və əxlaqi cəhətdən tərbiyə edən vasitə olmalıdır.

Uşaq ədəbiyyatı, bədii ədəbiyyatın bir qoludur. Uşaq ədəbiyyatının başlıca vəzifəsi, gənc nəsldə sağlam, düzlük, doğruçuluq, əməksevərlik, yoldaşlıq kimi yüksək mənəvi hisslərin yaranmasına yardımçı olmaqdır. Bu ədəbiyyat gənc nəslin ideyasında, amalında, ruhunda bir inqilab etməlidir.

Uşaqlıq dövründə uşağın qarşılaşdığı bir çox hadisələr və gördüyü insanlar onun istər o dövrünə, istərsə də sonrakı həyatına özünün müsbət və mənfi təsirini göstərir. Bu baxımdan yazıçılar öz əsərlərində hansısa qəhrəmanı təsvir edərkən onların davranış və psixoloji xüsusiyyətlərini, uşaqlıq dövründə qazandıqları təcrübələri ilə açıb göstərməyə çalışırlar. Əvvəllər uşaqlardan bəhs edən əsərlər olmadığından və ya çox az təsadüf edildiyindən onlara böyüklər üçün yazılan əsərlərin oxunduğu və oxudulduğu bir həqiqətdir. Uşaqlıq dövrünün xüsusiy-yətlərini düşündükdə, böyüklər üçün yazılmış ədəbi əsərlərin uşaqların daxili aləminə nüfuz edə bilməyəcəyi anlaşılır. Uşaqlar böyüklərdən bəhs edən əsərləri yaş xüsusiyyətləri baxımından qavraya bilmir, onların tərbiyəvi təsir gücündən faydalanmaqda çətinlik çəkirlər. Çünki uşaqların, uşaqlıq dövrünə aid özünəməxsus hiss və duyğuları vardır. Onların duyğularına, xəyal və düşüncələrinə təsir edən şifahi və yazılı əsərlərin rolu böyükdür. Bir şeyin gerçəkləşməsi üçün mütləq ona ehtiyac duyulmalıdır. Uşaqlar da səviyyələrinə uyğun olaraq şifahi və yazılı əsərlər vasitəsilə öz ehtiyaclarını ödəməyə çalışmışlar. Beləcə uşaq psixologiyası ilə bağlı məsələlər və maarifçi yazıçıların əsərləri uşaq ədəbiyyatı anlayışını meydana çıxardı və ədəbiyyatçıların da diqqətini oraya yönəltdi.Keçmişdən bu yana önəmli olan uşaqların təlim məsələsi və bu istiqamətdə aparılan işlər başqa sahələri də təsiri altına almışdır. Bunun da nəticəsi olaraq uşaqların təliminə böyük təsiri olan- uşaq ədəbiyyatı anlayışı yaranmış və uşaq ədəbiyyatına aid yazılan əsərlərdə hər gün ,yenidən kəşf edilməyə doğru yönəlməyə başlamışdır.

Uşaq ədəbiyyatı, uşaqları zəngin mənəvi və estetik zövqə malik, zəmanəsinin ən humanist biliklərinə yiyələnən yetkin bir insan kimi tərbiyə etməlidir. Bu insan öz xalqının, torpağının zəngin tarixi keçmişinə, ədəbiyyatına bələd olmalıdır. Bu günün nəhəng, məsuliyyətli, hər saniyəsi bir tarix olan zamanı ilə qoşa addımlamalı, gələcəyin böyük quruculuq işlərində yaxından iştirak etməlidir. Torpaqlarımızın geri qaytarılması yolunda aparılan mübarizədə cəsarətlə iştirak etməkdə ilham verən bir mənbə olmalıdır.Hansi ki,bu gun onu etdilər.

Uşaq ədəbiyyatı bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir. Rus ədibi Qorki qeyd edirdi ki, uşaqlara yaşadıqları dövrün həqiqətini söyləmək, digər tərəfdən keçmişin dəhşətli rəzalətlərini satirik boyalarla açıb göstərmək lazımdır. Bütün bu göstərdiklərimiz Azərbaycan uşaq ədəbiyyatının ədəbi və pedaqoji prinsiplərinin əsasını təşkil edir. Azərbaycan uşaq ədəbiyyatının inkişafı və təşəkkülü, qədim tarixi ənənələrə, keçmişə, tarixə bağlıdır (Антология русской литературы, 2008: s.16).

Uşaq ədəbiyyatında əxlaq tərbiyəsini araşdırmazdan və bu əsərlərin uşaqların gələcəkləri baxımından təsirini göstərməzdən əvvəl uşaqlar üçün yazılan ədəbi əsərlərin mahiyyətini açmağa ehtiyac vardır.

Bir çox yazıçı və tədqiqatçılar tərəfindən tərifi verilmiş "ədəbiyyat" anlayışı "Düşüncə, duyğu, hadisə və proseslərin dil vasitəsilə təsvir olunması sənəti" kimi təqdim olunmaqdadır.

Fərhad Fərhadov, Aydın Hacıyev ədəbiyyatı, gənc oxuculara həyatı dərindən anlamaqda kömək edən, dünyagörüşlərini zənginləşdirən, ədəbi zövqlərini inkişafetdirən vasitə olduğunu qeyd edirlər. Kavcar Cahit "insanın özünü, ətrafını, cəmiyyəti tanıması, daha yaxşı baxımdan dəyərləndirməsi və duyması üçün ədəbiyyat təliminin vacib olmasını" (Namazov, 2007: s.3) göstərmişdi.

Ədəbiyyat- həyatdakı hadisələri, duyğu və düşüncələri ədəbi formada təsvir edəbilmə və araşdırma sənətidir. Cəmiyyət və insanların bir çox istək və arzularının olması təbiidir. Həmin bu arzu və işləkləri insani dəyərlər çərçivəsində həyata keçirmək üçün müxtəlif vasitələrdən istifadə olunur, ədəbiyyat da bu vasitələrdən biridir. Ədəbiyyat, gündəlik həyatımızda baş verənləri əks etdirən hisslərimizə təsir edən, düşündürən, anlayıb ifadə edə bilmədiklərimizi dilə gətirən bir sahədir.

İndi isə "uşaq ədəbiyyatı" ifadəsinin mənasını yaxşı anlamaq üçün "uşaq" anlayışına nəzər salaq. Lüğətlərdə və xüsusən də psixologiya kitablarında "uşağ"ın izahına geniş yer verilmişdir.

"Uşağ"ı bu şəkildə izah etmək olar: "Uşaqlıq çağı ilə yeniyetməlik arasında inkişaf edən insan", yaxud uşaq deyərkən, əsasən dünyaya yenicə göz açan körpədən tutmuş, 16-17 yaşa qədər olan insan övladı nəzərdə tutulur (Məmmədov, 1977). Yəni duyğuların, düşüncələrin, xəyalların və zövqlərin böyüklərdəki kimi olmadığı, fərqli yaşandığı bir mərhələdir.

Ümumiyyətlə, insan həyatında 0-17 yaş arası uşaqlıq dövrü olaraq qəbul edilib. Uşaqlıq dövrü özü də bir sıra yaş qruplarına ayrılır. Hər bir yaş qrupunun özünə görə xüsusiyyətləri vardır. Təlim sahəsində insanın uşaqlıq dövrü üç qrupa bölünür:

a) İlk uşaqlıq çağı (oyun çağı):2-6 yaşlar
b) İkinci uşaqlıq çağı (məktəb şağı):6-10 və ya 6-12 yaşlar
c) Son uşaqlıq çağı (yeniyetməlik çağı): 10-13 və ya 12-14 yaşlar

Bütövlükdə insan ömrünün 2-14 yaşları arasında keçən inkişaf mərhələsinə uşaqlıq çağı" deyilir.

Qara Namazova görə uşaqlar yaş xüsusiyyətlərinə görə 4 qrupa bölünə bilər:

Bağça yaşlı uşaqlar (3-7 yaş qrupu)
Kiçik yaşlı məktəblilər (7-11 yaqş qrupu)
Orta yaşlı uşaqlar (11-15 yaş qrupu)
Böyük yaşlı məktəblilər (15-17 yaş qrupu).

Uşaq ədəbiyyatında uşağın duyğuları, inkişafı, danışığı diqqətə alinmahdır. Hamiya məlumdur ki, uşaqlar dövr keçdikcə, nəsillər bir-birini əvəz etdikcə dəyişir (Yusifoğlu, 2006: s.4). Əgər 2 yaşlı uşaqla 16 yaşlı uşaq arasında yaş fərqi mövcuddursa və dünyaya münasibətləri baxımından aralarında fərq varsa o zaman bu fərq onlar üçün yaranan ədəbiyyatda da öz əksini tapmalıdır. Uşaqlar üçün əsərlər yazan bütün yazıçılar bu yaş mərhələlərini nəzərə alırlar.

Cəmiyyətin sosioloji cəhətdən təbəqələrə bölünməsi baxımından insan ömrünü çağalıq, uşaqlıq, ilk gənclik, orta yaş və yaşlılıq kimi mərhələlərə ayırırlar. Bu mərhələlərin psixoloji xüsusiyyətləri uşaqlar üçün ayrıca ədəbiyyatın olmasının vacibliyi məsələsini ortaya çaxarmışdır. "Uşaq ədəbiyyatı" məfhumu, zaman keçdikcə ədəbiyyatçıların təsiri ilə yeni mənalar qazanmağa başladı. Qara Namazov uşaq ədəbiyyatına belə tərif verir:

"Uşaq ədəbiyyatı ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir" (Namazov, 2007: s.4).

Uşaqlıq dövründə yaşanan xəyallar, duyğu və düşüncələr şifahi və yazılı ədəbiyyatın bütün formalarında əks oluna bilir.

Hər zaman olduğu kimi,bu gündə məqsədimiz uşaq ədəbiyyatının ibtidai məktəb siniflərində istifadəsi, oxuma, yazma mövzusunun təməl daşını meydana gətirməkdir. Uşaq ədəbiyyatının uşaqların oxuma, yazma təhsilinə faydalı təsirləri, bir çox tədqiqatçı, pedaqoq və alimlər tərəfindən qəbul edilmişdir. Tədqiqata görə uşaqlar eşitdikləri dili öyrənirlər: Nə qədər çox dili inkişaf etdirəcək mühit olsa, uşaqlar da o qədər çox dil təhsilindən yararlanırlar.

Səməd Vurğuna görə, uşaq ədəbiyyatı müstəqildir. O, hərəkətli bir ulduz kimi daima axaraq oynayır. Hər zaman hərəkətdə olmaq uşaqların bir başqa xüsusiyyətlərindəndir. Duyğulu və romantik olmaq bu xüsusiyyətlərin mənbələrindəndir.

Uşaq ədəbiyyatında nədən yazmağın lazım olması məsələsi bu ədəbiyyatın əsas cəhəti olaraq qəbul edilmir. Çünki uşaq ədəbiyyatında həyatın bütün sahələri əks olunmalıdır. Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Yerin altında, üstünü də bilən müasir uşaq, həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaqların maraqlarını səngitmək, onu lazımi məcraya yönəltmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Hamıya məlumdur ki, insan dünya, kainat, təbiət, cəmiyyət və s. haqqında gərəkli informasiyaların əksəriyyətini körpə vaxtlarından hafizəsinə həkk edir. Elə buna görə də, uşağın gələcək

dünyagörüşünün formalaşmasında, onun layiqli vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatını əvəz edə biləcək ikinci bir vasitə yoxdur.Uşaq əsərləri insan sevgisini təbliğ edir, fərdi və zehni baxımdan təsir edir, incə insani bir ruh yaradır, balaca uşaqlara cəmiyyətdə və dünyada baş verən hadisələr haqqında daha geniş məlumat verir (Bəktaşi, 1965: s.11).

Bəli, uşaq ədəbiyyatı nəinki özündən hündür gülə, günəşə, aya, gələcəyə boylanan bəşər övladının ədəbiyyatıdır. Azərbaycan sovet ensiklopediyasında qeyd olunmuşdur ki: "Bədii ədəbiyyatın üzvi tərkib hissəsi olan uşaq ədəbiyyatında xalqların və uşaqların həyatına dair, onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, beynəlmiləlçilik, insanpərvərlik və humanizm tərbiyə edilir. Uşaq ədəbiyyatı əsərləri xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı süjet və kompozisiyası, anlaşıqlı, sadə və aydın bədii ifadə vasitələri, səlis dili ilə seçilir. Uşaq ədəbiyyatı folklor qaynaqlarından bəhrələnir".

Uşaq ədəbiyyatı nümunələrinin uşağın psixi və zehni inkişafına nə qədər böyük kömək göstərdiyi inkar edilə bilməz. İnsan həyatının ən mühüm mərhələsini maraqlandıran uşaqlarla bağlı olaraq yazılmış və ya yazılacaq ədəbi mətnlərin, təlim öyrətmə qurumlarında istifadə edilməsi və bir dərs müddətində ələ alınması mümkün deyil. Uşaq ədəbiyyatı əsərlərinin başlıca xüsusiyyətlərindən biri də onun öyrədici olması, uşaqların əsərlərdə özlərinə aid bir şeylər tapmaları ilə əlaqədardır. Uşaq yazıçısı təsvir etdiyi uşaqların yaşları, cinsiyyətləri, münasibətləri haqqında zəngin təfəkkürə malik olmalı və əsərində bunu dolğun şəkildə ifadə etməyi bacarmalıdır.

Bəzən uşaq ədəbiyyatı ədəbi yaradıcılığın əsas sahəsi kimi başa düşülmür. Bu yanlış təsəvvür və "adi həyat hadisələrindən sadə və aydın bir dildə danışmaqla uşaq əsəri yaratmaq mümkündür"-fıkirlərinə qarşı çıxaraq V.Q.Belinski yazırdı:"Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: nəcib, sevən,diqqətli, sakit, körpəcə sadədil bir qəlb, yüksək məlumatlı bir idrak, predmetlərə aydın bir baxış, yalnız canlı bir təsəvvür deyil, həm də canlı, şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır.Aydındır ki, uşaqlara qarşı məhəbbət, uşaq yaşının tələb, xüsusiyyət və təfərrüatını dərindən bilmək də mühüm şərtlərdəndir" (Belinski, 1948: s.12).

Uşaq ədəbiyyatı yazarı əsərində valideynlərinin yanında bütün problemlərdən uzaq olan, nəyin pis, yaxşı, nəyin düz və ya əyri olduğunu tam mənası ilə qavramayan bir varlığa səslənir. Məhz, bu baxımdan yazıçı əsəri yazarkən uşağa həyatın müəyyən sirrlərini və həqiqətlərini öyrətməyi qarşısına məqsəd qoyur. Bu həm də onun tərbiyəedici tərəfi ilə bağlıdır. Uşaq ədəbiyyatı gələcəyin yeniyetmələrinin şəxsiyyət kimi formalaşmasında gərəkli olan mədəni düşüncənin, dəyərlərin öyrənilməsi, cəmiyyət üçün gözəl olan davranış qaydalarının mənimsənilməsinə kömək etdiyinə görə, öncə bu xüsusiyyətlərin nəzərə alınması və uşaq ədəbiyyatı əsərlərində olması diqqət mərkəzində saxlanılmalıdır. Bütün bunları ərsəyə gətirmək və uşaqlara göstərmək üçün onların dünyasını yaxşı araşdırmaq, öyrənmək, bir çox istiqamətdən təhlil etmək və ya onların səviyyələrinə uyğun əsərlər ortaya çıxarmaq lazımdır.

Görkəmli şair S.Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsində yazır: "Düşünmək, duymaq, sevmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək kimi bütün insana aid olan xüsusiyyətlər uşaqlıq aləmində mövcuddur. Biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaqlar üçün yazdığımız zaman, insan üçün yazdığımızı unutmamalıyıq. Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır". O yazırdı: "Uşaq insandır! Onun sadə, hərəkətli, hər zaman xoşbəxt və azad təbiətində böyük insanların bütün əlamətləri vardır" (Vurğun, 1972: s.311). Səməd Vurğun digər yazıçılara hər zaman uşaqlar üçün yazmağın nə qədər məsuliyyətli və çətin bir iş olduğunu, uşaq həyatını tərənnüm etmənin önəmli olduğunu söyləyirdi.

İstifadə olunmuş ədəbiyyat

1. Bəktaşi S. (1965). XX əsr uşaq mətbuatında ədəbiyyat. – Bakı.

2. Belinski. (1948). Seçilmiş məqalələr. – Bakı.
3. Məmmədov Ə. (1977). Azərbaycan uşaq ədəbiyyatı. – Bakı.
4. Namazov Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. – Bakı.
5. Xəlil Z. (1987). Azərbaycan uşaq ədəbiyyatı (rus dilində). – Moskva.
6. Yusifoğlu R. (2006). Uşaq ədəbiyyatı. – Bakı.
7. Vurğun S. (1972). Əsərləri. V cild. – Bakı.
8. Политковская Л. (2009). Антология русской детской литературы: в 6-ти томах. Т.6. – М.: ООО «Мир энциклопедий».
9. Антология русской литературы: в 6-ти томах. (2008). Т.3. – М.: ООО «Мир энциклопедий»,
10. Мометов С. (1974). Счастливый труд. – Москва.

UOT: 821.161.1
82-1.512.162.

CLASSICS OF AZERBAIJANI LITERATURE IN THE WORKS OF N.TIKHONOV

Aysel Bagirova
PhD, Associate Professor
Baku State University, Azerbaijan
aysel_bagirova@hotmail.com
Orcid id: 0000-0002-0938-7059

Summary: The article analyzes the eastern theme in the work of Nikolai Tikhonov. This topic has attracted the poet from childhood. Azerbaijan occupies a special place in his work. The life and work of N.Tikhonov are closely connected with this region. In his numerous works, he glorified Baku, the rich and generous nature of Azerbaijan, its forests and mountains. He wrote about Azerbaijani literature and culture, about the works of Nizami and Nasimi. And, of course, about Samed Vurgun, whose personality and work, like the personality and work of Nizami, occupy significant place in the work of N.Tikhonov. The truly popular poets of Azerbaijan – Nizami, Nasimi and Samed Vurgun were constantly in the center of his attention as a poet and literary critic. Nikolay Tikhonov devotes articles, poems to them, takes an active part in the anniversaries of the birth of poets.

Tikhonov wrote about the great Azerbaijani poets Nizami and Nasimi in connection with their anniversaries, and the poet spoke of Samed Vurgun as a classic of Soviet poetry, about a friend and a person and more than once dedicated poems to him.

Key words: East, Nizami, Nasimi, Samed Vurgun, creation, poetry, anniversary

КЛАССИКИ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ В ТВОРЧЕСТВЕ Н.ТИХОНОВА

Багирова Айсель Низами гызы
доктор философии по филологическим наукам, доцент
Бакинский государственный университет, Азербайджан

Аннотация: В статье анализируется восточная тематика в творчестве Николая Тихонова. Эта тема привлекала поэта с детских лет. Особое место в его творчестве занимает Азербайджан. Жизнь и творчество Н.Тихонова теснейшим образом связаны с этим краем. В своих многочисленных произведениях он воспевал Баку, богатую и щедрую природу Азербайджана, его леса и горы. Он писал об азербайджанской литературе и культуре, о творчестве Низами и Насими. И конечно же, о Самеде Вургуне, личность и творчество которого, как и личность и творчество Низами, занимают значительное место в творчестве Н.Тихонова. Истинно народные поэты Азербайджана – Низами, Насими и Самед Вургун постоянно находились в центре его внимания как поэта и литературного критика. Николай Тихонов посвящает им статьи, стихотворения, принимает активное участие на юбилеях со дня рождения поэтов.

О великих азербайджанских поэтах Низами и Насими Тихонов писал в связи с проведением их юбилеев, а о Самед Вургуне, поэт отзывался как о классике советской поэзии, о друге и человеке и не раз посвящал ему стихотворения.

Ключевые слова: Восток, Низами, Насими, Самед Вургун, творчество, поэзия, юбилей

«У меня была склонность к темам советского Востока, склонность очень сильная, серьезная, род настоящей «высокой болезни». Точнее… было бы сказать – к теме Востока» (Тихонов, 1974: с.262) - писал Н.Тихонов. Восток привлек Н.Тихонова еще в детские годы, когда ему было двенадцать или тринадцать лет. Восточной темой он занимался и в последующие годы своей жизни и творчества. «С 1922 года я присоединил к этой теме и тему Кавказа» (Тихонов, 1955: с.9) - говорил писатель.

Особое место в творчестве Н.Тихонова занимает Азербайджан, который стал второй родиной поэта. Народные поэты Азербайджана постоянно находились в центре его внимания. Также Н.Тихонов был удостоен почетного звания народного поэта Азербайджана.

Н.Тихонов является автором двух статей «Люди света» и «Низами и Навои», а также его перу принадлежит рассказ «Низами», посвященный великому азербайджанскому поэту. В этих произведениях писатель высоко оценивает личность и творчество Низами.

Рассказ «Низами» написан в 1942-1943 годы и входит в цикл «Ленинградские рассказы». В нем воспроизведена атмосфера социально-политической жизни Азербайджана в эпоху Низами. Н.Тихонов рисует картину скромной жизни и быта этого великого поэта. «**В**еликого азербайджанского поэта звали Низами. Полное его имя звучало пышно и торжественно: Шейх Низами оддин Абу Мохаммед Ильяс иби Юсуф Гянджеви, — но он был скромный и простей человек» (Тихонов, 1955: с.348) - такими строками Н.Тихонов начинает свой рассказ.

Далее автор противопоставляет скромной жизни Низами, богатую и роскошную жизнь царей и султанов: «Кровавые цари истребляли тогда целые страны. Но поэта нельзя было купить или развратить роскошью дворцов. Он сидел на рваном войлоке вместо ковра, и вместо сокровищ перед ним были книга и чернила, рядом лежал его дорожный посох. Ковры истлели в султанских покоях, дворцы стали развалинами, сокровища исчезли по разным странам, а миру остались стихи — бессмертные сокровища человеческого гения. Так Низами победил султанов и богачей, победил время» (Тихонов, 1955: с.348).

Слова, которыми заканчивается рассказ, содержат высокую оценку творчества гениального поэта Низами и его современное значение. Также в них можно найти созвучие его бессмертных гуманистических идей борьбы за мир и свободу народов мира. «Я понял в это мгновенье, в этой сумрачной комнатке, что мы все во власти великой любви, для которой нам не жаль и самой жизни. Это напомнил нам сегодня наш далекий гость — старый Низами. Он пришел в наш город в гуле сражения, и мы встретили его как друга, союзника и соратника в нашей битве. И мы выпили за его здоровье, как пьют за умерших на Востоке. Мы выпили за него те сто граммов водки, что были добыты Королевым неизвестно откуда. Мы выпили за Низами и за бессмертные глаза Меджнуна» - пишет Н.Тихонов (Тихонов, 1955: с. 352).

Этот рассказ непосредственно примыкает к статье «Люди света» написанной в 1964 году Н.Тихоновым в пору блокады Ленинграда, значительно дополняя ее и уточняя некоторые факты. В этой статье автор рассказал о том, как по инициативе директора Эрмитажа И.Орбели и с активным участием самого Н.Тихонова, осенью 1941 года было отмечено 800-летие со дня рождения Низами.

«Это случилось, - пишет Н.Тихонов, - в тяжелые дни усиленной бомбежки глубокой осенью 1941 года». (Тихонов, 1977: с.276) И.Орбели встретил Н.Тихонова в коридоре бомбоубежища и спросил: «Вы конечно, не забыли, что приближается назначенный на эти дни юбилей великого азербайджанского поэта Низами?». На сомнения и колебание Тихонова: «В

таких условиях юбилей будет выглядеть не очень торжественно», его собеседник отвечает: «Юбилей должен быть в Ленинграде. Вы подумайте – вся страна будет отмечать юбилей Низами, а Ленинград не сможет. Что это такое? Этого не может быть! Чтобы фашисты сказали, что они сорвали нам юбилей. Мы должны сделать его во что бы то ни стало!» (Тихонов, 1977: с.277).

Для того, чтобы провести юбилей в блокадном Ленинграде, надо было получить разрешение политуправления. Этим занялись Тихонов и Орбели. Работник политуправления предупредил их о возможных трагических последствиях, на что они ответили: «Поймите, что юбилей Низами должен состояться в Ленинграде. Позор нам всем, что в Москве, в Баку, во всем Советском Союзе будет он отмечен, мы не отметим. Скажут, что мы так растеряны, так напуганы бомбежкой, что забыли о своем долге» (Тихонов, 1977: с.278)

Из этих слов можно сделать вывод, что проведение юбилея Низами в блокадном Ленинграде, Н.Тихонов и И.Орбели считали своим гражданским долгом. Благодаря своей настойчивости им удалось получить согласие политуправления. Они составили план проведения юбилея и график работы юбилейного собрания в часы перерыва между налетами фашистских самолетов.

Юбилейное собрание своим вступительным словом открыл Н.Тихонов, за ним выступил директор Эрмитажа.

Далее пишет Н.Тихонов: «Затем ученые-докладчики, в шинелях, в противогазах, пришедшие в Эрмитаж из окопов, читали доклады про жизнь и деяния Низами. Звучали стихи, написанные восемьсот лет назад» (Тихонов, 1977: с.279)

Позднее было выяснено, что «ни в Москве, ни в Баку, нигде в Советском Союзе, никто в этот назначенный срок, никакого юбилея не проводил. Он отложен. И только Ленинград отметил торжественным собранием», ответ Орбели был таков: «… это прекрасно! Прекрасно, что в осажденном Ленинграде мы провели юбилей Низами. Можно было нигде не проводить, но в Ленинграде мы были обязаны провести, чтобы по всему Советскому Союзу теперь узнали, что в Ленинграде жив могучий дух торжествующего творчества, победоносного гуманизма». (Тихонов, 1977: с.275)

Проведенный в блокадном Ленинграде юбилей Низами воспринимался, как духовное единение народов и культур и приобрел огромное значение. Можно считать, что Низами вместе с героями-защитниками Ленинграда, одержал победу над немецким фашизмом.

В следующей своей статье «Низами и Навои», Н.Тихонов продолжает и развивает основной лейтмотив своего рассказа «Низами». Эта статья написана в 1947 году после торжественного юбилея 800-летия со дня рождения Низами в Баку, участником которого был и Н.Тихонов. Автор пишет, что «его стихи сегодня стали достоянием народа и перешагнули все границы родного края». (Тихонов, Т.2, 1955: с.352) Также он говорит о «немеркнущей славе» Низами и ставит его имя рядом с именами гениев мировой поэзии – Пушкина, Лермонтова, Некрасова, Шота Руставели, Данте, Шекспира, Байрона, Гете и др.

Следует отметить, что Низами хронологически, во времени опережает все эти перечисленные поэтические имена, что он стоит у самых истоков мировой поэзии и претворяет их появление на поэтическом поприще. Поэтому, Низами должен быть удостоен высокого почетного звания «учителя» мировых поэтических гениев, учителя учителей.

При сравнительном исследовании творчества Низами и Навои отмечает, что в тот период персидский язык на Востоке достиг того же статуса, который был у латыни в Европе (Тихонов, 1974: с.400).

Также Н.Тихонов не согласен с бытовавшим в то время мнением, будто бы Низами является персидским поэтом. Автор старается доказать, то что поэт «родившийся в Гяндже, на народной почве развивший свой талант, питавшийся истоками народных сказаний, передавший характер народных героев, Низами не может быть оторван ни от породившей его

земли, ни от глубокой связи с азербайджанским народом и литературой». (Тихонов, 1974: с. 400)

Автор пишет, что Низами предпочел свободу личности и поэта, он отверг жизнь при дворе. Н.Тихонов цитирует:

…в битве – победнее стяга оно,
И лучший боец, чем бумага, оно.
…Глашатаю слова открыты пути,
Где слову есть доступ, ноге не пройти.
…Без сердца ты в нем не поймешь ничего,
Объяснение его – многословней его.
Доколь оно есть, ему честь меж людьми,
Да быть ему свежим в устах Низами,
(Тихонов, 1974: с. 401)

Кратко характеризуя его поэмы, Н.Тихонов называет Низами «знаменитым поэтом и философом», который верил в силу народа и в его высокое историческое назначение. По словам Тихонова, Низами является «патриотом и гуманистом, поэтом большого дыхания, и его творчество было великолепным вкладом азербайджанского народа в сокровищницу мировой культуры». (Тихонов, 1974: с.405-406)

Следующим классиком азербайджанской литературы, кому Н.Тихонов посвятил свою статью являлся Насими. Статья «Великий поэт – гуманист» была написана в 1973 году, в связи с 600-летним юбилеем со дня рождения великого азербайджанского классика. Н.Тихонов рассматривает феномен творчества Насими в более широком масштабе, мировом плане: «Творчество Имадеддина Насими – большое событие в культурной жизни народов Востока и Запада. Сегодня, как никогда, благодарная память потомков возвращается к именам своих великих мастеров, составляющих гордость родной поэзии, чье благотворное влияние вышло за пределы родины, а имя вошло в пантеон бессмертных имен, став предметом изучения и почитания многих народов». (Имадеддин Насими (библиография), 1973, с. 31)

Также Н.Тихонов отмечает заслуги Насими в деле развития поэзии на родном азербайджанском языке. «Насими писал стихи на фарси и даже на арабском языке, но свою поэзию он возвысил и прославил, как крупнейший и талантливый создатель прекрасных произведений на азербайджанском языке» (Имадеддин Насими (библиография), 1973, с. 31)

Далее он повествует о трагической судьбе Насими, о том, как много трудностей и испытаний выпало на долю поэта и как трагически закончилась его жизнь. В тоже время Тихонов пишет о том, что произведения поэта получили свое распространение и после его смерти и «на Востоке его имя жило в соседстве с именами великих классиков, его стихи изучались учеными-исследователями. Но и на Западе, в главных городах Европы, его рукописи хранятся в национальных библиотеках, о жизни поэта и его произведениях писали выдающиеся ученые». (Имадеддин Насими (библиография), 1973, с. 31-32)

Н.Тихонов отмечает, что творчество Насими стало примером подражания не только для азербайджанских, но и для туркменских, узбекских и других поэтов. Автор пишет, что именно любовная лирика привлекала особое внимание, потому что в ней поэт «провозглашал свободу человеческого духа».

«Празднование юбилея Насими в нашей стране – пишет Н Тихонов, привлекает к его творчеству всеобщее внимание поэтов, ученых-исследователей. Воспроизведя картину века, в котором жил и творил великий поэт, они приближают его наследие к современному читателю, что бы тот смог почувствовать всю силу и прелесть поэзии Насими». (Имадеддин Насими (библиография), 1973, с.32). Также автор вспоминает о юбилеях Низами и Навои, которые

были отмечены им широко и торжественно и не сомневается, что проведенный юбилей Насими, станет прекрасным всенародным праздником поэзии и дружбы.

«Юбилей великого Насими должен быть отпразднован достойно!» (Имадеддин Насими (библиография), 1973, с.33) - такими строками заканчивает свою статью Н.Тихонов.

В 1956 году в «Литературной газете» выходит статья Н.Тихонова о Самеде Вургуне, которая носит название «Народный поэт», написанная в связи с пятидесятилетием поэта. Н.Тихонов писал о нем, как об истинно народном поэте Азербайджана, классике советской поэзии, о друге и человеке.

В контексте многовековой азербайджанской поэтической традиции Н.Тихонов рисует яркий, самобытный, творческий портрет Самед Вургуна: «В Азербайджане, стране поэтов, - пишет Тихонов, - где народ чтит такие имена, как Низами, Хагани, Вагиф, не так легко завладеть сердцами и получить высокое призвание народного поэта». Секрет такого поэтического новаторства и величия Н.Тихонов видит в том, что «Самед Вургун – певец народа, сам вышедший из его рядов, сам деливший с ним все его беды и его трудный революционный путь». (Тихонов, 1956: с.2)

Очень необычно и колоритно Н.Тихонов изобразил портрет С.Вургуна во время охоты: «Самед Вургун неожиданно появлялся, раздвинув кусты, как дикий охотник далеких дней, не знавших никакого технического прогресса. Он смеялся гортанным смехом, кричал хриплым голосом, высоко поднимая ворох горевших на солнце птиц…» (Тихонов, 1956: с.2)

«У Самеда Вургуна много друзей и в нашей стране, и за рубежом – пишет Н.Тихонов. Он создан великой дружбой, соединяющей народы и поэзии. Он борец за мир, за мирное будущее человечества. Он всегда слышит прибой стиха, как прибой Каспийского моря. Этот стиховой прибой ударяет в виски, молодит сердце, просветляет ум» (Тихонов, 1956: с.2)

Н.Тихонов является автором очерка «Пути-дороги», в котором мастерски описывается богатая красками волшебная природа Азербайджана, и на этом величественном фоне возвышается живой образ С.Вургуна, воспевающий эту природу.

Автор рисует образ Самеда Вургуна во время поездки по районам. Описываются, как проступает многогранный портрет С.Вургуна в разных жизненных ситуациях. Это – поэт-гражданин, теоретик литературы, друг сельских тружеников, простой и задушевный человек, влюбленный в родную природу, страстный охотник, мудрый собеседник, и все это в не рабочем кабинете, а на природе, свободной и непринужденной обстановке.

В 1975 году в рамках Дней литературы в Баку состоялось торжественное открытие Дома-музея Самеда Вургуна, на котором присутствовал Н.Тихонов. Он приветствовал открытие Дома-музея и назвал его большим событием для всей русской поэзии.

Следующая статья Н.Тихонова, посвященная Самед Вургуну, «Голосом сильным и честным, смелым и ясным», написана в связи с семидесятилетием поэта. Здесь Н.Тихонов называет поэта «классиком азербайджанской советской литературы», «одним из выдающихся основоположников поэтической школы», «превосходным мастером» драматического жанра, «человеком большой души, открытого сердца, и мужественным». Также автор утверждает, что «стихи и поэмы С.Вургуна полны живого ощущения действительности, человеческого тепла, искренности, веры в победу нашего дела».

В связи с пятидесятилетним юбилеем С.Вургуна в 1956 году, Н.Тихонов посвятил поэту стихотворение:

Певец отваги боевой,
Твой, стих, как
«птица урагана»,
Звучал над бурей огневой!
И в мирных днях
Азербайджана.

Далее он еще не раз посвящал стихи азербайджанскому поэту. В книге стихов Н.Тихонова «Азербайджанская тетрадь», есть стихотворение «Я вспомнил Самеда Вургуна». Это стихотворение состоит из двух частей. В первой части Н.Тихонов вспоминает живого Самеда Вургуна, встречи с ним, совместную охоту в лесах и в горах Азербайджана в 1947 году.

Я вспомнил Самеда Вургуна
В тени Ашагинских лесов,
Рассвет разноцветный и юный.
Охотничьих гул голосов.

Самед появлялся нежданно,
Ломая кусты предо мной,
Похожий на горного Пана,
Что радости полон земной…

Во второй части описывается новая встреча с поэтом, но уже с возвышающимся в центре Баку памятником ему:

Стоял он на площади пышной,
Живущего пламенный друг,
И с ним говорили неслышно
Деревья, что стали вокруг.

***

Сладостно было Самеду
В высоком величье своем
Вести с земляками беседу
О мире большом и родном!

Н.Тихонов высоко оценивал творчество и личность Самеда Вургуна. Их дружба и взаимная симпатия исходили их общности их поэтического творческого метода. Н.Тихонов как и другие русские поэты, учились художественному мастерству и тайнам романтической поэзии у С.Вургуна. Как отмечает русский исследователь Е.Книпович: «Н.Тихонов один из первых ввел в литературу героев нового Востока», и «снял традиционное противопоставление Запада и Востока».

Список использованной литературы

1. Асадуллаев С. (2004) На рубеже веков и тысячелетий. – Баку: Нурлан. – 632 с.
2. Имадеддин Насими (библиография). (1973). – Баку: Мин.Культуры Азерб. ССР. – 42 с.
3. «Литературная газета». (1956). 12 мая
4. Тихонов Н. (1955). Избранные произведения: в 2-х томах. – Москва: ГИХЛ.
5. Тихонов Н. (1974) Писатель и эпоха. – Москва: Советский писатель. – 643 с.
6. Тихонов Н. (1977) Сила России. Военная публицистика. – Москва: Воениздат. – 350 с.

UOT: 82.(091).

İLYAS ƏFƏNDİYEVİN DRAMATURJİ İRSİ

Yunusova Günel Kamil qızı
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Mingəçevir Dövlət Universiteti, Azərbaycan
yunusova_edu@mail.ru
Orcid id: 0000-0002-2375-2829

Xülasə: Məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan İlyas Əfəndiyev yaradıcılığından bəhs olunur. Burada sənətkarın yaradıcılığının əsas mövzularından sayılan millilik, müasirlik və vətənpərvərliyin tərənnümü məsələlərinə toxunulmuşdur. O, müasir Azərbaycan ədəbiyyatının yeniləşməsində böyük rol oynamışdır. İlyas Əfəndiyev əsərlərində elə bir məsələlərə toxunur ki, nəinki öz dövrü üçün, həm də bu gün üçün əhəmiyyətli və aktualdır. Daha çox yeniliyi sevən, daima yeni problemlər, yeni fikirlər yaradan yazıçını məhz bu xüsusiyyəti xalqın sevimlisinə çevirib. Müəllif insanların mənəvi keyfiyyətlərini, əmək təşəbbüskarlığını, məhəbbət duyğu-qayğılarını bir sıra nümunələrdə elə bədii reallıqla qələmə aldı ki, bu əsərlər məzmun, forma və ifadə sadəliyi ilə seçildi. İlyas Əfəndiyevin uşaq həyatına, zövqünə, marağına, pisxologiya və xarakterinə bələdliklə yazdığı əsərləri də özünəməxsus yer tutur. Fərdi bəbii üslubun formalaşmasına, inkişafına, özünəməxsus keyfiyyətlərlə dolğunlaşmasına kömək edən mənbə və amillər cərgəsində folklor poetikasının, folklor ənənə və motivlərinin mühüm rolunu parlaq şəkildə İlyas Əfəndiyevin də yaradıcılığında görmək olur. Əfəndiyevin dramaturgiyası Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələ təşkil edir. İlyas Əfəndiyev pyeslərində həyatımızda təsadüf olunan ayrı-ayrı nöqsanlar və mənfi halları tənqid etməkdən çəkinmir. Şöhrətpərəstlik, xalqın mənafeyinə xəyanət etmək kimi hallar ifşa edilir.

Açar sözlər və ifadələr: millilik, müasirlik, vətənpərvərliyin tərənnümü, fərdi bədii üslub, dram janrı, İ. Əfəndiyevin komediyaları, məzmun, forma, ifadə sadəliyi.

Giriş: İ. Əfəndiyev özünün saysız-hesabsız hekayə, roman, povest və pyesləri ilə diqqəti cəlb edən sənətkar olmuşdur. Əksər yazıçılardan fərqli olaraq o, yaradıcılığına hekayə yazmaqla başlamışdır. Ilk qələm təcrübəsini hekayə janrı üzərində qurmuşdur. Hekayələrinin bir qismində biz ömürləri boyu haradasa qurdalanan, sevgiyə vahimə ilə baxan, gözəl və gənc arvadı ola-ola başqa qadınlara tamah salan, nəhayət, əxlaqsızlığı üstündə vəzifəsini və həyat yoldaşını itirən süleymanların, üç uşaq atası, ev-eşik sahibi olmasına baxmayaraq, özündən çox-çox cavan birinə eşq elan edən savadsız kənd müəllimi İmamların əsasən, incə və yumor hissi ilə cızılan portret cizgilərini görürük ki, bununla da müəllifin cəmiyyətdə müşahidə etdiyi mənfiliklərə qarşı çıxması, ictimai əxlaq və normaları pozan şəxslərə tənqidçi münasibət bəsləməsi, onlara qarşı daima mübarizə aparması aydın hiss olunur. Hekayə, oçerk, ədəbi-tənqidi məqalə və publisist yazı onun ümumi fəaliyyətində əhəmiyyətli yer tuturdu və eyni zamanda şairanə istedad və üsluba da malik idi.

Məqsəd: İ. Əfəndiyev yaradıcılığının əsas qida mənbələrini araşdırmaq, konkret təhlillərdə fikri-mənəvi təkamülü, surətlər və xarakterlər aləmi, sənətkarlıq məziyyətləri, üslub xüsusiyyətlərini aydınlaşdırmaq.

Tədqiqat metodu: Məqalədə müasir türk ədəbiyyatşünaslığının nəzəri prinsiplərini özündə ehtiva edən tarixi-müqayisəli təhlil metodundan istifadə olunub. Təhlil prosesində həmçinin problemi öyrənmək baxımından əhəmiyyət kəsb edən ədəbi-bədii, elmi-nəzəri və elmi-tarixi materiallardan da bəhrələnilmişdir.

Əsas materialın ifadəsi: İlyas Əfəndiyev bədii yaradıcılıq aləminə qələm basanda respublikamızın ədəbi, mədəni, ictimai və mənəvi həyatında müəyyən uğurlar əldə edilirdi. Bu dövrdə bir sıra görkəmli yazıçılar, şairlər yetişirdi.

Yazıçıları bir-birindən fərqləndirən onların forma, üslub metodları yox, poetik aləmləri zəmanəyə, şəxsiyyətə, həyata baxışları, ümumdünya görüşləridir. Bu cəhətdən İ. Əfəndiyev özünün saysız-hesabsız hekayə, roman, povest və pyesləri ilə diqqəti cəlb edir.

Əksər yazıçıların ədəbiyyata şeirlə gəlməyindən fərqli olaraq İ. Əfəndiyev yaradıcılığa hekayə yazmaqla başlamışdır. Ilk qələm təcrübəsini hekayə janrı üzərində quran yazıçının 30-cu illərin axırında beş hekayədən ibarət "Kənddən məktublar" (1939) adlı birinci kitabı çap olunur. Bu kitab gənc müəllifin yazı səriştəsi, maraq dairəsi və axtarış həvəsi haqqında, hətta onun gələcəkdə inkişaf

edib dolğunlaşacaq yaradıcılığının ilk addımları idi. Əvvəla, dərhal müşahidə olunur ki, İlyas Əfəndiyev cazibəli və oxunaqlı bir dildə yazır, süni və qondarma hadisəçiliyə uymur, ilk addımlarından aydınlığı, təbiiliyi və sadəliyi həqiqi sənətə xas estetik tələb və məziyyət kimi qoruyub saxlamağa çalışır.

İ. Əfəndiyev ona görə bu qədər xalqın sevimlisinə çevrilib ki, onun əsərlərində millilik, müasirlik və vətənpərvərliyin tərənnümü geniş yer tutur. Eyni zamanda maraqlı süjet, kompozisiya yaratmağı bacarır. Elə bir məsələlərə toxunur ki, nəinki öz dövrü üçün, bu gün üçün də əhəmiyyətli və aktualdır. Daha çox yeniliyi sevir, daima yeni problemlər, yeni fikirlər yaradır. Məsələn, yazıçı mühüm sosial və mənəvi amillərin təsiri ilə insanların pis əməllərdən, mənfilik və eybəcərlik xüsusiyyətlərindən tənqidin təsiri ilə necə əl çəkdiyini, düzgün yol seçdiyinin şahidi oluruq.

Hekayələrinin bir qismində biz ömürləri boyu haradasa qurdalanan, sevgiyə vahimə ilə baxan, gözəl və gənc arvadı ola-ola başqa qadınlara tamah salan, nəhayət, əxlaqsızlığı üstündə vəzifəsini və həyat yoldaşını itirən süleymanların, üç uşaq atası, ev-eşik sahibi olmasına baxmayaraq, özündən çox-çox cavan birinə eşq elan edən savadsız kənd müəllimi İmamların əsasən, incə və yumor hissi ilə cızılan portret cizgilərini görürük. Düzdür, bu tipli-formalı əsərlər müəllifin yaradıcılığı üçün o qədər də səciyyəvi deyil, lakin o, bununla cəmiyyətdə müşahidə etdiyi mənfiliklərə qarşı çıxdığını, ictimai əxlaq və normaları pozan şəxslərə tənqidçi münasibət bəslədiyini, onlara qarşı daima mübarizə apardığını aydın şəkildə göstərirdi.

Əlbəttə, o, nə qədər müsbət hadisə və obrazlar ifadəçisi olsa da, gözəlliyi tərənnüm etsə də bu və digər mənfi hala heç zaman biganə qalmamışdır. Onun ilk kitabı olan "Kənddən məktublar"da "Kənddən məktublar" povesti, "Qarımış oğlan", "Uxajor", "Qızbəz xala", "Mirzə İman" hekayələri toplanmışdır.

İctimai-bədii tutumuna görə ən çox sevilən və kiçik povest təsiri bağışlayan əsər "Kənddən məktublar"dır. Əsərin süjet və kompozisiyası gənc həkim Qanbayın doğma kəndindən dostuna göndərdiyi səkkiş məktub şəklində qurulmuşdur.

Gözünü qoynunda açdığı , uşaqlığını, gəncliyini keçirdiyi el-obasına on dörd ildən sonra qayıdan Qanbayın burada gördükləri, duyduqları, yaşadıqları haqqında qənaətləri dövrün bəzi vacib məsələlərini, kəndin mənzərəsini və əmək adamlarının güzəranını göz önünə gətirir, həm bəzi müəyyən fərəhli hadisələrlə, həm də bəzi qüssəli xatirələrlə tanış edir.

"Məktublar"da müəllif bəzi ümumi səciyyələndirmələrlə kifayətlənməyib, konkret təsvirə, süjetə təzə obraz və hadisələr gətirir. Xəlil əmi və oqronom Zərifə surətləri bu baxımdan yerinə düşür. Qanbayın qonaq getdiyi ailənin yaraşıqlı ev tikdirməsi, "korluğun daşı"nı atıb, xoş ömür sürməsi, xüsusən ailə başçısı Xəlil əminin yaşamaq və işləmək şövqü ilə bağlı söhbətləri, duyğu və düşüncələri ibrətlidir. Yeni həyatın insanda oyatdığı intibahlar həm də bu obraz vasitəsilə qabardılır.

Yazıçı "duyğuların ən gözəli" saydığı sevgini əsərdə konkretləşdirib, lirik-emosional səpkidə işıqlandıranda onun bağlandığı və əlaqələndiyi mənəvi telləri, sosial və əxlaqi xətləri ön plana çəkir. Bu, o deməkdir ki, Qanbay-Zərifə münasibətləri sadəcə olaraq iki gənci bir-birinə qovuşduran adi sevgi çərçivəsinə sığışmazdır. Başqa sözlə, "müəllifi məşğul edən əsas məsələ Qanbayla Zərifənin arasındakı sevgi deyil, insanların ictimai varlığının, daxili aləminin tənzimlənməsi, yeni xüsusiyyət və keyfiyyətlər kəsb etməsi məsələsidir ki, sevgi hissinin özü də bu dəyişmə prosesinə tabedir, ondan asılıdır".(Ə. Ağayev, İ. Əfəndiyev, 1966, s.428-434)

Varlı bəy qızının yoxsul kəndli balasına sevgisi sinfi mənsubiyyət fərqinə görə baş tutmamış, onların məhəbbəti ötən illər ərzində "yaralı, əziz bir xatirəyə" dönmüşdür.

Beləliklə, gənc nasir ciddi bir məsələni-yeni ictimai varlığın, sağlam mənəvi və sosial amillərin, müasir əlaqə və münasibətlərin təsiri ilə varlı bəy qızının nəyə can atdığını təbii boyalarla əsaslandıra, iki gəncin sevgisini də bu istiqamət və mahiyyətdə reallaşdıra bilmişdir.

"Kənddən məktublar" İ. Əfəndiyevin bədii irsində mövqeyi olan bir əsərdir. Bu, müəllifin yaradıcılığında sanki bir dayaq nöqtəsi və təməl daşı əhəmiyyətinə malikdir.

İ.Əfəndiyevin 60 illik yubileyi münasibətilə M. Arif belə bir mülahizə söyləmişdir: "Elə yazıçılar var ki, onların yaradıcılıq siması, bədii üslubi, sənətkarlıq fərdiyyəti birdən-birə yox, zaman keçdikcə müəyyənləşib sabitləşir. Bunun əksinə olaraq elə yazışılar da var ki, onlar elə ilk əsərlərindən öz yaradıcılıq mənliklərini, xüsusiyyətlərini aşkara çıxarırlar. İlk əsərlərindən başlayaraq biz onların təkrarolunmaz fərdi simaları ilə tanış oluruq. Söz yox ki, bu yazıçılar da illər keçdikcə parlayır, inkişaf edir, yetkinləşir. Bununla belə, bu yazıçılarda ilk istedad rüşeymi o qədər qüvvətli olur ki, zaman onu nə qədər cilalayıb partlatsa da ilk təbiətini, özünəməxsus yaradıcılıq mayasını, onun mahiyyətini dəyişdirmir." (Məmməd, 1974) M. Arif İlyas Əfəndiyevi sonuncu sənətkarlar qisminə daxil etməkdə tamamilə haqlı idi.

İ. Əfəndiyevin ikinci kitabı da bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. "Aydınlıq gecələr"də (1945) müəllifin, əsasən Böyük Vətən müharibəsi illərində yazdığı hekayələri daxil edilmişdir. Müharıbəyə qədərki dövrdə yazılmış "Aydınlıq gecələr" və "Gözlənilməyən sevgi" əsərləri eşq, məhəbbət mövzusunda qələmə alınmışdır. Lakin bundan başqa kitaba daxil edilmiş "Durna" (1941), "Kiçik bir poema" (1942), "Qəhrəman ilə Bülbülün nağılı"(1942), "Sən ey qadir məhəbbət" (1943), "Qoca tarını çaldı" (1943), "Qarı dağı" (1944) hekayələri isə, yazılış tarixindən göründüyü kimi, müharibə illərinin məhsuludur.

Düzdür, hekayələrdə bilavasitə səfərbərliyə çağırış, faşizmə qarşı mübarizə öz əksini tapmamışdır. Bununla belə, duyğuları, arzu və əməlləri imtahana çəkən müharibənin insan qəlbindəki əks-sədası, insan psixologiyasına təsiri öyrənilir, xüsusən hekayələrin süjeti əsasına qoyulmuş məhəbbət və mənəviyyat problemi tədqiq-təhlil olunurdu. Fərdi bəbii üslubun formalaşmasına, inkişafına, özünəməxsus keyfiyyətlərlə dolğunlaşmasına kömək edən mənbə və amillər cərgəsində folklor poetikasının, folklor ənənə və motivlərinin mühüm rolunu parlaq şəkildə İ. Əfəndiyevin də yaradıcılığında görürük. (İsmayılov, 1991: s.24)

İlk yaradıcılıq dövrünə dair "Apardı sellər Saranı", "Qəhrəman ilə Bülbülün nağılı", "Qarı dağı" hekayələri və digər nümunələri aşkar göstərirdi ki, yazıçının folklorla əlaqəsi başlanğıcdan sıx, məzmunlu olmuş, bu xüsusiyyət getdikcə dərinləşərək onun axtarışlarının mahiyyətini zənginləşdirən və müəyyənləşdirən istiqamətlərdən birinə çevrilmişdir. Tükənməz ilham mənbəyi, həqiqi mənəvi estetik təsir amili kimi şifahi xalq ədəbiyyatından düzgün və yaradıcı bəhrələnmə müəllifin əsərlərində milli koloriti, bədii keyfiyyəti, ictimai ruh və pafosu qüvvətləndirmişdir. Bu hekayələrin adları və mövzuları uzaq keçmişdən götürülsə də, məqsəd müasirliyə xidmətdir, insanlara mübarizə əzmini, vətəndaş qeyrətini, düşmənə nifrət və qəzəb duyğusunu gücləndirməkdir.

Ədib bədii nəsrin hələlik, əsasən, kiçik formasında yazıb yaratdığı kimi, dram janrında da müstəqil fəaliyyətə keçir, axtarışlarını davam etdirib, yeni uğurlara can atırdı. Müstəqil sözünü ona görə deyirik ki, hələ 1943-cü ildə İ. Əfəndiyev M. Hüseynlə müharibə dövründən bəhs edən "İntizam" pyesini yazmış və əsər tamaşaya qoyulmuşdur.

Əlbəttə, mübahisə etmək olar ki, İ. Əfəndiyev daha çox nasirdir, ya dramaturqdur? Bir şey mübahisəsizdir: İ. Əfəndiyev, hər şeydən əvvəl bir lirikdir. Şairanə istedad və üsluba malikdir. Hekayə, oçerq, ədəbi-tənqidi məqalə və publisist yazı da onun ümumi fəaliyyətində əhəmiyyətli yer tuturdu.

Müharibədən sonrakı illərdə yazıçının əsas yaradıcılıq uğurları ardıcıl və sistemli məşğul olmağa başladığı dramaturgiya ilə daha sıx bağlıdır.

Müasirlərimizin bədii obrazı, əmək nəaliyyətləri, mənəvi-əxlaqi keyfiyyətləri, duyğu və düşüncələri "Dağlar səslənən yerdə" (1948), " Şuşa yollarında" (1949), "Gəray Əsədovun kolxozu"(1949), "Gənc ustalar" (1950), "Yeni kənd, yeni adamlar" (1950), " Əmək adamları" (1951), "Pampıq tarlaları"(1952), "Pampıqçıların sevinci" (1953) kimi oçerqlərdə öz əksini tapmışdır.

Müəllif adamlarımızın mənəvi keyfiyyətlərini, əmək təşəbbüskarlığını, məhəbbət duyğu-qayğılarını bir sıra nümunələrdə elə bədii reallıqla qələmə aldı ki, bu əsərlər məzmun, forma və ifadə sadəliyi ilə seçildi. Müharibədən sonrakı dövrün məhsulu olan "Gülaçar" (1953), "Su dəyirmanı"

(1954), "Yaylaq qonşumuz" (1955), "Yun şal"(1957), "Qırçı və qızılı çiçək"(1962) kimi hekayələri belə əsərlər qisminə daxildir.

İ. Əfəndiyev uşaqlar üçün də yazmışdır. Onun uşaq həyatına, zövqünə, marağına, pisxologiya və xarakterinə bələdliklə yazdığı "Zəmində bir turac səslənirdi", "İz ilə", " Ovçunun nağılı", "Ceyran ovu", "Yasəmən ağacı", "Qoruqlarda", "Almurad baba", "Yaylağa köçürük" kimi hekayələrini misal çəkmək olar. Burada yazıçı əsasən uşaqların kənd həyatı və məişətinə dair mövzulara toxunmuş, onlarda təbiət sevgisini, böyüyə və valideynə hörmət hissini, vətənə, xalqa məhəbbət hissini qüvvətləndirməyə çalışmısdır. Bu hekayələrdə adlarından göründüyü kimi canlı təbiətin müxtəlif hadisə və mənzərələri ilə sıx bağlı olub, uşaq xarakterini, təfəkkür və təxəyyülünü zənginləşdirmək niyyəti güdür. Xüsusilə onun bəzi əsərlərində insana münasibətdə, təbiət və məişət hadisələrini canlandırmaqda A. Şaiq ruhu, üslub tərzi ilə bir səsləşmə görürük. (İsmayılov, 1991: s.38)

İ. Əfəndiyev daima axtarışda olan bir yazıçı idi. O, ideya bədii axtarışlarını həmişə prespektivli səmtə yönəltməyə, istər nəsr sahəsində, istərsə də dramaturgiya sahəsində zamanın qarşıya qoyduğu tələblərə vacib cavab verməyə çalışmışdır.

Ədəbiyyatın iki çətin janrında səmərəli və uğurlu fəaliyyəti İ. Əfəndiyev istedadını səciyyələndirən amillərdəndir. Ilk ədəbi addımlardan sonra o, dramaturgiya ilə də ciddi məşğul olmağa başlamışdır.

Böyük vətən müharibəsi dövründə İ. Əfəndiyevin M. Hüseynlə birgə yazdığı "İntizar" (1943) pyesi xalqın vətənpərvərlik əzmini, qəhrəmanlıq duyğu və düşüncələrini əks etdirən bir əsər kimi o zaman Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyuldu və insanlar tərəfindən maraqla qarşılandı. "İntizar"dan sonra İ. Əfəndiyev Azərbaycan ədəbiyyatında əmək istehsalat mövzusuna dair ilk pyesin müəllifi oldu. "İşıqlı yollar"ı (1947) yazdı, pyesdə Bakı neftçilərinin həyatından və əməyindən bəhs olunurdu. Dramaturji təcrübəsinin həyatından və əməyindən bəhs olunurdu. Dramaturji təcrübəsinin azlığı və mövzunun bu janrı, demək olar, təzəcə gətirilməsi müəllifi çətinliklərlə üzləşdirsə də o, M. Hüseynin dili ilə desək, " bir sıra ciddi və sağlam xüsusiyyətlri ilə nəzəri cəlb edən" pyes yarada bildi.

Ölkəyə on yeddi milyon ton neft vermək uğrunda mübarizə bərəkatının genişləndiyi mərhələdə yaranmış "İşıqlı yollar" yanlız mövzu aktuallığına görə yox, işlənmə tərzinə görə də nəzəri cəlb edir. Həyatı gözəlləşdirmək üçün çalışan adamlarının – qocaman buruq usatası Baba dayının, istedadlı gənc mühəndis Gülaranın kəndən şəhərə işləməyə gəlmiş cavan cəfərqulunun obrazları, əsasən, müvəffəqiyyətli çıxmışdır. Bu obrazlarda insanlıq duyğusunu, vətəndaş qeyrəti, vəzifə məsuliyyəti güclü idi. "Üstündə durduğumuz bu torpağın altında tükənməz bir xəzinə yatır... gün gələr ki, onun şöləsi dünyanı çıraqban edər" deyib, böyük ümidlə həyatdan getmiş neftçi Hacı Muradı sonralar ləyaqətlə nəvəsi əvəz etmişsə, Baba dayı da öz yerinə qabiliyyətli şagirdi Cəfərqulunu hazırlamışdır.

Tamaşası həm Respublikamızda, həm də Moskvada rəğbətlə qarşılanmış "İşıqlı yollar"əsərində gənc dramatur aktual olan əxlaqi-ictimai məsələlər qaldırır.

İ. Əfəndiyev dramaturgiya nöqsanlardan ciddi nəticə çıxartmaq, yaradıcılıq imkanlarını səylə genişləndirmək, qabaqcıl ədəbi ənənələri inamla davam və inkişaf etdirməklə, fəaliyyətində dönüş yaratmaqla səhnəmizi dəyərli əsərlərlə zənginləşdirməli, tamaşaçı istək və arzularını ödəməli idi. Hələ 40-cı illərdə yaranan və göstərilən "Bahar suları"nı (1948) yalnız müəllifin yaradıcılığında yox, dramaturgiyamızın inkişafında irəliyə doğru addım saymaq olar.

"İşıqlı yollar"da hadisələrin cərəyan mərkəzi şəhər, "Bahar sualrı"nda isə kənd mühitidir. Hər iki əsərin mövzusu istehsalat, təsərrüfat sahəsilə bağlıdır. İ. Əfəndiyev müharibədən sonra başlanan əmək quruculuğunu bu dəfə Azərbaycan kəndinin timsalında əks etdirməyə çalışmış və məqsədinə nail olmuşdur.

Əsərdən müəllif iki obraz (Alxan-Uğur) arasında nəinki "nifaq toxumu" səpmiş, əksinə, ümumi məqsəd birliyindən irəli gələn sosial və mənəvi duyğuları, anlaşma və təşəbbüsləri daha da möhkəmlətmək mövqeyi tutmuşdur.

Alxan cani kimi sevdiyi doğma kəndinin inkişafı üçün bacarığını əsirgəməyən mərd, qeyrətli vətəndaşdır. On yeddi il başçılıq etdiyi kolxozun taleyində, qabaqcıllar cərgəsinə çıxmasında mühüm xidmətlər göstərmişdir. Amma qeyd edək ki, həyat təcrübəsinin zənginliyinə baxmayaraq, savadının azlığı, yaşının çoxluğu Alxanı fəaliyyət imkanlarını genişləndirməyə qoymurdu. Nəinki bunu o özü də başa düşür, hətta etiraf da edirdi. “Qartal kimi yüksəlmək, göylərə cövlan etmək, fələyə qədər qalxmaq istəyirsən. Ancaq nə edəsən ki, qanadı qırıq quş kimi çırpınıb yerində qalırsan. Savadım azdır, elmim yoxdur... ”

Qabilliyyətli cavanları irəli çəkməkdən dönə-dönə söz salan Alxanın qartal əfsanəsini ibrətamiz məsəl kimi xatırlatması , bilikli, ağıllı və enerjili başçıya ehtiyac zərurətini xüsusi nəzərə çarpdırması təsadüfü deyildi. O, uğuru belə gəclərin bir nümayəndəsi bilib, camaatın və rəhbərliyin razılığı ilə vəzifəsini könüllü olaraq ona təhlil verir, bunu həyatın inkişaf tələbi və qanunu kimi qəbul edirdi.

Uğuru sədrliyə nə şöhrət, nə vəzifə ehtirası, nə də şəxsi mənafeyi çəkib gətirmişdir. Əsərdə o, mühüm bir uğur qazansa da, ən əvvəl kollektivinin gücünə, Alxan və Ali kimi ağsaqqalların məsləhət və köməyinə arxalanmağın nəticəsidir.

Uğur əsgərlikdən dönəndən sonra doğma kəndində gördüyü dəyişiklik və nəaliyyətlərlə kifayətlənmıyib, daha irəli getmək, kənddə yeni evlər tikmək, asfalt yollar saımaq eşqi ilə yaşayır.

İ. Əfəndiyev həyatda olduğu kimi obrazlarda da xarakterlərdəki yeniliyi müşahidə edib , araşdırırdı. Bu keyfiyyətlər həm Alxan, Alı kimi yaşlı nəslin, həm də Uğur, Sədəf, Şəfəq, Turac və Xanmurad kimi gənc nəslin simasında özünü göstərməkdədir.

Ümumiyyətlə, İ. Əfəndiyev həm nəsrində, həm də dramaturgiyasında həyatın nəbzini tutmağa, yeniliyi, səciyyəni əlamət, hadisə və obrazlarda canlandırmağı səy göstərən sənətkar kimi diqqəti cəlb edir.

Daima yazıçılarımızı düşündürən, müxtəlif səpgilərdə qələmə alına ailə-məişət problemi İlyas Əfəndiyev yaradıcılığında mühüm yer tutur. Yazıçı əsərlərinin çoxunda bu problemə toxunur. Lakin əsasən alilə-məişət probleminə həsr olunmuş “Atayevlər ailəsi” (1954) bu baxımdan daha çox diqqəti cəlb edir. Respublikanın müxtəlif teartr səhnələrində tamaşaya qoyulan bu əsər ictimaiyyətdə böyük əks-səda doğurdu. Bunun da əsas səbəbi dramaturqun həmin dövrün ab-havasına o qədər də uyğun gəlməyən vahid problemlərə toxunması idi. Əsas hadisə və obrazlar Atayevlər ailəsi ilə bağlıdır. Hərəsinin fərdi və ictimai xüsusiyyəti, fərdi təbiəti olan obrazlar və xarakterlər baxımından “Atayevlər ailəsi” güclü əsərdir. Bir tərəfdən şüurumuzda köhnəlik qalığı gəzdirən, meşşan əxlaqı qaydaları ilə davranan, cəmiyyət qanunlarına zidd mövqedə dayanan və şəxsi mənafeyi baxımından hərəkət edən Dilşad Atayeva, digər tərəfdən də ürəyi xalq üçün döyünən, yüksək insani duyğu və əxlaqi keyfiyyətlər sahibi olan İldırım, Xosrov, Reyhan Atayevlər –ailə daxilindəki müxtəlifliyi və ziddiyəti əks etdirirlər. Bitkin xarakter səviyyəsində işlənmiş Dilşad xanım şəhər soveti sədri Xosrovun arvadı olsa da, Atayevlər ailəsinə yaddır. Çünki onun həyata baxışı burjua, meşşan baxışıdır, ailə, əxlaq, məhəbbət haqqındakı görüşlri köhnə və zərərlidir. O, məharətlə masqalanaraq, zahiri nəzakət örtüyünə bürünərək hər kəsdən əvvəl Xosrovun nəzərində səmimi, mehriban və təmiz qadın kimi tanınmışdır. Əslində isə nə ailə, nə cəmiyyət, nə də xalq qayğısı çəkəndir. “Atayevlər ailəsi” mövcud olan naqis hallara, mənfi adamlara atəş açmaqla yanaşı işıqlı cəhətləri və müsbət qüvvələri bədii inandırıcılıqla təsdiq və tənqid edir.

Mənəvi yoxsulluq, həyatda baş girələmək, heç nəyə, heç kəsə kömək göstərməmək, yanlız özü üçün yaşamaq istəyənlər üçün müəllif müsbət qəhrəmanların dərin vətəndaşlıq duyğularını, vətənpərvərliyini gözəl keyfiyyətlər kimi irəli sürür və belə bir ideyanın yüksək bədii ifadəsini yaratmaq istəyir ki, xoşbəxtlik, səadət təklikdə əldə edilə bilməz.

İ. Əfəndiyevin pyeslərindəki müsbət xarakterlərin əksəriyyəti bu yoldan keçir. Onları yaxşı adamların mühiti, mənəvi şəraiti və konkret mübarizəsi xilas edir, düzgün yola qaytarır.

Dramaturgiyada İ. Əfəndiyev müasir mövzulara daha çox üstünlük vermişdir. Lakin onu da deyək ki, "Mahnı dağlarda qaldı" (1971) və ya "Nətavan" (1982), "Şeyx Xiyabani " kimi pyeslərində dramaturq tarixi mövzulara və şəxsiyyətlərə də yer vermişdir.

İnsanın mənəvi dünyası, milli mənafeyə bağlı düşüncələri, ailədə və cəmiyyətdə mövqeyi, səadət axtarışları, sevinc və iztirabları, qələbə və uğursuzluqları İlyas Əfəndiyevin mövzu və maraq dairəsindən heç vaxt kənarda qalmamışdır. Seçilən materialın ümumi məzmununda bəzən müəyyən yaxınlıq və oxşarlıq görsək də, yazıçı bu cür mürəkkəb məsələləri müxtəlif aspektlərdən işıqlandırmaqla qarşıya müasir həyatın tələblərilə səsləşən , inkişafın real səciyyəsindən doğan vacib sosial əxlaqi vəzifələr qoyur. Bu cəhət "Qəribə oğlan", "Bağlardan gələn səs", "Büllur sarayda" pyeslərində də qabarış müşahidə olunur, tarix-pisxoloji dram xətti bu əsərlərdə də müvəffəqiyyətlə davam etdirilir, məna və məzmun dolğunluğu ilə təccəsümünü tapır.

İ. Əfəndiyevin komediyaya müraciəti də təsadüfi deyil. Müəllifin ilk hekayə, roman və pyeslərindən başlayaraq əsərlərində komik elementlərə, sağlam gülüşə, yumorlu vəziyyət və obrazlara rast gəlinir. "Əgər müəllifin ümumi üslubunu səciyyələndirən mənbələrdən biri kimi yumor keyfiyyəti indi müstəqil, konkret ədəbi forma daxilində qabarıq təzahür etmişsə, "Qəribə oğlan" komediyası əmələ gəlmişsə, bu qanunauyğun haldır. Zəruri ehtiyacın, həyati tələbata həssas yanaşmağın nəticəsidir". (İsmayılov, 1991: s.183)

Ümumiyyətlə, İ. Əfəndiyev pyeslərində həyatımızda təsadüf olunan ayrı-ayrı nöqsanlar və mənfi halları tənqid etməkdən çəkinmir. Şöhrətpərəstlik, xalqın mənafeyinə xəyanət etmək kimi hallar ifşa edilir.

İ. Əfəndiyevin dramaturgiyası Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələ təşkil edir. Bu dramaturgiya ölməz C. Cabbarlı ədəbi məktəbi, öncül sənət ənənələri əsasında boy ata-ata mənalı yol keçmiş, ideya-estetik vüsət tapmış, dərin müasirlik və yüksək emosianallıq keyfiyyəti ilə seçilmişdir. Aktual həyat problemləri qaldırmaq cəsarəti, hadisələrə ayıq, fəal sənətkar münasibəti, yüksək prinsipiallıq və həqiqi vətəndaşlıq mövqeyi, habelə digər ideya-bədii məziyyətlər nəinki İ. Əfəndiyevin dramaturgiyasını, bütövlükdə yaradıcılığını səciyyələndirən mühüm amillərdəndir.

İstifadə olunmuş ədəbiyyat

1. Məmməd A. (1974). İlyas Əfəndiyevin anadan olmasının 60 illiyi münasibətilə. // Kommunist. – 17 noyabr.
2. Ağayev Ə. (1966). İlyas Əfəndiyev // bax. Azərbaycan sovet ədəbiyyatı. – Bakı: Maarif. – s.428-434
3. İsmayılov Y. (1991). İlyas Əfəndiyevin yaradıcılıq yolu. – Bakı: Elm. – s.24

UOT: 82-09.

THE RIGHT OF THE WRITER TO CREATE FREELY OR TOTAL CONTROL

Dursun Yusibova
Senior Lecturer
Yb.dusun.xanim@gmail.com
Orcid id: 0000-0003-0717-0355
Kamala Hasanova
Senior Lecturer
Ganja State University, Azerbaijan
Orcid id: 0000-0002-1153-4126

Abstract: Before getting into the hands of the reader, the book goes through a number of different influences. One and the most important of them is Censorship. In a broad sense, Censorship is the exercise, in the form of a preview, of supervision by the authorities over the content of printed publications, correspondence, radio and television programs, theatrical productions, etc., as well as a special state institution

подготовке к изданию участвовали Б. Омаров, М. Салкынбаев и Б. Сарпеков), который автор составлял в течение 20 лет (1946-1966 гг.) с опорой на различные источники (Гылмани, 2005). В пункте «Примечания» автор дает краткое описание своего труда. В частности, он указывает на алфавитный принцип его составления: под каждой из 28 букв арабского алфавита размещаются слова, которые начинаются с той или иной буквы, при этом внутри раздела каждой буквы также соблюдается подобный принцип. Например, слова, начинающиеся с буквы «алиф», располагаются по порядку комбинаций «алиф-ба», затем «алиф-та», «алиф-са» и т.д. (Гылмани, 2005: с.12-16). О качестве данного словаря свидетельствуют многочисленные источники, которые были использованы при его создании. Это – труды арабских и казахских авторов (аль-Джаухари, Забиди, аш-Шартуни, Ширази, Г. Баруди, С. Жанторин и др.), толкования хадисов, сборники арабской поэзии. Сам С. Гылмани так описывает свой словарь: «…шамама қарай ғылым, әсіресе дін ғылымы, араб тілі жағынан хабардар болғанымнан сол араб лұғатын қазақ тілімен жазуды мақсат қылып, қолыма 1946 жылы, октябрь жұлдызында қалам алып, жазуға кірістім. Әрине, лұғатты ой мен мәні қоймайтыны белгілі. Ұстаздардан арабша кітаптар оқып, сонда танысқан лұғаттар ұстіне тағы лұғат кітаптарға мұқтаждық болдық. Сондықтан мына кітаптардан пайдаландым» (Гылмани, 2005: с.7). Анализируя труды С. Гылмани, хотелось бы подчеркнуть, что автор проявляет предельную аккуратность в отборе слов, используя лишь литературные формы. Еще одним примечательным моментом являются и методические способности ученого. Он дает инструкцию для пользования данным словарем. Так, в частности, он поясняет, как читать неогласованные слова, при этом вместо общепринятых терминов «фатха», «касра» и «дамма» он использует более понятные широкой аудитории слова «астылы, үстілі и үтірлі». Сукун в словаре представлен в виде «сөкін». Многие термины арабской грамматики используются в исконной форме без существенных изменений, приближенно к арабскому произношению (фағил, мафғұл, масдар, бап, мәзид, муджаррад и др.).

Таким образом, труд С. Гылмани имеет большую ценность с научной и методической точки зрения. Включая в себя не только словарь, но и ценные разъяснения различных грамматических явлений, он может служить в качестве эффективного учебного пособия при изучении арабского языка. К настоящему времени осуществлена транслитерация нескольких томов словаря с арабской графики на кириллицу. Однако работа в данном направлении еще не закончена, ждет своего исследователя и нуждается в спонсорской поддержке.

Позже подобные попытки в Казахстане были предприняты Н.Д. Ондасыновым, автором арабско-казахского толкового словаря – «Арабша-қазақша түсіндірме сөздік» (Оңдасынов, 1984-1989), А. Дадебаевым, Д. Кайранбаевым – «Арабско-казахский словарь: 7500 слов» (Дадебаев, Кайранбаев, 1990). В 1994 г. А. дадебаевым, Б. Амреевым и К. Ламашариповым был подготовлен казахско-арабский разговорник «Қазақша-арабша тілашар» (Дәдебаев, Әміреев, Ламашәріпов, 1994).

В эпоху независимости продолжается работа по составлению различных тематических словарей. Так, в 1996 г. Н. Сарсенбаев издал краткий арабско-казахско-русский фразеологический словарь «Қысқаша арабша-қазақша-орысша фразеологиялық сөздік» (Сәрсенбаев, 1996). В 2002 г. Д.Т. Коптилеуова подготовила «Русско-казахско-арабский словарь по дипломатической практике» (Коптилеуова, 2002). В 2004 г. К.К. Лама Шариф издает казахско-арабский разговорник «Қазақша-арабша тілашар» (Лама Шариф, 2004). В 2008 г. выходит «Арабско-русский словарь философских терминов» К.Х. Таджиковой (Таджикова, 2008). В 2011 г. появился «Казахско-арабско-русский общественно-политический словарь» («Қазақша-арабша-орысша / Арабша-қазақша-орысша қоғамдық-саяси сөздік»), составленный Д.А. Есенжан и включающий около 7000 слов и выражений (Есенжан, 2011). В 2012 г. вышел в свет «Словарь религиозных терминов» («Діни терминдер сөздігі») Р.С. Мухитдинова (Мухитдинов, 2012). В 2016 г. Г. Буркитбай, Е. Тубажанов и Р.С. Мухитдинов подготовили трехъязычный электронный словарь грамматических терминов «Арабша-қазақша-орысша грамматикалық терминдер сөздігі» (Бүркітбай, Тубажанов, Мухитдинов, 2016).

Тематический словарь представлен и в учебных пособиях С.А. Тулеубаевой «Арабский язык. Тексты событийного содержания» (Тулеубаева, 2008) и «Араб тілі. Оқиға мәтіндер» (Тулеубаева, 2012).

Последним значимым достижением казахстанской арабистики в этом направлении можно назвать издание в 2016 г. арабско-казахского словаря «Арабша-қазақша сөздік». Данный труд, составленный авторским коллективом (Ы. Палторе, Ж. Жусипбеков, Р. Мухитдинов, К. Кыдырбаев, А. Махат, Д. Есенжан, О. Шаяхметов) в рамках проекта, реализованного Египетским университетом исламской культуры «Нур-Мубарак» (руководитель проекта – д. филол. н., профессор Ш.Т. Керим), на основе «Арабско-русского словаря» Х.К. Баранова, значительно дополнен новой лексикой, отражающей современные реалии, и включает около 50 000 слов. В словаре, который построен по корневому принципу размещения слов, представлены различные пласты лексики, пословицы и поговорки, словесные выражения, термины и др. Общее количество страниц – 918.

В контексте арабской лексикографии и тюркологии хотелось бы упомянуть, что средневековый труд «Собрание тюркских наречий» - «Диуан лугат ат-турк» («ديوان لغات الترك») М. Кашгари (XI в.) в 1994 г. был переведен на казахский язык А. Егеубаевым. Но он был выполнен не с оригинала, а с источников на других языках. Первый перевод с арабского языка на русский будет осуществлен намного позже, в 2004 г., известным востоковедом-арабистом казахстанского происхождения З.-А.М. Ауэзовой, индексы к нему составлены Р. Эрмесом (Ал-Кашгари, 2005). Издание 2005 г. содержит полный перевод первого энциклопедического словаря тюркского языка, который сделан с факсимильного издания рукописи памятника, подготовленного Министерством культуры Турции в 1990 г. Переводчик, комментируя свой труд, отмечает: «Одним из основных принципов настоящего перевода явилось стремление к точной передаче арабского текста в особом, присущем Махмуду ал-Кашгари, стиле. Все тюркские слова приводятся нами в русской графике жирным шрифтом, в транслитерации, соответствующей их арабскому написанию в тексте оригинала. Арабские и персидские слова переданы в транслитерации курсивом. Транскрибирование тюркских слов не входило в задачи настоящего издания, поскольку установить с точностью все варианты произношения, которые имел в виду автор в XI веке, с нашей точки зрения, не представляется возможным. Фонетические, особенности некоторых звуков и фонематические свойства отдельных древнетюркских языков остаются неизвестными и на сегодняшний день. С различными вариантами интерпретации древнетюркских слов можно ознакомиться подробно благодаря переводу Диван Лугат ат-Турк на английский язык, подготовленному Дэнкоффом и Келли, «Этимологическому словарю тюркских языков» Э.В. Севортяна, «Этимологическому словарю тюркского языка до XIII века» Дж. Клозена, а также современным исследованиям по тюркологии» (Ал-Кашгари, 2005: с.5). Перевод З.-А.М. Ауэзовой, который получил высокую оценку специалистов, является значительным вкладом мирового уровня в арабистику и тюркологию.

На основании выше изложенного можно заключить, что Казахстан имеет давние глубокие традиции в составлении арабских словарей, как толковых, так и двуязычных, фундаментальных и касающихся определенной сферы (общественно-политическая, дипломатическая, философская, грамматическая, событийная лексика и др.), а также разговорников, в т.ч. фразеологических. Лексикография занимает важное место в истории казахстанской арабистики и востоковедения. С обретением независимости все более актуальным является составление арабско-казахских словарей по различным направлениям. Полагаем, что работа в данном направлении будет продолжена и казахстанская наука пополнится новыми трудами арабистов-филологов.

Список использованной литературы

1. Абуов Б. Ысқақ әл-Фарабидің «Диуан әл-адаб» (X ғ.) атты туындысының танымдық-тілдік ерекшеліктері // http://ulagat.com/2020/12/04/ысқақ-әл-фарабидің-диуан-әл-адаб-х-ғ.
2. Ал-Кашгари Махмуд. Диван лугат ат-Турк. Перевод, предисловие и комментарий З.-А.М. Ауэзовой. Индексы составлены Р. Эрмесом. – Алматы, 2005. – 1292 с.
3. Арабша-қазақша сөздік. Түзушілер: А. Махат, Ы. Палтөре, Ж. Жүсіпбеков, Д. Есенжан, О. Шаяхметов, Р. Мухитдинов, Қ. Қыдырбаев және т.б. – Алматы, 2016. – 918 б.
4. Бүркітбай Г., Тубажанов Е., Мухитдинов Р. «Арабша-қазақша-орысша грамматикалық терминдер сөздігі» (электрондық сөздік). – Алматы, 2016.
5. Ғылманұлы С. Арабша-қазақша сөздік. I томның 1-кітабы. – Алматы, 2005. – 208 б.
6. Дадебаев А., Кайранбаев Д. Арабско-казахский словарь: 7500 слов. Под ред. А. Нарымбетова. – Алма-Ата, 1990. – 326, [2] с.
7. Дәдебаев А., Әміреев Б., Ламашәріпов Қ. Қазақша-арабша тілашар. – Алматы, 1994. – 112 б.
8. Есенжан Д.Ә. Қазақша-арабша-орысша/Арабша-қазақша-орысша қоғамдық-саяси сөздік. – Алматы, 2011. – 269 б.
9. Калиева Ш.С. Творчество Исмаила Ал-Джаухари и его место в арабской филологии. – Алматы, 2006. – 142 с.
10. Коптилеуова Д.Т. Русско-казахско-арабский словарь по дипломатической практике. – Алматы, 2002. – 82 с.
11. Қысқаша арабша-қазақша-орысша фразеологиялық сөздік. Құрастырған және аударған Н. Сәрсенбаев. – Алматы, 1996. – 47 б.
12. Лама Шариф Қ. Қазақша-арабша тілашар. – Алматы, 2005. – 208 б.
13. Мухитдинов Р. С. Діни терминдер сөздігі. – Алматы, 2012. – 140 б.
14. Оңдасынов Н.Д. Арабша-қазақша сөздік (қазақ тіліндегі араб сөздері). – 2 томдық. – Алматы, 1989. – 285 б.
15. Таджикова К.Х. Арабско-русский словарь философских терминов. – Алматы, 2008. – 36 с.
16. Тулеубаева С.А. Арабский язык. Тексты событийного содержания. – Астана, 2008. – 280 с.
17. Төлеубаева С.А. Араб тілі. Оқиға мәтіндер. – Астана, 2012. – 199 б.

UOT:811.512.1

THE CONCEPT OF THE AZERBAIJANI LANGUAGE IN THE 20s AND 30s OF THE XX CENTURY

Aysel Garibli
PhD, Associate Professor
Azerbaijan National Academy of Science, Institute of Linguistics named after Nasimi
aysel-qerib@hotmail.com
Orcid id: 0000-0003-2651-1258

Abstract. The article looks at the views of the press and our national intellectuals (F. Aghazada, B. Chobanzada, A. Abid) on the Azerbaijani language in 20s and 30s of the XX century. However, about a month after the proclamation of the first independent Republic of Azerbaijan the name of the state language was formalized as “Turkic”, and intellectuals use the same name, which continued the Soviet era until the mid-30s.

From the begginning of the 19th century, the political and administrative division of Azerbaijan into two parts-Russia in the North adn Iran in the South-led to a different history for Azerbaijan. It is true that language acts as a common cultural and spiritual value of the people, but it was natural that certain differences appeared in its official view, and one aspect of this naturalness was also manifested in the attitude to the name of language.

Even in the years when the “Azerbaijani language” was officially developed in the Azerbaijan SSR, active representatives of the Azerbaijani emigration, such as M.A.Rasulzade, M.B.Mammadzade, A.Jafaroglu, J. Hajibeyli, defined the concept of “Azerbaijani language”, “ Azerbaijani Turkic language”, “Azerbaijan Turkic”, “Azeri Turkic”, “Azeri dialect” and so on. expressed by.

Key words: Azerbaijani language, linqvonim, concept, language history, Soviet period, press.

XX ƏSRİN 20 – 30-cu İLLƏRİNDƏ “AZƏRBAYCAN DİLİ” ANLAYIŞI

Qəribli Aysel Nizami qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent, böyük elmi işçi
AMEA Nəsimi adına Dilçilik İnstitutu

Xülasə. Məqalədə XX əsrin 20-ci, 30-cu illərində Azərbaycan dili ad-linqvoniminə mətbuat və milli ziyalılarımızın (F.Ağazadə, B.Çobanzadə, Ə.Abid) fikirlərinə nəzər yetirilir. İlk müstəqil Azərbaycan Cümhuriyyəti elan ediləndən təxminən bir ay sonra dövlət dilinin adını “türk dili” olaraq rəsmiləşdirdiyindən ziyalılar da, həmin adı işlədirlər ki, bu, sovet dövründə də 30-cu illərin ortalarına qədər davam edir.

Ziyalılar “azəri ləhcəsi” ifadəsini işlədirlər, bununla belə “azəri şivəsi, “Azərbaycan ləhcəsi” ifadələrinə də rast gəlinir. “Türk ləhcələri”, “türk-tatar ləhcələri”, “ türk dilləri”, “türk-tatar dilləri”, “türk dili” , “türkcə” ifadələrinin işlənməsi müəlliflərin “türk dilləri” anlayışını necə təqdim etmələri baxımından diqqəti cəlb edir.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın siyasi-inzibati baxımdan iki yerə parçalanması- Şimalda Rusiya, Cənubda isə İran Azərbaycanının bir-birindən fərqli tarix yaşamasına səbəb oldu. Doğrudur, dil xalqın ümumi mədəni-mənəvi dəyəri kimi çıxış edir, lakin ona rəsmi baxışda müəyyən fərqlərin ortaya çıxması da təbii idi ki, bu təbiiliyin bir cəhəti də dilin adına münasibətdə təzahür edirdi.

Azərbaycan SSR-də “Azərbaycan dili”nin rəsmi olaraq kütləvi işləndiyi illərdə də Azərbaycan mühacirətinin M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, C.Hacıbəyli kimi fəal nümayəndələri “Azərbaycan dili” anlayışını, “Azərbaycan türk dili”, “Azərbaycan türkcəsi”, “azəri türkcəsi”, “azəri ləhcəsi” və s. ilə ifadə etmişlər.

Açar sözlər: Azərbaycan dili, linqvonim, anlayış, dil tarixi, Sovet dövrü, mətbuat.

XIX əsrin sonlarından etibarən “Azərbaycan dili” ad-linqvoniminə mətbuatın, xüsusilə milli ziyalıların dilində rast gəlinirsə, anlayışın təşəkkülü tarixini də həmin dövrdən başlamaq olar. Lakin məsələ burasındadır ki, ilk müstəqil Azərbaycan Cümhuriyyəti elan ediləndən təxminən bir ay sonra dövlət dilinin adını “türk dili” olaraq rəsmiləşdirdiyindən ziyalılar da, həmin adı işlədirlər ki, bu, sovet dövründə də 30-cu illərin ortalarına qədər davam edir.

F.Ağazadə 1923-cü ildə yazıb nəşr etdirdiyi “Türk dilinin dirilmək və zənginləşdirilmək yollar (tükənəklər)” lüğətinin ön sözündə hər yerdə “türk dili” ifadəsindən istifadə edir (Ağazadə, 2006: s.10-13). Maraqlıdır ki, müəllif “türk dili” deyərkən həm ümumiyyətlə “türkcə”ni, həm də “Azərbaycan türkcəsi”ni başa düşür və bu anlayışları bir-birindən, demək olar ki, fərqləndirmir:

“Türkcənin ərəbcədən daha zəngin bir dil olduğunu tarix yazanlar gələcəkdə sübut edəcəklər. Hərgah bu günkü türkcənin dörtdə üçü ərəbcədən alınmışdırsa, bunun bir çox səbəbləri vardır ki, başlıcası- minlərcə türk sözlərinin ərəb hərflərinə uydurulması olmuşdur: hər kəlmənin imlasında az-çox çətinlik duyan yazıçılar o kəlməni atıb əvəzində ərəbcəsini meydana fırlatmışlar. Min ildən çoxdur ki, türkcənin başına böylə oyunlar gəlmişdir; minlərcə kəlmələrimiz atılmış və unudulmuşdur, dilimiz də bundan dolayı kasıblaşmışdır. ... Şərq dillərinin üstündə ağalıq sürmək istəyən << müqəddəs>> ərəb dili türkcəmizi öldürmək istədisə də, öldürəmədi, ancaq yarımcan qıldı. Bir dil ki, onun yer yüzündə yüz milyonluq sahabı ola, aya o dil ölərmi? Əlbəttə, ölməz! Yarımcan qalmış türkcəmiz imdi dirilmək istəyir, köhnə zənginliyini qaytarmaq fikrindədir. Buna dəlil türk ellərindəki dil hərəkətləridir: bir yerdə dili türkləşdirirlər, o biri yerdə saflaşdırırlar, hatta Azərbaycanda istilahları da türkləşdirmək fikrinə gəlmişlər. Pəs türkcəmiz çoxdan itirdiyi yatağına qayıtmaq istəyir” (Ağazadə, 2006: s.10-11).

Professor Bəkir Çobanzadənin hələ Krımda olarkən yazdığı “Türk-tatar lisaniyyatına mədxəl” kitabı 1924-cü ildə Bakıda Xalq Maarif Komissarlığı metodşurasının tövsiyyəsilə nəşr olunur (Çobanzadə, 2006). Əsər öz qarşısına aşağıdakı məsələlər barədə təsəvvür yaratmaq məqsədini qoymuşdu:

1. Ümumi lisaniyyat qayda və qanunlarının türk-tatar lisanlarına tətbiqi haqqında müxtəsər bir fikir.

2. Türk-tatar lisanlarının tədqiqi tarixi və buna aid məsələlər” (Çobanzadə, 2006: s.24).

Ural-Altay ailəsinə mənsub türk-tatar budağına daxil olan dilləri barədə danışarkən B.Çobanzadə onların adlarını aşağıdakı şəkildə qeyd edir: 1) yaqut, 2) Altay türklərinin lisanı, 3) teleut lisanı, 4) komandan lisanı (Oli yuxarısında oturan türk qəbilələri, 5) Yenisey yuxarısındakı türklərin lisanı, 6) Uryanxay lisanı (Monqolustanın qərbində), 7) parapin lisanı, 8) qırqız lisanı, 9) noqay lisanı, 10) kumuk lisanı, 11) qaraçay lisanı, 12) başqırd lisanı, 13) sart lisanı, 14) özbək lisanı, 15) türkmən lisanı, 16) osmanlı türklərinin lisanı, 17) tatar lisanı (Kazan, Krım), 18) Azərbaycan lisanı, 19) çuvaş lisanı, 20) qun lisanı (Çobanzadə, 2006: s.74).

Burada diqqəti cəlb edən ən mühüm fakt B.Çobanzadənin “Azərbaycan lisanı” ifadəsini işlətməsidir.

B.Çobanzadə ilə F.Ağazadənin 1928-ci ildə birgə yazıb bitirdikləri “Türk qrameri” kitabı 1930-cu ildə Azərnəşr tərəfindən çap olunmuşdur. Kitabın “Nəşriyyat tərəfindən” başlıqlı ön sözündə deyilir:

“Məlum olduğu üzrə , indiyə qədər azəri ləhcəsinə dair yazılan qramer kitablarında ya dilimizdə olan başqa lisan ünsürlərinin təhlilinə fikir verilmiş və bununla da azəri ləhcəsinin xüsusiyyətləri kölgədə buraxılmış, ya da başqa dillərdə qəbul edilmiş qramer formalarının azəri qramerinə daxil edilməsinə çalışılmışdır” (Çobanzadə, 2007: s.63).

Müəlliflər, bir qayda olaraq, hər yerdə “azəri ləhcəsi” ifadəsini işlədirlər, bununla belə “azəri şivəsi” (Çobanzadə, 2007: s.79), “Azərbaycan ləhcəsi” (Çobanzadə, 2007: s.81) ifadələrinə də rast gəlinir.

“Türk ləhcələri” (3,s.94), “türk-tatar ləhcələri” (Çobanzadə, 2007: s.95), “ türk dilləri” (Çobanzadə, 2007: s.95), “türk-tatar dilləri” (Çobanzadə, 2007: s. 97), “türk dili” (Çobanzadə, 2007: s.99), “türkcə” (Çobanzadə, 2007: s.147) ifadələrinin işlənməsi müəlliflərin “türk dilləri” anlayışını necə təqdim etmələri baxımından diqqəti cəlb edir.

Ə.Abid “Böyük Şura Ensiklopediyası” və türk ədəbiyyatı” məqaləsində (“İnqilab və mədəniyyət” jur., 1929, №2) yazır:

“Marr Azərbaycandakı türk şivələrini: 1. Bakı; 2. Nuxa; 3. Qazax-Gəncə olmaq üzrə üç qrupda toplayaraq bu şivələr üzərində məlum olan fars təsirini təkrarladıqdan sonra belə bir cümlə qeyd etməkdədir: “Azəri ləhcəsinin ayrı-ayrı danışıq tərzləri arasındakı fərq çox böyük olmaqla bərabər, bütün Azərbaycan türkləri bir-birlərini anlamaqda güclük çəkməyirlər”.

Doğrudur, hər yerdə olduğu kimi, Azərbaycan türkcəsində də bəzi xırda xarakterlər görünməkdədir. Fəqət bu xarakterləri, türklərin bir-birlərini anlamaqda güclük çəkmədikləri şəklində böyütmək Azərbaycan türkcəsini qərib bir mübadiləyə düşürmək deməkdir” (Abid, 2007: s. 159-160).

Mərkəz (Moskva) 30-cu illərin ortalarında artıq “türk dili”ndən “Azərbaycan dili”nə keçməyi qərarlaşdırmışdı və keçid prosesi Sovetlər Birliyinin idarəçilik texnologiyalarına uyğun olaraq siyasi-ideoloji təzyiqlər, hətta repressiyalarla müşayiət olunduğundan respublika daxilində ciddi etirazlar müşahidə edilmədi. Lakin Azərbaycan mühacirəti buna dərhal reaksiya verdi. M.Ə. Rəsulzadə Berlində çıxan “Qurtuluş” dərgisinin 1936-cı il 20-ci sayında dərc etdirdiyi “Sovet Azərbaycanında türk dilinin ruslaşdırma və imha siyasəti haqqında” məqaləsində yazırdı:

“...Qızıl Moskva əsarətində bulundurduğu başqa millətlər kimi Azərbaycanı da istila edər-etməz 6-7 əsrlik qoca ədəbiyyata malik bulunan ədəbi Azərbaycan türkcəsini məhv etməyə qalxdı” (Məmmədova, 2007: s.16).

Ümumiyyətlə Azərbaycan SSR-də “Azərbaycan dili”nin rəsmi olaraq kütləvi işləndiyi illərdə də Azərbaycan mühacirətinin M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, C.Hacıbəyli kimi fəal nümayəmdələri “Azərbaycan dili” anlayışını, “Azərbaycan türk dili”, “Azərbaycan türkcəsi”, “azəri türkcəsi”, “azəri ləhcəsi” və s. ilə ifadə etmişlər (bu barədə geniş məlumat üçün bax: Məmmədova, 2006).

İstifadə edilmiş ədəbiyyat

1. Ağazadə F. (Şərqli). (2006). Türk dilinin dirilmək və zənginləşdirilmək yolları (tükənəklər). Tərtib edən: N.Cəfərov.– Bakı. – 48 s.
2. Çobanzadə B. (2006). Türk-tatar lisaniyyatına mədxəl. Tərtib edən: N.Novruzova.– Bakı. – 180 s.
3. Çobanzadə B. (2007). Seçilmiş əsərləri. V c. – Bakı: Şərq-Qərb. – 264 s.
4. Abid, Ə. (2007). Seçilmiş əsərləri. Tərtib edəni: B.Əhmədov.– Bakı: Şərq-Qərb Çap Evi. – 288 s.
5. Məmmədova, F. (2006). Azərbaycan dilinin türk dilləri qrupunda yeri (Azərbaycan mühacirət dilçiliyi kontekstində).– Bakı: Nurlan Çap Evi. – 88 s.
6. Məmmədova, F. (2006). Azərbaycan mühacirətinin elmi-nəzəri tədqiqatlarında dil kulturoloji irsində dil problemi. – Bakı: Elm Çap Evi. –192 s.
7. Məmmədova, F. (2007). Azərbaycan mühacirətinin elmi-nəzəri tədqiqatlarında dil kulturoloji baxışlar kontekstində. // Avtoreferat. – Bakı. – 24 s.

UOT: 81

ANTHROPOLOGICAL APPROACH TO LANGUAGE

Vefa Allahverdiyeva
PhD, Senior Lecturer
Baku Slavic University, Azerbaijan
vefabsu@mail.ru
Orcid id: 0000-0002-3429-7311

Abstract: The article is devoted to the description of one of the dynamically developing areas of modern linguistics, considered as the main factor in the study of the phenomenon of an individual language. Currently, there is a reorientation of linguistic research to a new paradigm – anthropocentric. Awareness of the leading role of man in the world and in language contributed to the transition of linguistics to anthropocentric principles. This is the center through which the coordinates pass, defining the subject, tasks, methods, value orientations of modern linguistics. The article deals with the problems of the anthropocentric principle of language, which is characterized as a comprehensive study of a person in language, and is currently relevant. From the standpoint of the anthropocentric paradigm, a person learns the world through awareness of himself, his activities in it. The anthropocentric approach is the switching of the researcher's interests from the objects of knowledge to the subject, in other words, the person in the language and the language in the person is analyzed. The anthropocentric paradigm brings a person to the first place, language is considered the main characteristic of a person, its most important component. Man is inconceivable outside of language and linguistic ability to generate and perceive the text. A text created by a person is individual, which means it is egocentric, since behind any statement there is a certain person with his own life experience, with his own attitude and culture.

Key words: language, system, structure, modern, linguistics, science, man, anthropocentric, cognitive.

DİLƏ ANTROPOSENTRİK YANAŞMA

Allahverdiyeva Vəfa Elxan qızı
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Bakı Slavyan Universiteti, Azərbaycan

Xülasə: Məqalə fərdi dil fenomeninin öyrənilməsində əsas amil hesab olunan, müasir dilçiliyin dinamik inkişaf edən sahələrindən birinin təsvirinə həsr edilmişdir. Hal-hazırda linqvistik tədqiqatların yeni bir paradiqma olan antroposentrik paradiqmaya doğru istiqamətləndirilməsi müşahidə olunur. İnsanın dünyada və dildə aparıcı rolunun dərk edilməsi dilçiliyin antroposentrik prinsiplərə keçməsinə şərait yaratdı. Bu, müasir dilçiliyin mövzusu, vəzifələri, metodları və dəyər istiqamətlərini müəyyənləşdirən koordinatların keçdiyi bir mərkəzdir. Məqalədə insanın dildə hərtərəfli öyrənilməsi kimi xarakterizə olunan və hazırda aktual olan

antroposentrik dil prinsipinin problemləri müzakirə olunur. Antroposentrik paradiqma nöqteyi-nəzərindən insan dünyanı özünü, dünyadakı fəaliyyətini dərk edərək öyrənir. Antroposentrik yanaşma tədqiqatçı maraqlarının idrak obyektlərindən subyektə keçməsidir, başqa sözlə, dildə insan və insanda dil təhlil olunur. Antroposentrik paradiqma insanı birinci yerə gətirir, dil insanın əsas xüsusiyyəti, onun ən vacib komponenti hesab olunur. İnsan dilsiz, mətn yaratmaq və qavramaq kimi dil qabiliyyəti olmadan təsəvvür edilə bilməz. İnsanın yaratdığı mətn fərdi olur, yəni eqosentrikdir, çünki istənilən ifadənin arxasında öz həyat təcrübəsi, dünyaya münasibəti və mədəniyyəti olan müəyyən şəxs dayanır.

Açar sözlər: dil, sistem, struktur, müasir, dilçilik, elm, insan, antroposentrik, koqnitiv.

Müasir dövrdə linqvistik fikrin inkişafına diqqət yetirən bir çox alim yekdilliklə qeyd edir ki, bu gün hüdudları çərşivəsində bir çox linqvistik konsepsiya, məktəb və cərəyanların yarandığı üç elmi paradiqma şərti olaraq fərqləndirilə bilər: XIX əsrdə müqayisəli-tarixi (tarixilik prinsipinə əsaslanır və dilin təkamül tərəfini ön plana çəkir), XX əsrdə sistem-struktur (sistemlilik prinsipinə əsaslanır və ilk növbədə dil fəaliyyətinin təşkilati tərəfi ilə əlaqəlidir), XXI əsrdə çox sayda nüfuzlu tədqiqat əsərlərində – məqalələrdə, monoqrafiyalarda, namizədlik və doktorluq dissertasiyalarında deyildiyi kimi, linqvistikanın indiki inkişaf mərhələsində üstünlük təşkil edən antroposentrik (funksional-kommunikativ istiqamət; fəaliyyət prinsipi və dil fenomeninin funksional tərəfi burada həlledici prinsip kimi çıxış edir) paradiqmalar. Hər sonrakı paradiqma əvvəlkini inkar etmir, əksinə əldə etdiyi bilikləri sistemləşdirir, ümumiləşdirir və daha yüksək tədqiqat nəticələrinə nail olmağa çalışır. Beləliklə, paradiqmaların dəyişməsi, fərqli yanaşma və istiqamətlərin ardıcıl olaraq aktuallaşması təbii və qaçılmaz elmi düşüncə prosesidir.

Dilşünaslığın indiki inkişaf mərhələsində, poliparadiqmatik bir vəziyyət meydana gəlmişdir, yəni bir-birini inkar etmədən eyni vaxtda mövcud olan bir neçə paradiqma eyni anda yaranmışdır: antroposentrik, funksional, kommunikativ, koqnitiv, mətn mərkəzli, praqmatik, emotioloji (emosioloji) və s.

Son zamanlar müasir dilçilikdə müzakirə olunan məsələlərin və aparılan tədqiqatların bütün müxtəlifliyi və genişliyi ilə yanaşı, onun gələcək inkişaf vektorunu təyin edən yeni bir elmi paradiqmanın, dilin öyrənilməsinə yeni bir yanaşmanın meydana gəlməsini göstərən meyllər olduqca açıq şəkildə izlənilir. Dilin sistem və ya quruluşunu öyrənmək tələbi əvəzinə, ideal danışanın, dinləyicinin dil qabiliyyətini, dil biliklərini, səriştəsini öyrənmək tələbi irəli sürülür.

Bildiyiniz kimi linqvistik tədqiqatların mərkəzini üç vacib anlayış təşkil edir: dünya – dil – insan. İnsanın qəbul etdiyi müxtəlif təzahür formalarında mövcud olan dünya, ilk növbədə, insanın özünün dünyasıdır. Onlar bir-birləri ilə yalnız insana və ondan başqa heç kimə aydın olmayan minlərlə görünən və görünməyən bağlar, gizli fikirlər və sirli mənalarla bağlanırlar. Bütün dünya yalnız öz varlığı haqda əbədi sualların formalaşdırılmasına qədər yüksəlmə iqtidarında olan insanın iştirakı və vasitəsi ilə məna qazanır. Dünyamız dil ilə başa düşülən, şərh olunan və ifadə olunan bir dünyadır. Bir dili başa düşmək və öyrənmək üçün onun daşıyıcısına – insana, danışan və düşünən bir varlığa müraciət etmək lazımdır, çünki dil bilavasitə insanın həyatı, fəaliyyəti və düşüncəsi ilə əlaqəlidir və cəmiyyətdən kənarda mövcud ola bilməz. İnsan ətrafdakı gerçəkliyi dil vasitəsi ilə dərk edir. Dil vasitəsilə dünyanın ən yüksək və dərin sferalarını və bütün müxtəlifliyini müşahidə etmək olar. Dilə həyata dalmış formasında, gerçəkliyi əks etmə formasında nəzər salınır. Dilin təbiətini yalnız insan və bütövlükdə insanın dünyası əsasında başa düşmək olar. Dil sözün tam mənasında insanın bir əsəridir və dildə, ustadın hər bir əsərində olduğu kimi insanın şəxsiyyəti öz əksini tapır.

Söhbət insandan gedir – yalnız dil ifadələrinin adi bir passiv referentindən deyil, məhz onların fəal şərhçisindən, yalnız adi bir dil daşıyıcısından deyil, məhz hər şeydən əvvəl və vacib müəyyən konseptual sistemlərin daşıyıcısından söhbət gedir və bu sistemlər əsasında o, dili anlayır, dünyanı dərk edir və digər dil daşıyıcıları ilə ünsiyyət qurur.

Dil hadisələri insan üçün intellektual və həyati baxımdan əhəmiyyətlidir, eyni zamanda nitq subyektinin daxili ehtiyaclarını əks etdirir, fərdlərin ünsiyyət davranışına təsir göstərən fəal vasitə kimi xidmət edir və onların dünyaya baxış mövqelərini formalaşdırır. Məhz dilin interaktiv

potensialının bu əhəmiyyəti və dinamikası onun yalnız dil fənləri üzrə deyil, həm də psixologiya, fəlsəfə, linqvodidaktika və hətta kriminalistika elmi kimi bir sıra elmlərdə fəal öyrənilməsini şərtləndirir.

Dilin xüsusiyyətləri o qədər bənzərsizdir ki, mahiyyət etibarilə dildə bir deyil, bir neçə quruluşun olması və bu quruluşların hər birinin bütöv bir dilçiliyin yaranmasına zəmin ola bilməsi barədə danışmaq olar. Dil insanın kriteriyaları əsasında yaradılır, bu miqyas dilin özünün təşkilində həkk olunmuşdur; və dil də buna uyğun olaraq öyrənilməlidir. Buna görə də dilçilik əsas gövdəsi etibarilə həmişə insanda dil haqqında və dildə insan haqqında humanitar bir elm olacaqdır.

Beləliklə, insanın dünyada və dildə aparıcı rolunun dərki dilçiliyin antroposentrik prinsipə yön almasına səbəb oldu. İnsan müasir dilçiliyin mövzusu, vəzifələri, metodları və dəyər istiqamətlərini müəyyənləşdirən koordinatların keçdiyi mərkəzdir. Dilçiliyin antroposentrik paradiqması insana "hər şeyin ölçüsü" statusunu geri verdi və onu kainatın mərkəzinə qaytardı.

Dilin semantik quruluşu subyektiv reallığın quruluşu, təfəkkür formaları və prosesləri ilə əvvəlcədən təyin olunur və insanın dünyada istiqamətini əks etdirir. Antropoloji paradiqma insanı birinci yerə gətirib çıxarır, dil isə onu ən vacib xüsusiyyəti, varlığının şərti adlandırır. İnsanın intellekti, zəkası dil xaricində ağlasığmazdır. İnsan tərəfindən yaradılan mətnlər düşüncə dinamikasını və düşüncə proseslərinin təqdimat üsullarını dil vasitələrindən istifadə edərək özündə əks etdirir. Bu paradiqma çərçivəsində koqnitiv dilçilik, linqvokulturologiya və s. kimi sahələr formalaşır. İnsanın yaratdığı mətnlərin təhlili yolu ilə insan fəaliyyətinin mental (əqli, zehni) sferası üzrə tədqiqatların aktuallığı mədəniyyətin təsvirinə hermenevtik yanaşmanın həyata keçirilməsi ilə təsdiqlənir. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, mədəniyyət məlumat mənbəyi, insanın mədəni nailiyyətlərinin nəticəsi olan mətnlər toplusu kimi qəbul edilir. Qrammatikaya antroposentrik yanaşma məhz dil və nitq arasındakı mürəkkəb və eyni zamanda ahəngdar əlaqələrin qanunauyğunluqlarını – özünəməxsus yaradıcı nitqin müxtəlif növ və janrlarının dil sistemində həkk olunmuş hər bir şeyi lazımi dərəcədə həyata keçirmək qabiliyyətini aşkar etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, yeni antroposentrik paradiqma elmdə dərin tarixi köklərə malikdir.

Antropoloji əsaslarla dil haqqında elm yaratmaq ideyasını irəli sürən ilk alimlərdən biri də görkəmli alman alimi Vilhelm fon Humboldtdur. Onun fikrincə, "dil öyrənmək özündə son hədəfi istisna etmir, əksinə bütün digər sahələrlə birlikdə insan ruhunun ortaq istəklərinin ən yüksək və ortaq məqsədinə, insan ruhunun özünü və öz ətrafında görünən və gizlənmiş hər şeyə münasibətini bilmək məqsədinə xidmət edir" (Гумбольдт, 2000: c.234).

V. fon Humboldt tərəfindən irəli sürülən fikirlər Aleksandr Afanasyeviç Potebnyanın elmi araşdırmalarında öz əksini tapmışdır. O, dilin inkişafı haqqında düşünərək Humboldtun ardınca onun antroposentrik xarakterini təsdiqləyir: "Həqiqətdə dil yalnız cəmiyyətdə inkişaf edir və bununla yanaşı yalnız ona görə yox ki, insan həmişə mənsub olduğu bütövün, yəni qəbiləsinin, xalqının, bəşəriyyətin bir hissəsidir, ictimai fəaliyyət imkanlarının şərtləri kimi qarşılıqlı anlaşmaya ehtiyac duyur, həm də ona görə ki, insan yalnız başqaları tərəfindən sözlərinin anlaşıldığını hiss etdikdən sonra özü özünü başa düşür" (Потебня, 1999: c.87).

Emil Benvenist dil ilə insan arasındakı ayrılmaz əlaqəni bu cür izah edir: "İnsanı dilsiz təsəvvür etmək və insanın özünün özünə dil icad etməsi mümkün deyildir. Dünyada yalnız dili olan insan, başqa bir insanla danışan insan var və bu səbəbdən də dil mütləq insanın müəyyən edilməsinə aiddir. İnsan məhz dildə və dil sayəsində subyekt olaraq müəyyən edilir" (Бенвенист, 2002: c.293).

Bildiyimiz kimi, nitq axınında müəyyən dil resurslarının istifadəsi birbaşa olaraq qarşılıqlı fəaliyyətin hər iki iştirakçısının fərdi, sosial-mədəni, linqvistik, praqmatik, kommunikativ, idraki xüsusiyyətlərindən asılıdır. Bu zaman məlumat alanın rolu əhəmiyyətli hesab olunur: o, linqvistik ünsiyyətin yazılı və ya şifahi, real və ya vasitəçiliklə mövcud olan parametrlərini bir çox mənada müəyyənləşdirir.

Vladimir Mixayloviç Alpatov "Dilə antroposentrik və sistemosentrik yanaşmalar haqqında" əsərində məhz antroposentrik yanaşmanın tarixən ilkin olduğunu qeyd edərək bildirir ki, bu

yanaşmada tədqiqatçı dili dil daşıyıcısı kimi araşdırır və bununla yanaşı özünün dil daşıyıcısı kimi tez-tez linqvistik intuisiya olaraq adlandırılan təsəvvürlərinin dərk və təsvir olunmasına əsaslanır. Dil təhlilinə sistemosentrik, yəni sistemlilik prinsipinə əsasən yanaşma haqqında danışarkən müəllif qeyd edir ki, bu yanaşma zamanı dil fərddən asılı olmayaraq müstəqil fəaliyyət göstərən bir sistem kimi başa düşülür və bu da onun təbiət elmləri metodlarından istifadə edilərək öyrənilməsinə imkan verir. O, "dilin istənilən tədqiqi dərin antroposentrikdir, yalnız təhlilin hansı mərhələsində intuisiyaya əsaslanmalı olduğumuzun, hansı mərhələsində isə yoxlanıla bilən ciddi metodlardan istifadə etməli olduğumuzun fərqində olmalıyıq" deyə iddia edir (Алпатов, 1993: c.21).

Tomas Kunun "Elmi inqilabların quruluşu" kitabı dilçilik və digər humanitar elmlərə əhəmiyyətli təsir göstərdi. Bu kitab elm tarixini "müəyyən bir müddət ərzində elmi ictimaiyyətə problemin qoyuluşu və onların həlli üçün bir model təqdim edən, hamı tərəfindən tanınan elmi nailiyyətlər" kimi başa düşülən bir paradiqma dəyişikliyi şəklində təqdimetmə meylinə səbəb oldu (Кун, 2020: c.17).

Dilin ayrılmaz xüsusiyyəti, bütövlükdə antroposentrik sistem vasitəsilə özünü büruzə verən özünəxas antroposentrikliyidir. Dil insanın yaşadığı və fəaliyyət göstərdiyi mühitin ayrılmaz bir hissəsi kimi ən vacib funksional-fərqli xüsusiyyətidir. Dil yalnız danışıq, nitq deyil. Dil insanın bütün daxilinin – ağlının, ürəyinin obrazıdır; o, zehni və əxlaqı olan bütün qüvvələrin tərbiyəsinin ifadəçisidir. Dil təbiətinin dərinliyinə qədər dərin mənada bütöv bir insandır. İnsan dilin mövcudluğunun əsas şərtidir və dil, öz növbəsində, sanki insanın fərdi olmasına və özünü ifadə etməsinə imkan verən ürəkdir. İnsanın mülkiyyəti olan dil canlı bilikdir və canlı biliyə xas olan bütün xüsusiyyətlərə və əlamətlərə malikdir. Dil şüurunun etnomədəni spesifikliyi canlı biliklərin formalaşması və fəaliyyətinin xüsusiyyətləri ilə müəyyən edilir. Dil və insan bir-birindən ayrılmazdır. Dil insandan kənarda, insan da dildən kənarda mövcud deyildir. Müvafiq olaraq da, insan dildən və dil də insandan kənarda öyrənilə bilməz. Bu səbəbdən də, dilin fəaliyyəti ilə bağlı məsələlərin öyrənilməsində antroposentrik yanaşma təməl halına gəlmişdir. "Dili insandan yan keçərək öyrənmək mümkün deyil", "bütün tədqiqat koordinatları insanda mərkəzləşməlidir" kimi fikirlər getdikcə daha çox əhəmiyyət kəsb edir.

Psixi əksetmənin ən yüksək forması kimi şüur sahibi olması insanın digər vacib funksional-fərqli xüsusiyyətidir. Müxtəlif ölkələrdə və müxtəlif fənlərin inkişaf istiqamətləri üzrə aparılan son tədqiqatlarda insanın şüur quruluşlarının, onların arxasında dayanan proseslərin, bu quruluş və proseslərdə dilin yeri və rolunun təsdiqlənməsi haqqında ifadə verən oxşar məqamlar və şərhlər iştirak edir. Başqa sözlə desək, dili özünə yetərli bir qapalı sistem kimi qəbul etməkdən uzaqlaşmaq və dili fərdin mülkiyyəti olaraq öyrənmək lazımdır, bu da o deməkdir ki, fərdi şüur və şüuraltındakı sözün və ya istənilən dil vahidinin arxasında nəyin dayandığını və real nitq-düşünmə proseslərini öz inkişaf dinamikasında öyrənmək lazımdır.

Uzun müddət dilçilikdə hakim mövqe tutan sistemosentrizm daha çox təsviri xarakter daşıyırdı, bununla yanaşı "linqvistik" və "qeyri-linqvistik"i tam şəkildə bir-birindən ayırmaq və yalnız birinci ilə məşğul olmaq istəyi bir növ çıxılmaz vəziyyətə gətirib çıxardı: çox sayda dil faktlarının təsvirinin toplanmasına baxmayaraq bu cür nəzəriyyələrin əhatəsi dilin fəaliyyət mexanizmlərini adekvat olaraq əks və izah edən modellərin yaradılmasına imkan vermir. Məhz dil sisteminin hüdudlarından kənara çıxılması və "insan – dil" diadasının (cütlüyünün, ikilisinin) hər iki tərkib komponentinin əhəmiyyətinin dərk edilməsi dünyanın sadəlövh mənzərəsinə, dil daşıyıcısının gündəlik şüuruna marağı müəyyən etdi, və bu da dil və şüur arasındakı əlaqəni yeni bir rakursda görməyə imkan verdi. Yelena Samuilovna Kubryakovaya görə, mərkəzi problemlərdən biri, "dilin (həm genezisinə, həm də real sinxron vəziyyətinə və funksionallığına görə) quruluşu və təşkilinin dünyanın insan şüuru ilə qavranılmasının ümumi prinsiplərindən asılılığı" problemidir (Кубрякова, 1991: c.31).

Müasir dilçilikdə baş verən insana tərəf dönüş bunların vacibliyini nəzərdə tutur: Əvvəla, müasir dillər öz real mövcudluğu ilə əsas tədqiqat obyekti və material mənbəyinə çevrilir; dinamik

yanaşma aparıcı yer tutur; tədqiqat zamanı intuisiya və introspektiv üsullardan istifadə qanunauyğun sayılır; digər elmlərlə yaxınlaşma baş verir. Bu yaxınlaşma yalnız sosiolinqvistika, etnolinqvistika, neyrolinqvistika və s. kimi bir çox həmsərhəd fənlərin yaranması ilə sübut edilmir. Həmçinin dilçiliyin metadilini mükəmməlləşdirmək və adekvat bir konseptual aparat inkişaf etdirmək məqsədilə yalnız təsvir üçün deyil də, ilk növbədə dil hadisələrinin izahı üçün müxtəlif bilik sahələrində – psixologiya, biologiya, antropologiya, neyrofiziologiya, sosiologiya və bir çox digər sahələrdə aparılan tədqiqat nəticələrinin aktiv bir inteqrasiyası baş verir. Linqvistik tədqiqatlarda yeni yanaşmanın spesifikliyini formalaşdıran nəzəri müddəaların yalnız psixologiya, fiziologiya, psixolinqvistika və digər elmlərin qovşağında deyil, sadalanan elmlərin obyektlərini eyni dərəcədə adekvat təsvir edən linqvomental universalilərin hesablanması nəticəsində meydana gəldiyi xüsusilə vurğulanır.

Antroposentrizm insanı vahid bir fenomen kimi araşdırmağa çağırır. Müasir antroposentrik dilçiliyin mərkəzində "dil şəxsiyyəti" anlayışı, yəni nitq hərəkətlərini yerinə yetirmə qabiliyyətində olan bir şəxs dayanır. İnsan öz dili ilə əlaqəli dil şəxsiyyəti statusu alır. Dil şəxsiyyəti antroposentrik paradiqmanın əsas obyektidir. Bu fenomenin təhlili fərdin həm koqnitiv və kommunikativ qabiliyyətlərinin və dünyagörüşünün modelləşdirilməsi, həm də şüura və məlumatın işlənməsinin əqli mexanizmlərinə yönəlmiş etnomədəni baxış bucağı ilə şərtlənir.

Dil şəxsiyyəti kateqoriyası insanın xüsusiyyətləri baxımından sosial əhəmiyyətli bir vahid kimi fəlsəfi, sosioloji, psixoloji baxışları nəzərə alaraq fərdin fiziki və mənəvi parametrlərinin məcmusu ilə spesifik keyfiyyət xüsusiyyətlərini özündə əks etdirən fənlərarası termindir.

Şəxsiyyət mədəniyyət və dil arasındakı münasibətlərin mərkəzidir, onların inkişaf dialektikasıdır. Buna görə şəxsiyyətdən yalnız dildə təcəssüm olunan dil şəxsiyyəti kimi danışmaq olar.

Zənnimizcə, insanın məhz özü sosial mahiyyət olan dilə görə sosial subyekt kimi mövcud olduğunu söyləmək böyük bir mübaliğə olmazdı, çünki dil mədəniyyətin vektorları olan həm fərdin, həm də kollektivin dil şüurunda mövcuddur. Dil şüuru dil koqnisiyasının şərti şkalası kimi limitli iki məqama malikdir: etnos və fərd. Dil sanki insanın surəti və bənzəri üzrə yaradılır, insanın miqyas və standartları dil quruluşlarında sabitləşir və dil məhz bu standartlarla öyrənilməlidir.

Şüur insanın danışdığı dildən ayrılmazdır. Eyni zamanda dil şüurun bir aləti kimi fərd və dilin linqvistik formalarda göstərdiyi dünya mənzərəsi arasında vasitəçi rolunu oynayır. İnsan və dünyanın dil mənzərəsi milli dildə həkk olunmuş bir sıra anlayışlar, təsəvvürlər və obrazların əhatəsi əsasında bir-birinə bağlıdır və bir-birindən asılıdır. Fərd dildə "böyüdükcə" xarici və daxili aləmin linqvistik formalara və qavrama metodlarına uyğunlaşaraq onları mənimsəməyə ehtiyac duyur. Əslində insan dil birliyinin kollektiv nümayəndəsi olaraq danışdığı dilin tam hüquqlu sahibi deyil, çünki dil özü eyni millətə, ortaq mədəniyyətə və ənənəyə məxsus insanların dili ilə formalaşır.

Müasir antroposentrik dilçilik "dil şəxsiyyəti" anlayışına onu nitq aktını həyata keçirmə qabiliyyəti nöqteyi-nəzərindən nəzərə alaraq getdikcə daha çox müraciət edir. Akademik Viktor Vladimiroviç Vinoqradov onun sistemliliyini nəzərə alır və bədii ədəbiyyat diskursunun materialına əsaslanan fərdi və kollektiv parametrlər nəzərə alınaraq nəzərdən keçirilməsini təklif edir. Alim "müəllif obrazı" və "bədii obraz" anlayışlarını inkişaf etdirərək bu fenomenlərin ədəbi əsərdə vahid dil şəxsiyyəti anlayışına (dastançı obrazı, yəni danışanın obrazı, personajın bədii obrazı və s.) sintez olunduğu qənaətinə gəlir. Viktor Vladimiroviç ilk dəfə olaraq konkret yazıçıların (Puşkin, Qoqol, Lermontov) dil portretlərini tərtib etmişdir (Виноградов, 2003: c.120).

Fərdin dil məkanında, ünsiyyət modellərində, dildə əks olunan stereotip vəziyyətlərdə varlığı insan dünyagörüşünün linqvistik alqoritmlərinin rekonstruksiyası, yəni yenidən qurulması üçün məhsuldar bir materialdır. Dil şəxsiyyəti səviyyə xüsusiyyətlərinə (struktur-linqvistik mürəkkəblik, reallığın əks olunmasının adekvatlığı, aksioloji istiqamət) görə fərqlənən nitq əsərlərinin (mətnlərinin) insan tərəfindən yaradılmasını şərtləndirən insanın qabiliyyət və xüsusiyyətlərinin

məcmusudur. Dil şəxsiyyətinin verilmiş tərifi bu kateqoriyanı statikada və fəaliyyət dinamikasında nəzərdən keçirməyi nəzərdə tutur.

Dil şəxsiyyəti mədəni baxımdan şərtləndirilmiş ssenari çərçivəsində baş verən tipik kommunikativ vəziyyətlərdə şifahi şəkildə ifadə olunan imbrikasiya konsepsiyasıdır, eyni zamanda mədəniyyətin siqnifikatı – işarəsi, siqnaturası – imzası, millətin dil identifikasiyasının konseptual potensialıdır.

Bunlarla yanaşı, milli dil şəxsiyyəti anlayışına üzvi surətdə daxil olaraq milli mədəniyyət və ünsiyyətdən ayrılmaz olan peşəkar dil şəxsiyyəti kateqoriyasından da bəhs etməmək mümkün deyil. "Danışan" peşəkarın hər hansısa bir fərdiləşdirmə dərəcəsinə malik olmasından asılı olmayaraq, onun şəxsi xüsusiyyətləri etnosun etnolinqvistik xüsusiyyətlərindən kənar hesab edilə bilməz və bu zaman belə olan halda dil səriştəsinin optimallığı mütləq deyil, milli köklərə aid daxili hisslərin olması yetərlidir.

Mütəxəssisin dil şəxsiyyəti, ünsiyyət quranların xarici dildə şifahi və yazılı formada peşəkar məlumat mübadiləsini reallaşdırmaq, dil daşıyıcıları ilə təbii (birbaşa və dolayı yolla) ünsiyyət prosesində peşə baxımından əhəmiyyətli biliklərin axtarışı, toplanılması və genişləndirilməsini müstəqil şəkildə həyata keçirmək baxımından potensial qabiliyyətidir.

"Peşəkar dil şəxsiyyəti" termininin semantik məzmunu ilk növbədə, dilin peşə məqsədlərinə çatmaq üçün nitq subyektinin əsas fəaliyyətinin həyata keçirilməsinə uyğun olaraq istifadəsi kimi müəyyən edilir.

Dil şəxsiyyəti, xüsusən də müəllimin dil şəxsiyyəti, peşəkar-pedaqoji (akademik) diskursun fəaliyyət göstərməsi prosesində aktuallaşdırılır. Peşəkar dil şəxsiyyəti üçün sahə terminologiyası dünyanın ən azı iki linqvistik mənzərəsinin təzahürünün linqvistik əsası kimi özünü göstərir. Burada söhbət peşə və gündəlik diskursların bir-birinə olan təsirindən gedir. Bu zaman peşəkar fəaliyyət elementləri gündəlik ünsiyyət davranışına qismən yayılır, yəni müəllim qeyri-tədris mühitində ünsiyyət qurduqda belə müəllim olaraq qalır.

Beləliklə, dil şəxsiyyəti dil vasitəsilə özünü göstərir və daimi ünsiyyət xüsusiyyətlərinə malikdir. Koqnitiv baza və koqnitiv məkanın vəhdəti əsasında bütün milli dil daşıyıcılarını birləşdirən bir etnolekt formalaşır. Kollektiv dil şəxsiyyəti etnomədəniyyətin simvolu kimi şərh oluna bilər. Tək, nadir dil şəxsiyyəti linqvistik baxımdan rekonstruksiya oluna bilən, yəni yenidən qurula bilən simvolik bir potensiala sahib ola bilər. Linqvistik təhlil dil şəxsiyyətinin etnomədəni komponentinin müəyyənləşdirilməsindən əvvəl gəlir. Dil şəxsiyyətinin rekonstruksiyası üçün müxtəlif fənlərin – koqnitivistika, psixolinqvistika, etnolinqvistika, linqvokulturologiya və s.-nin metodları nəzərə alınaraq linqvistik metodların bütün arsenalından istifadə olunur.

Bu gün dil şəxsiyyəti fenomenini kifayət qədər genişləndirilmiş bir sıra formasını şərh etmək olar:

Elit dil şəxsiyyəti – Elit tipin daşıyıcıları ədəbi dilin bütün normalarını bilən, etik və ünsiyyət normalarını yerinə yetirən insanlardır. Bu, yalnız kodlaşdırılmış normalara deyil, həm də ədəbi dilin funksional-üslubi fərqliliyinə, şifahi və ya yazılı nitqin istifadəsi ilə əlaqəli normalara riayət deməkdir.

Emosional dil şəxsiyyəti – duyğular insanın dünyaya və özünə bu dünyada münasibətinin spesifik bir formasıdır, eyni zamanda insanın leksikonunda və nitq fəaliyyətində onun dil vasitəsilə əksidir.

İnstitusional dil şəxsiyyəti və bu tip şəxsiyyətin xüsusi bir halı kimi – akademik dil şəxsiyyəti. Praqmatik funksiyanı institusional şəxsiyyətin əsas funksiyası hesab etmək təklif olunur, başqa sözlə desək, dil daşıyıcısının şüuruna nitq vasitəsilə təsir məqsədi ilə dil vasitələrindən istifadə mexanizmi nəzərdə tutulur. İnstitusional formatlı dil şəxsiyyəti milli dilin və uzusun ideoloji (hər müəllim mənsub olduğu partiyanın ideologiyası və frazeologiyasının mərkəzi vektoru kimi çıxış edə bilər), psixo-emosional (bu səviyyə müəllimin kommunikativ davranışının şəxsi parametrlərini istifadə olunan ifadələr və ya frazeologiyanın emosional parametrləri baxımından əks etdirir; dil şəxsiyyətinin

frazemikasının emosionallığı neytral, orta, yüksəldilmiş kimi intensivlik terminlərində müəyyən edilə bilər), etnomədəni (hər müəllim mənsub olduğu dil cəmiyyətinin görkəmli nümayəndələrindən biridir; dil şəxsiyyətinin ifadələrinin etnik-mədəni xüsusiyyətləri istifadə tezliyi üzrə, xüsusən ana dilinin idiomatik fondu ilə müəyyən edilir), tematik (bu səviyyə nəzərdən keçirilən fərdlərin nitq təzahürlərindəki dil vahidlərinin üstünlük təşkil edən tematik qruplarını nümayiş etdirir; diskursdakı dominant tematik materialın müqayisəli bölgüsünə əsaslanaraq, istənilən ünsiyyət subyektinin dil şəxsiyyətinin əhəmiyyətli xüsusiyyətlərini təsvir etmək mümkün görünür) elementlərinin xüsusiyyətləri nəzərə alınmaqla qurula bilər.

Beləliklə, həm yerli, həm də xarici tədqiqat cəmiyyətində keçən əsrin və bu günün antroposentrik elmi bilik paradiqması dilçilikdə linqvopersonal istiqamətin yaranmasına kömək edir. Humanitar elm alimlərinin və dilçilərin tədqiqatının mərkəzi vahidi insandır – dil şəxsiyyətidir. Bu kateqoriya dünyanın dil mənzərəsi məkanında fəaliyyət göstərir ki, bu da çoxsəviyyəli vəhdət olmaqla dil mədəniyyətinin dünyagörüşü sistemini və şəxsin milli-mədəni statusunu müəyyənləşdirməyə zəmin yaradır.

Dilçilikdə antroposentrik prinsip "insan – dil" diadasındakı dil hadisələrini öyrənmək istəyi və dilin işarə sistemi kimi və insanın koqnitiv əlamətlərindən biri olan əqli fenomen kimi ikili təbiətini ardıcıl nəzərə almağın zəruriliyi deməkdir.

Antroposentrik yanaşma hal-hazırda insanla bu və ya digər dərəcədə əlaqəli bütün elmlərdə həlledici yanaşma halına gəlmişdir. Antroposentrizm prinsipinin irəli sürülməsindən qaynaqlanan insandan bəhs edən elmlərdəki ümumi elmi paradiqma dəyişikliyinə uyğun olaraq, əsas anlayışlara və metodoloji münasibətlərə yenidən baxılır. Antroposentrizm tədqiqatın əsas prinsipi kimi insanı, ilk növbədə fərdin həyat fəaliyyətinin təmin olunmasında rolu, məqsədi və funksiyalarına görə nəzərdən keçirildiyi elmi obyektlərin təhlili və öyrənilməsində istinad nöqtəsinə çevirir.

Dilçiliyin antroposentrik paradiqması, müqayisəli-tarixi və sistem-quruluş paradiqmalardan fərqli olaraq, insanı dil reallığının mərkəzi kimi tanıdı və müvafiq olaraq da, dil təhlilini dilin insan şüuru, düşüncəsi, mədəniyyəti, əməli və mənəvi fəaliyyətləri ilə sıx əlaqədə qavranılmasına yönəlmiş insan amilinin təmsil olunması baxımından ön plana çəkdi.

Dildə insan amilinin və ya antroposentrizmin ardıcıl tədqiqi, insan varlığını təyin edən geniş fenomenlərin (təfəkkür, şüur, psixika, cəmiyyət, etnik mənsubiyyət, mədəniyyət və s.) öyrənilməsini gündəmə gətirdi. Bu eyni zamanda antroposentrik xarakterli bir sıra yeni elmi fənlərin – koqnitiv dilçilik, psixolinqvistika, sosiolinqvistika, etnolinqvistika, linqvokulturologiya, kommunikativ dilçilik, linqvistik praqmatika və s.-nin inkişafına köməklik göstərdi.

Hal-hazırda antroposentrik paradiqma müasir elmi biliklər sistemində mərkəz mövqe tutur. Gördüyümüz kimi, müasir dövrdə aktual olan antroposentrik yanaşma insan fəaliyyətinin şəxsi və sosial aspektlərinə marağı artırdı. Dilin antroposentrikliyi ideyası hal-hazırda hamı tərəfindən qəbul edilmiş hesab edilə bilər, çünki bir çox dil quruluşu üçün insan haqda təsəvvür təbii bir başlanğıc nöqtəsi kimi çıxış edir.

İstifadə edilmiş ədəbiyyat

1. Алпатов В.М. (1993). Об антропоцентричном и системоцентричном подходах к языку // Вопр. языкознания. – М.: Наука, № 3. – С. 15-26.
2. Бенвенист Э. (2002). Общая лингвистика / пер. с фр.; общ. ред., вступ. ст. и коммент. Ю. С. Степанова. Изд-е 2-е, стереотипное. – М.: Едиториал УРСС. – 448 с.
3. Виноградов В.В. (2003). Избранные труды. Язык и стиль русских писателей: От Гоголя до Ахматовой / В.В. Виноградов; Отв. ред. А.П. Чудаков; РАН, Ин-т рус. яз. им. В.В. Виноградова. – М.: Наука. – 390 с.
4. Гумбольдт В. Фон. (2000). Избранные труды по языкознанию: Пер. с нем. / Общ. ред. Г.В. Рамишвили; Послесл. А.В. Гулыги и В.А. Звегинцева. – М.: ОАО ИГ «Прогресс». – 400 с.

5. Кубрякова Е.С. (1991). Человеческий фактор в языке. Язык и порождение речи / Е.С. Кубрякова, А.М. Шахнарович, Л.В. Сахарный; отв. ред. Е.С. Кубрякова; АН СССР, Ин-т языкознания. – М.: Наука. – 238 с.
6. Кун Т. (2020). Структура научных революций. – М.: «АСТ». – 320 с.
7. Потебня А.А. (1999). Полное собрание трудов: мысль и язык / А.А. Потебня. – М.: Лабиринт. – 300 с.

UOT: 811.111

COMMUNİCATİVE TECHNOLOGIES OF IDEOLOGIZATION OF MASS CONSCIOUSNESS IN POLITICAL DISCOURSE

Gular Sadigova
Senior lecturer, PhD student
Ganja State University, Baku State University, Azerbaijan
gularnabiyeva@gmail.com
Orcid id: 0000-0002-2054-5900

Abstract: Political activity has always played a special role in the life of society. A country's place in the international arena, its relationship with other states, and its role in the activities of the world community depend on a certain political position or situation. However, an important role in defining the country's image is played by the way it is presented by the political leaders of a given state. Through speeches, politicians have the opportunity to reach out to both the international community and the citizens of their country. Mass consciousness manipulation is one of the ways to control people by creating illusions or conditions for controlling behavior. This influence is directed to the mental structures of a person, is carried out covertly and sets as its task to change the opinions, motives and goals of people in the direction necessary for a certain group of people. Within the framework of political discourse, like any other sphere of society's life, communicative technologies are used to influence public consciousness, shaping it in a given direction. It should be noted that all the communicative tactics of ideologizing the mass consciousness in political discourse are directly related to language, namely, to its language manipulations. Language use is one of the most visible manifestations of ideology. Language and ideology are interrelated, since language can display, create and preserve ideological structures, through it one can better understand the ideology of a politician.

Key words: political discourse, communicative technologies, persuasion, argument, manipulation

SİYASİ DİSKURSDA KÜTLƏ SÜURUNUN İDEOLOGİZASİYASININ KOMMUNİKATİV TEXNOLOGİYALARI

Sadıqova Gülər Fizuli
Baş müəllim, dissertant
Gəncə Dövlət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan

Xülasə: Siyasi fəaliyyət cəmiyyətin həyatında həmişə xüsusi rol oynamışdır. Bir ölkənin beynəlxalq aləmdəki yeri, digər dövlətlərlə münasibətləri və dünya birliyinin fəaliyyətindəki rolu müəyyən bir siyasi mövqedən və ya vəziyyətdən asılıdır. Bununla birlikdə, ölkənin imicinin müəyyənləşdirilməsində mühüm rol müəyyən bir dövlətin siyasi liderləri tərəfindən təqdim olunma yolu ilə oynanır. Çıxışlarla siyasətçilər həm beynəlxalq ictimaiyyətə, həm də ölkələrinin vətəndaşlarına müraciət etmək imkanına sahibdirlər. Kütləvi şüur manipulyasiyası davranışı idarə etmək üçün illüziyalar və ya şərtlər yaradaraq insanları idarə etməyin yollarından biridir. Bu təsir bir insanın əqli quruluşlarına yönəldilir, gizli şəkildə həyata keçirilir və insanların fikirlərini, motivlərini və hədəflərini müəyyən bir qrup insan üçün lazım olan istiqamətdə dəyişdirməyi öz vəzifəsi olaraq qarşısına qoyur. Siyasi diskurs çərçivəsində, cəmiyyətin həyatının digər sahələri kimi, ictimai şüura təsir göstərmək, onu müəyyən bir istiqamətdə formalaşdırmaq üçün kommunikativ texnologiyalardan istifadə olunur. Qeyd etmək lazımdır ki, siyasi diskursda kütlə şüurunu ideoloqlaşdırmağın bütün kommunikativ taktikaları birbaşa dillə, yəni dil manipulyasiyaları ilə əlaqəlidir. Dil istifadəsi ideologiyanın ən çox görünən təzahürlərindən biridir. Dil və ideologiya bir-biri ilə əlaqəlidir, çünki dil ideoloji quruluşları nümayiş etdirə, yarada və qoruya bilər, bunun sayəsində bir siyasətçinin ideologiyasını daha yaxşı başa düşmək olar.

Açar sözlər: siyasi, diskurs, kommunikativ texnologiyalar, inandırma, mübahisə, manipulyasiya

Uzun illərdir ki, diskurs anlayışının tərifi dilçiliyin problemlərindən biri olmuşdur. Dilçilik kateqoriyası kimi diskurs mürəkkəb və birmənalı olmayan tədqiqat obyektidir. Bu çətinlik diskursun bir tərəfdən nitq və ünsiyyət, linqvistik davranışla digər tərəfdən qeyd olunan mətn arasında ara xarakterli bir fenomen olmasıdır.

Müasir dilçilikdə diskurs tərifləri çoxdur. E. Benveniste "diskurs" terminini dilçiliyə ilk tətbiq etmişdir. O, diskursu subyektin açıq müdaxiləsi olmadan açılan hekayədən fərqli olaraq, natiq tərəfindən mənimsənilmiş nitq olaraq təyin edir. (Бенвенист, 1978: s.129)

Hollandiyalı alim T.A. Van Deyk diskursu geniş və dar mənada başa düşməyi təklif edir. Geniş mənada diskurs (mürəkkəb kommunikativ hadisə kimi) spesifik və müvəqqəti bir məkan kontekstində ünsiyyət fəaliyyəti prosesində danışan, dinləyən (müşahidəçi və s.) arasında baş verən ünsiyyət hadisəsidir (Dijk, 1995: s. 243). Bu kommunikativ fəaliyyət şifahi, yazılı, şifahi və qeyri-şifahi komponentlərdən ibarət ola bilər. Tipik nümunələr bir dostla gündəlik söhbət, həkimlə xəstə arasında dialoq və qəzet oxumaqdır.

Dar mənada diskurs (mətn və ya söhbət kimi) "mətn" və ya "söhbət" adlandırılan kommunikativ fəaliyyətin şifahi komponentidir. Bu mənada, diskurs termini qəbuledicilər tərəfindən şərh olunan bir kommunikativ fəaliyyətin, onun yazılı və ya nitq nəticəsinin tamamlanmış və ya davam edən “məhsulu” deməkdir (Dijk, 1996: s. 7). Yəni diskurs ən ümumi mənada kommunikativ bir fəaliyyətin yazılı və ya şifahi nitqlə məhsuludur.

M. Stubbs diskursun üç əsas xüsusiyyətini ayırd edir: 1) formal olaraq cümləni həcmcə aşan bir dil vahididir, 2) məzmununa görə diskurs dilin sosial kontekstdə istifadəsi ilə əlaqələndirilir, 3) təşkil formasına görə diskurs interaktivdir, yəni dialoq şəklindədir [Stubbs1983: s. 15].

Diskurs növləri arasındakı daha spesifik fərqlər janr konsepsiyasından istifadə edərək təsvir olunur, məsələn: "xəbər diskursu", "siyasi diskurs", "elmi diskurs” və s.

Siyasi fəaliyyət cəmiyyətin həyatında həmişə xüsusi rol oynamışdır. Bir ölkənin beynəlxalq aləmdəki yeri, digər dövlətlərlə münasibətləri və dünya birliyinin fəaliyyətindəki rolu müəyyən bir siyasi mövqedən və ya vəziyyətdən asılıdır. Bununla birlikdə, ölkənin imicinin müəyyənləşdirilməsində mühüm rol müəyyən bir dövlətin siyasi liderləri tərəfindən təqdim olunma yolu ilə oynanır. Çıxışlarla siyasətçilər həm beynəlxalq birliyə, həm də ölkələrinin vətəndaşlarına müraciət etmək fürsətinə sahibdirlər (Тибинько, 2011: s. 134-137).

Siyasi diskurs institusional diskursun bir formasıdır, eyni zamanda sosial sferada siyasətlə məhdudlaşan bir janrdır. Həm ümumi linqvistik, həm də yalnız siyasi söhbətə xas olan bir janr quruluşuna (niyyətli, aktual, virtual, kontekstual və psixoloji planlar) və çoxsaylı funksiyalara malikdir. Siyasi diskursun məqsədi təsvir etmək deyil, ünvan sahibindəki niyyətləri oyandırmaq, inandırmağa zəmin vermək və siyasi danışıqların manipulyasiya yönümünün özünü büruzə verdiyi hərəkətə vadar etməkdir. Niyyətli yönəldildiyi zaman inteqrasiya, oriyentasiya və təcavüzkarlıq nitq fəaliyyətindən kənar məqsədə uyğun olaraq geniş istifadə olunur.

Siyasi ünsiyyətin əsas konsepsiyaları inandırıcılıq (ünsiyyət prosesində inandırmaq məqsədi ilə praqmatik-nitq təsiri) və tövsiyyədir (ünvan sahibinin idrak sisteminə təsir: ünvan sahibinin psixikasına, hisslərinə, iradəsinə və ağlına təsir prosesi).

Kütləvi şüur manipulyasiyası davranışı idarə etmək üçün xəyallar və ya şərait yaradaraq insanları idarə etməyin yollarından biridir. Bu təsir bir insanın əqli quruluşlarına yönəldilir, gizli şəkildə həyata keçirilir və insanların fikirlərini, motivlərini və hədəflərini müəyyən bir qrup insan üçün lazım olan istiqamətdə dəyişdirməyi öz vəzifəsi kimi qoyur.

Siyasi diskurs çərçivəsində, cəmiyyətin həyatının digər sahələri kimi, ictimai şüura təsir göstərmək, onu müəyyən bir istiqamətdə formalaşdırmaq üçün kommunikativ texnologiyalardan istifadə olunur.

Şüurla manipulyasiya etmək istəyənlərin məqsədi obyektlərə elə işarələr verməkdir ki, bu işarələri kontekstə daxil edərək, bu kontekstin görüntülərini qavrayışlarında dəyişdirsinlər. Onlar mətnlərinin və ya hərəkətlərinin reallıqla bu cür əlaqələrini təklif edir, şərhlərini tətbiq edirlər ki, reallıq fikri manipulyatorun istədiyi istiqamətdə təhrif olunsun. Bu, davranışa təsir edəcəyini və obyektlərin öz istəklərinə uyğun olaraq hərəkət etdiklərindən əmin olacaqlarını göstərir. Manipulyatorun məqsədi obyekti zərif şəkildə seçimə gətirməkdir. Bu seçim sərbəst və şüursuz deyil (Методология исслкдований политического дискурса, 2000: с.98).

Siyasi diskursda məlumat təqdimetmə metodundan asılı olaraq aşağıdakı manipulyasiya növləri fərqlənir: (Тибинько, 2011: s. 134-137).

1. Denotatum obrazının gerçəkliyi bildirmə prosesində pozulduğu referans manipulyasiya:

- faktiki manipulyasiya - yalanlar, faktların saxtalaşdırılması, mübaliğə, azlıqlar, qeyri-müəyyənlik yaratmaq);
- manipulyasiyanın fokuslanması (məlumat təqdimatı forması, ünvan sahibini onu manipulyator üçün əlverişli bir işıqda qəbul edir)

2. Ünsiyyət postulatlarının pozulduğu mübahisəli manipulyasiya:

- mətnin inkişaf məntiqinin və ya mətnin bütövlüyünün pozulması (cavabdan, mövzudan yayınmaq);
- sübutetmə öhdəliyindən yayınmaq, sübut tələb etməyən formada bir düşüncə tərzini formalaşdırmaq və ya ifadə olunan nöqteyi təsdiqləyən məlumatların təqdim edilməsinin tamlığından qaçmaq, xüsusən dəqiqlik ölçülərini buraxmaq və qeyri-müəyyənlik seçmələri təqdim etmək (Шейгал, 2000: s. 142 – 158);
- məntiqi hərəkətlərin maskalanması, məsələn, əvvəlcədən irəli sürülmə və ya imza iddiası maskası, yalan mübahisələr.

N. D. Tibinko, denotasiya ilə bağlı məlumatların təhrif olunmasının iki dərəcə ölçüsü şəklində təmsil oluna biləcəyini söyləyir [Тибинько, 2011: s. 134 -137]:

1. bir faktla bağlı mesaj - razılaşma altında (məlumatın yalnız bir hissəsini göndərmək) - məlumatın tam səssizliyi;
2. həqiqət (faktlarla tam uyğunluq) - həqiqətin təhrif olunması - açıq yalan.

Manipulyasiya obyektində görünən duyğulara görə psixoloqlar manipulyasiya formalarını ayırd edirlər (Кара-Мурза, 2009: s. 306])

Müsbət emosiyaları ifadə edən formalar: havadarlıq, sakitləşdirmə, tərif, sözsüz flört (qucaqlaşmaq, göz qırpmaq), yaxşı xəbər, ümumi maraqlar.

Mənfi emosiyaları ifadə edən formalar: destruktiv tənqid (istehza, şəxsiyyət və hərəkətlərin tənqidi), destruktiv açıqlama (tərcümeyi-haldakı mənfi faktlar, eyhamlar və keçmiş səhvlərə istinadlar), destruktiv tövsiyələr (mövqeyi, davranışı dəyişdirmək üçün tövsiyələr, icazə verilən əmr və təlimatlar) .

S.V.Fedorova görə manipulyasiya texnologiyasının həyata keçirilməsini təmin edən kommunikativ taktikalara aşağıdakılar daxildir: real faktları məlumat hadisələrinə çevirmə taktikası (xronologiya manipulyasiyası, vaxtında lokalizasiya, sistem və struktur əlaqələri, şəxsiyyətlə manipulyasiya) və düzəldilmiş reallığın qavranılması üçün kütləvi auditoriyanı qavrayışa hazırlamaq taktikası (həqiqətin ünsiyyət prinsipinin, detallarının, məlumat mənbəyinin səlahiyyətinin manipulyasiyası) (Федорова, 2006: с. 242 – 248).

Öz növbəsində Semigin G.Yu. manipulyasiya təsirinin ideoloji bir proqramın mövcudluğunu nəzərdə tutduğuna inanır. İdeologiya, insanların həqiqətə və bir-birlərinə münasibətlərinin tanındığı və qiymətləndirildiyi müxtəlif sosial siniflərin, qrupların, cəmiyyətlərin mənafelərini, cəmiyyətdə mövcud olan hökmranlıq və güc formalarını ifadə edən konseptual olaraq formalaşmış baxış və fikirlər sistemidir (mühafizəkar ideologiyalar, radikal, inqilabi ideologiyalar) (Семигин, 2000: s. 64).

Yu.B. Fedeneva və A.P. Chudinov, bu qənaətə gəlir ki, kütləvi şüura təsir edən ideoloji mexanizmlər ən çox seçki kampaniyası şəraitində siyasi diskursda özünü göstərir. İdeoloji

stereotipləri kütləvi şüura tətbiq etməyin təsirli yollarından biri də strateji məqsədi kütlənin dəstəyini təmin etmək olan mif yaratmaqdır (Феденева, Чудинов, 1999: c. 96 – 101). İdeologiyanın inkişafı, aksioloji yüklənmə və tutarlılığı təmin edə bilən xüsusi mexanizmlərin istifadəsini və nəticədə kütlənin bir insanın şüuruna təsirinin effektivliyini nəzərdə tutur.

Siyasi diskursda bu cür mexanizmlərə aşağıdakılar daxildir: stereotipləşdirmə, mifologiya, simvollaşdırma.

1. Stereotip (yunan stereos - sərt, yazı tipi - iz) - həm şəxsi həyat təcrübəsi əsasında, həm də müxtəlif məlumat mənbələrinin köməyi ilə zehində inkişaf edən sabit fikirlər toplusudur. Bunların ilhamverici təsiri var. Stereotiplər hər hansı bir ideologiyanın əsas götürdüyü miflərin əsasını təşkil edir. Bundan əlavə, siyasətdə stereotiplər yaratmaq üçün metodlardan istifadə olunur - açıq yalanlar, dezinformasiya və susqunluq. Stereotipləşmə prosesindəki dil böyük təbliğat yükü daşıyır.

2. Mifologizasiya siyasi lider imicini formalaşdırma yoludur. Mifologiyanın əsas vəzifəsi şüurumuzun miflərini aktivləşdirməkdir. Kütləvi şüur özü siyasi liderin imicinə liderdə ola bilməyəcək xüsusiyyətlər qatır, lakin kütləvi şüurun fikrincə, bunlara sahib olmalıdır. Lider, kütləvi şüurun ona aid etdiyi görüntüyə uyğun gəlmək üçün müəyyən hərəkətləri etməyə başlayır.

3. Simvolizasiya. Siyasətçinin çıxışı simvollarla işləyir. Onun uğuru, simvolların kütləvi şüurla uyğunlaşma dərəcəsi ilə əvvəlcədən təyin olunur: siyasətçi bu şüurda lazımi ipə toxunmağı bacarmalıdır; bir siyasətçinin açıqlamaları, siyasi diskursun "istehlakçıları" olan ünvan sahiblərinin fikir və qiymətləndirmələrinin "kainatına" uyğun olmalıdır.

Siyasi diskursun effektivliyi həm də ünvan sahibinin seçdiyi taktika və strategiyalardan asılıdır. Çox vaxt adresat dialoqda manipulyator rolunu oynayır, buna görə də bir məqsədə çatmaq üçün nitqini qəbulediciyə yönəldir. Yəni, dialoqun istiqamətini idarə edir. Bu vəziyyətdə mübahisəli söhbət geniş yayılmışdır, çünki bu tip söhbətdə həmsöhbət dinləyicini tərəfinə inandırmaq məqsədi güdür və insanı öz nöqteyi-nəzərinə inandırmaq və istənilən nəticəni əldə etməyə çalışır. Mübahisədəki təsir metodları, danışma hərəkətləri (illokutiv aktların) köməyi ilə nitq fəaliyyəti nəzəriyyəsi çərçivəsində də modelləşdirilə bilər.

Beləliklə, K. Morik mübahisəni yalnız daha sadə hərəkətlər ardıcıllığı - ifadələr, əsaslandırma və xülasələr köməyi ilə reallaşdırılan iloksional bir hərəkət olaraq təyin edir və son iki növ də öz növbəsində nitqdə müdafiə olunan və ya təkzib edilmiş ifadələrin istifadəsinə ayrılır. (Демьянков, 1983, c.114 – 130) Aydındır ki, mübahisələrin səmərəliliyinin qiymətləndirilməsi müəyyən nitq hərəkətlərinin ardıcıllığının aktuallığını və uğurunu özündə birləşdirməlidir. Bəlkə də bu qiymətləndirmə müəyyən bir konfiqurasiyada elementar hərəkətlərin sadə bir şəkildə qarşılaşdırılması ilə məhdudlaşmır, eyni zamanda ifadənin alıcının zehnində hökm sürən inanclardan uzaqlığını da əks etdirməlidir.

Demyankov iloksional bir hərəkət perluksionala çevrildikdə, yəni ünvan sahibinə inandıqda uğurlu mübahisələrdən danışmağı təklif edir. Məsələn, ünvan sahibini A həqiqətinə inandırmaq və onu B-yə inandırmaqla növbəti addımla onu A inancından imtina etməyə məcbur edə bilərik.

Siyasi diskursda ən geniş yayılmış mübahisə formalarından biri inandırma taktikasıdır. Məqsəd "vəziyyətin obyektiv mənzərəsinin yalnız bir hissəsi olan və ünsiyyətçinin biliklərini, inanclarını, emosional və intellektual vəziyyətini təmsil edən "dünya mənzərəsini" dəyişdirməkdir". Beləliklə, bir məlumat almış bir insan, alınan məlumatları təhlil etdikdən sonra müstəqil olaraq başqalarının əmr və inandırmalarından asılı olmayaraq təklifi qəbul etməyə qərar verdiyinə inanır.

Ünsiyyət aktının "inandırma" nın effektivliyi proyektiv məlumatın məzmunundan, danışan və dinləyicinin psixolinqvistik xüsusiyyətlərindən, sosial vəziyyətlərindən, sosial və rol funksiyalarından, ünsiyyət aktının vaxtından və məkanından, həm verbal, həm də qeyri-verbal komponentləri əhatə edən informasiyanın təqdim olunma formasından asılıdır. Burada ən vacib rol inancların linqvistik dizaynına həvalə edilmişdir. Dil mənalı ünsiyyət vasitəsi olaraq öz strukturunda natiqin niyyətini ən dolğun, rasional şəkildə təcəssüm etdirə bilən və strateji hədəflərini ən təsirli şəkildə həyata keçirə bilən vahidləri ehtiva edir.

Təklif və məsləhət taktikaları da geniş yayılmışdır. Burada vacib olan şey, danışanın dinləyiciyə təzyiq göstərməməsidir və dinləyicinin tövsiyələrə əməl edib etməməyi, təklifi qəbul edib etməmək seçimi var. Kömək təklifi ən çox yayılmış təkliflərdən biridir. Bu adresata gələcəkdə məsləhət verməyə imkan verərək, kömək etmək istədiyinə vurğu edərək həmsöhbətini özünə cəlb edir (Шейгал, 1998: s. 305).

Hər iki ünsiyyətcinin fikrini nəzərə alan bu olduqca emosional olaraq bitərəf taktikanın tam əksi xəbərdarlıq və təhdid taktikasıdır. Natiq alıcının planladığı hərəkətlərin icrasına gətirib çıxaracaq nəticələrə işarə edir. *Bir səs çıxarsan səni öldürərəm - I'll kill you if you make a sound* Bu vəziyyətdə danışma taktikası kimi təhdid və xəbərdarlıq mənfi olur. Ünvan sahibinin ifadə etdiyi dil hərəkəti və ya xəbərdarlıq jesti, sonrakı hərəkətlər barədə ünvanlananı xəbərdar etmək funksiyasına malikdir. Natiq əmindir ki, müraciət edən şəxs də hərəkətlərini mənfi qiymətləndirir. Əks təqdirdə, bir tövsiyədir

Kompliment taktikası, xüsusən də kommunikativ uğursuzluq, kommunikativ münaqişə və ya narahatlıq vəziyyətində simpatiya ifadə etmək, emosional əhval-ruhiyyə yaratmaq, yaxşı münasibətlər qurmaq, məsafəni idarə etmək, diqqəti dəyişdirmək taktiki üsulları ilə həyata keçirilir.

Göndərən tərəfindən aydın məntiqi mülahizələrdən istifadə edilmədən nitq təsiri təsirli ola bilməz. Mənəvi mübahisələr əxlaqi, psixoloji və ya digər inandırma vasitələrindən fərqli olaraq insanların hiss və duyğularına yox, ağıl üzərində dayanır və bu səbəbdən də siyasi liderlərin cəmiyyətin şüurunu və davranışını ustalıqla idarə etməsinə imkan verən xüsusi təsir gücünə malikdir. İdeologiyanın əsas kommunikativ funksiyası sosial cəhətdən yaradılmış, siyasi motivli və qeyri-sabit fikirləri həqiqi anlayış, inanc və məna kimi qəbul edilmiş hala çevirməkdir. Tomson, ideologiyanın mənfi, xəyalçı olduğuna inanır və sosial hökmranlıq münasibətlərini aşağıdakı danışıq strategiyaları ilə gizlədərək saxladığını iddia edir (Thompson, 2012: s.72):

Qanuniləşdirmə-qanuniliyi təmin etməyin bir yoludur. Sosial elmlərdə leqallaşdırma, müəyyən bir cəmiyyətin norma və dəyərləri ilə əlaqəli bir hərəkətin, prosesin və ya ideologiyanın qanuni hala gəlməsi müddətini ifadə edir. Bir qrup və ya tamaşaçı üçün məqbul və normativ bir şeyin yaradılması prosesidir. Aşağıdakı taktikalara əsaslanır:

1.Rasional mülahizə - tamaşaçıları mövcud sosial münasibətlərin doğruluğuna inandırmaq üçün qurulmuş qaydaların qanuni olmasına və səbəblər ardıcıllığından istifadə edilməsinə çağırır. Məsələn, Britaniyada tez-tez "mülkiyyətin qanunun onda doqquz hissəsi" olduğu xatırlanır. Teçerin bir çox siyasi münasibətləri anti-intellektualizmlə birləşdirilən sağlam düşüncə çağırışına əsaslanırdı. Bu baxımdan sağlam düşüncə arxa plana keçir və yaradılan məna hamımız tərəfindən paylaşılır.

2.Ənənəvi əsas (baza) - uzunmüddətli ənənələrin müqəddəsliyinə müraciət edir - bu başlıq altında Tomson narrativizasiyaya (izah etməyə) istinad edir və bunun sayəsində legitimlik çağırışları bu günün görkəmli keçmişdən necə böyüdüyünü və zamanla müəyyən ənənələrə söykəndiyini izah edir. Əslində, ənənələri bu günü qanuniləşdirmək üçün icad etmək olar. Məsələn, 19-cu əsrdə Çarlz və Diana'nın evliliyindən daha uzun sürməyən "ənənəvi" İngilis monarxiyasının ixtirası. Ənənənin başlanğıcı zaman dumanına girmək məcburiyyətində deyil.

3.Xarizmatik əsas - hakimiyyəti həyata keçirən şəxsin xüsusi xarakterinə müraciət edir. Hərçənd lider cəlbediciliyi və ya populyarlığı baxımından xarizmatik olmalı deyil.

Gizlətmə (**Dissimulyasiya**) - istənməyən və ya gizli məlumatlar kimi həqiqətin hamısının və ya bir hissəsinin gizlədildiyi bir aldatma forması.

1.Yer dəyişdirmə (dəyişdirmə) bir və ya daha çox obyektə münasibətdə istifadə olunur, onlara qazanılmış müsbət və ya mənfi mənalar verir.

2.Evfemizasiya - natiqə ədəbsiz, kobud və ya nəzakətsiz görünən, sinonim bir dil vahidi əvəzinə istifadə edilən üslubi baxımdan neytral bir söz və ya ifadənin istifadəsi. Məsələn, *The Nazis didn't kill Jews, they normalized them; Americans didn't destroy Vietnamese villages, they disassembled them.*

3.Məcazlar - dilin obrazlarından istifadə etmək. Bunlar arasında sinekdoka, metonimiya və metaforanın önə çıxdığı müxtəlif strategiyalar var.

Birləşmə (unifikasiya) - birləşdirmə prosesi, bunlara aşağıdakılar daxildir:

1.Standartlaşdırma. Ən yaxşı nümunə, dil baxımından müxtəlif ölkələrdə dillərin təhrif edilməsidir. Məsələn, Əlcəzairin Berber bölgəsinin ərəbləşdirilməsi və ya Britaniyanın erkən anqlo-saksonlaşması və s.

2.Birliyin simvolizasiyası.-Bayraqlar, heykəllər, parlament binaları kimi birlik simvollarının inşası.

Parçalanma təsirli müxalifət yarada biləcək qrupları ayırmaqla və ya potensial müxalifət qüvvələrini təhdidedici hədəfə istiqamətləndirməklə ideologiyanın formalaşması üçün vacibdir. Burada aşağıdakı taktikalardan istifadə olunur:

1. Fərqləndirmə, insanları bölən, etirazların və ya onların hakimiyyətin ələ keçirilməsindəki fəal iştirakının qarşısını alan amilləri əhatə edir.

2. Düşmənin aradan qaldırılması (Expurgation). Bütün sağlam düşüncəli insanların birləşməsi lazım olan düşmən obrazının yaradılması. Məsələn, M.Tetçer İngilislərin fanatik vətənpərvərliyindən argentinalılara qarşı istifadə edə bilmişdi.

Beləliklə, siyasi söyləmələrdə kütləvi şüurun ideologizasiyası üçün bir çox kommunikativ texnologiyalar mövcuddur, lakin onların hamısı dili ən tam, ağılla danışanın niyyətini təcəssüm etdirən və strateji hədəflərini ən təsirli şəkildə həyata keçirə bilən bir vasitə kimi göstərirlər.

Qeyd etmək lazımdır ki, siyasi danışıqda kütləvi şüuru ideologizə etməyin bütün kommunikativ taktikaları birbaşa dillə, yəni onun dil manipulyasiyaları ilə əlaqəlidir. Dildən istifadə ideologiyanın ən çox görünən təzahürlərindən biridir. Dil və ideologiya bir-birinə bağlıdır, çünki dil ideoloji strukturları nümayiş etdirə, yarada və qoruya bilər, bunun sayəsində bir siyasətçinin ideologiyasını daha yaxşı başa düşmək olar.

İstifadə olunmuş ədəbiyyat

1. Dijk, T. A. (1996). Discourse, Opinion and Ideologies // Discourse and Ideologies. – Clevedon: Multilingual Matters LTD. – 210 p.
2. Dijk, T. A. (1995). Discourse Semantics and Ideology // Discourse and Society. Vol.6. – Clevedon: Multilingual Matters LTD. – 479 p.
3. Stubbs, M. (1983). Discourse analysis / M. Stubbs. – Oxford: Basil Blackwell.– 272 p.
4. Thompson, J.B. (2012). Ideology. // http://www. cultsock.org/ index. php? page=/media/ ideoldet.html.
5. Бенвенист, Э. (1978). Общая лингвистика / Э. Бенвенист. – М. – 448 с.
6. Демьянков, В. З. Аргументирующий дискурс в общении: (По материалам зарубежной лингвистики) // Речевое общение: Проблемы и перспективы / В.З. Демьянков. – М.: ИНИОН, 1983. – 224 с.
7. Кара-Мурза, С.Г. Манипуляция сознанием С.Г. Кара-Мурза, С.В. Смирнов. – М.: Эксмо, Алгоритм, 2009. – 528 с.
8. Методология исследований политического дискурса: Актуальные проблемы содержательного анализа общественно-политических текстов. (2000). Вып. 2. Под. Общ. Ред. И.Ф. Ухвановой-Шмыговой. – Мн.: БГУ. – 479 с.
9. Семигин, Г.Ю. (2000). Идеология // Новая философская энциклопедия. Г.Ю. Семигин. Т. 2 – М.: Мысль. – 2659 с.
10. Тибинько, Н.Д. (2011). Манипуляция в политическом дискурсе // Вестник Челябинского государственного университета. № 3. Филология. Искусствоведение. Вып. 50. – Челябинск: Изд-во «ЧелГУ». – 218 с.
11. Феденева, Ю.Б. (1999). Метафорическое моделирование в российском политическом дискурсе // Политический дискурс в России-3. / Ю.Б Феденева, А.П. Чудинов. Материалы рабочего совещания. Часть 1. – М. – 350 с.

12. Федорова, С.В. (2006). Коммуникативные технологии в политическом дискурсе // Вестник Чувашского университета. Гуманитарные науки. – Чебоксары: Типография Чувашского университета. № 6. – 262 с.
13. Шейгал, Е.И. (1999). Язык и власть//Языковая личность: проблемы лингвокультурологии и функциональной семантики. – Волгоград. – 27с.
14. Шейгал, Е.И. (2000). Семиотика политического дискурса: Монография. Ин-т языкознания РАН. – Волгоград: Волгогр. гос. пед. ун-т. Перемена. – 368 с.

UOT: 81.

ESSENTIAL ROLE OF THE LEXICO TERMINOLOGICAL UNITS IN THE FORMATION OF THE TEXT STRUCTURE

Samira Veliyeva
Lecturer
Odlar Yurdu University, Azerbaijan
samire_velizade@mail.ru
Orcid id: 0000-0002-5568-859x

Abstract: The article deals with the disclosure of the information nature through the text structure. It is defined that, language is established from certain information system. The basic information system of a language consist of the following elements: 1. providing society with information, 2. preservation of important information 3. to serve information. Among the specific features of information, its structure, form, semantics and functions play an essential role. The structure of information determines the interaction between its constituent elements. The fundamental means of information are set up from system mode. As it is well-known systematization is the result of information. The information transmission characteristics of the lexical terminological units that were used in the text,are analyzed on the basis of examples given in Azerbaijan and English languages. It is identified that the lexical terminological units that take part in the formation of text structure is an important fixtation tool, that tranmits specific information. Finally the foundation of information is laid by means of lexical terminological units.

Key words: Text, text structure, information, lexical terminological units

MƏTN STRUKTURUNDA İNFORMASİYANIN FORMALAŞMASINDA LEKSİK-TERMİNOLOJİ VAHİDLƏRİN ROLU

Vəliyeva Samirə Yusifəli qızı
Müəllim
Odlar Yurdu Universiteti, Azərbaycan

Xülasə: Məqalədə mətn strukturu vasitəsi ilə verilən inoformasiyanın xarakteri açılır. Müəyyən olunur ki, dil müəyyən informasiya sistemlərindən qurulur. Dilin əsas informasiya sistemlərini aşağıdakılar təşkil edir: 1) cəmiyyəti informasiya ilə təminetmək, 2) mühüm və vacib informasiyaların qorunub saxlanılması, 3) informasiyaya xidmət etmək. İnformasiyanın səciyyəvi xüsusiyyətləri sırasında onun strukturu, forma və dəyişməsi, semantikası, funksiyaları mühüm yerlərdən birini tutur. İnformasiyanın struturu " - onun tərkib elementləri arasında qarşılıqlı əlaqəni müəyyən edir. İnformasiyanın fundamental vasitələri sistem vasitələrdən ibarətdir. Bilindiyi kimi, sistemlilik informasiyanın yekunudur. Mətndə işlənmiş leksik-terminoloji vahidlərin informasiyavericilik keyfiyyətləri ingilis və Azərbaycan dillərindən verilmiş nümunələr üzrə təhlil olunur. Ayrı-ayrı mətnlər üzərində aparılan müşahidələr nəticəsində «söyləmin məzmun və mahiyyəti»nin (burada leksik-terminoloji vahidlərin) nitqin informativlik kateqoriyası ilə sıx bağlı olduğu təsdiqlənir. Müəyyənləşir ki, mətn strukturunda iştirak edən leksik-terminoloji vahidlər xüsusi informasiya ötürən mühüm fiksasiya (təsbitetmə, müəyyənetmə) vasitəsidir. Həmin şəraitdə leksik-terminoloji vahidlər xüsusi bilikləri, məlumatları mühafizə edərək saxlayır və başqa şəklə salır. Mətn strukturunda terminoloji informasiya xüsusi biliyi akkumuliləşdirir (yığır, toplayır) və professional-elmi fəaliyyəti aktivləşdirir. Nəhayət, mətn strukturunda informasiya təməli leksik-terminoloji vahidlər vasitəsilə qoyulur.

Açar SÖZLƏR: mətn, mətn strukturu, informasiya, leksik-terminoloji vahidlər

Mətn nitq parçasıdır, bir çox cümlələrin birliyindən yaranır. Mətn- bir söyləm olaraq mövzunun nədən bəhs etdiyini müəyyənləşdirir. Mətndə əsas fikir ondan ibarətdir ki, burada danışanın, yazanın düşüncəsi gerçəkləşir. Mətn rəngarəng həcmdə olur, məntiqi əlaqə onun cümlələr biriyini əhatə edir.

Mətnin bu kimi özünəxas strukturu vardır. Q.Kazımov bu haqda yazır ki, mətn (sintaktik bütöv) həm dil, həm də nitq faktı kimi öyrənilir. Hər bir mətnin strukturu müəyyən model əsasında qurulur. Modelin strukturu məlumdur: mikrotema haqqında ümumi məlumat (informasiya) verilir, sonra həmin informasiya (məlumat) genişləndirilir, təminedici şəkildə şərh edilir və sonda yekunlaşdırılır. Bu, model-strukturun semantik tərəfidir. Müəyyən bir temanın həmin model-struktur əsasında qurulması üçün leksik-terminoloi vasitələr, söz-terminoloji birləşmələr və cümlə-söyləm modelləri vardır. Eyni zamanda söz və terminləri, termin-söz birləşmələri və cümlə-söyləmi əlaqələndirmək üçün leksik-qrammatik, leksik-terminoloji vasitələr (bağlayıcılar, modal sözlər, deyktik, prosodik vasitələr və s.) vardır. Bütün bunlar mətnin struktur baxımdan qurulmasına xidmət edən dil vasitələridir» (Abdullayev, 2012: s. 58)

Mətnin strukturu haqqında rus-Avropa dilçiliyində xeyli sayda əsərlər yazılmışdır. Bu məsələlərdən yan keçirik. Bizi mətnin strukturunda «potensial olaraq yerləşmiş informasiya» maraqlandırır.

Xalqlar bu gün informasiya əsrində yaşayırlar. İndim ən ciddi problemlərdən biri «informasiya savaşı»nın bütün müharibələrdən də üstün olduğu faktıdır. Bu baxımdan informasiyaalma, informasiyavermə, ötürmə və s. ciddi məsələlərdəndir. Müasir dövrdə ən aktual olduğu üçün bu məsələyə toxunuruq.

Amma bizi hər cür mətndə toplanan informasiya maraqlandırır. Bu informasiyanın hansı vasitələrlə dinləyici və oxuculara çatdırılması məsələsi maraqlandırır.

Öncə, informasiya - ölçmə sistemləri bilavasitə obyektdən informasiyanın avtomatik olaraq alınmasını, onun çevrilməsini, ötürülməsini, ölçülməsini, emalını, saxlanmasını, operator tərəfindən rahat qəbul edilməsini və idarəedici sistemə daxil edilməsini təmin edən texniki vasitələr toplusudur. İnformasiya ölçmə sistemləri mürəkkəb ölçmə kompleksidir. Onun tərkibində təkcə ölçmə çeviriciləri yox, həm də ölçmə informasiyasını emal etmək üçün, eləcə də ölçmə prosesinin realizasiyası və informasiya alınması prosesin idarə edilməsi üçün hesablama texnikası vasitələri - güclü kompüterlər də daxildir.

İnformasiya latın sözü olub *(informatio) «məlumat», «xəbər»* mənasındadır. Başqa sözlə, infomasiya xəbər və məlumatın yenilik daşıyan hissəsidir (Yusif, 2004: s.90)

Müxtəlif informasiyalar terminlər vasitəsilə də kondensasiya olunur, yəni mətnin informasiyanın həcmi sıxlaşdırılır və buna xüsusi bilik kimi baxılır. «İnformasiya mətnin strukturunda formalaşaraq, onun məlumat bazasını təşkil edir. Bunun üçün mətn kommunikasiya prosesində daxil olur» (Komenskaya, 1990: s. 45)

Bu gün informasiya əsrində məlumat-xəbərin əsasınıda terminoloji informasiya da dayanır-bu anlayış (semantik) informasiyadır, bu, dilin təbiətində mövcuddur. Terminoloji informasiyanın anlayış xüsusiyyəti hər hansı bir mətndə əlavə olaraq elmi informasiyanı da daxil edir və onların əlaqə və münasibətini (məsələn, bədii, publisistik mətnlərlə elmi mətlər arasında əlaqəni, vəhdəti göstərir) müəyyənləşdirir.

Terminoloji informasiya sosial mahiyyət daşıyır. Sosial məzmun deyəndə ictimai həyatın ayrı-ayrı tərəflərini və proseslərini deyil, onu qarşılıqlı təsirdə və əlaqədə olan bütün tərəfləri ilə birlikdə bütöv bir proses başa düşülür. Demək, sosial informasiya (cəmiyyət üçün hazırlanmış və verilmiş informasiya) ictimai inkişafın ümumi nəzəriyyəsi kimi çıxış edir; onun özünün xüsusi tarixi düşüncə praktikası mövcuddur. Məsələn, cəmiyyət və insan fəlsəfəsinə aid terminoloji informasiyanı təsin etmək üçün «ictimai varlıq» deyilən terminolojibirləşmənin verdiyi informasiyanı bilmək tələb

olurur. Bu anlayış-terminin informasiyavericilik gücü aşağıdakılardan ibarətdir: «1) ictimai varlıq ictimai qanunauyğunluqla eyniyyət təşkil edir; 2) ictimai varlıq iqtisadi bazisdir; 3) ictimai varlıq maddi nemətlərin estehsal üsuludur; 4) ictimai varlıq insan cəmiyyəti əyətanın bütün maddi şəraiti və münasibətləridir» (Aron, 2000: s.65)

Elmi informasiyanı öncədəngörmə ehtimal olunan bilik sahəsidir. Bu mövzuda olan elmi mətn strukturunda bir sıra terminlər işlənir ki, onlardan biri də «futrologiya» (lat. «futurum»-gələcək, yun. «logos»-söz, təlim) - gələcək haqqında təlim informasiyasını bilmək lazım gəlir. Fəlsəfi mətnlərdə belə bir məlumat verilir: «Futurologiya geniş mənada vəziyyətin gələcəyi haqqında təsəvvürlər məcmusudur, dar mənada isə ssial proseslərin gələcəyini əhatə edən elmi bilik sahəsidir Futurologiya tez-tez proqnozlaşdırmanın sinonimi kimi işlədilir» (Məmədov, 1977: s. 150)

Belə informasiyaların dəyəri, qiyməti terminə hopur, xüsusi biliyi akkumiləşdirir, yəni bir yerə toplayır.

Terminoloji informasiya milli və beynəlxalq terminelemetlərin köməyilə kodlaşır, burada xüsusi informativlik əhatə olunur. Mətndə formalaşmış terminlər xüsusi anlayışları ifadə edir, terminyaradıcı sıranı açır, həmin termin dünya xalqlarının dillərində yayılır. Məsələn, vaxtilə «qlobus» (yer kürəsi anlamında) termini coğrafiya elmində geniş işlənirdi, indi də. Bu terminin vasitəsilə *«qlobal»* termini yarandı, indi mətbuata dair mətnlərdə tez-tez bu terminlə rastlaşmaq mümkündür. Həmin mətnlərdə ümumbəşəri səciyyə kəsb edən problemlərin qlobal problemlər olduğu fikri aşılanır. Həmin problemlər eyni zamanda bu və ya digər şəkildə hər bir insanın, hər bir sosial qrupun mənafeyinə də toxunur. Onlar indi yaşayan insanların, həm də gələcək nəsillərin taleyinə təsir göstərir və mahiyyətcə gələcəkdə insanların və bütün bəşəriyyətin həm maddi, həm də mənəvi sahəsində hələ mövcud olacaq problemlərdir.

Beynəlxalq səciyyəli *«radio»* termini haqqında 1920-ci ilin əvvəllərində ictimaiyyətə informasiya verilmiş, indi bir qədər bu termin haqqında olan məlumatlar köhnəlmişdir.

Teminoloji informasiya-bu dinasmik informasiyadır, intellektə optimallaşdırılır.

Terminyaradıcılığı informasiyaveridcilik prosesində baş verir, adi söz terminoloji məna qazanır. Məsələn, ingilis dilində *«to support, to second»* sözləri Azərbaycan dilində «dəstəkləmək» mənasındadır. Bu feil dünya dillərində artıq terminoloji vahidə çevrilmişdir: *sülh siyasətini dəstəkləmək (to support the peace policy), qətnaməni dəstəkləmək (to second a resolution)*

Ümumi informasiya strukturu - kommunikativ tərəf - insanlar arasında informasiyanın əvəzlənməsi, dəyişməsi faktına əsaslanır. Bu zaman mətnin strukturu informsiyanın strukturu ilə bağlanır. Mətnin strukturu və onun növləri, elementləri ilə xarakteiizə olunur.

Digər vasitələr kimi terminoloji informasiyalarda da faydalı məlumat-xəbərlər verilir. Bu terminoloji informasiyanın relevant və qeyri-relevant xüsusiyyətləri ilə əlaqədardır

Terminoloji informasiyadan tələb olunan cəhətlər informasiyanın korporativ, energetik və adminstrativ növlərini doğurur.

Bu növlər haqqında ayrıca danışılacaq.

Mətndaxili informasiyaya gələndə, öncə mikrotema haqqında ümumi informasiya ilə kifayətlənilir. Mikrotema - kiçik mövzulardan ibarətdir. Mövzuların başlanğıc, inkişaf və nəticədən ibarət mərhələləri vardır. Məs: İngilis dilinə aid mətn: *We crossed the concrete bridge vvhich divides the village of Khanlig into tvvo parts rode üp tovvards the plain of Yazi via the dusğy and country rovd. More than tvventy villages of this vast plain suffer for the lack of vvater and people grovv vvheat here only in the dry-farming land. As the soi lis very fertile the farmers get enough crop every year (başlanğıc).*

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev K.M., Məmmədov A.Y., Musayev M.M. (2012). Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. – Bakı: Mütərcim. – 250 s.
2. Aron R. İzbrannıe. (2000). Vvedenie v istoriyu filosofii. – M.: SPb «Universitetskaə kniqa».

3. Məmmədov N., Əhmədov R. (1977). Ölçmə texnikasının əsasları. – Bakı: Ali məktəblər üçün dərslik. – 300 s.
4. Kamenskaya O.L. (1990). Tekst i kommunikasiya. – M.: Vısşaya şkola. – 240 s.
5. Kazımov Q. (2008). Seçilmiş əsərləri. V cild. – Bakı: Nurlan.
6. Rüstəmov Y. (2004). Fəlsəfənin əsasları. – Bakı: Elm. – 300 s.

UOT: 811.111

TRANSPOSITION AS A LINGUISTIC TERM AND THE ATTITUDE OF LINGUISTS TO THIS LINGUISTIC PHENOMENON

Kamala Malikli
Lecturer, PhD student
Azerbaijan University of Languages, Azerbaijan
ismayilovakemale@mail.ru
Orcid id: 0000-0002-8890-6194

Abstract: The main subject of modern linguistics is to study various phenomena and processes taking place in the language. Being a social phenomenon language serves all spheres of public society, and is developed by society. Therefore, any processes and changes that take place in the society are also reflected in the language. In theoretical linguistics, transposition like other linguistic phenomena, has acquired a linguistic status. The lexical meaning of the term transposition, used in many fields of science, is *displacement, transition, transfer* and *transformation*. As a linguistic term, transposition means the transition of a word from one part of speech to another or the use of any form of language in a different function. The levels that make up the structure of each language are interconnected, and this has always been the case. In fact, it is closely connected with a dynamic transition and embodies the historical development of the language. The dynamic transition that emerges as a reflection of real historical events in the language has taken place for a number of intralinguistic and extralinguistic reasons. Another type of language transition is a grammatical transition. Linguists call this type of transition in different terms: *transposition, conversion, transformation*. The process of transposition in modern language is still ongoing. It should be noted that during this process, no new parts of speech are created, only separate words move from one part of speech to another, and as a result, the part of speech is updated quantitatively; accordingly, the semantics and grammar of parts of speech change. European linguists began to explore the possibility of transforming a language unit from one category to another long ago. Ch.Bally, the representative of the Geneva School of Linguistics, formulated the concept of functional transposition, and it is believed that he brought the term *transposition* to linguistics. We can understand the term transposition in both broad and narrow senses. At the same time, two types of transposition can be distinguished: *incomplete* and *complete transposition*. Incomplete transposition is also called syntactic transposition. Here the part of speech remains the same, but the syntactic function changes. A complete or morphological transposition is a transition from one part of speech to another. The means of expression of morphological transposition include *affixation* and *conversion*.

Key words: transposition, complete/incomplete transposition, affixation, language phenomenon, linguistic term, parts of speech, functional grammar, conversion, transformation

TRANSPOZİSİYA DİLÇİLİK TERMİNİ KİMİ VƏ DİLÇİLƏRİN BU DİL HADİSƏSİNƏ MÜNASİBƏTİ

Məlikli Kəmalə İzzət qızı
Müəllim, dissertant
Azərbaycan Dillər Universiteti, Azərbaycan

Xülasə: Müasir dilçilik elminin əsas predmeti dil haqqında elmin müxtəlif hadisə və proseslərini öyrənməkdir. Dil ictimai hadisə olduğu üçün cəmiyyət həyatının bütün sahələrinə xidmət edir və cəmiyyət tərəfindən inkişaf etdirilir. Bu səbəbdən, cəmiyyətdə baş verən proseslər və dəyişikliklər dildə də öz əksini tapır. Nəzəri dilçilikdə digər dil hadisələri kimi, transpozisiya hadisəsi də linqvistik status qazanmışdır. Elmin bir çox sahələrində istifadə olunan transpozisiya termininin dilçilikdəki lüğəvi anlamı *yerdəyişmə, keçid, köçürmə, çevrilmə* mənasındadır. Dilçilik termini olaraq transpozisiya sözün bir nitq hissəsindən digərinə

keçidini və ya hər hansı bir dil formasının fərqli funksiyada istifadəsini nəzərdə tutur. Hər bir dilin strukturunu təşkil edən səviyyələr bir-biri ilə əlaqədədir və bu həmişə belə olmuşdur. Hətta, bu dinamik keçidlə bağlıdır və dilin tarixi inkişafını təcəssüm etdirir. Real tarixi hadisələrin əksi kimi ortaya çıxan dinamik keçid müəyyən dildaxili və dilxarici səbəblərdən yaranmışdır. Dildəki keçidin bir növü də qrammatik keçiddir. Məhz elə bu keçid növünü dilçilər müxtəlif terminlərlə (*transpozisiya, konversiya, transformasiya*) adlandırırlar. Müasir dildə transpozisiya prosesi hələ də davam edir. Qeyd edilməlidir ki, bu proses zamanı yeni nitq hissələri yaranmır, sadəcə ayrı-ayrı sözlər bir nitq hissəsindən digərinə keçir və beləliklə nitq hissəsi kəmiyyətcə yenilənir, nitq hissəsinin semantikası və qrammatikası dəyişir. Bir dil işarəsinin bir kateqoriyadan başqa birisinə çevrilməsi imkanlarının araşdırılması Avropa dilçiləri tərəfindən başlanmışdır. Cenevrə dilçilik məktəbinin nümayəndəsi Ş.Balli funksional transpozisiya konseptini formalaşdırdı və belə hesab olunur ki, məhz elə o, dilçiliyə *transpozisiya* terminini gətirdi. Transpozisiya terminini həm geniş, həm də dar mənada anlaya bilərik. Eyni zamanda iki cür transpozisiyanı fərqləndirmək olar: *natamam və tam transpozisiya*. Natamam transpozisiyaya həm də sintaktik transpozisiya deyilir. Burada nitq hissəsi olduğu kimi qalır, ancaq sintaktik funksiya fərqli olur. Tam və ya morfoloji transpozisiya dedikdə isə bir nitq hissəsindən başqa birinə keçid, çevrilmə başa düşülür. Morfoloji transpozisiyanın ifadə vasitələrinə isə *affiksasiya* və *konversiyanı* aid etmək olar.

Açar sözlər: transpozisiya, tam/natamam transpozisiya, affiksasiya, dil hadisəsi, dilçilik termini, nitq hissəsi, funksional qrammatika, konversiya, transformasiya

Transpozisiya termini latın sözü *trānspositiōn*-dan götürülüb və lüğəvi anlamı *yerdəyişmə, köçürülmə* və *çevrilmə* deməkdir. Bu terminə tibb, genetika, elektrotexnika, fizika, musiqi, ədəbiyyatşünaslıq, psixologiya, dilçilik və s. kimi sahələrdə rast gələ bilərik. Tibbdə transpozisiya dedikdə, unikal hal kimi orqanların əks yöndə yerləşməsi başa düşülür. Ürəyin solda deyil, məhz sağda yerləşməsi halını buna misal göstərmək olar. Bu termindən musiqidə musiqi əsərindəki tonallığa təsir edən səslərin yuxarı və ya aşağı keçidi, çevrilməsi kimi istifadə olunur. Genetikaya gəldikdə isə burada transpozisiya xromosom daxilində genetik informasiya daşıyan elementlərin yerdəyişməsi mənasında işlənir. Gördüyümüz kimi, hansı sahədə işlənməsindən asılı olmayaraq, bu termin məhz öz lüğəvi mənasını saxlayır, keçid, yerdəyişmə mənasında işlənir.

Müasir dilçilikdə də transpozisiya terminindən geniş istifadə edilir. Dilçilik termini olaraq, transpozisiya sözün bir nitq hissəsindən digərinə keçidini və ya hər hansı bir dil formasının fərqli funksiyada istifadəsini nəzərdə tutur. Yəni, transpozisiya bir dil formasının paradiqmatik sırada ona əks olan başqa dil forması funksiyasında işlənməsidir. Bundan başqa dilçilikdə bu termin həm də ana dili biliklərinin qeyri-ana dili öyrənərkən müsbət köçürülməsi kimi də başa düşülə bilər. Bu zaman həmin köçürülmə ikinci dili öyrənməyə təsir edir.

Tədqiqatda qarşıya qoyulan məqsəd geniş istifadə dairəsi olan transpozisiyanın bir dil hadisəsi kimi dilçilikdə də mövcud olduğunu göstərmək, onun sözyaratmada rolu və həm leksik, həm də qrammatik səviyyədə transpozisiya termini haqqında dilçilərin fikirlərini araşdırmaqdan ibarətdir.

Dilçilikdə transpozisiya termini və dilçilərin bu dil hadisəsi haqqındakı fikirlərinə keçməzdən əvvəl dilçilikdəki keçid prosesinə nəzər yetirmək yerinə düşərdi.

Bildiyimiz kimi, hər bir dil zaman keçdikcə bəzi dəyişikliklərə məruz qalır, çünki dil cəmiyyətə xidmət edir. Bu səbəbdən cəmiyyətdə baş verən proseslər, hadisələr və dəyişikliklər dildə də öz əksini tapır. Dil həm dildaxili hadisələrin, həm də başqa dillərlə olan təmasın nəticəsində daha da inkişaf edir, təkmilləşir, sabit normalara malik ədəbi dil statusu qazanır. Tarixi inkişaf prosesində dilin daxili strukturu, onun lüğət tərkibi, qrammatik kateqoriya və normaları da təkmilləşir, get-gedə dildə öz dəqiq izahını tapır. Həmin bu prosesdə dilin kateqoriya və vahidlərində keçid hadisəsinə də çox rast gəlmək olur. Belə ki, hər bir dil nəinki söz yaratmanın müxtəlif yolları vasitəsilə yeni sözlər qazanır, eyni zamanda bir nitq hissəsindən başqa nitq hissəsinə keçidlə əlaqədar onun tərkibi daha da zənginləsir. Dilçilikdə bu hadisə dilin səs, tərkib və sonluqlarının tədqiqi ilə əlaqədar meydana çıxmışdır.

Ümumiyyətlə *keçid* termini dilçilikdə tək deyil, başqa bir qrammatik terminin tərkib hissəsi kimi istifadə oluna bilər. Məsələn, nitq hissələrinin keçidi, bir nitq hissəsindən digər nitq hissəsinə keçid, nitq hissələri arası keçid və s. kimi işlənir. Bundan başqa *keçid* dedikdə aşağıdakılar başa düşülür:

— Nitqin bir hissəsi daxilində sözlərin leksik və semantik xüsusiyyətlərinin çevrilməsi;
— Xüsusi isimlərin ümumi adlara çevrilməsi;

— Bir sözün cümləyə və ya cümlənin bir sözə, ifadəyə keçidi;
— Səslərdə baş verən müəyyən dəyişikliklər;
— Nitq orqanlarının danışıq zamanı mövqelərinin növbələşməsi və bir-birinə keçidi.

Dildəki keçid prosesinə müxtəlif baxımdan, yəni sözdüzəltmə, semantik, morfoloji və sintaktik nöqteyi nəzərdən yanaşmaq olar. Ancaq bu prosesi dilçilər daha çox qrammatik yönümdən araşdırırlar.

V.V.Babaytseva keçid hadisəsinin iki növünü qeyd edir ki, bu növlər də bir-birindən fərqlənir. Bunlardan biri diaxron dəyişiklikləri özündə ehtiva edən transformasyon keçiddir, digəri isə periferik, aralıq, sinkretik, hibrit kimi növləri olan kontaminasiyadır. Keçidin qeyd olunan növlərindən biri olan kontaminasiya dedikdə, bir-biri ilə daimi və ya təsadüfi əlaqədə olan dil vahidləri arasındakı əlaqə başa düşülür (Бабайцева, 1967: s. 6).

J. Maruza, B.A. Serebrennikov və başqalarının fikrincə, dil vahidləri arasındakı əlaqəyə görə dildə kəsişmə baş verir, sözlərdən birinin digərinə təsiri nəticəsində hər iki sözün əlamətini daşıyan forma meydana çıxır (Orucova, 2018: s. 7).

İ.V.Koduxov isə keçid hadisəsinin iki növünü qeyd edir. O, buraya aralıq keçidini və sinkretizm keçidini daxil edir. Morfologiya və sintaksisdə, həmçinin leksika və fonetikada özünü göstərən aralıq keçidi V.V.Babaytsevanın qeyd etdiyi kontaminasiya keçidi ilə üst-üstə düşür. İ.V.Koduxova görə sinkretizmə ən yaxşı nümunə kimi isə leksik və morfoloji omonimliyi götürmək olar (Кодухов, 1977: s. 5).

Hər bir dilin strukturunu təşkil edən səviyyələr bir-biri ilə əlaqədədir və bu həmişə belə olmuşdur. Hətta bu dinamik keçidlə bağlıdır. O, dilin tarixi inkişafını təcəssüm etdirir. Real tarixi hadisələrin əksi kimi ortaya çıxan dinamik keçid müəyyən dildaxili və dilxarici səbəblərdən yaranmışdır. Dildəki keçidin bir növü də qrammatik keçiddir. Məhz elə həmin bu keçid növünü dilçilər müxtəlif terminlərlə adlandırırlar. Məsələn, bəzi alimlər (O.M.Kim, V.Q.Qak və b.) qrammatik keçidi transpozisiya, bəziləri (E.Kuriloviç, E.Zemskaya, O.P.Sunik, E.S.Kubryakova və b.) konversiya, bir qrup dilçi isə (Y.A.Vaxek, Y.S.Stepanov, L.A.Novikov və b.) bu hadisəni transformasiya adlandırır.

Bundan başqa dilçilikdə keçid hadisələrini alimlər qrammatik omonimlik, transorientasiya, yuxarıda qeyd etdiyimiz sinkretizm, kontaminasiya, həmçinin morfoloji-sintaktik sözdüzəltmə və s. kimi də araşdırırlar. Bunlar içərisində müasir dilçilikdə qrammatik keçid mənasında istifadə olunan transpozisiya terminin əhatə dairəsi daha genişdir. Bəzi dilçilər keçid prosesini konversiya adlandırsalar da, əslində o elə transpozisiyanın bir növüdür. V.Q.Qak, E.S.Kubryakova və başqalarının qeyd etdiyi kimi, şəkilçi vasitəsi ilə sözdüzəltmə (affiksasiya) və konversiya funksional transpozisiyanın tərkibinə daxildir. Belə ki, transpozisiya daha geniş termindir, konversiya və ya affiksasiya onun bir qoludur.

O.M.Kim bir nitq hissəsindən digərinə keçidi “nitq hissələri səviyyəsində transpozisiya” kimi qeyd edir. Onun fikrincə transpozisiya geniş mənada bir kateqoriyadan olan dil işarəsinin başqasına keçməsidir və bu dil hadisəsi bütün dil səviyyələrini əhatə edir, yəni onunla fonetika, morfologiya və sintaksisin ziddiyyətləri, qarşılıqlı münasibətləri müəyyən olunur (Kim, 1978: s. 4).

V.Q.Qak transpozisiya termininin lüğəvi mənasını izah edərək onun “transpatio” (latın mənşəli söz olub, yerdəyişmə deməkdir) sözündən yarandığını qeyd edir. O da həm geniş, həm də dar mənada bu terminin izahını verir. V.Q.Qak geniş mənada transpozisiyanı belə izah edir ki, o istənilən dil formasının köçürülməsidir. Dar mənada isə o, transpozisiyanı “funksional transpozisiya” adlandırır. Burada isə bir nitq hissəsindən başqa bir nitq hissəsinə keçid nəzərdə tutulur (Лингвистический энциклопедический словарь, 2002: s.519).

O da qeyd olunmalıdır ki, bir dil işarəsinin bir kateqoriyadan başqa birisinə çevrilməsi imkanlarının araşdırılması Avropa dilçiləri tərəfindən başlayır. Cenevrə dilçilik məktəbinin bu araşdırmada böyük rolu var. Belə ki, həmin dilçilik məktəbinin məşhur nümayəndəsi olan Ş.Balli funksional transpozisiya konseptini formalaşdırır və belə hesab olunur ki, məhz elə o, dilçiliyə transpozisiya terminini gətirir (Балли, 1955: s. 179-196). Bu dil hadisəsinin başqa mənalarla yanaşı, semantik mahiyyətini də qeyd edən isveçrəli dilçi Ş.Balli funksional transpozisiyanın üç hissədən ibarət olduğunu qeyd edir:

1) Transpozisiya edilməli olan hissə;
2) Transpozisiya və ya yeni bir kateqoriyanı ifadə edən işarə;
3) Transpozisiya olunmuş hissə.

Ş.Ballidən sonra O.Yesperson, A.Seşe, A.Frey, L.Tenyer, J.Dyubua *transiliyasiya* termini ilə transpozisiyanın növlərini xarakterizə edirlər. E.Kuriloviç isə nitq hissələri arasında keçid zamanı yaranan

fərqliliklərin *sintaktik derivasiyaya* uyğun olduğunu qeyd edir. Məhz elə *derivasiya* termininin XX əsrin 30-cu illərində dilçilikdə işlənməsi E.Kuriloviçin adı ilə bağlıdır (Куриловић, 1962: s. 61).

Orta məktəbi başa vuran gənclər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün müasir dövrün iqtisadi, hüquqi və texnoloji çətinliklərinə hazır olmalı, onların aradan qaldırılmasında təşəbbüskarlıq və fəallıq göstərməlidirlər. Bunun üçün yalnız elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə edilməlidir. Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan, Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Ana dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər.

Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də:

- nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq;
- Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək;
- davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

Deyilənlərdən çıxış edərək, Azərbaycan dili təliminin aşağıdakı ümumi vəzifələrini qeyd edə bilərik:

1. Şagirdlərdə ünsiyyət mədəniyyəti formalaşdırmaq;
2. Şagirdləri müstəqil həyata, şüurlu peşə seçməyə hazırlamaq;
3. Şagirdlərdə ana dilinə, ədəbi irsə, keçmişimizə məhəbbət, milli və ümumbəşəri dəyərlərə ehtiram hissi yaratmaq;
4. İnformasiya – kommunikasiya texnologiyalarından, texniki vasitələrdən, ictimai- iqtisadi biliklərdən gündəlik fəaliyyətlərində səmərəli istifadə etmək bacarığını təmin etmək.

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vasitəsilə aşağıdakıların həyata kecirilməsi nəzərdə tutulur:

- İbtidai təhsil səviyyəsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması (Nitqin ekspressiv funksiyası fikrin ifadəli verilməsinə xidmət etdiyi üçün emosional dil vahidlərindən istifadə edir. Belə dil vahidlərinə xüsusi leksik vahidlər, nidalar, habelə vurğu, intonasiya və s. aid edilə bilər.
- Ümumi orta təhsil səviyyəsində şagirdlərdə ifadəli və şüurlu oxu, aydın, səlis, düzgün şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi, nitqin leksik, qrammatik və üslubi cəhətdən zənginliyi, təcrübi baxımdan əhəmiyyətli olan dilçilik anlayışları və qaydalarının mənimsənilməsi, dil hadisələri zəminində şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişafı, şagirdlərdə ana dilinə məhəbbət və hörmət hissinin formalaşdırılması təmin edilir.
- Tam orta təhsil səviyyəsində ümumi orta təhsil səviyyəsindəki fəaliyyət istiqamətləri inkişaf etdirilməklə ədəbi dilin üslublarından istifadə imkanlarının genişləndirilməsi, şifahi və yazılı nitq prosesində nitq mədəniyyətinin tələblərinə riayət edilməsi, natiqlik vərdişləri elementlərinin yaradılması təmin olunur (Cəfərova, 2013: s.61-67).

Təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici xarakteri Azərbaycan dili fənninə də aiddir. Azərbaycan dili dərsləri təkcə bilik verməklə kifayətlənə bilməz. Bu dərslər şagirdlərin yüksək insani keyfiyyətlərə yiyələnməsində mühüm rol oynayır. Azərbaycan dili dərslərində şagirdləri vətənpərvərlik, milli iftixar, əməyə məhəbbət, dostluq, yoldaşlıq ruhunda tərbiyə etmək mümkündür. Bunun üçün ən yaxşı vasitə çalışma mətnləri və təhlil üçün seçilmiş cümlələrdir. Müəllim elə mətnlər, elə cümlələr seçməlidir ki, həm dil faktları ilə zəngin olsun, həm də şagirdlərin tərbiyəsinə müsbət təsir göstərə bilsin. Azərbaycan dili fənninin ümumi vəzifələrindən biri də şagirdləri həyata, məişətə əməli cəhətdən hazırlamaqdır. Şagirdlərə dili elə mənimsətmək lazımdır ki, onlar dərsdə aldıqları bilikləri, bacarıqları gündəlik fəaliyyətlərində tətbiq edə bilsinlər. Əgər şagird fikrini ərizə vasitəsilə ifadə etməkdə çətinlik çəkirsə, hər hansı məsələ barədə mətbuatda çıxış edə bilmirsə, müzakirələrdə iştirak edə bilmirsə, fikrini sərbəst şəkildə ifadə edə bilmirsə, deməli əsas məqsədə, təlim nəticəsinə nail olunmamışdır.

Müasir dövrdə təlim prosesi şagirddə fəallığı, ətrafdakı hadisələrə tənqidi yanaşmağı, müstəqil düşünməyi, bilik almağı, analiz-sintez etməyi, yaradıcı fəaliyyət göstərmək bacarığını inkişaf etdirməlidir. Şagird idraki, informativ-kommunikativ və qeyri-iradi dəyərlərə nail olmalıdır. Müasir dərs isə əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin əlaqələndirici, istiqamətverici, məsləhətci, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı

əməkdaşlıq fəaliyyətləri əsasında qurulmasını tələb edir. Müasir dərs öz məqsədinə, məzmununa, fəallıq tempinə, şagirdin müstəqillik səviyyəsinə, öyrənmə- öyrətmə meyarlarına və s. görə ənənəvi təlimdən fərqlənir. Müasir dərs dedikdə, öyrətmə prosesində müəllimin göstərdiyi pedaqoji məharət, ustalıq nəzərdə tutulur. Müəllim sinifdə işgüzar şərait yaradıb şagirdlərin müstəqil mühakimələrinə geniş meydan açırsa, hər mövzunun xarakterinə uyğun priyomlardan, çeviklik və interaktivliyin təmin edilməsindən istifadə edirsə, deməli o, dərsi müasir tələblər əsasında qura bilir (Həsənov, Cəfərova, Bəhmənova, 2017: s.35-49).

Müasir dərsin qarşısına qoyulan tələblərə nəzər salaq:

1. Pedaqoji prosesin tamlığı; dərsin (vətənpərvərlik, milli- mənəvi dəyərlər, ümumbəşərilik ideya- siyasi səviyyə və s.) səviyyəsinin yüksəldilməsidir. Pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) şəkildə həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir. Pedaqoji prosesin tamlığı onun sahələri qarşısında vahid məqsədin durması və şəxsiyyətin bütövlüyü ilə təmin olunur.
2. Tərbiyə, təhsil və təlim prosesləri özlərinə məxsus spesifik xüsusiyyətlərə malik olsa da, hamısı ümumi bir məqsədə - şəxsiyyətin ahəngdar inkişafına xidmət edir.
3. Elmilik prinsipi gözlənilməklə bilikləri müstəqil toplama, mənimsəmə və yaradıcı tətbiq etmə;
4. Şagirdlərdə informasiya məkanına müstəqil daxil olma bacarığının formalaşdırılması;
5. Fəndaxili və fənlərarası inteqrasiyanın təmin olunması;

- Müasir inteqrasiya ayrı-ayrı fənlərin tədrisində qazanılmış biliklərin uzlaşdırılmasına xidmət etməklə, əlaqəli- inteqrativ tədrisi aktuallaşdırır. Fəndaxili əlaqə zamanı üfiqi inteqrasiyadan istifadə fənn üzrə məzmun xətlərini əlaqələndirməklə, məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir.
- Şaquli inteqrasiya isə sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyin qarantı rolunda çıxış edir. Təlim kursunun bütıvlükdə mənimsənilməsi fəndaxili əlaqənin sistemli, şüurlu mənimsənilməsindən asılıdır. I sinifdən başlayaraq tədrs olunan Azərbaycan dili fənni Xİ sinifdə tamamlanır. Bunların qarşılıqlı əlaqəsini bilmədən məfhumların, tərif və qaydaların mənimsədilməsindən danışmaq mümkün olmaz. Morfologiyanı fonetika, leksikologiya və söz yaradıcılığına, sintaksisi morfologiyaya istinad etmədən şüurlu mənimsətmək olmaz.

1. Şəxsiyyətyönümlülük nəzərə alınmaqla şagirdlərin idrak fəaliyyətinin və müstəqilliyinin inkişaf etdirilməsi; Dərs prosesi elə qurulmalıdır ki, şagird nəzəri materialın elmi əsaslarını müstəqil mənimsəyə bilsin. Mövzu ilə bağlı faktları öz faktları ilə tamamlamağı bacarsın. Şagird müəllimin nəzarəti altında subutları özü toplamalı, dərk etdikdən sonra yaddaşında saxlamalıdır. Azərbaycan dili dərslərində qrammatik çalışmalar, yaradıcı yazılar üzərində müstəqil işlər şagirdlərin bilik, bacarıq və vərdişlərini inkişaf etdirir.
2. Şagirdyönümlülük gözlənilməklə nikbinlik, humanistlik, tolerantlıın formalaşdırılması; (şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir). Təlim prosesində gələcəyə inam, nikbin əhval- ruhiyyə, şagirdlərdə özünəinam hissləri aşılanmalıdır. Şəxsiyyətin inkişafı təhsilin əsas məqsədi, təlim isə bu məqsədə nail olmağın vasitəsidir.
3. Stimullaşdırıcı psixoloji dəstəyin təmin olunması; bu fəal təlimin əsas prinsiplərindən olan əməkdaşlıq şəraitində mümkündür. Mənimsəmə proseində şagird müəllimlə bərabərhüquqlu statusda olmalıdır. Müəllim hər bir şagirdə mərhəmət, hörmət hissi bəsləməlidir. Şagird də müəllimi dost, əməkdaş kimi hiss etməlidir və s.

Müasir təlimə görə Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, *düşünmə*, *öyrənmə* və *danışma* bacarıqlarını formalaşdırır. Nəticədə bu dil düşünmə, öyrənmə, danışma vasitəsinə cevrilir.

İstifadə olunmuş ədəbiyyat

1. Cəfərova N. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (Dərslik). I hissə. – Bakı: ADPU.
2. Həsənov M.M., Cəfərova N.B. (2013). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (Dərslik). II hissə. – Bakı: Mütərcim.
3. Həsənov M., Cəfərova N., Bəhmənova C. (2017). Kurikulumun məzmunu və həyata keçirilməsi yolları. – Bakı: ADPU.
4. Ağayev Ə.Ə. (2006). Təlim prosesi ənənə və müasirlik. – Bakı: Adiloğlu. – 138 s.

UOT: 37.

THE MAİN DİRECTİONS OF PSYCHOLOGİCAL FACTORS İN THE DEVELOPMENT OF SPEECH OF STUDENTS STUDYİNG İN THE FACULTİES OF FOREİGN LANGUAGES

Gunel Shafiyeva
Lecturer
Azerbaijan State University of Economics, Azərbaijan
agakishiyeva.g@mail.ru
Orcid id: 0000-0001-5105-2749

Abstract. The article deals with the main role of psychological factors in the development of the speech of students studying in the faculties of foreign languages. Thus, psychological research links implicit and explicit learning with the acquisition of grammatical structures. Numerous generalizations have been made in the field of language teaching methods that do not have a sufficient scientific basis. Scientific research is needed to create better methods. The study of the general laws of language learning and the psychology of language should be accompanied by an analysis of individual and genetic psychology. This allows you to determine the most effective language learning and teaching methods. Traditionally, there are common features both in mastering a native language and in learning a foreign language. One of them is manifested in the nature of speech.

Thus, in relation to the psychological foundations of language learning, we can say that the process of learning and mastering a language is an event that takes shape in a social and social environment. It is important that students are in a linguistic environment, which, in turn, is based on oral work, so the stages of listening and speaking should be closely related. Of course, not all students have an auditory motor, some have a hand visual motor. Each of them is dominated by one of them, but the first is more general than the last. The training should be organized in such a way that all types of students can participate in it.

Key words: language, psychological elements of language, language acquisition, conscious and unconscious learning

XARİCİ DİL FAKÜLTƏLƏRİNDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ PSİXOLOJİ AMİLLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ

Şəfiyeva Günel Elxan qızı
müəllim
ADPU, Azərbaycan

Xülasə. Məqalədə xarici dil fakültələrində təhsil alan tələbələrin nitqinin inkişaf etdirilməsində psixoloji amilllərin əsas rolundan bəhs olunur. Belə ki, psixoloji araşdırmalar dilin mənimsənilməsində gizli və aydın yolla öyrənməni (implicit and explicit learning) qrammatik strukturların mənimsənilməsi ilə əlaqələndirir. Dil təlimi metodları sahəsindədə kifayət qədər elmi əsası olmayan çoxsaylı ümumiləşmələr aparılıb.Təkmilləşdirilmiş metodların yaradılması üçün isə elmi araşdırmaya ehtiyac duyulur. Dil öyrənmənin ümumi qanunları və dilin psixologiyasının araşdırılması individual və genetik psixologiyanın təhlili ilə birlikdə aparılmalıdır. Bu isə dilin öyrənilməsində və öyrədilməsində ən təsirli metodları qərarlaşdırmağa imkan

yaradır. Ənənəvi olaraq istər ana dilinin mənimsənilməsində, istərsə də xarici dilin öyrənilməsində ümumi cəhətlər mövcuddur. Bunlardan biri nitqin xarakterində özünü biruzə verir.

Beləliklə, dilin öyrənilməsinin psixoloji əsası ilə bağlı onu qeyd edə bilərik ki, dilin öyrənilməsi və mənimsənilməsi prosesi ictimai və sosial mühitdə formalaşan hadisədir. Tələbələrin dil mühitinə sirayət etməsi vacibdir, bu da öz növbəsində şifahi işə əsaslandığına görə eşitmə və danışıq mərhələləri bir-biri ilə sıx əlaqələndirilməlidir. Əlbəttə ki, bütün tələbələr eşitmə nitq motoruna sahib deyillər, bəziləri görmə əl motoruna sahibdirlər. Hər tələbədə bunlardan biri üstünlük təşkil edir, lakin birinci adını çəkdiyimiz sonuncudan daha ümumi xarakter daşıyır. Təlim isə elə qurulmalıdır ki, öyrəncilərin bütün növləri burada iştirak edə bilsin.

Açar sözlər: dil, dilin psixoloji ünsürləri, dilin mənimsənilməsi, şüurlu və şüursuz öyrənmə

Bu günün insanları Yer kürəsi adlı planetimizin nə ilk, nə də sonuncu şüurlu varlıqlarıdır. Bütün dini və dünyəvi elmlər sübut edir ki, Yer Kürəsində "canlı varlıqların yaranması və yaşaması üçün uyğun olan və uyğun olmayan şəraitlər silsiləli şəkildə bir-birini əvəz etmiş, minilliklər ərzində formalaşan canlı və cansız təbiət növbəti minilliklərdə böyük katoklizmalara məruz qalmış –məhv olmuş və yenidən yaranmışdır" (Köksoy, 2003: s.142). Özlərinin bizim eradan əvvəl 100-cü minillikdə, az və ya çox dərəcədə anlaşıqlı olan ilkin ünsiyyət dillərinin isə təxminən 35-40-cı minillikdə formalaşmağa başladığı qeyd edilən ilk insanlarla bağlı dəqiq, faktiki məlumatların olmaması istər onların dilinin,istərsə də düşüncə tərzinin formalaşmasını əyani sübutlarla şərh etməyə imkan vermir. İndiyə qədər ilkin dilin yaranmasına aid yalnız mülahizə və fərziyyələr mövcuddur. Bununla belə, istər nəzəri dilçilik və dil nəzəriyyəsi, istərsədə dilin psixoloji problemləri və psixoloji dilçiliyə aid araşdırmalar nəticəsində ilkin dil, dilin ontogenezi ilə bağlı müəyyən elmi fikirlər formalaşmışdır. Dilin ontogenezinin müəyyənləşdirilməsi məqsədi ilə aparılan araşdırmaların ən məşhur və mükəmməl olanlarında belə çatışmazlıq kimi qiymətləndirilə biləcək iki başlıca cəhət hər zaman hiss olunmaqdadır. Onlardan birincisi real faktların olmaması səbəbindən dilin ilkin yaranış mexanizmi ilə bağlı *tədqiqatçı təxəyyülünə*, ikincisi isə *analogiya prinsipinə* əsaslanmaqdır. Belə ki, dilin ontogenezini müəyyənləşdirməyə çalışan bütün tədqiqatçılar ya fərziyyə və ehtimallardan, ya da yenicə dil açmağa başlayan uşaqlarda dilin və nitqin formalaşması analogiyasından çıxış edirlər (Əsgərov, 2011: s.27).

«Dil nədir?» problemi bütün dövrlərdə filosofları maraqlandırmış, dilçilik elmi yaranandan etibarən onun mərkəzi mövzusuna çevrilmişdir. Bu suala çoxlu və müxtəlif cavablar verilmişdir. Dil - sosial mühitdə formalaşan ictimai hadisələrdən ən əhəmiyyətlisidir. "İctimai hadisə dedikdə təbiətdə, cəmiyyətdə, fərdlərin davranışında və özündə müəyyən dəyişiklikləri şərtləndirən, qarşılıqlı əlaqə daşıyan davranış fəaliyyəti başa düşülür" (Əfəndiyev, Şirinov, 2011: s.140). Mədəni fəaliyyətin struktur ünsürləri olan **kommunikativ ünsür, semantik ünsür, normativ - etalon ünsürü və informasion ünsür də məhz dil vasitəsi ilə həyata keçirilir** (Vahidov, Ağayev, 2008: s. 123-124).

Dil çox mürəkkəb və sirli hadisədir. L.Vitqenştayn demişdir: " Biz çinliyə qulaq asanda elə bilirik onun danışığı tərkib hissələrinə bölünməyən səs yığınıdır, ancaq çinli öz çinlisinə qulaq asanda onun dilini başa düşür. Deməli, mən insanda insanı dərk etməyə bilərəm" (Veysəlli, 2007: s.6).

V.Humboldtun fikrincə, "Dil ölü məhsul (Erzeugnes) kimi yox, yaradıcı proses kimi (Erzeugung) nəzərdən keçirilməlidir…Əsas mahiyyəti baxımından dil həm stabil, həm də daima dəyişəndir… Dil – fəaliyyətin məhsulu (Ergon) yox, fəaliyyətin özüdür (Energeia)… Dil daima yeniləşən, tələffüz edilən səsləri məna ifadə etməyə yönəldən ruhi fəaliyyətdir" (Əsgərov, 2011: s. 31).

V.Vundt belə hesab edir ki, nitqin mənimsənilməsi prosesi xarici formanın qəbulu ilə başlayır. Xarici formanın analizi cümlənin sintaktik strukturunun və bu da öz növbəsində ümumi təsəvvürün daxili elementləri arasındakı struktur əlaqələrinin, yəni cümlə yaradarkən kommunikantın sözlərlə ifadə etdiyi əqli, fikri məlumatın müəyyənləşdirilməsinə şərait yaradır. Bəzi obyektlərin mənimsənilməsi zamanı yaranan ümumi təsəvvürlər daxili elementlərinə parçalanır ki, bu elementlər arasındakı əlaqələr əvvəlcə subyekt-predikat söyləmləri arasındakı məntiqi münasibətlər şəklində təsvir olunur və bundan sonra cümlədə sözlərlə ifadə edilir (Əsgərov, 2011: s.37).

Dil təlimi metodları sahəsindədə kifayət qədər elmi əsası olmayan çoxsaylı ümumiləşmələr aparılıb.Təkmilləşdirilmiş metodların yaradılması üçün isə elmi araşdırmaya ehtiyac duyulur. Dil öyrənmənin ümumi qanunları və dilin psixologiyasının araşdırılması individual və genetik psixologiyanın təhlili ilə birlikdə aparılmalıdır. Bu isə dilin öyrənilməsində və öyrədilməsində ən təsirli metodları qərarlaşdırmağa imkan yaradır. Ənənəvi olaraq istər ana dilinin mənimsənilməsində, istərsə də xarici dilin öyrənilməsində ümumi cəhətlər mövcuddur. Bunlardan biri nitqin xarakterində özünü biruzə verir.

Psixoloji araşdırmalar dilin mənimsənilməsində gizli və aydın yolla öyrənməni (implicit and explicit learning) qrammatik strukturların mənimsənilməsi ilə əlaqələndirir. Paul J. Reber gizli yolla öyrənmə nəzəriyyəsini eksperimentləri əsasında formalaşdıran ilk tədqiqatçı olmuşdur. Onun eksperimentləri kiçik hazır formalı qrammatik strukturların öyrənilməsi əsasında aparılırdı. O, göstərirdi ki, ətraf mühitdən gələn informasiya şüursuz olaraq müxtəlif kontekstlər daxilində təkrarlanmış ifadələrlə mənimsənilir (Angelika, s.24). Bu prosesi təsadüfi öyrənmə (incidental learning) termini ilə əlaqələndirirlər. O vaxtdan etibarən gizli və aydın yolla öyrənmə barədə çoxlu sayda nəzəriyyələr yaranmağa başladı. Buna əks olaraq, aydın yolla öyrənmə isə strukturların daha şüurlu şəkildə dərk edilərək öyrənilməsidir. Aydın yolla öyrənməni çox vaxt selektiv öyrənmə də adlandırırlar. Məsələn, öyrənci məlumatı araşdırır və fərziyyəsini yoxladıqdan sonra onu nitqdə istifadə edə bilir, çünki biz dildən istifadə edərək kommunikasiya qurduğumuz zaman aydın şəkildə verilmiş qaydalar çərçivəsində bu prosesi yerinə yetiririk .

Aydın şəkildə öyrənmədə bir çox metakoqnitiv strategiyalardan istifadə olunur. Məsələn, tələbələrin yeni sözləri öyrəndikləri zaman onlara naməlum olanlarını qeyd etmələri, sözü konteksdən çıxarmağa cəhd etmələri, təkrar yolu ilə və semantik yaxud təsviri mediasiya vasitələri kimi assosiativ öyrənmə strategiyaları vasitəsi ilə yeni öyrəndikləri sözləri möhkəmləndirmək.

Linqivstik psixologiya dilin qavranılması prosesinə müəyyən töhfələr vermişdir. Burada, ayrı-ayrı səslərin və ya sözlərin qavranılması və yaxud dilin qrup şəklində qavranılması ilə bağlı məsələlərə baxılmışdır.

Randal Eqert bildirir ki, biz ayrı-ayrı səsləri və ya sözləri qavramırıq. Cümlə bizim ilkin təsvirimizdir; söz isə bundan sonra gəlir. Eksperimentlər də bir daha sübut edir ki, əgər sözlərin mənaları konteksdən bilinərsə,dil, cümlələr vasitəsi ilə daha asanlıqla mənimsənilir və kontekst assosiasiya üçün yardımçı baza verir.

Con Qrinstid konteksdə öyrənilmiş sözlərin tanınması imkanının siyahı ilə öyrədilmiş sözlərdən 3 dəfə artıq olduğu məqamları göstərib.1) Əgər tələbələrə maraqlı deyilsə, ayrı öyrədilmiş sözlər onlarda maraq oyatmır; 2) bu sözlərin yadda saxlanılması onlar üçün çox çətin gəlir; 3) ayrı sözlər əlaqəli fikirləşməyə imkan vermir (Irma, 1929: s.378).

Öyrənmə prosesində emosional ton nə qədər canlı olarsa, söz şüura daha yaxşı həkk olunmuş olar və daha asanlıqla yadda saxlanıla bilər, nəticədə nitq daha səlis olur. Emosional element tələbənin şəxsi təcrübəsi əsasında daha asanlıqla üzə çıxır. Ona görə də ilkin mərhələdə verilən material tələbəyə tanış olmalıdır. Yalnız dil hissləri oyatdığı zaman, yalnız dilin intuitiv hissi qazanılan zaman tələbənin dilə yiyələnməsindən danışmaq olar. Bu səbəbdən biz, psixologiyaya yalnız metod üçün əsas olaraq deyil, həmçinin məzmunun seçimini müəyyənləşdirən amil kimi yanaşmalıyıq ki, bu da öz növbəsində intuitiv hissin yaradılması ilə qərarlaşır. Lakin, bir məqam da nəzərdən qaçmamalıdır ki, xarici dilin öyrənilməsində və öyrədilməsində mental proseslər üzərində aparılan tədqiqatlar tam da təkmilləşdirilməyib. Bunun üçün də yeni tədqiqatların, eksperimentlərin aparılması, dilin mənimsənilməsində daha səmərəli müasir metodların, üsulların, vasitələrin və strategiyaların seçilməsi üçün labüddür.

Psixoterapevtik psixoloji araşdırma təlim metodlarının qəbul olunmasında əhəmiyyətli dərəcədə şifahi işə əsaslanır. Herman T. Lukens bildirir: "Madam ki, insan yazılı dildən qabaq şifahi dili öyrənir və bu proses milli zəmində həyata keçirilir, o zaman şifahi mərhələnin birinci gəlməsi məntiqə uyğundur" (Irma, 1929: s.376). Nitq motor mərkəzi və eşitmə mərkəzinin müqayisədə yaxın

zamanlarda inkişaf etmiş yazı və oxu mərkəzlərindən daha yaxşı quruluş forması var. Eşitmə mərhələsi körpə uşağın ilkin prosesidir. Körpə uşaq, müəyyən adlarla çağırılan əşyaları eşidir və assosiasiya etmək vasitəsi ilə tədricən obyektləri söz formaları ilə əlaqələndirir. Bir müddət sonra o, eşitdiyi sözləri təqlid etmək vasitəsi ilə bu hiss təəssüratlarına ifadə verməyə çalışır. İnanmaq üçün hər cür səbəb mövcuddur, lakin uşaq onları ifadə etməmişdən qabaq sözlərin əksəriyyətini başa düşür. Digərləri, əşyaları adlandırdıqları təqdirdə, uşaqlar sözləri adlandırmaqla yanaşı bu sözlərin adlarının daşıdığı əşyaları göstərməklə deyilən obyektin adının düzgün olub-olmamasını öz tərəflərindən sübuta yetirmiş olurlar. Bu proses xarici dilin öyrənilməsindədə aydın nəzərə çarpır. Tələbə, tədricən məna daşıyan yad səsləri eşidir və onları başa düşən kimi nitqində ifadə etməyə çalışır. Tələbə həmən sözləri istifadə etməzdən əvvəl onların əksəriyyətini başa düşə bilər. Səsin eşidilməsi və onun nitqdə düzgün ifadə edilməsi arasındakı proses fərd inkişaf etdikcə qısalır. Sözün təsviri, sözün eşidilməsi və ifadəsi, tərkib hissələrinə ayrılması mümkün olmayan kompleks formalaşdırır. Nitq motoru mərkəzini istifadə etmədən dili öyrətməyə çalışmaq dilin mənimsənilməsi üçün ən güclü yardım vasitələrindən birini gözdən qaçırmaq deməkdir.

Beləliklə, dilin öyrənilməsinin psixoloji əsası adlı məqaləni tamamlayaraq qeyd edə bilərik ki, dilin öyrənilməsi və mənimsənilməsi prosesi ictimai və sosial mühitdə formalaşan hadisədir. Tələbələrin dil mühitinə sirayət etməsi vacibdir, bu da öz növbəsində şifahi işə əsaslandığına görə eşitmə və danışıq mərhələləri bir-biri ilə sıx əlaqələndirilməlidir. Əlbəttə ki, bütün tələbələr eşitmə nitq motoruna sahib deyillər, bəziləri görmə əl motoruna sahibdirlər. Hər tələbədə bunlardan biri üstünlük təşkil edir, lakin birinci adını çəkdiyimiz sonuncudan daha ümumi xarakter daşıyır. Təlim isə elə qurulmalıdır ki, öyrəncilərin bütün növləri burada iştirak edə bilsin. Bununla yanaşı, tələbələrdə bütün beyin mərkəzlərinin məşq etdirilməsi vacibdir.

İstifadə olunmuş ədəbiyyat

1. Əsgərov M.B. (2011). Linqvopsixologiya və ya dilin psixologiyası. – Bakı: Elm və təhsil.
2. Əfəndiyev M., Şirinov A. (2001). Sosiologiyanın nəzəri problemləri. – Bakı.
3. Vahidov F. Q., Ağayev T. B. (2008). Sosiologiya. – Bakı.
4. Veysəlli F. (2007). Dil. – Bakı, Təhsil NPM.
5. Köksoy M. (2003). Yerbilimlerinin Katkısıyla Nuh Tufanı ve Sumerlerin Kökeni. – Ankara.
6. Angelika R. Vienna, Implicit and explicit learning in incidental Vocabulary acquisition, views. – P. 24-39 // http://www.univie.ac.at/Anglistik/views/03_2/RIE_SGLE.PDF
7. Irma L. S. (1929). Source: The Modern Language Journal, Scientific Pedagogical Foundation of Teaching Modern Foreign Languages. Vol. 13, No. 5. – PP. 376-392

UOT: 8: 811.512.162

PROBLEMS COMPLICATING THE TEACHING OF COMMON WORDS ON THE MAIN PARTS OF THE SPEECH (NOUN, ADJECTIVE, NUMERAL, ADVERB)

Svetlana Nasibli
Lecturer
Mingachevir StateUniversity, Azerbaijan
nesibli.lana@mail.ru
Orcid id: 0000-0003-4886-8856

Abstract. Morphology is the main branch of linguistics and deals with parts of speech. Parts of speech have a special place in the teaching of the Azerbaijani language. Problems of teaching common words on the main parts of speech (noun, adjective, number, adverb) on some grammatical rules of the Azerbaijani language are among the controversial ideas linguists have different approaches and opinions on the rules of teaching the main parts of speech in the Azerbaijani language. The article deals with the use of the words "good, bad, beautiful, stylish, less, more, much" as an adjective, number or envelope as the main part of

speech by linguists in higher and secondary school practice. In morphology, which is one of the linguistics, it is very important for students to master the parts of speech, especially the common words we are taking about. Subject teachers should prefer to use relevant test items, individual and group work on the topic in a more creative and active way when teaching the main parts of speech that have theoretical significance in morphology - nouns, adjectives, numbers, adverbs.

Key words: Parts of the speech, noun, adjective, numeral, adverb, common words, teaching

ƏSAS NİTQ HİSSƏLƏRİ (İSİM, SİFƏT, SAY, ZƏRF) ÜZRƏ ORTAQ OLAN SÖZLƏRİN TƏDRİSİNİ ÇƏTİNLƏŞDİRƏN PROBLEMLƏR

Nəsibli Svetlana Arif qızı
Müəllim
Mingəçevir Dövlət Universiteti, Azərbaycan

Xülasə: Morfologiya dilçiliyin əsas bölməsi olub nitq hissələrindən bəhs edir. Nitq hissələri Azərbaycan dili fənninin tədrisində xüsusi yer tutur. Azərbaycan dilinin bəzi qrammatik qaydalarına dair əsas nitq hissələri (isim, sifət, say, zərf) üzrə ortaq olan sözlərin tədrisi problemləri mübahisəli fikirlər sırasına daxildir. Azərbaycan dilində əsas nitq hissələrinin tədrisi qaydalarına dair dilçi alimlər tərəfindən fərqli yanaşma və fikirlər mövcuddur. Məqalə mövzusunda ali, eləcə də orta məktəb praktikasında özünü göstərən və dilçi alimlər tərəfindən müxtəlif fikirlərə səbəb olan aktual problemlər tədqiqata cəlb olunmuşdur. Mövzunun daxilində dilçi alimlərimiz tərəfindən "yaxşı, pis, gözəl, qəşəng, az, çox, xeyli" sözlərinin əsas nitq hissəsi olaraq sifət, say, yoxsa zərf kimi götürülməsi məsələsinə toxunulmuşdur. Dilçiliyin əsas bölmələrindən olan morfologiyada nitq hissələrinin, xüsusilə də bəhs etdiyimiz ortaqlı sözlər bəhsinin şagirdlər, tələbələr tərəfindən yaxşı mənimsənilməsi olduqca vacibdir. Fənn müəllimləri morfologiya bəhsində nəzəri əhəmiyyəti olan əsas nitq hissələrini – isim, sifət, say, zərf mövzularını tədris edərkən daha yaradıcı və fəal şəkildə mövzu üzrə müvafiq test tapşırıqlarından, fərdi və qrup çalışmalarından məharətlə istifadə etməyə üstünlük verməlidirlər.

Açar sözlər: Nitq hissələri, isim, sifət, say, zərf, ortaq sözlər, tədris

Respublikanın müxtəlif ali məktəblərinin filologiya fakültələrində tədris olunan "Müasir Azərbaycan dili" fənni digər tədris fənləri içərisində əsas yerlərdən birini tutur. Dilin əsas (isim, sifət, say, əvəzlik, feil, zərf) və köməkçi (qoşma, bağlayıcı, ədat, modal sözlər, nida) nitq hissələrindən bəhs edən morfologiya şöbəsi "qrammatika" adlı elm sahəsinin tədqiqat obyektinə aiddir. Qeyd olaraq onu da vurğulayaq ki, bəzi ali məktəb dərsliklərində nidanı köməkçi nitq hissəsi deyil, xüsusi nitq hissəsi kateqoriyasına daxil edirlər. Dilimizin aktiv lüğət bazasına daxil olan bir çox sözün həm leksik, həm qrammatik mənası olduğunu bilirik. Məhz ona görə də bu qaydanı nəzərə alaraq qeyd edə bilərik ki, Azərbaycan dilinin lüğət tərkibi ilə qrammatik quruluşu vəhdət təşkil edərək bir-birini zənginləşdirir. Azərbaycan dilinin qrammatik quruluşunun şagirdlər, tələbələr tərəfindən düzgün öyrənilməsini asanlaşdırmaq üçün nitq hissələri üzrə morfoloji əlamətlərin dəqiq, lakonik şəkildə müəyyənləşdirilməsi olduqca əhəmiyyət daşıyır.

Əsas və köməkçi nitq hissələrinin xüsusiyyətlərinin fərqləndirilməsi də bu prosesdə olduqca vacib məqamdır. Belə ki, öyrənənlər əsas nitq hissələrinin köməkçi nitq hissələrindən fərqlərini: əsas nitq hissələrinin leksik mənaya malik olduğunu, köməkçi nitq hissələrində isə yalnız qrammatik mənanın olmasını nəzərə çatdırmaq, sözyaradıcılığı prosesində əsas nitq hissələrinin digərilərinə görə fəal iştirakını vurğulamaq, əsas nitq hissələrinin köməkçilərə nisbətən tarixilik-qədimlik prinsipinə görə qeyd etmək, əsas nitq hissələrinin məhz köməkçi nitq hissələrinin yaranması prosesində dildə böyük rola malik olmaq, əsas nitq hissələrinin köməkçi nitq hissələrindən fərqli olaraq cümlə üzvü vəzifəsində əsas və əlavə sintaktik funksiya daşıdığını nümunələrlə əsaslandırmaq və s. qrammatik tələbləri bilməlidirlər.

Əsas nitq hissələrinin cümlə üzvləri əsasında müəyyənləşdirilməsi sintaktik prinsip nəticəsində ortaya çıxır. Sintaktik prinsipin tələbinə əsasən hər bir əsas nitq hissəsinin cümlə üzvü olaraq özünəxas sintaktik vəzifəsi nəzərə alınır. Bildiyimiz kimi sintaktik prinsipin qaydasına görə

əsas nitq hissələri cümlədəki digər sözlərlə əlaqəyə girərək cümlə üzvü vəzifəsində əsas və əlavə sintaktik funksiyanı yerinə yetirir. Məsələn: İsim cümlədə əsas sintaktik vəzifə daşıyaraq "mübtəda", sifət "təyin", say "təyin", feil "xəbər", zərf "zərflik" rolunda çıxış edir. Ancaq bu prinsipdə də mübahisəyə səbəb olan bəzi amillər ortaya çıxır.

Müasir təlimdə şagirdlərin nitq bacarıqlarının formalaşdırılması və inkişafının mətn üzrə iş əsasında qurulduğunu nəzərə almaqla nitq situasiyalarında dil qaydalarına (isim, sifət, say, əvəzlik, feil, zərf və s.) keçidi təmin etmək və bu qaydaları real nitqə tətbiq etmək üçün mənimsətmək bu gün öz aktuallığını qoruyub saxlamaqdadır. Bu baxımdan əsas nitq hissələrinin düzgün və elmi əsaslarla mənimsənilməsi öyrənənlər üçün olduqca vacibdir.

Azərbaycan dilinin bəzi qrammatik qaydalarına dair dilçi alimlər tərəfindən fərqli yanaşma və fikirlər mövcuddur. Qrammatik qaydalara dair əsas nitq hissələri (isim, sifət, say, zərf) üzrə ortaq olan sözlərin tədrisi problemləri bu cür mübahisəli fikirlər sırasına daxildir. Mübahisə əsasən isimlərlə zərflər, sifətlərlə zərflər, saylarla zərflər arasında qeydə alınır. Adı çəkilən əsas nitq hissələri üzrə oxşar cəhətlərin olması, bəzi sözlərin ortaqlı işlənməsi nitq hissəsi kimi cümlədə onların fərqləndirilməsi işini bir qədər çətinləşdirmiş olur.

Qeyd olunan mövzu üzrə dilçilərin fərqli fikir və yanaşmalarını nəzərə alaraq bu bölmənin istər ali məktəblərdə, istərsə də orta ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədrisini çətinləşdirən problemlərdən olduğunu görürük. Bu cür çətinliklər müasir qrammatika kitablarımızda hələ də öz mövcudluğunu qoruyub saxlamaqdadır. Mövzu əsasında ali, eləcə də orta məktəb praktikasında özünü göstərən və dilçi alimlər tərəfindən müxtəlif fikirlərə səbəb olan aşağıdakı aktual problemlərə nəzər yetirək:

1. Uzun zamandır mübahisə törədən aktual məsələlərdən biri "Yaxşı tələbə yaxşı oxuyar" – cümləsindəki "yaxşı" sözlərinin hansı nitq hissəsi olaraq götürülməsidir. Dilçi alim prof.Buludxan Xəlilov "Müasir Azərbaycan dilinin morfologiyası" dərsliyində qeyd edir ki, nitq hissələrinin təsnifində sintaktik prinsip bəzən morfoloji prinsipin köməyinə çatır. Məsələn: "Yaxşı" sözü sintaksisdə işlənmə mövqeyindən asılı olaraq cümlə üzvü kimi təyin və zərflik olur. Nümunə:

Yaxşı adamı hamı sevir (təyin). Uşaqlar yaxşı oxuyur (zərflik).

"Yaxşı" sözünün sintaktik vəzifəsi morfologiyada bu sözün sifət və ya zərf olmasını müəyyənləşdirməkdə kömək olur. Lakin isimdən əvvəl təyin, feildən əvvəl zərflik vəzifəsində işlənən bu cür sözləri sintaktik vəzifə əsasında feilə aid olduqda həmişə zərf hesab etmək doğru deyildir. Bu prinsipin yanlış olduğunu ilk dəfə prof.Ə.Dəmirçizadə "Müasir Azərbaycan dilinin morfologiyası" kitabında göstərmiş, bu cür sözlərin yalnız sintaktik vəzifəcə fərqləndiyini, nitq hissəsi kimi isə sifətlərdən ibarət olduğunu xüsusi qeyd etmişdir (Dəmirçizadə, 2007: s.56).

Orta ümumtəhsil məktəblərində şagirdlər zərfi öyrənərkən onun mənasını mənimsəməkdə, yazılış qaydalarını dərk etməkdə hərdən çətinlik çəkirlər. Bu cəhətdən də Azərbaycan dilini tədris edən müəllim öz izahında zərfin xarakterik əlamətlərini, həmçinin onun başqa nitq hissələrindən fərqlərini, zərflə ortaq olan sözlərin işlənmə yerini, həmin sözlərin morfoloji əlamətlərini ətraflı şəkildə öyrənənlərin diqqətinə çatdırmalıdır.

2. Dilçi alimlərimiz tərəfindən "pis, gözəl, qəşəng, az, çox, xeyli" sözlərinin də əsas nitq hissəsi olaraq sifət, say, yoxsa zərf kimi götürülməsi məsələsinə toxunulmuşdur. Bunlardan az, çox, xeyli sözləri dərslikdə həm miqdar, həm də miqdar zərfi kimi işlənir. Əşya bildirən sözdən əvvəl gəldikdə say, feildən, feil sifət və sifətdən əvvəl işləndikdə zərf hesab edilir. Məsələn:

Günəş üfüqdən xeyli yüksəlmişdi. (İ.Əfəndiyev), Bəli, biz alim deyilik, biz az bilirik. (M.Cəlal), Gülümsəmək Baba Keşişin sifətinə çox yaraşırdı. (Elçin) və s. (Kazımov, 2010: s.330).

Bəzi morfologiya dərsliklərində bu sözlər yanlışlıqla zərf kimi götürülsə də, prof.Qəzənfər Kazımov "Müasir Azərbaycan dili: Morfologiya" Ali məktəblər üçün dərsliyində qeyd edir ki, həmin sözlər bir nitq hissəsi kimi sifət və saydır. Lakin o sözlər feillərlə əlaqələndikdə adverbiallaşmış olur. Yəni bu sözlər zərf deyil, adverbiallaşmış sifət və saylardır. B.Xəlilov isə öz dərsliyində göstərir ki, həmin sözlərin hansı nitq hissəsinə aid olması sintaktik prinsiplə müəyyənləşdirilir. Yaxşı, gözəl, pis

və s. tipli sözlərin əşyaya aid olduqda sifət, hərəkətə aid olduqda isə zərf olduğu məqbul fikir kimi götürülür. Bu yanaşmanın məqbul olmasında da sintaktik prinsip əsas rol oynayır (Xəlilov, 2000: s.141).

Prof.M.Hüseynzadə də "Müasir Azərbaycan dili" dərsliyində həmin sözləri yerinə görə əsas nitq hissəsi olaraq sifət, say, zərf kimi götürməyi məqsədəuyğun hesab etmişdir (Hüseynzadə, 2007: s.258).

O cümlədən bir qrup dilçilər – F.Zeynalov, C.Cəfərov, Ə.Şükürov və digəriləri əlamət-keyfiyyət bildirən bəzi sifətləri feilə aid olduqda yenə də əsas nitq hissəsi olaraq sifət hesab edirlər. Bundan əlavə, belə bir fikir də var ki, əlamət-keyfiyyət bildirən sifətlərin feilə aid olmasına baxmayaraq, feillə sifət arasında bəzən əşya məfhumu təsəvvür olunmaqdadır. Məsələn: Müğənni gözəl (mahnı) oxuyur. O, yaxşı (əsər) yazmışdır və s. Məhz bu cür nümunələrdə "gözəl, yaxşı" sözlərini sifət olaraq işləndiyi fikrini məqbul hesab etmişlər.

Yuxarıda adlarını çəkdiyimiz dilçilərin qeyd olunan sözlərlə bağlı müxtəlif fikir və qaydalarını göstərməklə yanaşı, bunu da vurğulamaq lazımdır ki, "yaxşı, pis, gözəl, qəşəng və s. sifətlərinin dilçiliyin morfologiya bölməsində substantivləşməsi (isimləşməsi), adverbiallaşması (zərfləşməsi) qaydalarını mütləq şəkildə nəzərdə saxlamaq gərəkdir.

İsimləşmə (substantivləşmə) qaydasındakı çətinliyi aradan qaldırmaq üçün morfoloji və sintaktik sualların verilməsi üzrə təkrar iş aparılmalı, diqqət ona yönəldilməlidir ki, sifət əlamət baxımından rəngin, həcmin, keyfiyyətin adını bildirir və onun isimləşməsi təbii dil prosesidir (Balıyev, Balıyev, 2014: s.210). Fənn müəllimi bu çətinliyi aradan qaldırmaq və ətraflı izah vermək üçün BİBÖ (Bilirəm, İstəyirəm Bilim, Öyrəndim) fəal təlim üsulundan istifadə etməklə mövzu üzrə tədrisin keyfiyyətini yüksəldə, onu yaxşı mənimsədə bilər.

Bildiyimiz kimi, ali məktəb dərsliklərində mübahisəli məsələ kimi qeyd olunan bu cür mövzular orta məktəb dərsliklərində vahid qayda şəklində öz əksini tapır ki, şagirdlər arasında çaşqınlıq, öyrənmə çətinliyi yaratmasın. Məhz bu səbəbdən yuxarıda adları çəkilən sözlərin VI sinif Azərbaycan dili orta məktəb dərsliyində isimdən əvvəl gəldikdə sifət, say, feildən əvvəl gəldikdə isə zərf kimi götürülməsi qaydası öz əksini tapmışdır (İsmayılov, Cəfərova, Məmmədova, 2013: s.70).

Məsələn: Gözəl qız (sifət), gözəl düşünmək (zərf); xeyli kitab (say), xeyli oturmaq (zərf); az adam (say), az danışmaq (zərf) və s. Orta məktəb Azərbaycan dili dərsliyində adı qeyd olunan mövzu üzrə müəllim şagirdlərə feil və sifətin morfoloji əlamətlərini tədris etdikdən sonra əşyanın əlamətini bildirən sifətlə hərəkətin əlamətini bildirən zərfi müqayisə edərək mənimsətməlidir. Həmçinin bu məqamda zərfin sintaktik vəzifələrini, onun cümlə üzvü olaraq əsas sintaktik vəzifəsinin zərflik olduğunu test və ya mətn üzrə cümlə nümunələri ilə diqqətə çatdırmaq lazımdır.

3. "Gecə, gündüz, səhər, axşam" sözləri işlənmə məqamına görə isim və zərf kimi qeyd olunur. Ali məktəb dərsliklərində bu cür sözlərin ismə və ya zərfə daxil edilməsi onların aid olduğu sözlə bağlı deyil, mənasına görədir. Bu sözlər kəmiyyət, mənsubiyyət, hal şəkilçiləri qəbul edərək dəyişdikdə isim hesab olunur. Məsələn:

Gecəm (nə?) belə keçdi, səhərim (nə?) gəlsin,

Dadıma sanballı sözlərim gəlsin (Kazımov, 2010: s.314).

Bəzən bu sözlərdə zaman mənası güclənir deyə həmin sözlər morfoloji dəyişikliyə məruz qalmır və zərf kimi götürülür. Məsələn: Qonaq gecə (nə vaxt?) gəldi, gecə (nə vaxt?) getdi,... və s.

Beləliklə, bunu qeyd etməliyik ki, yuxarıdakı sözlərin zərf kimi bir nitq hissəsi olaraq müəyyənləşdirmək üçün leksik-qrammatik məna, məfhum mühüm rola malik olsa da, əsas meyar hələ ki sintaktik vəzifədir. Ancaq onu da unutmaq olmaz ki, zərf morfoloji dəyişikliyə uğramasa belə, onun özünə aid kateqoriya əlaməti olmasa belə bu cür sözlər morfoloji əlamətdən tam da uzaq deyil. Bu baxımdan zərflər sintaktik vəzifəcə digər nitq hissələrindən əsaslı formada fərqlənir və müstəqil bir nitq hissəsi rolunda çıxış edir.

Orta məktəb Azərbaycan dili dərsliyində bu sözlərin isim kimi işləndikdə ismin suallarına cavab verməsi və ismin xüsusiyyətlərini daşıması, zərf kimi işləndikdə isə nə zaman?, nə vaxt?,

haçan? suallarına cavab verməsi qayda kimi təsvir olunmuşdur (İsmayılov, Cəfərova, Məmmədova, 2013: s.75).

Öyrənənlərə zərfin əsas bir nitq hissəsi olaraq xüsusiyyətlərini və qrammatik – morfoloji əlamətlərini mətn üzərində izah etmək daha məqsədəuyğundur. Şagirdlər, o cümlədən tələbələr zərflərin müxtəlif nitq hissələrindən (isim, sifət, say) oxşar və fərqli xüsusiyyətlərini mütləq şəkildə nümunələr əsasında mənimsəməlidirlər. Əks halda öyrənənlərin əsas nitq hissələri üzrə kompetensiyaları formalaşmamış olacaq ki, bu da sonrakı bölmələrdə dil qaydalarının mənimsənilməsində ciddi problemlər yarada bilər.

Morfologiya bölməsinin tədrisi zamanı əsas nitq hissələrinin (isim, sifət, say, əvəzlik, feil, zərf) xarakterik xüsusiyyətlərinin qeyd olunması və bunların bir-birindən fərqləndirilməsini nəzərə çatdırmaq üçün mövzuya aid əyani (şəkillər, cədvəllər, sxemlər və s.) və texniki vasitələrdən (Ağıllı lövhə, Mimiö qurğusu və s.) istifadə olunması məsləhət görülür. Biz bilirik ki, təlimin əyanilik prinsipinə əsasən öyrənənlərin əksəriyyətində vizual, yəni görmə yaddaşı daha güclü olduğundan onlar məhz bu şəkildə bilikləri rahat və çevik şəkildə mənimsəyə bilirlər. Ona görə də hər bir müəllim, o cümlədən Azərbaycan dili fənnini tədris edən müəllim istər orta ümumtəhsil məktəblərində, istərsə də ali məktəblərdə bu vasitələrdən, xüsusilə də İKT-dən tədris prosesində aktiv istifadəyə çalışmalı, qarşıya qoyulan təlim nəticələrinə, mövzunun hərtərəfli, dəqiq şəkildə mənimsənilməsinə nail olmalıdır. Müasir dövrün tələbi olaraq İnformasiya Kommunikasiya Texnologiyaları üzrə bacarıq və vərdişlərin formalaşdırılması əsas təlim faktorlarından biridir. Xüsusilə də distant (məsafədən) təhsilin inkişaf etdiyi indiki dövrdə öyrənənlərin İKT-dən (İnformasiya Kommunikasiya Texnologiyaları) istifadə bacarığı ön plana çəkilməkdədir.

Yekun olaraq onu deməliyik ki, dilçiliyin əsas bölmələrindən olan morfologiyada nitq hissələrinin, xüsusilə də bəhs etdiyimiz ortaqlı sözlər bəhsinin şagirdlər, tələbələr tərəfindən yaxşı mənimsənilməsi olduqca vacibdir. Bunun üçün məktəbdə aşağı sinifdən əsası qoyulan bəsit biliklər yuxarı siniflərdə, eləcə də buna uyğun olaraq ali məktəb kursunda fənn müəllimi tərəfindən daha da təkmilləşdirilməlidir. Fənn müəllimləri morfologiya bəhsində nəzəri əhəmiyyəti olan əsas nitq hissələrini – isim, sifət, say, zərf mövzularını tədris edərkən daha yaradıcı və fəal şəkildə mövzu üzrə müvafiq test tapşırıqlarından, fərdi və qrup çalışmalarından, mətn üzrə işlərin düzgün qurulmasından məharətlə istifadə etməyə üstünlük verməlidirlər. Həmçinin ümid edirik ki, növbəti, təkmilləşdirilmiş yeni ali məktəb dərsliklərində əsas nitq hisələrinin fərqləndirilməsi qaydalarına dair qeyd olunmuş mübahisəli məsələlər öz həllini tapacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Balıyev H.B., Balıyev A.H. (2014). Azərbaycan dilinin tədrisi metodikası. – Bakı: Qismət. – 384 s.
2. Dəmirçizadə Ə.(2007). Müasir Azərbaycan dilinin morfologiyası. –Bakı: Şərq-Qərb. – 205 s.
3. Hüseynzadə M. (2007). Müasir Azərbaycan dili. III hissə. –Bakı: Şərq-Qərb. – 350 s.
4. Xəlilov B. (2000). Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. –Bakı – 280 s.
5. İsmayılov R., Cəfərova D., Məmmədova S. (2013). Azərbaycan dili. 6-cı sinif. – Bakı.
6. Kazımov Q.Ş. (2010). Müasir Azərbaycan dili. Morfologiya. –Bakı: Elm və təhsil.- 400 s.

UOT: 37.01

USING OF INNOVATIONS IN MODERNAZING EDUCATION CONTENT

Afag Aliyeva
Assistant director
Humanitarian Collage under ASUCA, Azerbaijan
pedaqoq-7@mail.ru
Orcid id: 0000-0001-8747-5874

Abstract. Education content is one of the main problems and an important means in the formation of personality. The world is rapidly changing and globalizing. Education process depends on academic achievement. At the same time, an improvement of the standard of living of the population is associated not only with competitiveness, but also with education. By improving the content of our education, we improve the standard of living of the students we teach. To solve the problems it is necessary to update and modernize the content of education as well as requirements to the organization of teaching process. Summarizing the results of research on the application and management of new content, we conclude that the implementation and management of new programs (curricula) and other value-based health-oriented content requires managers to build on these new principles and approaches. Properly implemented content is the basis for the development of the educational process, the way of its existence, has a special progression and has the potential of excessive development, which depends on the effective organization of education. The goal of modern primary education is to improve a child`s identity. This aim is achieved by humanization the education process and creating potential for child`s fundamental development. In order to achieve it integration –based training should be used.

Key words: Innovation, personality-oriented education, new content, requirements of modern education, modernization, indicator of education, value orientation.

TƏHSİLİN MƏZMUNUNUN YENİLƏNMƏSİNDƏ İNNOVASİYALARDAN İSTİFADƏ

Əliyeva Afaq Asif qızı
Direktor müavini
ADMİU-nun nəzdində Humanitar Kollec, Azərbaycan

Xülasə. Təhsilin məzmunu didaktikanın əsas problemlərindən biri olmaqla şəxsiyyətini formalaşmasında mühüm vasitədir. Dünya sürətlə dəyişir və qloballaşır. Təlimin müvəfəqiyyəti təhsil göstəricisi ilə bağlıdır. Bu prosesdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi rəqabət qabiliyyətliliyi ilə yanaşı, təhsil göstəricisi ilə də bağlıdır. Biz təhsilimizin məzmununu yüksəltməklə öyrətdiyimiz şagird və tələbələrin həyat səviyyəsini yüksəltmiş oluruq. Problemləri həll etmək üçün təhsilin məzmunu və təlimin təşkilinə verilən tələblərdə yeniləşmə və müasirləşmənin həyata keçirilməsi, moderləşməsi zamanın tələbidir. Müasir ibtidai təhsilin üstünlük verdiyi məqsəd uşağın şəxsiyyətinin inkişaf etdirilməsidir. Bu məqsəd təlim prosesinin humanistləşdirilməsi, uşağın əsaslı inkişafı üçün potensialın yaradılması ilə əldə olunur. Ona çatmaq üçün inteqrasiya əsasında təlimdən istifadə edilməlidir. Yeni məzmunun tətbiqi və idarəolunması məqsədilə aparılan tədqiqatın nəticələrini ümumiləşdirsək, belə bir nəticəyə gələrik ki, istər yeni proqramların (kurikulumların), istər dəyəryönümlü, sağlamlıqyönümlü digər məzmunun tətbiqi və idarəolunması, rəhbərlərin bu işi yeni prinsiplər və yanaşmalar əsasında qurmağı tələb edir. Düzgün reallaşdırılan məzmun tədris prosesinin inkişafının əsası, onun mövcudluğunun metodu olub, xüsusi irəliləyişə malikdir və hədsiz inkişaf imkanından ibarətdir, bu isə təlimin səmərəli təşkilindən asılıdır.

Açar sözlər: İnnovasiya, şəxsiyyətyönümlü təhsil, yeni məzmun, müasir təhsilin tələbləri, modernləşmə, təhsil göstəricisi, dəyəryönümlülük.

Təhsilin məzmunu didaktikanın əsas problemlərindən biri olmaqla şəxsiyyətini formalaşmasında mühüm vasitədir. Dünya sürətlə dəyişir və qloballaşır. Təlimin müvəfəqiyyəti təhsil göstəricisi ilə bağlıdır. Bu prosesdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi rəqabət qabiliyyətliliyi ilə yanaşı, təhsil göstəricisi ilə də bağlıdır. Biz təhsilimizin məzmununu yüksəltməklə öyrətdiyimiz şagird və tələbələrin həyat səviyyəsini yüksəltmiş oluruq. Problemləri həll etmək üçün təhsilin

məzmunu və təlimin təşkilinə verilən tələblərdə yeniləşmə və müasirləşmənin həyata keçirilməsi, moderləşməsi zamanın tələbidir.

Azərbaycanın ümumi təhsil sistemində məzmun islahatlarına başlanarkən inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq ümumi təhsilin məqsədlərinin orta məktəb məzunları üçün müəyyənləşdirilən tələblərin təmin olunması istiqamətinə yönəldilməsi ideyası əsas tutulmuşdur.

Bu gün ümumi təhsilin məzmununa verilən tələblər:

- təhsilin məzmunun təhsilalanların və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırılması;
- məzmunu nəticəyönümlülük, şəxsiyyətyönümlülük prinsipləri əsasında formalaşdırmaq;
- təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onların davamlı inkişaflarını, həyatda lazım olan biliklərin aşılanmasını təmin edəcəkdir.

Milli kurikulumda (proqramda) təhsil pillələri və fənlər üzrə ümumi təlim nəticələri verilir, fənn kurikulumunda siniflər üzrə ümumi təlim nəticələri göstərilmişdir. "Azərbaycan Respublikası ümumi təhsil Konsepsiyasi "(Milli Kurikulum)" sənədindəki müddəalar Respublikada hər hansı fənn üzrə fəaliyyətlər sistemini ümumiləşdirmək baxımından konseptual xarakter daşıyır.

Təhsilin məzmununun ölçülə bilən nəticələr formasında ifadə edilməsi, başqa sözlə, nəticəyönümlü bir məzmunun yaradılması pedaqoji fikir tariximizin ən önəmli səhifələrindən hesab olunur. Doğrudur, o fikirlər müasir araşdırmaların fonunda tarixilik baxımından fundamental əhəmiyyət daşıyır, lakin inkişafyönümlülüyün nəzərə alınması istər təhsildə, istərsə də pedaqogikada yeni standartların qəbul olunmasını tələb edir ki, bu fikirdə iki prioritet müddəanın vacibliyi aydın görünür. Onlardan birincisi, təhsilin standartlaşmasıdır ki, inkişaf prosesinin izlənilməsində bu prosesin önəmli rolu vardır. Standartların yaradılması inkişafın tənzimlənməsi üçün əvəzsiz praktik əhəmiyyət daşıyır. İkinci isə pedaqogikada standartlar haqqında elmi fikrin formalaşması ilə bağlıdır ki, bu da daha çox məsələnin nəzəri-fundamental tərəfi ilə əlaqədardır. Didaktikada innovasiyaların nəzərə alınması mühüm pedaqoji anlayışların, o cümlədən təhsilin məzmununa yeni yanaşmaların yer alması fikrimizi əsaslandırmaq üçün nümunə ola bilər.

Hazırda Azərbaycan öz təhsil sistemini dünya standartlarına uyğun təkmilləşdirir. İndi şagirdləri ən zəruri elmi məlumatlarla inkişaf etdirmək, həyati bilik və bacarıqlarla zənginləşdirmək, müvafiq dövrün tələblərinə uyğun şəxsiyyət yetişdirmək lazımdır. Şagirdlər qazandıqları məlumatları özləri təhlil etməli və ona əlavələr etməlidirlər. Onlar fikir və mülahizələrini bildirməli, əsaslandırmalı, yoldaşlarının fikrini dinləməli və ona hörmətlə yanaşmalıdırlar.

Şagird: sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır; dialoqa girir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir; oxuduğu və dinlədiyi mətnlərə münasibət bildirir; ayrı-ayrı mətnlərdən əsas faktları seçir, qruplaşdırır, kiçikhəcmli mətnlər quraşdırır. Azərbaycan xalqının dili, tarixi, əxlaqi – mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti, adət - ənənələri haqqında ilkin məlumatlar sadə formada təqdim edilir. Təhsildə demokratikləşmə prinsipi gözlənilən ümumi nəticələrə vahid tələbləri qarşıya qoyur. Gələcəkdə şagird nailiyyətlərinin qiymətləndirilməsində həmin standartların əsas götürüləcəyi nəzərdə tutulur. Bu nəticələrin əldə olunması üçün strategiyaların seçilməsinə sərbəstlik verilir. Dərslik müəllifləri təlim standartlarının reallaşdırılmasına təminat verən dərslik dəsti hazırlamaqda mövcud vəziyyətdən çıxış edərək orijinal məzmun və struktur müəyyənləşdirməyə çalışmışlar. Müəllimlər isə fəaliyyət göstərdikləri mühitin tələblərinə uyğun təlim strategiyaları hazırlamışlar.

Mahiyyət etibarilə, bu sənəddə ibtidai, əsas və orta təhsil pillələr üzrə ümumi məqsəd və nəticələrlə yanaşı, zəruri hesab edilən fənlər və onlara aid ümumi nəticələr əhatə olunmuşdur.

Fənn kurikulumları hər bir fənn üzrə məqsəd, məzmun, texnologiya və qiymətləndirmə məsələlərini həll etməklə çox çeşidli iş parametrlərini əlaqəli şəkildə ümumiləşdirir. Nəticələr şəklində olan məzmun təhsil pillələri və siniflərə aid məzmun xətləri üzrə kurikuluma daxil edilir. Standartlar səviyyəsində təqdim olunmuş siniflər üzrə nəticələrin sərhədi standartlar və alt-standartların hüdudunda müəyyənləşdirilir. Məsələn, I sinifdə şagird Azərbaycan dili dərslərində

oxuyub-anlamanı, şagirdlərin ilkin oxu texnikasına yiyələndiklərini, nümayiş etdirir. Bu, təlim standartları məktəb səviyyəsində təlim məqsədlərini müəyyən olunması üçün nə dərəcədə konseptual əhəmiyyət kəsb edirsə, təlim texnologiyaları və qiymətləndirmə məsələləri də məktəblərdə tətbiq olunma baxımından həmin əhəmiyyətə malikdir.

Fənn kurikulumunun (proqramının) özünəməxsus xüsusiyyətləri vardır. Fənn kurikulumları nəticəyönümlü xarakterə malikdir. Bu xüsusiyyət onu əvvəlki proqramlardan kəskin şəkildə fərqləndirir. Nəticəyönümlülük bu kurikulumların hazırlanmasında nəzərə alınan mühüm didaktik prinsiplərdən biri hesab edilir. Təlim prosesindən əldə olunacaq nəticələrin əvvəlcədən müəyyən edilməsi və onun məzmuna gətirilməsi bu prinsipin başlıca cəhətlərindən biri kimi dəyərləndirilir. Nəticəyönümlülüyün olması, ilk növbədə, təlim fəaliyyətinə əsaslanır, bütövlükdə təlim prosesinin mahiyyətini təşkil edən son nəticəni görməyə imkan verir. Bu nəticələr əslində həmin təhsil pilləsi üzrə milli səviyyədə müəyyənləşdirilmişdir ki, onlar bütün fənlər üzrə ümumi təhsilin məzmununu ifadə edir. Məzmun xətləri və siniflər üzrə hazırlanmış nəticələr isə ümumi nəticələrə uyğun xüsusi nəticələr kimi təsdiq olunur. Fənn kurikululumları şagirdyönümlülüyü ilə seçilən sənəddir. Fənn kurikumlarında öz əksini tapan bütün nəticələr şagirdlərə, onların inkşafına yönəldilmişdir.

Fənnin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsində şagird şəxsiyyətinin formalaşması və inkişafı diqqət mərkəzində saxlanılmalıdır. Onların sinifdən sinifə, bir təhsil pilləsindən digərinə keçmələrinin tənzimlənməsi, normal inkişafın istiqamətləndirilməsi ön plana çəkilır. Şagird fəaliyyətlərinin formalaşması, onun bir subyekt kimi inkişaf etməsi üçün müvafiq təlim şəraitinin yaradılması mühüm amillərdən biridir. Şagirdin idraki, hiss və psixomotor bacarıqlarının müəyyən həddə çatması üçün humanist və demokratik prinsiplərə söykənən iş formaları və metodlarının seçilməsinə rəvac verilməsi, ən müasir texnologiyalardan istifadə olunmasını təmin edir.

Fənn kurikulumlarında nailiyyətlərin qiymətləndirilməsi üzrə işin məzmunu təhsilalanlara yönəldilir. Qiymətləndirmə standartlarında şagirdlərin fəaliyyəti, üzərində işlədikləri məzmun və şərait elementləri ilə yanaşı, onların əldə edəcəkləri minimum nailiyyətlər də ifadə edilir. Bu zaman şagirdin minimum təlim şəraiti, fizioloji və psixoloji durumu nəzərə alınır. Fənn kurikulumunda şagird şəxsiyyətinin inkişaf istiqamətləri bütün parametrlərdə aydın görünür.

Fənn kurikulumları inteqrativ xarakter daşıyır. Bu, ilk növbədə, onun ümumi təhsil məktəbləri üçün və şagird şəxsiyyətinin formalaşmasına imkan yaratması ilə əlaqədardır. Şagirdlərin həyati bacarıqlarının formalaşdırılması, onların davamlı fəaliyyət üçün hazırlanmaları ilə bağlıdır. Ona görə də, kurikulumlarda əks olunmuş təlim standartları biri-digərini tamamlamaq, möhkəmləndirmək, davam etdirmək baxımından elə ardıcıllıqla verilir ki, onların vasitəsilə şagird şəxsiyyətinin formalaşması və inkişafını izləmək mümkün olsun. Bütün hallarda şagirdlərin inteqrativ standartlar əsasında ölçülə bilən bacarıqlara yiyələnmələri diqqət mərkəzində saxlanılır.

Fənn kurikulumları müxtəlif bacarıqların öyrənilməsini nəzərdə tutan balanslaşdırılmış və ətraflı yanaşmanı əhatə edir; təlimin fəal metodlarından istifadə olunmaqla məzmun standartlarının səviyyəsinə çatmağa imkan yaradır; şagirdlər bilik və anlayışlarının daim qiymətləndirilməsini, tədris ili ərzində düzəlişlərin edilməsini nəzərdə tutur; şagirdlərin təlimə cəlb olunmalarını, davamlı təhsilə hazırlanmalarını təmin edir; şagirdlərin təhsil alarkən, bilikləri qiymətləndirilərkən, kompüter savadı artırılarkən müasir texnologiyalardan istifadə etmələrini nəzərdə tutur, müvafiq təlim resurslarına və inzibati yardıma malik olur.

Müasir ibtidai təhsilin üstünlük verdiyi məqsəd uşağın şəxsiyyətinin inkişaf etdirilməsidir. Bu məqsəd təlim prosesinin humanistləşdirilməsi, uşağın əsaslı inkişafı üçün potensialın yaradılması ilə əldə olunur. Ona çatmaq üçün inteqrasiya əsasında təlimdən istifadə edilməlidir. İnteqrasiya əsasında təlimin əsas məqsədi imkan daxilində dünya haqqında tam təsəvvür yaratmaqla şagirdlərin əqli inkişaflarının təmin edilməsi ilə bağlıdır. Buna görə də biliklərin psixofizioloji əsasları, uşaqlıqda əsas təfəkkür fəaliyyəti inkişafının xüsusiyyətləri haqqında dəqiq təsəvvürləri müəyyənləşdirmək lazımdır.

Müasir məktəbin inkişafetdirici konsepsiyasının nüvəsində şəxsiyyətin modeli dayanır. Bu günün insanını sadəcə elmlər deyil, həyat üçün vacib olan informasiyalar maraqlandırır. Bu informasiya axını kommunikativ qabiliyyətləri tənzimləyir. Kreativlik müasir dünyamızda şəxsiyyətin ən vacib keyfiyyəti hesab olunur. Nəticə olaraq yaradıcılıq özünü parlaq şəkildə göstərir. Heç kimdə olmayan bir qeyri-adiliyin, emosional çalarları ilə diqqəti cəlb edən obrazlılığın varlığı mühüm keyfiyyət hesab edir. Bütün bu əməliyyatların mərkəzində idrak prosesi,şagirdlərin yeni informasiyalarnı dərketmə vasitəsilə mənimsəməirləri dayanır.

Görkəmli rus psixoloqu, müasir pedaqogikanın banilərindən biri L.S Vıqotskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalı, uşağın "yaxın inkişaf zonasına" yönəldilməlidir. Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşmiş və onların aktuallaşması üçün xüsusi təlim şəraiti yaradılmışdir. Buna nail olmaq üçün şagirdlərə bir qədər mürəkkəb, lakin onların imkanlarına uyğun tapşırıqları müstəqil həll etmələri üçün verilməli, müəllim və digər yaşlılar tərəfindən istiqamətləndirilməlidir. Beləliklə, təlim uşağın müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində aşkarlanan bilik və bacarıqları əldə etmək imkanlarına yönəldilməlidir. İnkişafedici təlim, ilk növbədə, təfəkkürü və yaradıcılığı formalaşdırır.

Fənn kurikulumları şagirdlərdə daha çox kompetensiyaların formalaşmasına istiqamətlənmişdir. Yəni şagird məzmunu mənimsəməklə yanaşı, öyrəndiklərini praktik şəkildə tətbiq etməyi bacarmalıdır. Şəxsiyyətyönümlü kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktiki bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir.

İnkişaf edən ölkələrin təcrübələrinə nəzər salarkən görünür ki, cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən şəxslər yetişdirmək lazımdır. Azərbaycan təhsilinin əsas məqsədi yüksək savadla yanaşı həm də yüksək mədəniyyətə və tərbiyəyə malik, cəmiyyətə yararlı vətəndaşların yetişdirilməsi olmalıdır. Bunun üçün dövlət atributları ilə uşaqları yaxından tanış etmək, himnimizi onlara öyrətmək, bayrağımız, milli gerbimiz haqqında əxlaqi, milli mənəvi dəyərlərimiz barədə geniş təsəvvür yaratmaq, vətənpərvərlik hissi tərbiyə etmək lazımdır. Bu məqsədi layiqincə həyata keçirmək üçün respublikanın hər yerində təlim-tərbiyə müəsisələrində də ardıcıl, sistemli məqsəduyğun tərbiyə işi aparılmalı, sadalanan keyfiyyətlərin aşılanmasıimkanlarıartırılmalıdır.

Müstəqil Azərbaycan təhsil sistemini beynəlxalq sistemə inteqrasiyası üçün, bu sahədə çoxlu dəyişikliklər, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün, yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşdırmalıdır. İndi hər birimiz bilirik ki, Azərbaycan təhsilinin qarşısında duran ən əsas məsələlərdən biri yüksək mədəniyyətli, mütərəqqi dünyagörüşlü, insan hüquq və azadlıqlarına hörmət etməklə müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Təhsil sisteminin qarşısında duran bu məsələnin həlli üçün ilk növbədə, müəllim üçün keyfiyyətcə dəyişməli, "repreduktor" rolundan imtina etməli və yeni bir rolu, biliklərin əldə edilməsi yolunda bələdçiliyi qəbul etməlidir.

Həmçinin, kurikulumlarda vurğulanan mənəvi tərbiyə, ümumbəşəri, milli-mənəvi dəyərlər, milli ruh və vətənpərvərlik sözlərinin əsas cəhətlərinə diqqət etdikdə görürük ki, bunlar sanki bir sapa düzülmüş incilər kimi bir bütövlük, tamlıq təşkil edir. Elə bir bütövlük, tamlıq ki, bunlarda müasir gənclərimizin necə tərbiyə olunmaları, necə formalaşdıqları proqramlaşdırılmışdır.

Təhsilalanları səmərəli əməli fəaliyyətə və həyata hazırlamaq kimi istiqaməti nəzərdən keçirdikdə aydın olur ki, burada da bir-birini tamamlayan iki məsələyə xüsusi diqqət yetirmək tələb olunur: bir tərəfdən yüksək nəzəri və praktik bilik və bacarığın verilməsi, digər tərəfdən onların kamil bir şəxsiyyət-vətəndaş kimi həyata hazırlanması. Bunlar onu göstərir ki, müasir gənclərimiz hansı peşə və ixtisas üzrə hazırlanmalarından asılı olmayaraq öz peşələrini və ixtisaslarını dərindən bilməli, rəqabətə qabil mütəxəssis kimi formalaşmalı, müstəqil fəaliyyət göstərə bilən, özünün mövqeyi olan və müasir təfəkkürlü şəxsiyyət kimi həyata hazır olmalıdır.

Əgər təhsilin məqsədi insanın ətraf aləm (təbiət, cəmiyyət, məkan, şərait) tam harmoniya əsasında mövcud olmaqdan ibarətdirsə, təhsilin məzmununa qarşı nə kimi tələblər irəli sürülür? Yalnız üç hissə qarşılıqlı əlaqədə ola bilər: təbiət haqqında məlumat və onlarda özünü dərk etmə, cəmiyyət haqqında məlumat və onlarda özünü dərk etmə, mənəviyyat haqqında məlumat və onlarda özünü dərk etmə. Təhsil prosesində inkişaf baş verir və onun məzmununa qarşı irəli sürülən tələblərdə göstərilmiş harmoniya inkişafın uyğunluğu kimi görünür: o təsəvvürlərdə, anlayışlarda olub, vahid bütövlük təşkil edir. Onlar əlaqədar olub, qarşılıqlı fəaliyyət göstərirlər.

İstənilən tədris modelinin əsas elementi— məqsədin qoyuluşundan ibarətdir. Əgər məqsəd aydındırsa, o zaman biliklərin mənası vardır. Klassik, ənənəvi pedaqogikanın məqsədi - bilik, bacarıq və vərdişlərin verilməsidir. Bu, Y.A. Kamenskiyə görə, qavrayışın üç səviyyəsidir. Birinci səviyyədə təfəkkür, ikinci səviyyədə — yaddaş, üçüncü səviyyədə isə — əllər işləyir. Qeyri-klassik, humanist pedaqogikanın məqsədi — şəxsiyyətin inkişafından ibarətdir. Hər bir şagird xasiyyətin və istedadın səciyyəvi xüsusiyyətlərinin inkişafına yönəlmişdir. Humanist pedaqogikanın metodiki əsasları müasir dövrün pedaqoqu, Rusiya Təhsil Akademiyasının akademiki, Ş.A.Amonaşvili tərəfindən "Həyat məktəbi" kitabında gözəl şərh olunmuşdur: "Sinergetik pedaqogika ənənəvi və humanist metodikadan ibarət olub, inamı oyadır və şagirdi mənəvi inkişafa doğru yönəldir".

Yeni məzmunun tətbiqi və idarəolunması məqsədilə aparılan tədqiqatın nəticələrini ümumiləşdirsək, belə bir nəticəyə gələrik ki, istər yeni proqramların (kurikulumların), istər dəyəryönümlü, sağlamlıqyönümlü digər məzmunun tətbiqi və idarəolunması, rəhbərlərin bu işi yeni prinsiplər və yanaşmalar əsasında qurmağı tələb edir. Düzgün reallaşdırılan məzmun tədris prosesinin inkişafının əsası, onun mövcudluğunun metodu olub, xüsusi irəliləyişə malikdir və hədsiz inkişaf imkanından ibarətdir, bu isə təlimin səmərəli təşkilindən asılıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə.M. (2008). Yeni kurikumların səciyyəvi xüsusiyyətləri // Kurikulum, №1
2. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası (2012). // № 6. – S.8-55
3. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu) (2008). // Kurikulum, №1.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu): I-XI siniflər. (2015). – Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi.
5. Bespalko V.P. (1995). Pedaqogika və tədrisin proqressiv texnologiyaları. – Moskva.
6. Əhmədov A., Abbasov Ə. (2008). Kurikumların hazırlanması və tətbiqi məsələləri. – Bakı: Kövsər. – 224 s.
7. Əhmədov A. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru // Kurikulum, 2008, №1
8. Əliyev H. (1999). Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. – Bakı: İrşad. – 165 s.
9. Əliyev R.İ. (2007). Psixologiya. Ali məktəblər üçün dərslik. – Bakı. – 650 s.
10. Əlizadə Ə.Ə. (2001). Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. – Bakı: Adiloğlu.
11. Fəlsəfə ensiklopediyası. (1970). – Moskva. – 160 s.
12. Həmzəyev M.Ə. Pedaqoji kollektivdə idarəetmə.

UOT: 37.

COMMUNICATIVE SKILLS IN THE PROCESS OF SPEECH TRAINING METHODS AND MEANS OF FORMATION

Humay Alikishiyeva
PhD student
Institute of Education, Azerbaijan
h85.a@mail.ru
Orcid id: 0000-0001-5702-5645

Abstract: The history of speech is as old as the creation of man. Speech plays a very important role in human life, as well as the needs of human life. Its most important function is to create communication between people. Even in ancient times, the chosen people of the society influenced other people and the masses through speech. With beautiful speech, people pass on certain information and emotions to one another. Lack of communication, use of unnecessary elements in speech, inability of students to maintain consistency in expressing their opinions, weak vocabulary, etc. is a problem that students and teachers often face in the modern education system. It is advisable to use modern learning technologies to form a dialogic speech. Because most modern learning technologies are aimed at developing students' various life skills.

Keywords: speech, communication, communicative, dialogic and monologue speech

DANIŞIQ TƏLİMİ PROSESİNDƏ KOMMUNKATİV BACARIQLARIN FORMALAŞDIRILMASI ÜSUL VƏ VASİTƏLƏRİ

Alıkişiyeva Humay
Doktorant
Təhsil İnstitutu, Azərbaycan

Xülasə: Danışmanın tarixi insanın yaradılışı qədər qədimdir. Danışma insan həyatında çox önəmli rola malik olmaqla yanaşı insan həyatının ehtiyacı, zərurətidir. Onun ən vacib funksiyası insanlar arasında ünsiyyət-kommunikativ əlaqə yaratmaqdır. Hələ qədim dövrlərdə də cəmiyyətin seçilmiş insanları danışma-nitq vasitəsilə digər insanlara, kütləyə təsir edirmişlər. Gözəl danışıqla insanlar bir-birinə həm müəyyən məlumatları, həm də emosiyalarını ötürürlər.

Ünsiyyət azlığı, nitqdəki lazımsız ünsürlərin istifadəsi, şagirdlərin fikirlərini ifadə edərkən ardıcıllığı qoruya bilməməsi, söz ehtiyatının zəifliyi və s. müasir təhsil sistemində şagird və müəllimlərin tez-tez üzləşdiyi problemdir. Dialoji nitqi formalaşdırmaq üçün müasir təlim texnologiyalarında istifadə məqsədəuyğundur. Çünki müasir təlim texnologiyalarının əksəriyyəti şagirdlərdə müxtəlif həyati bacarıqların formalaşdırılmasına yönəlmişdir.

Açar sözlər: danışma, ünsiyyət, kommunkativlik, dialoji və monoloji nitq

Danışma prosesi insanlar arasında kommunikativlik və anlaşma vasitəsidir. Danışma-çox çətin və çoxşaxəli bir fəaliyyət olmaqla yanaşı ünsiyyət funksiyasını, danışığı-insanın əsas davranışlarından birini və insan nitqini özündə birləşdirir. Danıçma zamanı insan fikrini təkcə nitqi vasitəsilə deyil, eyni zamanda jest və mimikalarının, emosiyalarının köməkliyi ilə çatdırır. Danışma zamanı insanın səs tonundan tutmuş nsöz vurğusunadək diqqət etməli olduğu vacib məqamlar vardır. Danışma-insanların ünsiyyət bacarığının ilkin göstəricilərindəndir. Məhz uğurlu danışma-ünsiyyət zamanı insanlar bir-biri ilə fikirlərini bölüşür, dinləyir və rabitəli nitq prosesi baş tutur.

Danışma-nitq yalnız insan cəmiyyətində mövcuddur. İnsanın danışma bacarığı onların kommunikativ bacarıqlarının əsas hissələrindən biridir. Yəni, kommunikativ insan dedikdə gözəl danışma qabiliyyəti olan, dilin fonetik qanunlarını, sözlərin leksik mənasını bilən, sözlərdən dəqiq, düzgün və ifadəli şəkildə istifadə etməyi bacaran insanlar nəzərədə tutulur.

İnsanların ortaq və qarşılıqlı fəaliyyət zamanı münasibətləri daim filosofların maraq və diqqətini cəlb etmişdir. Məhz belə bir mühitdə insan davranışının əsas prinsip və qaydaları, kommunikativ mədəniyyət göstəriciləri formalaşır. Bununla birlikdə, psixoloqların eksperimental tədqiqatları göstərir ki, insanların çoxu effektiv dinləmə bacarıqlarına malik deyil və həmsöhbətinin nitqini yalnız səthi qəbul edirlər. İnsanların yalnız 10% -i həmsöhbətini dinləmə və bu nitq məzmununun arxasında dayanan hiss və düşüncələri anlamaq qabiliyyətinə malikdir.

M.B.Uspenskinin fikrincə, kommunikativ mədəniyyət dil vahidlərinin (səslər, morfemlər, sözlər, ifadələr, cümlələr və s.) ünsiyyət zamanı istifadəsi və danışıq zamanı müxtəlif təlimat və tövsiyələr şəklində verilən biliklərdir.

M.R.Lvov "Rus dilinin tədrisi metodikasına dair" lüğət kitabçasında yazır: "Kommunikativ mədəniyyət-insanlar tərəfindən bir dilin fonetika, lüğət, qrammatika, üslub, nitq mədəniyyəti biliklərinin danışma, dinləmə, oxu və yazı prosesində məqsədyönlü istifadəsidir.

G.O.Vinokurun fikri xüsusilə etibarlı və inandırıcı səslənir: *"Ümumiyyətlə dil yalnız istifadə edildikdə var olur".*

Başqa bir insanla danışarkən kənar fikirlərdən uzaqlaşmaq, həmsöhbətin nitqində gizlədilən məlumatları, onu danışmağa sövq edən səbəbləri təhlil etmək, diqqəti tam həmsöhbətin nitqinə yönəltmək, artıq fikirlərdən qaçmaq, söhbət cansıxıcı olsa da, onu sonadək dinləmək, həmsöhbətin sözünü kəsməmək, diqqəti söhbətin mahiyyətinə cəmləmək d**inləyib-anlama təliminin kommunikativ mədəniyyət göstəriciləridir.**

Danışma kommunikativlik göstəricisi olmaqla yanaşı həm də özündə insan fəaliyyətini əks etdirir

1. **Motivasiya.** Insan motivləri olan zaman danışır. Kommunikativ motivasiyanın əsasında iki növ tələb dayanır. Birincisi, insanın sosial varlıq kimi ünsiyyətə girmə digəri isə konkret nitq qurmaq və bu nitq zamanı replikalardan istifadə ehtiyacı. Birinci tələbi ümumi kommunikativ ünsiyyət, ikinci isə situativ motivasiyadır.
2. **Aktivlik.** Danışma həmişə aktiv bir prosesdir, çünki bu proses bir şəxsin nitqi olmaqla bərabər, eyni zamanda da həmsöhbətini dinlədiyi zaman ətrafdakı gerçəkliyə münasibətini əks etdirir.
3. **Fokuslanmaq.** Ünsiyyət zamanı yaranan kommunikativ əlaqənin təməlində həmsöhbətinin müəyyən bir problemə diqqətini cəlb etmək, bəzən onun yanaşmasını dəyişmək dayanır.
4. **Fəaliyyətlə əlaqəli danışma**-hər hansı bir hadisə, vəziyyətlə bağlı kimisə inandırmaq ehtiyacı olduqda ortaya çıxır.
5. **Kommunikativ funksiyanın düşüncə ilə əlaqəsi**. Düşüncə fəaliyyəti nitq prosesini həyata keçirməyə, ona tabe olmağa yönəldilmişdir.

Dil təlimi zamanı əsas məqsəd onun ünsiyyət vasitəsi kimi öyrədilməsidir. Şifahi nitq dilin öyrənilməsində xüsusi çəkiyə malikdir, məhz şifahi nitq sayəsində dilə nə qədər yiyələnməyimizi ölçə bilirik. Normal şifahi ünsiyyət zamanı rahat başadüşülən, təkrarlanmayan nitq məhsuluna tez reaksiya verilir. Nitq fəaliyyəti üçün iki tərəf müqabilinin (nitqi ötürən və qəbul edən) olması vacibdir. Onlardan biri nitqi yaradır, digəri qəbul edərək düşünür və cavab replikasını verir.

Danışma təlimi iki hissədən ibarətdir-danışma və dinləyib-anlama. Eşitməklə dinləmə prosesi arasında böyük fərq vardır. Bu anlayışların fərqini araşdırmağa cəhd edək. Əgər biz həmsöhbətin səsini eşidir, amma nitqinin məzmununu dərk etmiriksə, bu sadəcə onun nitqini eşitməkdir. Dinləmə isə həmsöhbətin nitqinin məzmununu təkcə eşitmək deyil, məzmundakı əsas mənanı, fikri tapa bilməkdir, yəni dinlədiyini anlamaqdır.

Danışma prosesi üçün situativ nitq mövcudluğu, (danışma üçün stimul rolunu oynayacaq)**,** danışanın fikirlərini ifadə etmək üçün müəyyən leksik və qrammatik biliklər bazası**,** nitq obyekti ilə əlaqə, ifadə olunacaq fikirdə məqsədin olması vacib şərtlərdir.

Danışıq zamanı kommunkativ əlaqənin yaranmasına ünsiyyətin baş tutacağı mühit, danışanlar arasındakı münasibət (tanışlıq səviyyələri, maraqları və s.), danışıq niyyəti də təsir göstərir.

Təhsil prosesində kommunikativ əlaqə dedikdə, fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək, başqalarının nitqini dinləmək və anlamaq, kütlə ilə davranış və ünsiyyət zamanı məqbul qaydalarla razılaşmaq və onlara əməl etmək, cüt, qrup və ya kollektiv işləməyi öyrənmək, müxtəlif rollar ifa etmək (lider, ifaçı), qarşılıqlı nitq qura bilmək, fərdi çıxışı ilə digərlərinə təsir edə bilmək kimi mədəniyyət göstəriciləri və s. nəzərdə tutulur. Bütün bu qeyd olunanlar, eləcə də təfəkkürün bütün növləri, fikrini sərbəst ifadəetmə və müdafiəetmə kimi bacarıqlar məktəbdə formalaşır. Bu xüsusilə orta yetkinlik dövrü üçün vacibdir (5-7 siniflər). Bu yaşda öyrənməyin əsas motivləri ünsiyyət, özünütanıma və özünü dərk etməkdir.

Məktəbdə Azərbaycan dili fənninin tədrisinin əsas vəzifələrindən biri də bu gün Azərbaycan ədəbi dilinin normalarını bilən, sözdən düzgün istifadə edən, fikirlərini şifahi və yazılı nitq vasitəsilə düzgün ifadə edən, etik ünsiyyət normalarına riayət edən şagirdlər yetişdirməkdir. Müasir Azərbaycan dilinin tədrisi fənni şagirdlərin nitq və ünsiyyət, şifahi və yazılı özünüifadə bacarıqlarının inkişafına istiqamətlənmişdir. Fənn üzrə dörd məzmun xəttindəki standartların da əksəriyyəti şagirdlərin kommunikativ səriştələrinin inkişafına-bir insanın müxtəlif situasiyalarda yaranan çətinlikləri nitq və kommunikativ mədəniyyətinə əsaslanaraq həll etməsinə yönəlmişdir.

Danışma təlimində nitq fəaliyyəti özünü dörd istiqamət üzrə göstərir:

1) danışma - fikirlərin, düşüncələrin şifahi əksi;
2) dinləmə-nitqin dinlənilərək qəbulu və anlaşılması;
3) yazı-fikirlərin şərti işarələrlə ifadəsi;
4) oxu -başqasının yazılı nitqinin qəbulu və qavranılması

Şagirdlərə danışma təliminin ilkin mərhələlərində gördüklərini, yaşadıqları, eşitdiklərini təsvir etməyi, lüğət tərkibini zənginləşdirməyi, düzgün cümlə qurmağı, suallara düzgün və ardıcıl cavab verməyi, bir sözlə danışmağı öyrətmək lazımdır.

Danışanın nitqində onun səsi, tembri çox vacibdir. Ucadan danışmaq heç də auditoriyanın sizi dinləyəcəyi demək deyil. Səsin tonu önəmlidir. Nitqdə insanlara yuxarıdan aşağı baxmaq kimi hallar olmamalıdır. Bizi dinləyən insanlar iki anı məlumatın qəbulu və əsas ideyanı tapmağı diqqətdə saxlamlıdırlar. Nitqin ifadəlililiyində intonasiyanın bizə ötürdüyü əhval-ruhiyyə çox vacibdir. Hər hansı bir hadisəylə bağlı nitqin intonasiyasından biz qarşı tərəfin bizə münasibətini anlamış oluruq. Nitqin kommunikativ vasitə kimi yaxşı və ya pis olmasının 9 göstərici var:

- *düzgünlük*
- *zənginlik*
- *saflıq*
- *dəqiqlik*
- *məntiqilik*
- *ifadəlilik*
- *aktuallıq*
- *aydınlıq*
- *effektivlik* (Abdullayev, 2013).

Düzgünlük, saflıq və zənginlik nitqin kommunikativliyin struktur keyfiyyətləri, dəqiqlik, məntiqilik, ifadəlilik, aktivlik, aydınlıq və effektivlik isə kommunikativliyin funksional keyfiyyətləridir.

Nitqin ən vacib kommunativ göstəricilərindən biri nitqin düzgünlüyüdür. Bu digər göstəricilərin də əsasını təşkil edir. Nitqin düzgünlüyü onun dilin ədəbi dilinin qanunlarına və normalarına uyğun qurulmasıdır.

Nitqin dəqiq olması üçün danışan nitqin obyektini və dilin qaydalarını bilməlidir. Nitqin dəqiqliyinin mövcudluğu nitqin məntiqiliyi olmadan qeyri-mümkündür.

Nitqin zənginliyi hər bir insanın lüğət tərkibinin aktivliyi ilə ölçülür. Fikrini nə qədər gözəl çatdıdra bilirsə, bu danışanın nitqini bir o qədər zənginliyindən xəbər verir.

Nitqin ifadəliyi dinləyənin diqqətini intonasiya nitqin ifadə tərzi ilə cəlb etməkdir. Nitqin ifadəliyi həm də danışanın düşüncə və təfəkküründən asılıdır. Nitqin ifadəliyinində üslübların da rolu böyükdür.

Nitqin ifadəli olmasında intonasiyanın da rolu danılmazdır. Intonasiya vasitəsilə danışan fikrinin lazımı hissəsini dinləyiciyə çatdırır.

Nitqin kommunikativ göstəricilərinin əsasında nitqin effektliyini təmin etmək dayanır. Nitq aydın olmazsa, məqsədə çatmaq olmaz.

Danışma iki formada-monoloq və dialoq şəklində təzahür edir. Danışma təlimində kommunikativ vasitə olan monoloq və dialoqlardan istifadə olduqca vacibdir.Azərbaycan dili fənninin tədrisi zamanı onlardan istifadəni artıraraq, şagirdlərin bu istiqamətdəki bilik və bacarıqlarını inkişaf etdirərək şifahi nitqin inkişafı üçün müxtəlif mətnlər seçmək və bu mətnlər üzərində müxtəlif kommunikativlik yarada biləcək şərtlər (mətni tamamlayın, müəllifin əsas fikrini bildirin və s.) hazırlamaq məqsədəuyğundur.

Danışma təliminin əsasını təşkil edən monoloji və dialoji nitqin ortaq cəhətləri ilə yanaşı özünəməxsus cəhətləri də vardır. Bu iki kommunkativ ünsiyyət növü iştirakçıların ünsiyyətdəki rolundan asılı olaraq fərqlənir. Monoloji nitqdə, ünsiyyət iştirakçısı ya məlumat ötürür, ya da məlumatı qəbul edir. Dialoji nitq zamanı isə kommunikativ tapşırıq yerinə yetirilərkən, hər iki ünsiyyət iştirakçısı alternativ olaraq danışan və ya dinləyici kimi çıxış edirlər. Monoloq yalnız bir şəxsin özlüyündə danışması da ola bilər, dialoq isə özündə həm danışma, həm də dinlənə fəaliyyətini birləşdirir.

Monoloq – öz fikirlərini dəqiq və tam şəkildə ifadə edən bir şəxsin nitqidir. Danışan özü nitqini planlayır, fikrini genişləndirir.

Monoloji nitqin 2 əsas növü var.

1. Monoloq-məqsədyönlü ünsiyyət prosesi, dinləyiciyə şüurlu bir müraciətdir.
2. Monoloq yalnız özü ilə (daxili monoloq) danışmaqdır, yəni, monoloq dərhal dinləyiciyə yönəlmir.

Şagirdlərin ünsiyyət qabiliyyətinin inkişafı dərs zamanı qurulan dialoqun məzmun və keyfiyyətindən çox asılıdır. Şagirdə dialoqlarda iştirak etməyi öyrətmək üçün ilk öncə mövzunu başa salmaq, əsas fikri izləməyi, iradlara adekvat cavab verməyi, dialoqu genişləndirərək əlavə məlumat daxil etməyi, nəticə çıxarma və əsaslandırma bacarığı kimi nitq bacarıqlarını öyrətmək və inkişaf etdirmək lazımdır.

Dialoqun effektiv və şagirdlərin onun fəal iştirakçısı olması üçün xüsusi dialoq metodlarını işləyib hazırlamaq lazımdır. Azərbaycan dili dərslərində şagirdlərdə ilkin dialoq qurma bacarıqları formalaşdırmaq üçün şagirdlərə başa düşmədiklərini aydınlaşdırmaq üçün sual verməyi və sinif yoldaşlarıyla fikir mübadiləsi aparmağı öyrətmək lazımdır. Azərbaycan dili dərslərində müəllimin dialoqdan istifadə etməsi şagirdin təfəkküründə bələd olmaq üçün vasitədir. Dialoq zamanı şagirdin fikrini daha aydın, dəqiq söz və ifadələrdən istifadə edərək çatdırmasına, onun düşüncə tərzinə və müzakirə etikasına diqqət yetirilməlidir.

Dialoq spontan şəkildə yarandığı üçün azad şəkildə davam edir. Tərəflərin müxtəlif ünsiyyət bacarıqlarına sahib olduqları üçün dialoqun mətni, gedişatını planlaşdırmaq çətindir.

Dialoqun müxtəlif növləri var (https://studme.org/225902/ritorika/vidy_dialogov).

Dialoqun növləri	Xüsusiyyətləri
Motivəedici	böyük marağın müşahidə olunması

Tənqidi	məsələyə kəskin tənqidi yanaşma
Mübahisəli	mövzuluyla bağlı əks mövqe
Özününü təqdimat	özünə sərf edən daxili mənin göstərilməsi
Şəxsiyyətdaxili	daxili dialoq, özünümüdafiə
Təhlil	Şəxsiyyətin təhliletmə qabiliyyəti
Özünürealizə	Şəxsiyyətin özünüifşası
Yaradıcı	Şəxsi düşüncə axtarışına yönəlik
Mənəvi	Bir-birinin daxili aləminə nüfuz etmə

Geniş mənada, dialoq dedikdə, nitq vasitəsilə iki insan arasında birbaşa ünsiyyət prosesi başa düşülür. Bu zaman qarşıdakı problemi iki nəfərdən biri yalnız digərinin köməyi ilə həll edə biləcəyini anlayır. Onlar arasında dialoji nitq baş tutarsa, yalnız o zaman bu problem həll oluna bilər. Dialoqu bir nitq vahidi kimi öyrədərkən tipik kommunikativ situasiyalar modelləşdirilməlidir. Nitq-şifahi ünsiyyətin funksional bir vahididir. Buna görə də dialoji nitq kommunikativ fəaliyyətin tədris prinsiplərinə uyğun olaraq seçilməli, ondan təkcə və ünsiyyət vasitəsi kimi deyil, həmçinin tərbiyəedici vasitə kimi də istifadə edilməlidir. Məhz dialoq iştirakçıların qarşılıqlı fəaliyyəti zamanı əks əlaqə yaranır ki, bu da dialoqu formalaşdırır. Dialoqun keyfiyyətli alınması üçün tərəflər arasında səmimiyyət, öz hisslərini doğru ifadə etmək, pozitivlik, empati qura bilmək, həmsöhbətinin əhvalını hiss edə bilmək əsas şərtlərdir.

Dialoq haqqında danışarkən bir sıra təşkilati cəhətlər nəzərə alınmalıdır:

- dialoqun heç bir sualı cavabsız qala bilməz;
- dialoq vaxtında məhdudlaşdırılmalıdır;
- əgər şagird dialoqda fəal deyilsə, deməli, ya mövzu haqqında kifayət qədər biliyi yoxdur, ya da mövzu onun üçün maraqlı deyil;
- dialoq zamanı suallara tam cavab verilməlidir;
- dialoq əvvəlcədən hazırlıq tələb edir.

Problem və onun həllində mövqelərin fərqliliyi dialoqun əsasını təşkil edir. Dialoqu sual-cavab qarşılıqlı əlaqə sistemi hesab etmək olar. Dialoqda intellektual rəqabət, fikirlərin mübarizəsi, düşüncələrin toqquşması və s. əks oluna bilər.

Dialoji nitq özündə bir sıra kommunikativ göstəriciləri əks etdirir. Bunları nəzərə alaraq dialoqu aşağıdakı kimi də təsnif etmək olar:

1. **Özünütənqid dialoqu** insanın özünüqiymətləndirməsi, özünütəhlil və daxili ilə əlaqəsi zamanı yaranır.
2. **Tənqidi dialoq** başqasının fəaliyyətinə, habelə ictimai həyata münasibətin bildirilməsi kommunikativ və qiymətləndirici bir hərəkətdir. Tənqidi dialoqda problemin açıqlanması, onu yaradan səbəblərin təhlili, problemin mənfi nəticələrinə səbəb olan hərəkətlərin qiymətləndirilməsi, problemin həlli ilə bağlı konstruktiv təklif və ya mövqe təqdim edilməsi, tənqidçinin cavabı və ya mövqeyinin dəstəklənməsi kimi mərhələləri qeyd etmək olar.

Tənqidi dialoq üçün zəruri şərt mənəvi və etik tələblərə riayət edilməsidir. Tənqidi diaoq qarşılıqlı inam əsasında qurulmalıdır. Belə ki, tərəflərdən biri qarşı tərəfin tənqidlərinə tolerantlıq nümayiş etdirməzsə, yaxud sonadək dinləmə mədəniyyəti göstərməzsə, məhz bu zaman kommunikativ mədəniyyətin əsasını təşkil edən bacarıqlar öz sözünü deməlidir.

Dialoq zamanı kommunikativ mədəniyyətin əsas tələbləri:

1. *hörmət, səmimi münasibət;*
2. *nəzakət və tənqid qaydalarına əməl etmək;*
3. *öz fikrini məcburi şəkildə yeritməmək;*
4. *tərəf müqabilini psixoloji tərəfdən sıxmamaq;*

5. *tərəf müqabilinin mövzu ilə bağlı maraqlarını nəzərə almaq;*
6. *məntiqi nitq söyləmək;*
7. *tərəf müqabilinin fəallığını dəstələmək;*
8. *vahid bir üslubda çıxış;*
9. *ünsiyyət zamanı distansiyanı saxlamaq, jest və mimikaların istifadə qaydalarına əməl etməkdir.*

Dialoq mövzusu olaraq bütün iştirakçılar üçün vahid, maraqlı bir problemin seçilməsi, qarşılıqlı iki və ya daha çox həmsöhbətin olması, materialın sərbəst şəkildə təqdim edilməsi, dialoqun təşkili məqsədinin mövcudluğu, əks-əlaqənin qurulması, müəllim və sinif, müəllim və şagird, şagird və şagird arasında qarşılıqlı nitq əlaqəsinin mövcudluğu keyfiyyətli və kommunikativ əsaslı dialoqun xüsusiyyətləridir.

Dialoq kommunikativ mədəniyyət formalaşdıran nitq vasitəsi olub, insanlar arasında birgə fəaliyyət növü hesab olunur. Dialoq nitqinin vahid məqsədi və həll olunası nəticəsi var. Dialoq zamanı hər bir şagird həm danışan, həm də dinləyici rolunda çıxış edir. Dialoq üçün emosionallıq, jest və mimikaların aktiv istifadəsi xarakterikdir. Söhbətin axarının hansı istiqamətə dönəcəyi və birinci replikaya cavabın nə olacağı bilinmədiyi üçün diaqloqun gedişatını və sonunu öncədən təxmin etmək mümkün deyil.

Dialoq zamanı şagirdlər arasında ortaq nəticə əldə olunmadıqda bu zaman müəllim onlara nitq dəstəyi göstərməlidir. Nitq dəstəyi dedikdə, əsaslı məzmunun təmin edilməsi və ünsiyyət zamanı iştirakçıların düzgün seçimi nəzərdə tutulur. Şagirdlərə dialoq mətnlərini əzbərlətmək yox, onlara dialoq qurmağı öyrətmək lazımdır. Bunun üçün tez-tez onlar arasında məlumat mübadiləsi təşkil etmək, alınan məlumatların dəqiqləşdirilməsini aparmaq bacarığı formalaşdırmaq, birgə fəaliyyətlərin planlaşdırılmasını aşılamaq, mübahisə və polimikalar zamanı təəssuratların mədəni şəkildə bölüşdürülməsini öyrətmək lazımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. (2013). Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı. – 277 s.
2. https://studme.org/225902/ritorika/vidy_dialogov
3. https://ru.citaty.net/tsitaty/647049-vissarion-grigorevich-belinskii-chelovek-iasno-vyrazhaetsia-kogda-im-vladeet-mysl-n/

UOT: 37.01

FEATURES OF WORK WITH CHILDREN WITH DIFFICULT UPBRINGING

Dilara Karimova
Lecturer
Azerbaijan State Pedagogical University, Sheki Branch
dilare_kerimova@mail.ru
Orcid id: 0000-0002-3663-7148

Summary: The article examines the behavioral characteristics of "difficult children", their adaptation to school and society. improper social environment, family upbringing and pedagogical upbringing, behavior of children with difficult upbringing, personal relationships, shortcomings in communication, and the organization of work and development programs to eliminate these shortcomings. attention is paid to the psychological readiness of children with these characteristics to interact with the social environment and society.

Key words: Difficult children; education; adolescence; the impact of the wrong social environment.

ÇƏTİN TƏRBİYƏ OLUNAN UŞAQLARLA GÖRÜLƏN İŞLƏRİN XÜSUSİYYƏTLƏRİ

Kərimova Dilarə Məmmədəli qızı
Müəllim
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

Xülasə: Məqalədə "çətin tərbiyə olunan uşaqların" davranış xüsusiyyətləri, onların məktəbə , cəmiyyətə adaptasiyası araşdırılır. Düzgün olmayan sosial mühit, ailə tərbiyəsi və pedagoji tərbiyənin çətin tərbiyə olunan uşaqların davranış , şəxsi əlaqələr , ünsiyyətlərində özünü göstərən qüsurlar və bu qüsurların aradan qaldırılması üçün görülən işlərin, inkişafetdirici proqramların təşkilindən bəhs edilir. Bu xüsusiyyətlərə malik uşaqların sosial mühit və cəmiyyətlə qarşılıqlı əlaqələrə psixoloji cəhətdən hazırlığına nəzər yetirilir.

Açar sözlər: Çətin tərbiyə olunan uşaqlar; Tərbiyyə; Yeniyetməlik yaş dövrü; Düzgün olmayan sosial mühitin təsiri.

In recent times, the term "difficult children" has become very common. Because this expression comes from the heart of the people who form the social environment and develop it through mutual human relations. The main factor in the development of any nation is the youth of that nation.

"Difficult children" means, first of all, those who do not go with anyone, do not follow the rules of discipline, do not listen to words, are aggressive, inverted, antisocial, affectionate, whimsical and so on. Children who have such characteristics and reflect these characteristics in their behavior are understood. The pedagogical literature emphasizes that these features are most pronounced during adolescence. However, according to psychologists, this does not only cover the period of adolescence, but in general, in the period of 3-18 years, it manifests itself primarily in the improper development of the family factor, social and other factors. As a result of psychological research, "difficult" adolescents were divided into four groups.

1. Adolescent with behavioral defects due to his level of emotional and volitional development;

2. Adolescents who are pedagogically neglected and, as a result, do not have moral ideas;

3. Adolescents who grow up “difficult” due to unfavorable development conditions or the inability of the tutor to do the job properly;

4. Those who are conditioned by incompatible relationships or are "particularly difficult to bring up.

"Difficult" children are divided into three groups due to emotional problems (L.D. Stolyarenko):

1) Aggressive children;

2) Children with high emotions;

3) Extremely shy, quick-tempered, resentful, cowardly, anxious children.

Aggressive children. Usually, it is impossible to find a child who has not been aggressive at least once in his life. However, not all of them can be called "aggressive". This group can only include children whose aggressive actions and reactions are characterized by their persistence and the nature of causing affective behavior.

Children who are included in the type of emotion that reaches a high, uncontrollable level react very strongly to everything. if they experience any feeling of joy, they mobilize the whole class through their expressive behavior; if they are in pain, their moaning, groaning, and crying will be extremely loud and distracting.

Children who are extremely shy, quick-tempered, resentful, cowardly, and anxious are ashamed to express their feelings too loudly and clearly, and are quiet about their problems because they are afraid of attracting the attention of others.

The main reasons for the emergence of "difficult" children are defects in the family upbringing of the child, defective, unacceptable behavior that the child sees in other members of the family and will negatively affect him in the future, family conflicts, non-compliance with discipline, parental

interaction and negative moral and behavioral norms with other members of society. The emergence of the term "difficult child" in connection with the emotional problems of adolescents is due to a number of factors:

1) natural features (ex. type of temperament);

Since choleric people often have a high level of arousal, they have a high level of aggression; melancholics are crying, quick-tempered, shy);

2) Social factors;

- type of family upbringing (rejection of the child, anxious upbringing, hypersocial upbringing, selfish upbringing);
- pedagogical education (teachers' attitude);
- The influence of the school psychologist, etc.

In order to overcome the problems manifested in "difficult" children, it is necessary to investigate the causes of the characteristics formed in children, to use psychoprophylaxis and psychocorrection in a systematic way. School psychologists have a special responsibility in this area. First of all, the main focus is on the timely diagnosis of antisocial children, aggressive children who have difficulty adapting to the social environment. In all this, special attention should be paid to the identification of the causes of "difficulties" in the child, and the system of educational work with him, taking into account the individual characteristics of the child, should be determined together with the parent-teacher-psychologist.

Experience shows that educational work with such children at school is often ineffective. Because the preventive work to eliminate these defects in the poem is not carried out properly, and teachers are trying to get rid of such children. The following areas can be identified in order to prevent and eliminate problems in students' behavior and personality development:

1. To help a "difficult" student get used to the team; together with the teacher-parent-psychologist to carry out possible work to eliminate the existing shortcomings in the student's behavior.

2. In-depth study of students with behavioral and personality disorders, in this case to follow the norms of professional ethics, not to express the real purpose of the examination of the student, if possible, by observing and talking to the student. If necessary, the psychologist can contact the relevant specialists (eg, psychiatrist, doctor, etc.) to determine the level of mental development of the student. Children who engage in such behaviors need to be treated individually. The work of a psychologist with children with difficult upbringing is one of his main responsibilities, and therefore the work to be done by the psychologist and the teachers together must be determined in advance and carried out accordingly.

References

1. Aliyev R.I. (2006). Educational psychology. – Baku: Nurlan.
2. Amiraslanova S.F. (2000). "Difficult" people and psychological features of work with them. – Baku.
3. Bayramov A.A. (1969). Talk about youth and self-education. – Baku.
4. Qaralov Z.İ. (2003). Education: in 3 volumes, 2nd volume. – Baku. – P. 197-203
5. Stolerenko L.D. (2000). Pedagogical psychology. – Phoenix. – P. 362-368
6. Hamzayev M.A. (1991). Pedagogical psychology. – Baku. – P. 25-30; 50-69

UOT 9.37.01

PROJECT-BASED LEARNING AS A MEAN TO INCREASE THE COGNITIVE ACTIVITY OF STUDENTS IN BIOLOGY LESSONS

Ulya Shirinzade
PhD student
Rauf Sultanov
professor of biology science
Institute of Education, Azerbaijan
ORCİD:0000-0001-5380-1854

Abstract. Increasing of cognitive activity of students and the motivation to learn in biology lessons is relevant recently. The article presents a theoretical principle of the problem by using visual and practical methods to improve the quality of comprehension studying the topic “Seeds and plants”. The article shows the impact of project-based learning on the quality of leaning teaching process. The purpose of study is to determine the effect of visual and practical teaching methods in secondary schools when students study “Seed and plants” topic.

Key words: project method, project methodology, project activity of students, inter subject connections.

ПРОЕКТНАЯ ДЕЯТЕЛЬНОСТЬ КАК МЕТОД ПОВЫШЕНИЯ КАЧЕСТВА ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ УЧАЩИХСЯ НА УРОКАХ БИОЛОГИИ

Ширинзаде Уля Ниджат
докторант
Султанов Рауф Лютвели оглы
профессор, доктор биологических наук
Институт Образования Азербайджанской Республики

Аннотация. В последнее время актуальной стала проблема повышения познавательной активности учащихся на уроках биологии и повышения мотивации к изучению биологии. В статье представлено теоретическое обоснование проблемы использования наглядных и практических приемов повышения качества усвоения знаний при изучении раздела «Семенные растения». В статье показано влияние проектного обучения на качество усвоения знаний. Цель исследования - определить влияние наглядных и практических методов обучения в современных школах при изучении раздела «Семенные растения» на качество усвоения знаний.

Ключевые слова: метод проектов, проектная методика, проектная деятельность учащихся, межпредметные связи.

Введение

Сейчас в образовательной системе нашего государства наблюдается перемена всей парадигмы школьного образования, связанное с поиском таких методов обучения, которые смогли бы подготовить новое поколение к современному уровню жизни.

Одна из основных образовательных целей - научить наших учеников учиться самостоятельно мыслить, чтобы они сталкивались с проблемами, хорошо подготовленными и вне школы, они использовали свои знания и способности на благо окружающей среды и общества, чтобы заставить их мыслить творчески. Для этого им нужен положительный опыт, полученный в процессе обучения, который является для них источником энергии и энтузиазма. Альтернативные методы обучения, такие как проблемно-ориентированное обучение , все чаще используются и исследуются в качестве эффективных средств поощрения критического мышления учащихся и активного взаимодействия с учебными материалами [2]. Проблемно-ориентированное обучение - это метод обучения, направленный на вовлечение студентов в совместное решение структурированной проблемы. Методология проекта состоит

из нескольких этапов: преподаватель и ученики изучают конкретную экологическую тему, выбирают важную для них проблему, затем разрабатывают и внедряют план действий. С каждым шагом учащиеся берут на себя все больше и больше роли менеджера, способного решать экологические вопросы. Основное понятие метод проектов - это сосредоточение внимания на реальных проблемах, которые привлекают интерес студентов и побуждают серьезно задуматься, поскольку студентам необходимо приобретать и применять новые знания в открытом контексте решения проблем [1]. Проектная деятельность основана на решении открытого проекта по приобретению глубокого изучения определенных навыков по определенному предмету. Во время проектной деятельности студенты работают в небольших группах, где открытый проект обсуждается до любой подготовки. Ответственность постепенно передается от учителя к ученику; Сначала учитель руководит процессом и устанавливает руководящие принципы, затем ученики берут на себя управление проектом, а учитель становится наблюдателем. Учитель контролирует успеваемость учеников; он дает возможность менять роли, развивая знания и навыки студентов, оценивая их работу с критикой и внедряя новые идеи и методы в учебный процесс, тем самым устраняя факторы, ограничивающие их развитие. Уроки - это самая основная форма обучения. Курс основан на утвержденной государством программе и учебном плане. Школа состоит из систематического изучения содержания курса биологии, ее природы, ее законов и живого мира: растений, животных, человеческого тела и характеристик живых существ.

Исследование

Преподавание биологии в средних школах Азербайджана основано на учебную программу биологии, шаги предпринятые для реализации реформы образования в Азербайджане стали ключевыми в развитии естественных наук.Достижение современного качества образования является главной задачей государственной образовательной политики Азербайджанской Республики, основные направления которой отражены в стратегическом документе: Закон Азербайджанской Республики об Образовании. Сегодня в образовательной системе нашей страны наблюдается изменение парадигмы школьного образования, связанная с поиском таких методов обучения, которые смогли бы подготовить молодое поколение к современному уровню жизни. Этот документ, обобщающий образовательный опыт развитых стран мира, отличается гуманистическим, демократичным и интегративным характером, делая акцент непосредственно на учащегося как личности. Предоставление стандартов содержания, стратегий обучения, содержания, инструментов и механизмов оценки показывает, содержание биологии охватывает самые необходимые знания и умения, связанные с человеком, его здоровьем, социальной природой человека, взаимоотношениями человека и природы, психологическими особенностями человека. Учебная программа по биологии предусматривает развитие у студентов логического мышления, жизненных навыков, связанных с предметом, интеграцию, развитие от простого к сложному, организацию взаимодействия содержания и деятельности, применение новых технологий в преподавании предмета.

Большинство учителей подготовили и определили некоторые типы учебных ресурсов, которые они собираются использовать для обучения, ссылаясь на планы уроков. Что касается учебной программы 2010 года, учителя должны использовать учебные ресурсы для повышения качества научных знаний в Азербайджанской Республике. Что касается результата наблюдения (февраль 2018 г.), сообщалось, что все учителя биологии предпринимали какие-то попытки получить и использовать учебные ресурсы на каждой учебной сессии. Учебные ресурсы могут быть средствами массовой информации, которые существовали в школе или были разработаны учителями; или это может быть любая ситуация, связанная с учебной средой. Однако в действительности не все доступные учебные ресурсы охватывали

предполагаемый материал. Следовательно, учителя должны были более творчески подходить к планированию использования учебных ресурсов.

Мы знаем, что качество обучения зависит от его форм и методов. Современные методы обучения, используемые на уроке, обеспечивают самостоятельное усвоение знаний учащимися, их формирование как личности, а также эффективность обучения, ориентированного на результат, в условиях активного использования творческого мышления при усвоении знаний. Лучший способ украсить проект - содержать его в чистоте. Ученики стараются держать его в чистоте, особенно когда дело касается склейки, и следить за ровностью линий. По завершении они могут украсить свой проект цветными шрифтами, блестками и т. Д. Студенты должны помнить: меньше значит больше; если они переусердствуют, их проект будет выглядеть беспорядочно. Это попытка осуществить желаемое изменение окружающей среды управляемым способом. Используя проекты, учитель может планировать и выполнять свою деятельность, например: строит гараж, проводит маркетинговую кампанию, разрабатывает веб-сайт, организует вечеринку, уезжает в отпуск, заканчивает университет с отличием или что-то еще, что он / она может пожелать сделать. Самое сложное в выполнении школьного проекта - это понять, с чего начать. Учителя могут часто чувствуют себя настолько подавленными размером, масштабом и сложностью того, что им нужно сделать, что даже не знают, с чего начать. Есть 7 шагов к эффективному дизайну проекта

Определите цель проекта.

Определите результаты, цели и / или результаты.

Определите риски, ограничения и предположения.

Подготовьте наглядное пособие.

Ориентируйтесь на свой бюджет.

Определите процессы утверждения и мониторинга.

Используйте надлежащую проектную документацию по проекту.

Методы обучения в применении к курсу биологии являются одним из важнейших и одновременно проблемных аспектов подготовки учебного процесса. На развитие технологии преподавания биологии влияют методы биологической науки и практики, достижения в области дидактики и методы биологии [3]. Мы проанализировали две группы, используя метод проектов на уроках биологии: наглядно и практически.

Было решено разработать и реализовать школьный проект «Растения нашей земли». В исследовании приняли участие учащиеся 7 класса в количестве 16 учеников. Для 1 этапа проекта была составлена анкета из 20 вопросов для определения уровня знаний студентов по теме проекта. Участники были опрошены предварительно во время урока биологии в Недели охраны природы.

1. Acemoglu, D. and Robinson, J. (2019). The Upside of Populism. // Foreign Policy. https:// foreignpolicy. com/2019/10/19/populism-us-democracy-trump
2. Catherine, E. (2018). Political cheat sheet: Understanding Italy's Five Star Movement. // The Local. https://www.thelocal.it/20180206/political-election-understanding-italys-five-star-movement-m5s-di-maio-grillo
3. Gabor H. (2019). Populism, authoritarianism and constitutionalism. // German Law Journal. № 20. – p. 297.
4. Mathieu, V. R. (2014). Interview with Marine Le Pen: 'I Don't Want this European Soviet Union'. // EU News.//ww.eunews.it/rassegna-stampa-europa/interview-with-marine-le-pen-i-dont-want-this-european-sov iet -union

INFLUENCES OF INTEREST GROUPS ON GOVERNMENT-ELECTORATE RELATIONS

Jahandar Jabarov
Master Student
Istanbul University, Turkey
jahandar.jabarov@ogr.iu.edu.tr
Orcid id: 0000-0002-0075-2398

Abstract: The concept of interest, the first philosophical definition of which belongs to the Greek city-states, has undergone a great evolution throughout history. The concept of interest that developed in Europe in the context of Christianity in the Middle Ages was later explored by Machiavelli and Hirschmann, and was also one of the main objects of study in Public Choice Theory. Interest groups, represent the interests of both the electorate and the government. At the same time, interest groups, which have a wide range of mechanisms to influence government-electorate relations, implement these mechanisms in various forms. Interest groups, having the power to change the balance between political parties with the mecanisms as support to political campaign, political technology and information support, and physical mobilization, have a strong influence on government behavior toward voters. The article examines interest groups and their impact on government-electorate relations, explores the concept of interest groups and types of interest groups, as well as analyzes the role of interest groups in government-electorate relations. At the same time, the mechanisms of influence of interest groups on government-electorate relations are shown.

Keywords: electorate, election, government, interest, interest group, voter.

MARAQ QRUPLARININ HÖKUMƏT-ELEKTORAT MÜNASİBƏTLƏRİNƏ TƏSİRLƏRİ

Cabarov Cahandar Qalib oğlu
magistrant
İstanbul Üniversiteti, Türkiyə

Xülasə: İlk fəlsəfi tərifi yunan şəhər-dövlətlərinə aid edilən maraq anlayışı tarix boyunca böyük bir təkamül yolu keçmişdir. Orta əsrlərdə Xristianlıq kontekstində Avropada inkişaf edən maraq məfhumu daha sonra Makiavelli və Hirşman tərəfindən araşdırılmış, həmçinin ictimai seçim nəzəriyyəsinin əsas tədqiqat

obyektlərindən biri olmuşdur. Makiavelli mövcud siyasət mexanizminə uyğun bir hədəf seçməyə, yəni insan təbiətinin şər, eqoist, maraqlara əsaslanan olduğu, müxtəlif maraqlar naminə hərəkət etdiyi və maraqlardan başqa bir şeyin siyasəti idarə etmədiyini nəzərə alan bir siyasət konsepsiyası təklif edir. Maraq qrupları da öz növbəsində həm elektoratın, həm də hökumətin maraqlarını təmsil eməkdədir. Bununla yanaşı, hökumət-elektorat münasibətlərinə təsir etmək üçün geniş mexanizmlərə malik olan maraq qrupları bu mexanizmləri müxtəlif formalarda həyata keçirirlər. Siyasi partiyaların seçki kampaniyalarına bilavasitə və ya dolaylı yolla dəstəklər, siyasi texnologiya və informasiya təminatı ilə əlaqədar dəstəklər və fiziki səfərbərlik kimi təsir mexanizmləri ilə siyasi partiyalar arasında balansı dəyişmək gücünə malik olan maraq qrupları hökumətin seçicilərə qarşı davranışa yüksək dərəcədə təsir edir. Maraq qrupları və onların hökumət-elektorat münasibətlərinə təsirlərini tədqiq edən məqalədə maraq qrupu anlayışı və maraq qruplarının növləri tədqiq edilməkdə, həmçinin hökumət-elektorat münasibətlərində maraq qruplarının yeri təhlil edilməkdədir. Bununla yanaşı, maraq qruplarının hökumət-elektorat münasibətlərinə təsir mexanizmləri göstərilməkdədir.

Açar sözlər: elektorat, hökumət, maraq, maraq qrupu, seçici, seçki.

Giriş

Maraq anlayışının iqtisadi, sosial və siyasi tərifləri vardır. İqtisadi və sosial maraqlar geniş müzakirə mövzusu olub müasir elmin mübahisəli məsələlərindəndir. Siyasi marağın tərifi isə konkret formada verilir. Bu maraq növü siyasi subyektlərin siyasətlə əlaqəsini təşviq edən motivasiya mənbəyi kimi göstərilir. Yəni maraq siyasi fəaliyyət üçün katalizator rolunu oynayır. Siyasi fəaliyyət göstərmək və siyasi subyekt olaraq məsuliyyət daşımaq üçün müəyyən bir səbəb və məqsəd olmalıdır. Siyasi maraq termini bu səbəb və məqsədi ehtiva edir.

Müasir dövrdə maraq artıq təmsil oluna bilən bir siyasi vahidə çevrilmişdir. Buna görə də siyasi elmlərdə maraq anlayışı artıq mücərrəd məfhum deyil, konkret şəkildə təmsil oluna bilən siyasi obyekt kimi qəbul edilir. Bu kontekstdə, siyasi maraqlar maraq qrupları vasitəsilə təmsil olunur. Maraq qrupları müəyyən növlərə ayrılır və xüsusilə hökumət-elektorat münasibətlərində əhəmiyyətli yerə malikdir. Bu baxımdan, maraq qruplarının hökumət-elektorat münasibətlərinə xüsusi təsir mexanizmləri vardır.

1. Maraq qrupları və növləri

Maraq qrupları (təzyiq qrupları, lobbi qrupları da deyilir) təşkilatlanmış, birlikdə hərəkət edən və siyasi partiya formasında seçkilərdə iştirak etmədən dövlət siyasətini dəyişdirməyə və ya dövlət siyasətindəki dəyişikliklərin qarşısını almağa çalışan qruplardır. Digər adı təzyiq qrupları olsa da, bir çox müəllif təzyiq qrupu terminini istifadə etməkdən çəkinir, çünki bu, insanlar tərəfindən "təzyiq" sözü ilə əlaqədar başa düşülə bilər. Bu da öz növbəsində bu qrupların məqsədlərinə çatmaq üçün həqiqətən də qeyri-qanuni məcburetmə formalarından (məsələn, terror) istifadə etdiyi anlamına gələ bilər. Buna görə termin əsasən maraq qrupu olaraq adlandırılır (Klüver və Pickup, 2019: s. 93).

Bunu da qeyd etmək lazımdır ki, maraq qrupları beynəlxalq münasibətlərdə uzun müddətdir istifadə olunan bir termin olmasına baxmayaraq, bu istifadənin səviyyəsi II Dünya müharibəsindən sonra, xüsusilə 1960-cı illərin sonunda xeyli intensivləşmişdir. Amerikalı politoloq Hovard Tolleyin fikrincə, müxtəlif hökumətlər tərəfindən xüsusi məqsədlər üçün yaradılmış təzyiq qrupları lokal və regional səviyyədən daha çox qlobal siyasətdə həyati əhəmiyyət daşıyır (Thrall, 2006: s. 409).

Ümumiyyətlə, maraq qrupu ümumi maraqları bölüşən və hökumətə təsir edərək bu maraqları qorumaq üçün birlikdə mübarizə aparan qüvvələrdən ibarət təşkilatdır. Maraq qrupları ölçüsü, məqsədi və taktikası baxımından fərqlənir. Politoloqlar maraq qruplarını əsasən iki növə ayırırlar (Thrall, 2006: s. 409):

- iqtisadi maraq qrupları,
- qeyri-iqtisadi maraq qrupları.

İqtisadi maraq qrupları, üzvləri üçün bir növ iqtisadi üstünlük axtaran ən ümumi maraq qruplarıdır. Kapitalist cəmiyyətlərdə maliyənin əhəmiyyətli dərəcədə gücü faktor olması səbəbindən iqtisadi maraq qrupları digər maraq qruplarına nəzərən daha güclüdür. Bu qruplar çox vaxt siyasi güc və ya iqtisadi mənfəət əldə etmək məqsədi güdən üzvlərin ianələri ilə maliyyələşir.

İqtisadi qruplar demək olar ki yalnız qrup üzvləri üçün müəyyən əlverişli iqtisadi imkanlar əldə etməyə çalışırlar. Məsələn, hansısa həmkarlar ittifaqı bir müqavilə imzaladıqda yalnız həmin həmkarlar ittifaqının üzvləri bu müqavilədən faydalanır. Lakin həmin həmkarlar ittifaqına daxil olmayanların bu müqavilənin şərtlərindən yararlanmaq imkanı olmur.

Əsas iqtisadi maraq qrupları isə peşə qruplarıdır. Məsələn, ABŞ-da qeydiyyatdan keçmiş lobbiçilərin yarıdan çoxu peşə qrupları üçün işləyir. Başqa bir misalı fermerlərin timsalında çəkmək olar. Fermerlər əsrlər boyu qiymət dalğalanmalarından və digər iqtisadi problemlərdən qorunmaq üçün təşkilatlanmışlar.

Qeyri-iqtisadi qruplar (bəzən vətəndaş qrupları olaraq da adlandırılır) maddi maraqlar üçün fəaliyyət göstərmək əvəzinə daha fundamental məqsədlər üçün mübarizə aparan maraq qruplarıdır. İqtisadi maraq qruplarından fərqli olaraq, qeyri-iqtisadi qruplar üzvlərinə müxtəlif imkanlar və ya faydalar təklif edir (Grossman, 2004: s. 638):

- Məqsədli faydalar (*Purposive Benefits*): Qrup üzvlərinin ali hesab etdiyi bir məqsədə töhfə verdikləri zaman əldə etdikləri emosional və psixoloji faydalar
- Həmrəylik faydaları (*Solidarity Benefits*): Qrup üzvlərinin birlikdə fəaliyyət göstərdiyi zaman yeni (onların marağında olan) insanlarla tanış olduqdan sonra əldə etdiyi faydalar
- Məlumatlandırıcı faydalar (*Informational Benefits*): Qrup üzvlərinin (onlara maraqlı olan) vacib məsələlər haqqında lazımi məlumat əldə etməsi nəticəsində yararlandıqları faydalar

Bu baxımdan qeyri-iqtisadi maraq qruplarının dörd əsas növü vardır (Acar, 2019: s. 246):

1. İctimai maraq qrupları
2. Məhdud fəaliyyətli maraq qrupları
3. İdeoloji maraq qrupları
4. Məqsədli maraq qrupları

İctimai maraq qrupları bütün cəmiyyətin xeyrinə fəaliyyət göstərdiklərini iddia edən maraq qruplarıdır. İctimai maraq qrupları cəmiyyətin inkişafı barədə olduqca fərqli fikirlərə sahibdirlər. Bir çox ictimai maraq qrupları bir-birindən fərqli yaxud əlaqəli məsələlərlə məşğul olur. Məsələn, *Greenpeace* təşkilatı dünyadakı ekosistemləri qorumaq və ətraf mühitə olan zərərləri neytrallaşdırmaq üçün ictimai maarifləndirmə sahəsində fəaliyyət göstərir.

Məhdud fəaliyyətli maraq qrupları yalnız müəyyən bir mövzu ilə əlaqədar fəaliyyət göstərir. Bu qruplar müəyyən bir məqsədə və ya ideala sıx bağlı olan üzvlərdən ibarət olan və emosional baxımdan həssas idarə olunan qruplardır. Son bir neçə on ildə məhdud fəaliyyətli maraq qruplarının sayı əhəmiyyətli dərəcədə artmışdır. Beynəlxalq səviyyədə tanınan məhdud fəaliyyətli maraq qrupları arasında silah əldəetmə və silah satışına nəzarət qanunlarına qarşı lobbiçilik fəaliyyəti göstərən "ABŞ Milli Tüfəng İttifaqı" və abortu qadağan etmək istiqamətində mübarizə aparan "Xilasetmə Əməliyyatı" kimi maraq qrupları vardır.

Məhdud fəaliyyətli maraq qrupları olduqca dar bir fokuslanma obyektinə sahib olduqları halda, ideoloji qruplar güclü bir fəlsəfəyə əsaslanan daha geniş kütlələrlə əlaqəyə girə bilirlər. İdeoloji maraq qrupları tez-tez mədəni normaları, dəyərləri və hakim stereotipləri (irəliyə və ya geriyə doğru) dəyişdirmək və ya olduğu kimi saxlamaq üçün mübarizə aparırlar. Məsələn, mühafizəkar ideoloji qruplar ideoloji maraq qrupları arasında mühüm yer tutur.

Məqsədli maraq qrupları isə hər hansı bir ölkədə xarici dövlətlərin maraqlarını təmsil edir. Məsələn, *x* ölkəsinin digər bir *y* ölkəsində müəyyən siyasi-iqtisadi maraqları vardır və bu maraqları *y* cəmiyyətində qeyri-rəsmi formada təmsil etmək üçün həmin ölkədə bir maraq qrupu yaradır. Bu cür maraq qrupları məqsədli maraq qrupları adlanır.

2. Hökumət-elektorat münasibətlərində maraq qruplarının yeri

Hökumətlər əsasən icra funksiyalarını həyata keçirən siyasi partiyalar kimi xarakterizə olunur. Bu kontekstdə, icra funksiyalarını davam etdirmək baxımından hökumətlər üçün yenidən seçilmək çox əhəmiyyətlidir. Bu səbəbdən hökumətlər yenidən seçilmək üçün elektoratın tələblərinə cavab verməlidirlər. Yəni iqtidardakı siyasi partiyalar sadəcə öz elektoratına deyil, bütün cəmiyyətə

işləməlidir. Bu kontekstdə, hökumətlər elektoratın tələblərinə cavab vermək məqsədilə rəy sorğularından geniş istifadə edirlər. Xüsusilə Klüver kimi tədqiqatçılar hökumətlərin siyasi qərarlar verərkən rəy sorğularını sistemli şəkildə təhlil etdiyini göstərir (Klüver və Pickup, 2019: s. 98).

Bu baxımdan, Con F. Mufun rasional gözlənti arqumentində hökumətlərin növbəti seçkilərdə də qələbə qazanmaq üçün ictimai rəydəki dəyişikliklərə uyğunlaşdıqları iddia edilir (Stimson, 1995: s. 546). Hökumətlər qarşıdan gələn seçkilər üçün ictimai əhval-ruhiyyəni daim izləyir. Ancaq bəzən hökumətlər ani ictimai fikir dəyişikliyinin şok dalğasından yayına bilmir (Stimson, 1995: s. 546). Bu halda hökumətlərin üzərində seçici təzyiqi yaranır. Belə həssas məqamlarda hökumətlər yalnız seçici təzyiqinə məruz qalmır, həm də siyasətlərini öz xeyirlərinə dəyişdirməyə çalışan çoxsaylı maraq qruplarının təsiri altına düşür. Belə vəziyyətlərdə maraq qruplarının intensiv fəaliyyəti hökumətlərin seçicilərə qarşı (müsbət mənada) həssaslığına[1] əhəmiyyətli dərəcədə təsir edir. Hökumətlər və maraq qrupları arasındakı münasibətlər maraq qrupları tərəfindən hökumətlərin təbliğat-təşviqat kampaniyalarına maddi və s. dəstəklər formasında özünü göstərə bilir.

Yuxarıda deyilənləri ümumiləşdirsək, maraq qrupları hökumət-elektorat münasibətlərində intensiv iştirak edir və bəzi ümumi xüsusiyyətlərə malikdir:

1. Davamlı təşkilatlanmaq
2. Qrupun maraqlarını müdafiə etmək
3. Təzyiq yaratmaq

Maraq qruplarının siyasi partiyalardan əsas fərqi odur ki, birbaşa siyasi iqtidarı ələ keçirməyə çalışmırlar. Digər tərəfdən, siyasi partiyalarla müqayisədə təmsil etdikləri auditoriya və ya seqment daha dardır. Ancaq bəzən maraq qrupları müəyyən ictimai-siyasi fəaliyyətdən sonra siyasi partiyalara çevrilə bilərlər. Bu təcrübə həm dünyada, həm də Azərbaycanda vardır.

3. Maraq qruplarının hökumət-elektorat münasibətlərinə təsir mexanizmləri

Maraq qruplarının hökumət-elektorat münasibətlərinə üç fundamental təsir mexanizmi vardır. İlk mexanizm hökumətin seçki kampaniyasına töhfə verməkdir. Seçki kampaniyası aparmaq, məlum olduğu kimi, böyük zəhmət və maliyə tələb edir. Bu baxımdan, namizədlər və ya siyasi partiyalar ən azı bir təbliğat-təşviqat qrupu işə götürməli, siyasi marketinq materialları hazırlamalı, KİV-də bahalı reklamlar yayımlamalı, təbliğat-təşviqat kampaniyası üçün efir vaxtı almalıdırlar. Kampaniya xərcləri seçkilərin nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərdiyindən, yenidən seçilmək istəyən hökumətlərin bahalı seçki kampaniyalarını maliyyələşdirmək üçün kənardan maddi köməyə və təbliğat-təşviqat fondlarına ehtiyacları vardır. Bu məqamda, maraq qrupları namizədlərə və siyasi partiyalara tez-tez ianələr etdikləri üçün kampaniya büdcəsinin əhəmiyyətli bir mənbəyini təşkil edirlər. Bu da hökumətləri maraq qruplarından birbaşa və ya dolaylı formada asılı edir (Bach, 2012: s. 185).

Maraq qruplarının hökumət-elektorat münasibətlərinə təsir göstərə biləcəyi ikinci mexanizm informasiya təminatıdır. Siyasətçilər eyni zamanda bir çox fərqli siyasi təklifləri ilə məşğul olsalar da, maraq qruplarının üzvləri çox vaxt dar və məhdud bir siyasi sektorda çalışan mütəxəssislər olur. Bundan əlavə, maraq qrupları hökumətin siyasi fəaliyyətinin birbaşa təsir etdiyi seçicilərlə ilə sıx təmasda olur. Bu səbəbdən sözügedən qruplar həm siyasi texnoloq dəstəyi, həm də ictimai rəy sorğularından da etibarlı informasiya dəstəyi ilə hökumətlər üçün həyati əhəmiyyət daşıyan işlər görürlər (Kuklinski və Stanga, 1979: s. 1093). Bu da öz növbəsində maraq qrupu-hökumət balansını birincinin xeyrinə dəyişir.

Maraq qruplarının hökumət-elektorat münasibətlərinə təsir göstərə biləcəyi üçüncü mexanizm fiziki seçki dəstəyidir. Məsələn, həmkarlar ittifaqları öz üzvlərini tez-tez hökumətlərin seçki kampaniyaları üçün səfərbər edirlər. Hökumət sonrakı fəaliyyətində bu maraq qruplarının siyasi maraqları ilə uyğunlaşmayan siyasət yürütdükdə bu maraq qrupları üzvlərinə növbəti seçkilərdə iqtidardakı partiyanı dəstəkləməmələrini tapşıraraq sözügedən partiyanı təhdid edə bilər. Bu zaman,

[1] Seçicilərin tələblərinə tez cavab vermək, siyasi kampaniyanı intensivləşdirmək, sosial islahatlar keçirmək və s.

keçən seçkilərdə hökumətə işləyən həmkarlar ittifaqları artıq əksinə olaraq, hökumətə təzyiq göstərmək üçün öz üzvlərini səfərbər edərək müxalifət partiyasına geniş dəstək verirlər (Kuklinski və Stanga, 1979: s. 1094).

Nəticə

Müasir dövrdə mücərrəd anlayış olmaqdan çıxıb, təmsil oluna bilən konkret siyasi obyektə çevrilmiş siyasi maraq müxtəlif maraq qrupları ilə təmsil edilir. İctimai-siyasi motivasiya baxımından maraq qrupları iki yerə ayrılır:

- iqtisadi maraq qrupları,
- qeyri-iqtisadi maraq qrupları.

Müasir siyasi elmin əsas tədqiqat problemlərindən olan qeyri-iqtisadi maraq qrupları (siyasi maraq qruplarını da ehtiva edir) dörd növə ayrılır:

1. İctimai maraq qrupları
2. Məhdud fəaliyyətli maraq qrupları
3. İdeoloji maraq qrupları
4. Məqsədli maraq qrupları

Maraq qrupları hökumət-elektorat münasibətlərində daim iştirak edir və bu kontekstdə aşağıdakı müəyyən xüsusiyyətlərlə xarakterizə olunur:

1. Davamlı təşkilatlanmaq
2. Qrupun maraqlarını müdafiə etmək
3. Təzyiq yaratmaq

Maraq qruplarının hökumət-elektorat münasibətlərinə üç fundamental təsir mexanizmi vardır:

1. Hökumətin / müxalifətin seçki kampaniyasına töhfə vermək
2. Siyasi texnoloq və informasiya təminatı dəstəyi
3. Fiziki seçki dəstəyi

İstifadə olunmuş ədəbiyyat

1. Acar E. (2019) Katılımcı Demokrasilerde Baskı Gruplarının İşlev ve Yöntemleri. // Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi. № 61 – S. 235-249
2. Bach T., Niklasson B. and Painter M. (2012) The role of agencies in policy-making. // Policy and Society. 31:3. – P. 183-193
3. Baskı Gruplarının Etkinliğini Belirleyen Faktörler ve Baskı Yöntemleri (İnternet Resursu) http://www.akademiktisat.net/calisma/kamu_yonetim/baski_grup_ekaplan.htm (Müraciət tarixi 04.01.2021)
4. Çıkar Grupları, TUİÇ Akademi (2020). // http://www.tuicakademi.org/cikar-gruplari/. 07.12.2020.
5. Grossman E. (2004) Bringing politics back in: rethinking the role of economic interest groups in European integration. // Journal of European Public Policy. 11:4. – P. 637-654
6. Klüver H. (2015) Interest Groups in the German Bundestag: Exploring the Issue Linkage between Citizens and Interest Groups. // German Politics. 24:2. – P. 137-153
7. Klüver H. and Pickup M. (2019) Are they listening? Public opinion, interest groups and government responsiveness. // West European Politics. 42:1. – P. 91-112
8. Kuklinski J. and Stanga J. (1979) Political Participation and Government Responsiveness: The Behavior of California Superior Courts. // The American Political Science Review, vol. 73, no. 4. – P. 1090–1099
9. Stimson J., Mackuen M. and Erikson R. (1995) Dynamic Representation // American Political Science Review. 89:3. – P. 543–565
10. Thrall T. (2006) The Myth of the Outside Strategy: Mass Media News Coverage of Interest Groups. // Political Communication. 23:4. – P. 407-420
11. Types of Interest Groups, Lumen Learning // https://courses.l umenlearning.com/ boundless-political science/chapter/types-of-interest-groups/ (Müraciət tarixi 07.12.2020)
12. Группы Интересов, Политология (2020) // https://www.tsput.ru/res/other/politolog/lec10.html. 07.12.
13. Павроз А. В. (2006) Группы интересов и лоббизм в политике. – Санкт-Петербург: Изд-во Санкт-Петербургского Университета. – 184 с.

PHILOSOPHICAL SCIENCES / FƏLSƏFƏ ELMLƏRİ

UOT: 1(091).

THE PHILOSOPHY OF LOVE IN THE TEACHING OF THE UNITY OF BEING BY MUHYIDDIN IBN ARABI

Zaur Rashidov
Scientific Researcher, PhD student
Azerbaijan National Academy of Sciences, Institute of Philosophy and Sociology
zaur20@mail.ru
Orcid id: 0000-0002-4504-1856

Summary: Muhyiddin ibn Arabi (1165-1240) played an important role in showing great interest in Sufism, not only outside of Islamic geography but also all over the world. The output of Sufism beyond the mystical shapes and enrichment with philosophical ideas are directly related to its name. Ibn Arabi, who is also a bridge of unity between the cultures of the East and West, describes a plural world, which in its essence is a shadow, like a mirror reflecting the essence of God. In his teaching, which is called the unity of being, the only goal of the world born of love is connected with the idea of love for God, love for Him, and the need for His manifestation. The main content of the book of Ibn Arabi "Fusus al-Hikam" is based on the idea that the movement of the world from non-being to being depends both on the desire of the Creator and the love of the world to its Creator. In his "Al-Futuhat al-Makkiyya" Ibn Arabi denies the contradiction between "duality", God and the universe. In his opinion, the two opposites are deprived of each other's existence. Ibn Arabi insistently emphasizes that mutual love between God and the world will not allow this. He does not advise true sages to be attached to the world that appears in reflections and images during the manifestation of the One, to a perishable world that is renewed in every divine breath. A Sufi who has mastered the two worlds called being and non-being, and has become the isthmus between them, must escape the anguish that he experienced in the darkness of non-being, and attune himself to the light of the Truth that is being, in order to attain perfection and rise to the level of a perfect man. In the doctrine of the unity of being, the perfect man, reflecting the attributes of God, is the polishing of the mirror of the universe.

Key words: God, world, man, unveiling, love, unity

MÜHYİDDİN İBN ƏRƏBİNİN VƏHDƏTİ-VÜCUD TƏLİMİNDƏ EŞQ FƏLSƏFƏSİ

Rəşidov Zaur *Firidun oğlu*
Elmi işçi, doktorant
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan

Xülasə: Təsəvvüfün İslam coğrafiyasının hüdudlarını aşaraq, dünya miqyasında maraq doğurmasında Mühyiddin ibn Ərəbinin (1165-1240) rolu mühümdür. Təsəvvüfün mistik haşiyədən çıxaraq fəlsəfi ideyalar ilə zənginləşməsi də bilavasitə onun adı ilə bağlıdır. Doğu və Batı mədəniyyətləri arasında vəhdət körpüsü də olan ibn Ərəbi, mahiyyəti etibarı ilə kölgə olan aləmi, mahiyyəti varlıq olan Tanrını əks etdirən ayna olaraq tərif edir. Onun vəhdəti-vücud görüşündə eşqdən südur edən aləmin tək qayəsi, Tanrıya olan düşkünlük, Ona olan sevgi və Onun təcəllisinə möhtaclıq düşüncəsinə bağlıdır. İbn Ərəbinin "Füsusül-Hikəm"indəki əsas məzmun, aləmin yoxluqdan varlığa doğru hərəkətinin, həm var edənin istəyinə, həm də aləmin sevgisinə bağlı olması fikrinə əsaslanır. İbn Ərəbi "Fütuhatül-Məkkiyyə"də Tanrı və aləm "ikilisi" arasındakı ziddiyyəti inkar edir. Onun düşüncəsinə görə iki zidd bir-birini varlıqdan məhrum edir. İbn Ərəbi israrla Tanrı və aləm arasındakı qarşılıqlı sevginin buna yol verməyəcəyini vurğulayır. O, Vahidin təcəlliləri zamanı əkslər və görüntülərində zahir olaraq, hər ilahi nəfəsdə yenilənən aləmə bağlanmağı gerçək ariflərə rəva bilmir. Varlıq və yoxluq adlı iki aləmi özünə çəkib onlar arasında bərzəx olan sufi, kamilləşərək kamil insan nöqtəsinə çatmaq üçün yoxluğun zülmətində düçar olduğu həsrətdən qaçmalı və varlıq olan Haqqın nuruna köklənməlidir. Vəhdəti-vücudda İlahinin sifətlərini əks etdirən kamil insan aləm aynasının cilasıdır. Sevən və sevilən arasında vəhdəti təmin edən yeganə körpüdür.

Açar sözlər: Tanrı, aləm, insan, kəşf, eşq, vəhdət

Təsəvvüfün təkamülündə Mühyiddin ibn Ərəbinin rolu. Əsasən irrasional məntiqə əsaslanan təsəvvüfün, ezoterik çərçivələrdən çıxaraq fəlsəfi ideyalar ilə xeyli dərəcədə zənginləşməsində Mühyiddin ibn Ərəbinin rolu misilsizdir. İbn Ərəbi ilə təsəvvüf ümumilikdə sistemləşərək nizamlı bir dünyagörüşü halına gəlmiş oldu. Xüsusən də təsəvvüfün başlıca sualı olan vəhdət məsələsi, ibn Ərəbinin əsərlərində tamamilə fərqli fəlsəfi boyutlar da qazandı. O, təsəvvüfün vəhdət sualını fərqli formalarda şərh edərək, onu vəhdəti-vücud adlı dərin bir fəlsəfi təlimə çevirdi. Vəhdəti-vücud düşüncəsinə ibn Ərəbidən öncə də rast gəlinməsinə rəğmən, bu konsepsiyanın bütöv və vahid bir dünya görüşü olaraq inkişafının, məhz onun adı ilə əlaqəli olması əslində mümkündür (Akkach, 2007: s.89). İbn Ərəbidən sonrakı əsrlərdə vəhdəti-vücud düşüncəsi getdikcə İslam dünyasında təsəvvüfün fəlsəfi-metafizik özülünə çevrildi. Demək olar ki, bütün təsəvvüf məktəbləri bu fəlsəfi konsepsiyanı mənimsəyərək, onun başlıca ideyalarını bu və ya digər şəkildə öz təlimlərinə daxil etdilər. İbn Ərəbidən sonra təsəvvüf və vəhdəti-vücud çulğalaşaraq bir-birindən ayrılmaz hala gəlmiş oldu. Vəhdəti-vücud konsepsiyası, XIII minillikdən başlayaraq ibn Ərəbi ilə möhtəşəm bir metafizik sistem halına gəldi. Qeyd olunan minillikdən etibarən, İslam dünyasında bir çox təsəvvüf məktəbləri bu sistemdən xeyli dərəcədə təsirləndi və vəhdəti-vücudu yeni formalarda şərh etməyə başladı (Ocak, 1999: s.149). Beləliklə, vəhdəti-vücud təsəvvüfün mistik mənzərəsini büsbütün dəyişməyə müvəffəq oldu. Təsəvvüfə çoxlu sayda yeni fəlsəfi rənglər və məntiqi çalarlar əlavə etdi. Bunun nəticəsində, təsəvvüf öz haşiyəsini bir qədər də genişləndirdi. Təriqətlərin təşəkkülü və daha sonraki dönəmlərdə ibn Ərəbinin də bilavasitə təsiri ilə vəhdəti-vücud, eşq, mərifət mərkəzli və fəlsəfi cəhətləri üstünlük təşkil edən təsəvvüf anlayışı geniş yayıldı, buna uyğun olaraq yeni şərtlər ortaya çıxmış, mövcud təsəvvüf terimləri də yenidən təfsir edilmiş oldu (Erkaya, 2017: s.61-62).

İbn Ərəbinin görüşlərini ilk dəfə olaraq fəlsəfi cəhətdən analiz etməyə çalışan Ə.Əfifi yazır ki, vəhdəti-vücud sistemi, ibn Ərəbidən öncə kamil tərzi ilə İslamda mövcud deyildi. İbn Ərəbi, vəhdəti-vücudun əsaslarını qoyan və məktəbini quran, anlam və məqsədlərini açıqlayan, özündən sonra vəhdəti-vücud haqqında danışan müsləmanların mənimsədiyi bu tərzi ilə vəhdəti-vücudu təsvir edən kimsədir (Afifi, 2011: s.47). İbn Ərəbi ilə sistemlilik qazanan vəhdəti-vücud görüşü, təkcə təsəvvüf məkanı ilə məhdudlaşaraq qalmadı, bu konsepsiya İslamın digər təlimlərinə və onların müxtəlif qollarına da sızaraq onlara da təsir göstərə bildi. M.E.Kılıç yazır ki, işraqi meyillər daşıyan fəlsəfi məktəblərin davamçıları üzərində ibn Ərəbinin təsirləri inkar edilməzdir. Bu yönü ilə ibn Ərəbi, İslam fəlsəfəsini peripatetizmin məhdud haşiyəsindən qurtararaq ona ezoterik və irfani məqamların da əlvə olunmasına imkan yaradan bir düşünürdür (Kılıç, 2018: s.84). S.H.Nəsrə görə, ümumi olaraq təsəvvüfə yeni bir rəng verərək onu yenidən şəkilləndirən ibn Ərəbinin təlimi İslamın Şərq bölgələrində özünün sonrakı inkişafı üçün uygun bir məkan tapmış oldu. Burada onun təlimi artıq doktrinalaşmış təsəvvüfün dilini transformasiya etməkdən əlavə, eyni zamanda teoloji və teosofik, xüsusi ilə də ənənəvi fəlsəfəyə də sirayət edə bildi (Nasr, 1977: s.97). Eləcə də əksinə, ibn Ərəbi ilə yeni bir müstəviyə çıxan təsəvvüf, İslam dünyasında kəlam və fəlsəfənin bir çox qonularını da öz əhatə dairəsinə daxil etməyi bacardı. E.Demirliyə görə, təsəvvüf ibn Ərəbi və onun ardıcılları ilə birlikdə nəzəri bir dilə və sistematik quruluşa qovuşmuş; kəlam və fəlsəfənin təbii məkanı sayılan mövzular, sufilər tərəfindən ələ alınmış; texniki anlamda ilk dəfə bir yaradılış nəzəriyyəsindən söz edilə biləcək hala gəlmişdir (Demirli, 2013: s.73). Bütün bunların nəticəsində ibn Ərəbinin təlimi, Batıdan Doğuya bütün İslam aləmində dərin köklər salaraq, Mərakeşdən İndoneziyaya qədər geniş ərazilərə də yayıla bilmişdir (Nasr, 1981: s.76-77).

İbn Ərəbi vəhdət prinsipini fərqli cəhətlərdən şərh edərək təsəvvüf ilə İslamın digər təlim və fəlsəfi məktəbləri arasında da vəhdət əlaqələri qura bilmişdir. Düşünürük ki, ibn Ərəbinin böyüklüyü, özünəxas fəlsəfi təlimi olan vəhdəti-vücudun isə dərinliyi məhz bu sinkretizm ilə bağlıdır. Bu sinkretizminə rəğmən ibn Ərəbnin təlimi olduqca fərqli, təkrarolunmaz və bənzərsizdir. Onun düşüncələri son dərəcə sərbəstdir. İbn Ərəbi, sistem etibarı ilə tam şəkildə müstəqil bir düşünürdür.

Ancaq onun müstəqil fikir sahibi olması görüşlərinin də sistemsizliyi demək deyil, tam tərsinə hər hansı bir məktəbin təsirinə bağlı qalmadan sərbəst düşünəbilən bir sistemin içərisində yer almasıdır (Yıldırım, 2010: s.4).

Ümumiyyətlə vəhdəti-vücudun fəlsəfi təlim, ibn Ərəbinin isə filosof olaraq qəbul edilməsi də olduqca mübahisəli bir məsələdir. S.Uludağ vəhdəti-vücudu fəlsəfi bir nəzəriyyə (Uludağ, 1995: s.125), Ə.Əfifi Şeyx əl-Əkbəri[2] filosof, vəhdəti-vücudu isə, bimənalı olaraq fəlsəfə hesab edərək qəbul etsə də (Afifi, 1999: s.117), R.Landau (Landau, 2008: s.22) və M.Chodkiewicz (Chodkiewicz, 1993: s.5) kimi ibn Ərəbinin Qərb tədqiqatçıları onu filosof olaraq qəbul etmirlər. Düşünürük ki, sərhədləri əqlin müəyyənləşdirdiyi çevrçivələrə sığmayan təsəvvüfün əsas təlimi olan vəhdəti-vücud mahiyyəti etibarı ilə fəlsəfidir və tam mənada fəlsəfədir. Amma bu təlimin fəlsəfi əsası ənənəvi olaraq qəbul edilmiş fəlsəfədən bir qədər fərqlidir. Vəhdəti-vücud ümumilikdə təsəvvüfün konteksti daxilində başa düşüldükdə fəlsəfədir. İbn Ərəbi metafizikası altında nəzərdə tutulan şey isə nəzəri təsəvvüf və ya digər bir ifadə ilə təsəvvüf fəlsəfəsidir (Yiğit, 2016: s.42).

İbn Ərəbinin vəhdəti-vücud təlimi. İbn Ərəbinin vəhdəti-vücud olaraq bilinən fəlsəfi təlimi, başlanğıcı Tanrı, yolu aləm, sonu insan olan metafizik bir fəlsəfi sistemdir. Mürəkkəb fəlsəfi struktura əsaslanan bu metafizik təlimdə başlanğıcdan sonadək vəhdəti təmin edən başlıca element varlıqdır. Bu mənada, vəhdəti-vücud da əksər fəlsəfi sistemlər kimi varlıq mərkəzlidir. Varlığın çıxış nöqtəsi isə, həm də vücud olan Tanrıdır. Vəhdəti-vücud təlimində zatı aləmdən gizli-münəzzeh olan Tanrı üluhiyyətinin təcəlliləri ilə aləmdədir. Bilavasitə bu məntiqdən irəli gələrək, vəhdəti-vücudda vəhdətin ikinci elementi olan aləm ikili həqiqətə, reallığa malikdir. Zatı etibarı ilə yoxluq olub Haqqın təcəlliləriндə mövcudluq qazanan aləm, bir tərəfdən Onun əksi və görüntüsü olan gerçəklik, digər tərfədən isə, hər hansı bir gerçəklikdən məhrum xəyal və ya ilğımdır. Deməli vəhdəti-vücud təliminin məntiqinə əsasən, Tanrı üluhiyyəti ilə yoxluqda aləmdir. Təlimin əsas sistemyaradıcı elementi olan insan isə, Tanrı və aləm arasında bərzəxdədir. O, həm də varlıq ilə yoxluq arasında vəhdət yaradıcı mürəkkəb bir bərzəxdir. Vəhdəti-vücudda aləmtək ikili həqiqətə malik olan insan, bir yönü ilə aləmin kəsrətinə qərq olan insani-heyvan, digər yönü ilə vəhdəti-vücudun vəhdətini təmin edərək həm də, bu vəhdəti özündə də kəşf və müşahidə edən insani-kamildir.

İbn Ərəbi ən iri həcmli əsəri olan "Fütuhatül-Məkkiyyə"də (Məkkə fəthləri) yazır ki, yaradan və yaradılandan başqa bir şey yoxdur (İbn Ərəbi, 2006: s.102). Qeyb yaradılışda örtülüdür (İbn Ərəbi, 2008: s.62). Haqqın isə yaradılanlar arasında bir bənzəri yoxdur (İbn Ərəbi, 2008: s.289). İbn Ərəbinin vəhdəti-vücud təlimi, zatı etibarı ilə daima qeybdə olan yaradanın surəti etibarı ilə yaradılanda zahir olub, onun batinində qeyb olması prinsipinə əsaslanır. Bu prinsip Haqqın xalqa birdəfəlik hülul[3] edərək ona məzc[4] olmasına imkan vermir. Bu halı ilə vəhdəti-vücud təlimindəki vəhdət prinsipi İslamda küfr hesab edilən ittihaddan[5] tamamən uzaq bir vəhdətdir. Vəhdəti-vücudda vəhdət bilavasitə yox, bilvasitədir. Sonsuz təcəlliləndə gerçəkləşən vəhdət, Tanrı surətinin yoxluq aynasındakı əksidir. Bu paradiqmaya əsasən, vəhdəti-vücudun vəhdəti həm də, əkslərdə doğulan aləmdir.

Ümumiyyətlə, ibn Ərəbidə Tanrı və aləm bir-birindən tamamilə fərqli varlıqlardır. Eləcə də, onun sistemində Tanrı-aləm-insan bölgüsü daha dərin fəlsəfi əsaslara malikdir. Bu üç məfhum vəhdət adlı bütöv bir mürəkkəb sistemi təmin edən vəhdətdaxili elementlərdir. İbn Ərəbidə vəhdət məsələsinin fəlsəfi qoyuluşu, Tanrı və aləmin fəlsəfi məna yüklərini də dəyişdirir. Vəhdəti-vücud təliminin konteksti daxilində, əzəldən əbədi batin olan Tanrı, aləmdə zahir olduğu anda, aləmi də zahir edib onda sürəkli batin olur. Əgər məntiqi olaraq Haqq mütəmadi zahir olub aləmin batinini əhatə etməsə, aləmin zahirdən məhrum olub öz batini olan yoxluğa qərq olması da qaçılmazdır. Bu isə vəhdəti-vücud adlı sistemin dağılması və ya ümumiyyətlə istənilən vəhdətin sonu deməkdir.

[2] Ən böyük Şeyx mənasını verir. İbn Ərəbi İslam dünyasında bu ad altında da tanınır.
[3] Tanrının aləmə və ya ruh şəklində insana daxil olması.
[4] Qarışmaq, qatmaq, qatılmaq.
[5] Xaliq ilə xəlqin birliyi, birləşərək tək olması, təklənməsi.

İbn Ərəbi bu vəhdətin gözlə görülüb, əql ilə dərk edilməyəcəyini də vurğulayır. O, yazır ki, göz məzhərdən başqasını görmədiyindən (İbn Ərəbi, 2014: s.26), əql isə ilahi sirrin sərhəddində durduğundan (İbn Ərəbi, 2015: s.117), göz gördüyü hər mövcudun surətində Haqqın eynini görər (İbn Ərəbi, 2013: s.112-113). Gözün gördüyü hər surətdə görünən isə, Haqqın eyni də olmaz (İbn Ərəbi, 2014: s.217). Belədə kəsrətdəki həqiqətlərin dərkinə bilavasitə gözün yardımı ilə köklənən əqlin təhriflərə yol verməsi də labüddür. Əqlin fitrərinə xas tərəddüd və şübhə şəhadət aləmində Haqqı xalqdan ayıraraq, xalqda Haqqı görməkdə acizdir. Bu qısır məziyyətindən irəli gələrək əqlin verəcəyi bilgilər səhih olmadıqları üçün həqiqətlərin dərkində də kafi deyil. Əql vəhdət sisteminin nəticəsi olan insanın özündən törəyən sonlu element olduğundan, vəhdəti-vücudda onun vasitəsi ilə başlanğıc varlıq olan Tanrının biliyinə heç bir yol yoxdur. Bu cəhətdən, ibn Ərəbi "Füsusül-Hikəm"də (Hikmətlərin əsas mənaları, inciləri) yazır ki, əqlin durduğu sərhədi aşan kəşfdir (İbn Ərəbi, 2013: s.229).

İbn Ərəbi əql və kəşf məsələsini də vəhdəti-vücudun mücərrəd məntiqi çərçivəsində və bu dəfə də fəlsəfi olaraq həll edir. O yazır ki, Haqq, özlüyündə bilinməyəcək qədər ali və əzəmətlidir. Fəkət O, əşyada bilinir. Deməli, mükaşifə, Haqqın əşyada bilinməsinin səbəbidir və əşya Haqq üzərində örtük kimidir. Örtüklər qalxdığında isə, altında gizlənən şey kəşf edilir. Beləliklə mükaşifə meydana gəlir. Kəşf sahibi, Haqqı əşyada kəşf yol ilə bilir (İbn Ərəbi, 2008: s.271). Gözlər Ona Onun vasitəsi ilə baxsa da (İbn Ərəbi, 2008: s.248), O qəlb və ya bəsirət gözü ilə müşahidə edilir (İbn Ərəbi, 2010: s.246). Yəni ibn Ərəbidə Tanrının yerdəyişməz olan zatından başqa, hər şey dəyişən və yerdəyişəndir. Digər tərfdən, vəhdəti-vücudda Haqq təcəllisinin nuru ilə yoxluğu yoxluq pərdələrindən qurtarıb aləm etdiyi üçün, "gözlərin Ona Onun vasitəsi ilə baxması" fikrində də hər hansı bir təzad və ya ziddiyyətli məqam yoxdur. Bu fikir vəhdəti-vücud fəlsəfəsinin konteksti daxilində dərk olunduqda isə, onda həm də şirk[6] kimi səslənə biləcək heç bir fikir də yoxdur.

İbn Ərəbinin vəhdəti-vücud təlimində eşq fəlsəfəsi.

Biz eşqdən südur etdik
Eşq üzrə yaradıldıq
Eşqə doğru yönəldik
Eşqə verdik könlümüzü
(İbn Ərəbi, 2013: s.29).

İbn Ərəbi əbədi vəhdətdə olan Tanrı və aləm "ikilisi"ni sevgi düyünü ilə də bir-birinə möhkəm düyünləyir. Əbədi vücud və şərti mövcud arasındakı vəhdətin sevgiyə dönüşməsi ilə, vəhdəti-vücudun qəliz fəlsəfi dili də nisbətən yüngülləşərək daha asan anlaşılacaq bir hala gəlmiş olur. Ümumiyyətlə, ibn Ərəbinin vəhdəti-vücud təliminin mürəkkəb metafizik-fəlsəfi mahiyyətini anlamaqda, onun "Fütuhatül-Məkkiyyə"də tez-tez müraciət etdiyi sevgi metaforunun əhəmiyyəti xüsusidir. İbn Ərəbi yazır ki, təcəllinin məqsədi sevgidir, çünki sevgi, aləmin varlıq səbəbidir (İbn Ərəbi, 2008: s.64). Aləmin qaynağı da sevgidir (İbn Ərəbi, 2012: s.15). Aləmdə sevgi qaynaqlı olmayan hərhansı bir hərəkət yoxdur (İbn Ərəbi, 2013: s.224). Yaradılmışlar sürəkli və daima Allahın sevgilisidir (İbn Ərəbi, 2007: s.428). Sevginin bir özəlliyi də, sevgidə ziddləri bir araya gətirməkdir (İbn Ərəbi, 2008: s.184). Eləcə də, ibn Ərəbi "Fütuhatül-Məkkiyyə"nin müxtəlif bölümlərində sevən və sevilənin yerlərini də vaxtaşırı olaraq dəyişir. Tanrı sevilən olduğunda aləm sevən, aləm sevilən olduğunda isə, Tanrı sevən olur. Məhz bu qarşılıqlı yerdəyişmə, Tanrının aləmə hülul etməsi və bu ikisi arasında ittihadın baş veməsinin qarşısını alaraq belə bir "vəhdətə" əngəl törədir. Məsələyə bu məntiqdən yanaşdıqda vəhdəti-vücudda vəhdət, sevən və sevilən arasındakı qarşılıqlı sevgidir.

Göründüyü kimi, ibn Ərəbinin təlimində aləm önəmli yoxluq-varlıqdır. Aləm iki hipostazda mövcud olan varıq-yoxluqdur. İbn Ərəbidə aləm, sevilən olması baxımından, özünü sevəndə də höküm sahibidir (İbn Ərəbi, 2011: s.82). Vəhdəti-vücud təliminin özünəxas daxili məntiqinə görə, varlıq yoxluqda həll olmadan, onda əks olunduqca, aləmə Tanrı deməkdə də heç bir qəbahət yoxdur.

[6] Şəriklik, ortaqlıq deməkdir. Tövhidə zidd mənada Allaha şərik qoşmaq mənasını verir.

Bu mənada, vəhdəti-vücudun fəlsəfəsi bütövlükdə təsəvvüfün konteksti daxilində və bilavasitə öz xarakterik məntiqi çərçivəsində başa düşüldükdə panteizmdən də tamamən fəqli bir fəlsəfədir. Vəhdəti-vücud və panteizmin prinsip etibarı ilə fərqliliyini ortaya qoyan tədqiqatlar da kifayət qədərdir (Nasr, 2006: s.75, Afifi, 2011: s.57, Смирнов, 2014: s.135-136, Насыров, 2013: s.31-32, Kılıç, 2018: s.118-119, Erdem, 1990: s.98-102, Ибн ал-Араби, 1995: s.9-10, Азимов, 2009: s.216, Kara, 1992: s.46, Çakmaklıoğlu, 2011: s.453 Bünyadzadə, 2006: s.162, Öztürk, 2011: s.65-66, Almond, 2004: s.14).

İbn Ərəbi təsəvvüfün məşhur suallarından biri olan sevən və sevilənin “kosmik dramı”ndan (Taji-Farouki, 2007: s.122) tədricən İslama keçid edir. Tanrı və aləmi vəhdəti-vücudun eşq fəlsəfəsi bağlamında bağlayaraq, bu vəhdətə bir də İslam ilə işıq tutur. O yazır ki, kim birlərsə Allah onu sevər. Çünki tövhid Allahın sevdiyi şeydir (İbn Ərəbi, 2008: s.210). Vəhdəti-vücud təlimi mahiyyətcə dərin fəlsəfə olmaqla bərabər, həm də bütövlükdə İslam monoteizminin dayaq prinsipi olan tövhidin də fəlsəfi bir dildə izahıdır (Рашидов, 2019: s.112). Bu mənada, vəhdəti-vücudu İslamın tövhid inamı əsasında dərk etmək olduqca vacibdir. İbn Ərəbinin vəhdəti-vücud nəzəriyyəsi İslam monoteizminin də öxünəxas məntiqi xülasəsidir (Laliwala, 2005: s.70).

Nəticə. Ümumilikdə dünya mədəniyyətinin də ən parlaq simalarından biri olan Mühyiddin ibn Ərəbinin, təsəvvüfün ən başlıca fəlsəfi konsepsiyası olan vəhdəti-vücud görüşünün Əndəlisdən Məqrib, oradan Yaxın Şərq, Anadolu üzərindən Balkanlar, eləcə də Orta Asiya, oradan isə Uzaq Şərqin İslam ölkələrinədək yayılmasında çox böyük tarixi xidmətləri olmuşdur. Bununla Şeyx əl-Əkbər İslami təlimlərin, eləcə də ümumilikdə dünya fəlsəfi fikrinin xeyli dərəcədə zənginləşməsinə də öz misilsiz töhvəsini vermişdir. XIII minillikdən etibarən bütün orta əsrlər boyunca davam edən bu proses, yeni dövrdən başlayaraq öz təsir məkanını bir qədər də Qərbə doğru genişləndirmişdir. Bu sevginin nəticəsində Şeyx Əbdülhadi Aqili (İvan Aqueli) (1869-1917), Əbdül Vahid Yəhya (Rene Genon) (1886-1951), İsa Nurəddin Əhməd (Fritof Şuon) (1907-1998), Mustafa Abdul Əziz (Mişel Valzan) (1907-1974), İbrahim İzzəddin (Titus Burqhardt) (1908-1984), Əbu Bəkr Siracəddin (Martin Linqs) (1909-2005) və s. kimi ibn Ərəbinin eşq fəlsəfəsinin aşiqləri meydana çıxmışdır. Müasir dövrdə də fərqli məkanlardan olan çoxsaylı insanların mənəvi qidasına çevrilən təsəvvüf və bu bənzərsiz İslam təliminin əsas fəlsəfi istiqamətlərindən olan vəhdəti-vücudun, ənənəvi olaraq Şərqdən kənarda da böyük maraqla təbliği, tədqiqi və eləcə də tədrisi ilə məşğul olan “The Muhyiddin Ibn Arabi Society” cəmiyyəti, “Journals of the Muhyiddin Ibn Arabi Society” adlı sırf vəhdəti-vücud təlimindəki müxtəlif fəlsəfi problemlərə həsr olunmuş illik məqalər toplusu, “Anqa Publishing” kimi təsəvvüf mətnlərininin tərcümə və dərci ilə məşğul olan nəşriyyat evləri və “Beshara School” adlı təsəvvüfi biliklərin tədrisi məkrəzləri də fəaliyyət göstərməkdədir.

İstifadə olunmuş ədəbiyyat

1. Afifi, E.A. (2011). Fusüsu’l Hikem Okumaları İçin Anahtar (et-Ta’likat ala Fususi’l-Hikem). İstanbul: İz Yayıncılık. – 512 s.
2. Afifi, E.A. (1999). Muhyiddin İbnü’l-Arabi’de Tasavvuf Felsefesi. İstanbul: Kırkambar Yayınları. – 253 s.
3. Akkach, S. (2007). Abd al-Ghani al-Nabulusi Islam and the Enlightenment. Oxford: Oneworld Publications. – 152 p.
4. Almond, I. (2004). Sufism and Deconstruction: A Comparative Study of Derrida and Ibn ‘Arabi. London: Routledge. – 166 p.
5. Азимов, К. (2009). Проблема человека в религиозно-философских доктринах зороастризма и ислама. Баку: Леттерпресс. – 304 с.
6. Bünyadzadə, K. (2006). Şərq və Qərb: İlahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan. – 242 s.
7. Chodkiewicz, M. (1993). The Seal of the Saints: Prophethood and Sainthood in the Doctrine of Ibn Arabi. Cambridge: The Islamic Texts Society. – 192 p.
8. Çakmaklıoğlu, M (2011). İbn Arabide Marifetin İfadesi. İstanbul: İnsan Yayınları. – 576 s.
9. Demirli, E. (2013). İbnü’l Arabi Metafiziği. İstanbul: Sufi Kitap Yayınları. – 421 s.

10. Erdem, H. (1990). Bir Tanrı-Alem Münasebeti Olarak Panteizm ve Vahdet-i Vücud. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları. – 126 s.
11. Erkaya, M.E. (2017). Kur'an Kaynaklı Tasavvuf Kavramları. Ankara: OTTO Yayınları. – 423 s.
12. Ибн ал-Араби. (1995). Мекканские откровения (ал-Футухат ал-маккийя). Перевод с арабского А.Д.Кныша. Санкт-Петербург: Петербургское Востоковедение. – 288 с.
13. İbn Arabi, M. (2013). İlahi Aşk. İstanbul: İnsan Yayınları. – 196 s.
14. İbn Arabi, M. (2013). Fususu'l-Hikem. İstanbul: Kabalcı Yayıncılık. – 536 s.
15. İbn Arabi, M. (2015). Fütuhat-ı Mekkiyye. Cilt I. İstanbul: Litera Yayıncılık. – 487 s.
16. İbn Arabi, M. (2014). Fütuhat-ı Mekkiyye. Cilt II. İstanbul: Litera Yayıncılık. – 472 s.
17. İbn Arabi, M. (2006). Fütuhat-ı Mekkiyye. Cilt III. İstanbul: Litera Yayıncılık. – 455 s.
18. İbn Arabi, M. (2007). Fütuhat-ı Mekkiyye. Cilt VI. İstanbul: Litera Yayıncılık. – 455 s.
19. İbn Arabi, M. (2008). Fütuhat-ı Mekkiyye. Cilt VII. İstanbul: Litera Yayıncılık. – 471 s.
20. İbn Arabi, M. (2008). Fütuhat-ı Mekkiyye. Cilt VIII. İstanbul: Litera Yayıncılık. – 431 s.
21. İbn Arabi, M. (2008). Fütuhat-ı Mekkiyye. Cilt IX. İstanbul: Litera Yayıncılık. – 464 s.
22. İbn Arabi, M. (2010). Fütuhat-ı Mekkiyye. Cilt XII. İstanbul: Litera Yayıncılık. – 415 s.
23. İbn Arabi, M. (2011). Fütuhat-ı Mekkiyye. Cilt XV. İstanbul: Litera Yayıncılık. – 395 s.
24. İbn Arabi, M. (2012). Fütuhat-ı Mekkiyye. Cilt XVII. İstanbul: Litera Yayıncılık. – 398 s.
25. Kara, M. (1992). Tasavvuf ve Tarikatlar. İstanbul: Yeni Yüzyıl Kitaplığı. – 112 s.
26. Kılıç, M.E. (2018). İbnü'l-Arabi. Ankara: Türkiye Diyanet Vakfı. – 268 s.
27. Laliwala, J.I. (2005). Islamic Philosophy of Religion: Synthesis of Science Religion and Philosophy. New Delhi: Sarup & Sons. – 226 p.
28. Landau, R. (2008). The Philosophy of Ibn Arabi. London: Routledge. – 126 p.
29. Насыров, И.Р. (2013). Ибн Араби: Избранное, Т.1, Москва: Языки славянской культуры. – 216 с.
30. Nasr, S.H. (1981). Islamic Life and Thought. Albany: State University of New York Press. – 232 p.
31. Nasr, S.H. (2006). Islamic Philosophy from Its Origin to the Present: Philosophy in the Land of Prophecy. New York: State University of New York Press. – 380 p.
32. Nasr, S.H. (1977). Sufi essays. New York: Schocken Books. – 184 p.
33. Ocak, A.Y. (1999). Osmanlı İmparatorluğu'nda Marjinal Sufilik. Kalenderiler (XIV-XVII. Yüzyıllar). Ankara: Türk Tarih Kurumu Basımevi. – 271 s.
34. Öztürk, K. (2011). İbn-i Arabi'nin Evrensel Mesajları. Konya: Nüve Kültür Merkezi. – 239 s.
35. Рашидов, З.Ф. (2019). Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) // Исламоведение. Научно-теоретический журнал. Махачкала: Издательство ДГУ. Т.10, № 3 (41). – с.103-116.
36. Смирнов, А.В. (2014). Ибн Араби. Избранное, Т.2, Москва: Языки славянской культуры. – 400 с.
37. Taji-Farouki, S. (2007). Beshara and Ibn Arabi A Movement of Sufi Spirituality in the Modern World. Oxford: Anqa Publishing. – 480 p.
38. Uludağ, S. (1995). İbn Arabi. Ankara: Diyanet Vakfı Yayınları. – 208 s.
39. Yıldırım, K. (2010). Türk İslam Düşüncesinde Muhyiddin İbn'ül Arabi. İstanbul: H Yayınları. – 222 s.
40. Yiğit, F. (2016). İbn Arabi Metafiziğinde İnsan. İstanbul: Önsöz Yayıncılık. – 300 s.

UOT: 1 (091)

FOUNDATİON OF THE TURKİSH BELİEF SYSTEM FROM THE POSİTİON OF EUROCENTRİC THİNKİNG

Araz Aliyev
Researcher, PhD student
Baku State University, Azerbaijan
Arazaliyev1606@gmail.com
Orcid id: 0000-0003-2350-9187

Abstract: For a long time, the study of Turkish philosophical thought by Western scholars was equivocal. The approaches to Turkish philosophical thought, which were viewed mainly in a negative light by Western authors, were distinguished by their similar character not only in philosophy but also in the system of beliefs and mythological directions. Even a number of local authors, under the influence of Western sources,

have tended to interpret Turkish philosophical thought within the framework of what we call the Eurocentric worldview. In the article different assessments by Western authors have been considered about Shamanism, a common historical and cultural example of nomadic peoples living in the steppes of Asia. Some authors consider Shamanism as a system of primitive beliefs. Others attribute the emergence of shamanism to the direct influence of religious systems such as Buddhism and Islam. The third direction we consider in the article is to show that Shamanism is an independent belief system that has historically emerged as a result of the interaction of nomadic peoples living in the steppes of Asia with nature and is more a product of a nomadic worldview than external influences. The study of shamanism in this direction includes the results of the works and approaches of Western scholars.

Key words: Shamanism, Eurocentrism, Turkish, belief, toyunism, religion

AVROPASENTRİK DÜŞÜNCƏ MÖVQEYİNDƏN TÜRK İNANC SİSTEMİNİN TƏMƏLLƏNDİRİLMƏSİ

Əliyev Araz Yunus oğlu
Elmi işçi, doktorant
Bakı Dövlət Universiteti, Azərbaycan
Arazaliyev1606@gmail.com

Xülasə: Uzun müddət türk fəlsəfi fikrinin Qərb alimləri tərəfindən tədqiq olunması birmənalı xarakterə daşıyıb. Qərb müəllifləri tərəfindən əsasən mənfi istiqamətdə nəzərdən keçirilən türk fəlsəfi fikrinə yanaşmalar, fəlsəfə ilə yanaşı inanc sistemi və mifoloji istiqamətlərdə də oxşar xarakterli olması ilə seçilirdi. Hətta bir sıra yerli müəlliflər belə Qərb mənbəşünaslığının təsiri altında türk fəlsəfi fikrini Avropasentrik adlandırdığımız dünyagörüş sistemi çərçivəsində şərh etməyə meyllənib. Məqalədə Asiya bozqırlarında yaşayan köçəri xalqların ortaq tarixi-mədəni nümunəsi olan Şamanizmin Qərb müəllifləri tərəfindən fərqli dəyərləndirilməsi nəzərdən keçirilmişdir. Bir sıra müəlliflər Şamanizmi ibtidai inanc sistemi olaraq nəzərdən keçirir. Digərləri isə Şamanizmin meydana çıxmasını Buddizm və İslam kimi dini sistemlərin birbaşa təsiri ilə izah edirlər. Məqalədə nəzərdən keçirdiyimiz üçüncü istiqamət isə Şamanizmi tarixən Asiya bozqırlarında yaşamış köçəri xalqların təbiətlə qarşılıqlı münasibətləri nəticəsində ortaya çıxan müstəqil inanc sistemi olduğunu və xarici təsirlərdən daha çox köçəri dünyagörüşün məhsulu olduğunu ortaya qoymaqdır. Şamanizmin bu istiqamətdə tədqiq edilməsində Qərb alimlərinin əsərlərindən və yanaşmalarından gəlinmiş nəticələrə yer verilmişdir.

Açar sözlər: Şamanizm, Avropasentrizm, türk, inanc, toyunizm, din

Türk inanc sistemi kimi şamanizm. Cavad Heyət "*Göktanrı dini həmin şaman dinidir*" deyə qeyd edir. (Heyət, 1993: s. 58) Cavad Heyətin şamanizmi Göktanrı dini ilə eyniləşdirdiyi kimi, digər tərəfdən də şamanizmin "*monqollar zamanı türklər arasında yayıldığını*" qeyd edir. (Heyət, 1993: s. 58) İddianın tənqidini nəzərdən keçirməmişdən öncə, Cavad Heyətin əsərində monqollar zamanında yayıldığı ifadəsinin XIII əsrdə Buddizmin monqollara arasında Orta və Şimali Asiyada yayılmağa başlaması faktını nəzərə almağımız xüsusi önəmə malikdir. Bu qısa qeyddən çıxardığımız nəticə ondan ibarətdir ki, Cavad Heyət eynilə Şirokogorov və digər müəlliflərin olduğu kimi şamanizmi Buddizmin yayıldığı zamanda ortaya çıxdığını qəbul edir. Digər tərfədən də Cavad Heyətin "*şaman hind-avropalı termindir*" (Heyət, 1993: s. 56) ifadəsini də iddialarımızı təsdiq edən əsas amillərdən hesab edə bilərik. Bu baxımdan yanaşdığımızda "*şamanizmin türklər arasında monqollar zamanında yayılması*" iddiasını başa düşmək mümkündür.

Michel Perrin şamanizmi bir din olaraq nəzərdən keçirilməsinin tərəfdarıdır. Onun fikrincə din dünyanı anlamaq və izah etmək, dolayısı ilə də onu formalaşdırmaq xüsusiyyətini daşıyan anlayış kimi nəzərdən keçirilərsə, o zaman şamanizm də bir din xüsusiyyətinə malikdir. (Perrin, 2001: s.27)

J. P. Roux şamanizmi heyvanı həyatda dini təcrübə kimi nəzərdən keçirirdi. O şamanizmi tam olaraq din adlandırmasa da "*ənənəvi din*" formasında nəzərdən keçirirdi. (Roux, 1994: s. 35) Eyni zamanda Roux şamanizmi dini olmaqdan daha çox sehirli metod kimi qiymətləndirir, Altay xalqlarının dini təmsillərindəki təməl hadisə kimi nəzərdən keçirirdi. Roux hər nə qədər şamanizmin tarixi varlığını qəbul etmiş olsa da, türklərin və mongolların dini olaraq qəbul edilmə anlayışları

arasında geniş məsafələrin olduğunu, bu məsafələrin bəzən sırf rahatlıq olsun deyə pozulduğunu qeyd edir. (Roux, 1994: s. 45) Əsasında isə şamanizmi tam olaraq din kimi qəbul etdiyini qeyd etmir.

İbrahim Kafesoğlu isə şamanizmin Hind-Avropa mənşəli olduğunu qəbul etdiyi kimi, onu bir din yox daha çox sehir xarakterinə malik formada nəzərdən keçirir. Kafesoğlunun "*şaman*" sözünün mənşəyi ilə bağlı fikirləri ilə razılaşmasaq da onun şamanizm və türk dini arasında aparmış olduğu paralellər diqqətə laiqdir. Kafesoğlu, türk-bozqır dinini şamanizmdən fərqli formada, təbiət qüvvələrinə inanmaq, atalar kultu və Gök Tengri inancının birləşməsi ilə formalaşdığını qeyd edir. Eyni zamanda da türk-bozkır dinində pütpərəstliyin olmadığını, şamanizmin türklərin təbiət qüvvələri olaraq nəzərdən keçirdiyi məfumları istismar etdiyini qeyd edir. (Kafesoğlu, 1998: s. 302-310)

Kafesoğlunun şamanizmin din olması ilə bağlı problemi də Hind-Avropa, daha doğrusu Buddizmin təsiri ilə izah etdiyini demək doğru olardı. Çünki yalnız bu halda şamanizm türklərin təbətə baxışlarını özündə əks etdirmiş sehirli metod kimi anlaşıla bilərdi. Bir sıra digər müəlliflər də şamanizmin din olaraq nəzərdən keçirilməsinə qarşı çıxış edirlər. Onların fikrincə şamanizm ənənələr toplusu ilə öznünü göstərən inanc sistemini əks etdirmir, sadəcə olaraq dini və ictimai önəmə malik olan müəyyən bir növ insanların varlığını ifadə edir. Şamanizm əslində bir metodlar toplusu kimi də nəzərdən keçirilir. Hansı ki, bu metodlar hər hansı bir dini düşüncə ilə birləşdirilə bilər(təktanrıcılıq, çoxtanrıcılıq, animist və s.) şaman olmaq hər hansı inancları öyrətmək, onları təbliğ etmək mənasına gəlmir, əksinə şaman təbiət üstü qüvvələrə müəyyən əlaqələr yaratmaq üçün vasitə rolunu oynayır . (Perrin, 2001: s. 27)

Abdulkadir İnan Altay və Yakut şamanlığının qədim Türk dini olaraq qəbul edilməsinin mümkün olmadığını qeyd edir. Onun fikrincə Altay-Yakut şamanlığı daha çox privmitiv xarakterə malikdir, lakin qədim Türk dini şamanizmə nəzərən daha çox inkişaf etmiş və formalaşmışdır. O, eradan əvvəl II əsrdə Çin qaynaqlarında Hunların inancları kimi gösətərilən Gök-tanrı, Günəş, Ay, Yer-su, Ölülər kultunu Türk milli dini təmayülləri kimi qeyd edir. İnan eyni zamanda qədim türklərin də şamanist olduqlarını, lakin bu şamanizmin Altay-Yakut şamanizmindən daha yüksək səviyyədə olduğunu və onu arxada qoyduğunu qeyd edir. (İnan, 1986: s. 7) Kafesoğlunun və İnan-ın Türk dini görüşlərinin Altay-Yakut şamanlığından ayırmaq yönümündəki təşəbbüsləri əvvəldə bəhs etdiyimiz "*kam*" və "*şaman*" anlayışları arasında məna cəhətdən olmasa da, tarixi inkişaf baxımından fərqləndirmə aparmağımızı şərtləndirir. Bu məsələyə sonrakı bölümdə aydınlıq gətirməyə çalışacağıq.

Yakutlar göydə məskən salımış Ulu-Toyunun onlara odu verdiyini qeyd edir. (Drury, 1996: s. 23) Ziya Gökalp türklərin qədimdən inandıqları dinin, o bu dini tsin dini adlandırır, şamanizm olduğunu qeyd edir. Ona görə, Tsin dininə eyni zamanda şamanizm adı da verilir. Bu dinin ruhaniləri kamlar yaxud da kamanlardır, hansı ki, şaman sözü də məhz burdan meydana çıxmışdır. Ziya Gökalp eyni zamanda bu dinin ailə və totemizmlə ilə olan bağlantısını da izah etməyə çalışır. (Gökalp, 1976: s. 35) Gökalp Tsin anlayışın Çinin qonşuluğunda yaşayan xalq olduqlarını və türk olduqlarını qeyd edir. (Gökalp, 1976: s. 25)

İnana görə, Gökalp qədim türk dinini "*toyunizm*" olaraq adlandırır və onun bir milli din səviyyəsində nəzərdən keçirir. Lakin "*toyunizm*" milli din kimi yanaşılmasına qarşı onun milli din səciyyəsi daşımadığını, əksinə sadəcə Buddizmdən başqa bir şey olmadığını qeyd edir. (İnan, 1986: s. 7) Buradan çıxaracağımız nəticə ondan ibarətdir ki, Gökalp şamanizmi bir din olaraq nəzərdən keçirir və onun qəbul etdiyi şamanizm böyük ölçüdə yakutların *toyon* (tanrı) anlayışından bəhrələnmişdir və nisbətən daha yetkin inkişaf səviyyəsindədir. Digər tərəfdən də Buddizmi qəbul etdiklərindən sonrakı dönəmlərdə Uyğurlar arasında *toyın* sözü buddist rahibləri (burkhan rahibləri) ifadə etmək üçün işlədilirdi. Daha sonra onlardan da mongollara keçdiyi ehtimal edilir. (Radloff, 2009: s. 412)

Şamanizmlə bağlı əsas ziddiyyətlərin ortaya çıxdığı məqamlar köçəri xalqların şimaldan daha cənubda yerləşən bozkıra çıxmaları ilə başlamışdır. Belə ki, bozkıra çıxılması ilkin insanların dünyagörüşlərində önəmli dəyişikliklərə səbəb olduğu kimi, onların mifoloji baxışlarını da inkişafını

şərtləndirmişdir. Bunun nəticəsi kimi, Orta Asiya xalqlarında bizim indiki mənada nəzərdən keçirdiyimiz dini düşüncə formaları meydana gəlmişdir. İnan Yakutların və Altayların tanrılarının öz vəzifələri, təyinatları baxımından eyni olduğunu, yalnız adlarının fərqli olduğunu qeyd edir. (İnan, 1986: s. 47) Eyni situasiya ilə biz "*kam*" və "*şaman*" sözlərinin məna baxımından eyni olduğunu qeyd etdiyimizdə də rastlaşmış olduq. Digər tərfədən də şaman sözünə Orta Asiya xalqlarının dillərində müxtəlif formalarda səslənməsi, məsələn mongollarda "*böge*", yakutlarda "*ojun*", çuvaşlarda "*yum*", qırğız-qazaxlarda "*baksı*", fərqli adlarda ifadə edilməyə çalışılan ortaq bir anlayışın varlığından xəbər verir. (Radloff, 2009: s. 112)

Lakin bu anlayış daha əvvəlki dönəmlərə aid olduğundan, adı çəkilən xalqların dini dünyagörüşü formalaşdığı mərhələdə eynilə "*kam*" sözündə olduğu kimi mənası rahibləri, din adamlarını ifadə etmək olaraq təkamül keçirmişdir. Şaman kultu region xalqlarının dini dünya görüşündə keçmiş mərhələninin qalığı kimi çıxış edir. Mircea Elaide Orta və Şimali Asiya xalqlarının dini dünyagörüşündə şamanın rolunun nə qədər önəmli olmasına baxmayaraq yenə də sərhədli və məhdud olaraq qaldığını qeyd edir. Belə ki, şaman doğum, dəfn mərasimi, evlənmək və qurban verilməsi kimi ayinlərdə iştirak etmirdi. Ancaq çətin keçən doğum zamanı və yaxud da ölmüş şəxsin ruhunu o biri dünyaya göndərmək lazım olduğunda, yaxud da nikah zamanı pis ruhların təsrindən qorunmaq üçün şamanın güclərindən istifadə edilirdi. Bu kimi mərasimlərədə belə şamanın iştirakı məhdud səviyyədə idi. Elaide şamanlığı xəstəlikləri sağaldan bir şəxs, yaxud da pis ruhları qovmaq üçün cadugərliklə məşğul olan, sehirbaz və s. kimi formalarda nəzərdən keçirmir, ona görə bu cəhətlər şamanı tam olaraq müəyyən edən cəhətlər deyil. Əksinə şaman üçün xarakterik olan cəhət onun "*ölüb dirilməyi bacaran*", daha dəqiq ruhunu bədənindən çıxarıb yer altı dünyaya və ya göyə çıxarmağı bacaran biri kimi nəzərdən keçirir. Elaide şamanlığı "*esrime* (özündən getmə, extase) texnikası" olaraq nəzərdən keçirir. (Elaide, 1999: s. 215)

Elaidenin də qeyd etdiyi və şamanizmdə Buddizmə xas elementləri nəzərdən keçirdiyimizdə fərqli coğrafiyalar arasındakı mədəni oxşarlıqlar meydana çıxır. Belə ki, Orta Asiya və Altay şamanizmində xarakterik olan mis güzgü, şamanın pis ruhlarla mübarizə aparmasının simvolu olan taxta qılınc, müxtəlif ongon heyvanların kiçik heykəlləri önəmlidir. Eynilə Yapon mədəniyyətində də Kusanagi adlı qılınc, Kagami aynası və Magatama mirvarisindən ibarət üçlük mövcuddur. Bu üçlü xəzinənin günəş tanrıçası Amaterasunun ilk yapon imperatoru Jimmuya verdiyindən bəhs olunur. Lakin məsələnin mifoloji tərəfini kənara qoyduğumuzda hər üç əşyanın dini motivləri ortaya çıxır və bu dini motivlər birbaşa olaraq Buddizmlə xarakterizə olunur. Buna görə də şamanizmin Buddizmdən təsirlənmədiyini iddia etmək anlamsız bir teziz olmuş olardı. Təbii olaraq regionun önəmli sistemə malik dini olaraq Buddizmin əhatəsindəki bölgələrə və oralarda yaşayan insanların düşüncələrinə təsir göstərmiş olması normaldır. (Roux, 1994: s. 25)

İlkin ovçuların Bozkıra çıxmaları nəticəsində baş vermiş dəyişiklər, onların dini görüşlərinin inkişafı, Buddizmin təsirləri nəticəsində özünəməxsus dini sistemlərinin formalaşmasına imkan yaratmışdı. Lakin Bozkıra çıxmış olan ilkin ovcular, sürü sahibi olaraq köçəri toplumlara təkamül etsələr də ilkin şamanist elementləri özlərində daşıyırdılar. Ona görə də Bozkır xalqlarının şamanizmi daha çox dini motivlərə malikdir və Buddizmdən təsirlənmişdir. Digər tərəfdən də şamanizm-lə bağlı terminlərin və mənbələrin daha çox eramızın I minilliyinin sonunda ortaya çıxmış olduğunu nəzərə alsaq bu iddiamız daha da anlam qazanmış olur. Təbii ki, Şimali Asiyadakı divar rəsmlərinin və o rəsmlərdə buğa başlı təsvir olunmuş insanların ibtidai şamanlar olması fikrini inkar etmirəm. (Hoppal, 2012: s. 54-61) Bu isə özlüyündə hələ ilkin ovçuların Şimali Asiya meşələrində yaşadığı zamanlarda meydana çıxmış olan ibtidai şamanizmin elementlərini özündə ifadə edir. Düşünürəm ki, İnan və Kafesoğlunun "türk şamanizmi" kimi nəzərdən keçirdikləri amil burada ortaya çıxır. İnan yazır ki, ovçuluq və ibtidai alət düzəltmə ilə məşğul olan, dar bir məkanda yaşayan kiçik boyların dünya görüşləri ilə nəhəng köçəri xaqanlıqlar quran Bizansdan, İrana və Çinə qədər uzanan xalqların dünya görüşləri və dini təmayülləri eyni səviyyədə ola bilməz. (İnan, 1986: s. 8)

Mənim nəzərdən keçirməyi təklif etdiyim yanaşma burada özünü doğrultmuş olur. Əgər dar məkanda yaşayan və ovculuqla məşğul olan ilkin qəbilələr varsa və onların dini təmayülləri şamanizmdirsə, onların daha cənuba Bozkıra çıxmaları ilə dəyişilən xüsusiyyətləri içərisində təbii olaraq dini təmayülləri də yer almalı idi. Belə olan təqdirdə ilkin ovçuların şamanizmi ilə daha sonrakı Bozkır xalqlarının şamanizmində labüd fərqləri nəzərə almağa məcburuq. Birinci nəzərdən keçirdiyimiz ibtiadi şamanizm ilkin ovcu insanların həyat məkanları, coğrafi və iqlim amilləri, qida problemləri, çətin şərtlər qarşısındakı əlacsızlıqları ilə bağlı olaraq, ikinci daha inkişaf etmiş forma olan Bozkır şamanizmi həyat tərzinin, ətrafdakı mədəniyyətləri (Buddizmin timsalında) təsiri və qarşılıqlı əlaqəsi ilə meydana gəlmişdir. Buna rəğmən də əsasında ibtidai şamanizmin elementlərini qoruyub saxlamışdır. İbtiadi və ya Bozkır şamanizmi olmasından asılı olamayaraq şamanizm Orta və Şimali Asiya xalqlarının mifoloji dünyagörüş səviyyəsindən, dini dünyagörüş səviyyəsi arasındakı keçidi təmsil edir. Mircea Elaide yazır ki, şamanizmin Orta və Şimali Asiya xalqlarının dini kimi anlaşılması düzgün deyildir, bu bölgələrin xalqlarının mifologiyaları, inanc və mərasimlərindən heç biri şamanlığın meydana gətirdiyi şeylər deyildir. Əksinə ondan öncə yaxud da ona paralel olaraq mövcud idi. (Elaide, 1999: s. 25-26)

Elaide şamanizmin ən yektin formada özünü göstərdiyini qeyd etdiyi Orta və Şimali Asiya şamanizmini nəzərdən keçirdiyini qeyd edir. Burdan da məlum olur ki, Mircea Elaide şamanizmi yetkin forma olaraq, yəni onu tarixi baxımdan, qarşılıqlı təsirlərin nəticəsi kimi nəzərdən keçirir. Bizim nəzərdən keçirdiyimiz formada Bozkır şamanizmi kimi. O, qeyd edir ki, şamanizmin heç bir dəyişikliyə məruz qalmamış olmasını, yaxud da "yerindən bitmiş" bir anlayış olmadığını bilirik, o uzun bir tarixə malik anlayışdır. (Elaide, 1999: s. 24) Məhz bu səbəbdən şamanizmin Hind-Avropa mənşəli olması fikrini dəstəkləyən araşdırmaçılar yalnız bizim nəzərdə tutduğumuz mənada, Bozkır şamanizmini əsas olaraq qəbul edir. İlkin ovçuların inanc sistemlərinin Bozkır insanından fərqli olduğunu, Bozkırın gətirdiyi qarşılıqlı təsir imkanlarının geniş və əlverişli olması şamanizm elementlərinin digər mədəniyyətlər ilə qarşılıqlı təsirdə inkişaf etməsinə, dini sistem formasına düşməsinə səbəb olmuşdur. Ona görə də, Bozkır şamanizmində Buddizm elemetləri, o cümlədən Ön Asiya dinlərinə məxsus elementlərin müəyyən olunması normal bir haldır. Türk dini anlayışının şamanizmdən fərqləndirilməsi bu baxımdan başa düşüləndir. Bozkır dinləri daha şimalda və Bozkır xalqlarının daha əvvəlki tarixində var olan şamanizm və daha cənubda var olan sistemli dinlərin qarşılıqlı təsiri ilə meydana gəlmişdir. Bozkır xalqlarından olan türklər də bu mədəni qarşılıqlı təsirlər nəticəsində öz mifoloji və dini sistemlərini formalaşdırmışdırlar. Bu sistemə təsir edən elementlərdən ən önəmlisi də daha əvvəlki dönəmlərdən gələn şamanizm elementləridir. Bu vəziyyətdə "*şamanizm*" adlandırdığımız (ilkin şamanizm) inanc sisteminin tarix etibarilə daha əvvələ getdiyini qeyd etsək yanılmarıq.

Mircea Elaide Şamanizmi araşdırarkən təkcə Şimali Asiya şamanlığını deyil, uyğun olaraq Yaponiya, Okeaniya və Avstraliya, Tibet, Çin, Hind-German xalqları, Şimali və Cənubi Amerikaya xas olan şamanist düşüncələri nəzərdən keçirmişdir. Elaidenin nəzərdən keçirdiyi digər xalqlara və coğrafiyalara məxsus şamanizm elementləri bizi şamanizmin ortaya çıxması ilə bağlı çoğrafi amilləri nəzərə almağa vadar edir. İlkin dönəmlərdə Yenisey çayının ətrafında məskunlaşmış və yaşamış olan Qırğızlar Çin mənbələrinə görə şamanist idilər. (İnan, 1986: s. 8) Eyni zamanda da Qırğızların Hind-Avropa mənşəli xalqlar olduğu və sonradan Yenisey hövzəsindən Orta Asiyaya doğru köç etdikləri və türkləşdikləri məlumdur. (Barthold, 2004: s. 33) Qırğızların timsalında şamanizmi nəzərdən keçirdiyimizdə xalqların Hind-Avropalı və ya Türk-Mongol olmasından asılı olmayaraq şamanizm elementlərini daşıdığını görə bilərik. Bu bizə şamanizmin müəyyən bir coğrafi məkan (Olhmarksın qeyd etdiyi kimi "şaman qurşağı") daxilində formalaşdığını düşünməyimizə əsas verir.

Türk inanc sistemi Avropasentrik tarixi problematikada. Tarixi yanaşma baxımından şamanizmin meydan gəlməsi və inkişafı iki istiqamətdə, *yayılma* və *təkamül* xüsusiyyətləri etibarilə nəzərdən keçirilmişdir. Birinci istiqamətin nümayəndələri daha çox şamanizmi cənubdan gələn

mədəni təsirlərin nəticəsi kimi qiymətləndirir (Şirokogorov). Eyni zamanda yayılma istiqamətinin tərəfdarları sadəcə Buddizmin ekspansiv təsirlərini yox, həm də şamanizmin özünün digər mədəniyyətlərə təsirlərindən bəhs edir (Olhmarks). Təkamülçü istiqamətin tərəfdarları isə düşünürlər ki, cəmiyyətlərin zəruri olaraq keçməli odluqları tarixi mərhələlər vardır, şamanizm də özünməxsus dinlərin inkişafının bir mərhələsidir. Onların fikrincə şamanizm *totemizm* və ondan sonrakı mərhələ hesab olunan *animizmin* bir qoludur. Animizm əhatəli formada Edvard Taylor tərəfindən "*Privmitive culture*" adlı əsərində nəzərdən keçirilmişdir.

Taylora görə, dünyada *yuxu* və *ölüm* kimi anlayışlar universal xarakterə malikdir. İlkin dönəm üçün də dəyişməyən bu amil, ilkin insanların yaxın bir ailə fərdini itirdiklərində və daha sonra onu yuxuda gördüklərində yaşadıqları mücərrəd təcrübə ilə bağlı olaraq formalaşmışdır. Hər varlığın öz maddi əsasından sərbəst formada yuxularda mövcud olması, ölmüş bir yaxın fərdi də yuxuda görməyimizə imkan yaradır. Biz bunun sadəcə yuxu olduğunu bildiyimiz halda ilkin insanlar belə bir şansa malik deyil. Ona görə də, ilkin insanlar ölümün gətirdiyi yoxluq və yuxuların gətirdiyi mücərrəd görüntü ilə maddi olan varlıqdan kənarda mücərrəd bir varlığın – *ruhun* var olduğunu düşünürlər. Beləliklə də, dünya ilkin insan üçün dualist xarakter almağa başlayır. Mücərrəd ruh anlayışı, daha sonralar tanrı anlayışın yaranmasına qədər inkişaf edir. Totemizm də eynilə bu inkişaf modelində olduğu kimi, təbiətlə qarşılıqlı əlaqə nəticəsində insan qruplarında meydana çıxmağa başlayır. (Perrin, 2001: s. 20)

Georg Nioradze şamanizmin öz başlanğıcında fərdi qaydada mövcud olduğunu qeyd edir. Onun fikrində şamanizmə inanan insan üçün dünya yaxşı və pis ruhların mübarizəsindən ibarət idi. Bu mübarizə şəraitində ilk insanlar özlərini pis ruhlardan qorumaq üçün yaxşı ruhlarla əlaqə yaratmalı olmuşdular. İlk insanlar üçün onlara köməklik göstərəcək, güvəndikləri yaxşı ruhlar qismində daha çox əcdadların (atalar) ruhları çıxış edirdi. Bu əlaqənin xarakteri onun ilkin dönəmlərdə ayrıca fərdlər tərəfindən yox, hər kəs tərəfindən aparıldığını ortaya qoyur. Lakin zaman keçdikcə insan pis ruhların təsirindən təkbaşına xilas olmağı bacarmadığında daha güclü enerjiyə malik olan birindən, hansı ki, bu daha çox ailə başçısı olurdu (atanın ruhu ilə əlaqə yaratmaq üçün anadan istifadə), yardım almağa, onun vasitəsi və əlaqəsi ilə ruhlarla əlaqə yaratmağa başladı. Bununla da ailə şamanizmi formalaşmış oldu. Yalnız sonrakı dönəmlərdə xüsusi istedad və bacarığa malik olan insanlar müəyyən təlimlərdən keçdikdən sonra şaman olmağa haqq qazanmış olurdular. (Nioradze, 1925: s. 46)

Burada Nioradzenin araşdırması daha çox lokal xarakterə malik olub, şamanizmin meydana gəlməsini fərdi və daha sonra da ailə şamanizminin formalaşması ilə izah etməyə çalışırdı. Digər bir müəllif olan Olhmarks isə şamanizmin formalaşmasına fərqli formada yanaşır, onun etnik və psixi xüsusiyyətlərini daha çox üzə çıxarmağa çalışmışdır. Olhmarks-a görə, şamanizmin ilkin formalaşma mərhələsi birbaşa olaraq ilkin şamanist insanların yaşadıqları təbiət şərtləri ilə sıx bağlı idi. Şimal qütbü və ona yaxın ərazilərdə yaşayan insanların təbii şəraitin təsiri ilə bir sıra psixi xəstəliklərə tutulduqları məlumdur. Belə ki, bölgədə hakim olan şiddətli soyuqlar, uzun gecələr, sakitlik, yaşayış sahəsinin darlığı, qida azlığı, sinir sisteminin normal fəaliyyəti üçün gərəkli olan vitaminlərin yer aldığı bitkilərin yoxluğu və monoton həyat tərzinin varlığı psixi pozuntu və xəstəliklərin başlıca səsəbləri kimi nəzərdən keçirilir. Bu xəstəliklər arasında xüsusilə fərqlənəni meryak və *menerik* adlı (Troşçanskiy-ə görə yakutlarda rast gəlinən xəstəlik), daha çox qadınların tutulduğu, eynilə şamanlarda olduğu kimi psixi sarsıntılarla müşaiət olunan xəstləlikdir. Şirokogorov da Tunguzlarda şamanlığın əsəbi xəstəlik formasında ortaya çıxdığını qeyd edirdi. Şcukin yakutlatda müşahidə olunan və şaman olmağa namizəd şəxsin sarsıntılar keçirdiyi, özünü oda və ya suya atmaq istəməsi hallarının müşahidə olunduğunu, şamanlığa başlamaqla birlikdə bu halın aradan qalxdığını qeyd edir. (Radloff, 2009: s. 114)

Olhmarks bunu "*arktik isteriya*" adlandırır ki, bu özlüyündə ümumi sinir sistemi xəstəliyini ifadə edir. Olhmarks arktik isteriyanın Şimal xalqları arasında geniş yayıldığını qeyd edir. O, Şimalda yaşayan insanların bu tip sinir pozuntularına qarşı dayanıqlı olduqlarını, lakin sonradan şimal ərazilərinə köçmuş xalqların isə daha şiddətli formada arktik isteriyaya məruz qaldıqlarını ifadə edir.

Ruslar, Finlər və Skandinaviya xalqlarında da arktik isteriyanın elementlərinin rast gəlindiyini qeyd edən Olhmarks cənubdan xalqların müxtəlif mədəni-tarixi səbəblərlə daha şimala doğru meyllənmələri və içərisinə düşdükləri təbii şəraitlə aparmalı odluqları mübarizə zəmininin həmin insanları ruhi baxımdan sarsıtdığını ifadə edir. Bu sarsıntı nəticəsində ortaya çıxan isterik pxisi hallarla birlikdə insanlar qarşılaşdıqları çətinliklərdən çıxış yolu axtarmışlar. Bunun məntiqi nəticəsi kimi, şimalda yaşayan insanların psixi fəaliyyətləri genişlənmiş, bununla da öncəgörmələr və bir sıra xəstəliklərin sağaldılmasına inanmalarına imkan yaratmış, həmin insanların mədəni həyatı üzərində sistemli formada təsirini davam etdirmişdir.

Bu amillər şamanizmin formalaşmasının əsasını təşkil etmişdir. Şamanizm nəticəsində qarşlaşdığı çətinliklər qarşısında heç bir çıxış yolu qalmayan insan şamanın öncəgörmələri və təsəlli verici məsləhətləri, xeyir duası ilə özünə təskinlik verməyə çalışmışdır. Olhmarks bəzi müəlliflərin fikirlərində yer aldığı kimi şamanizmin ilkin çağlarda daha cənubdakı matriarxal mədəniyyətlərdən şimala doğru yayıldığını, eyni zamanda Şirokogorov-un qeyd etdiyi kimi şamanizmin Buddizmin şimal xalqlarına təsirin nəticəsi kimi nəzərdən keçirilməsini qəbul etmir. Olhmarksa görə, əslində irəliləyiş əks istiqamətdə, şimaldan daha cənuba doğru baş vermişdir. Bunu Olhmarks şamanizmə inana xalqlar arasında daha şimalda, şimal qütbünə daha yaxın olan xalqlarda "*böyük şamanlar*" adlandırdığı və şamanın ruhunun bədəndən ayrılaraq ruhlar aləminə getməsinə imkan verən ekstaz halının yaşandığını, onlardan daha cənuba gəldikcə isə, "*kiçik şamanlarda*" bu halın eynilə yaşanmadığını, sadəcə təqlidi xüsusiyyətlər ilə izah olunduğunu qeyd edir. (Olhmarks, 1939: s. 5) Olhmarksın fikirləri bizim yuxarıda nəzərdən keçirdiyimiz ibtidai və Bozkır şamanizmi bölgüsünə mühüm örnək kimi qəbul edilə bilər. Olhmarks eyni zamanda şamanizmin bölgənin digər oturaq mədəniyyətlərinə təsirlərini, xüsusilə də İndo-Aryan qəbilələrin Hindistana və Ön Asiyaya köçü ilə əlaqədar olaraq ilkin zamanlarda şamanist xalqlarla qarşılıq təsirlərini və onlarının mədəni xüsusiyyətlərindən bəhrələnmələrini qeyd edir. (Olhmarks, 1939: s. 161)

Zelenin şamanizmin meydana çıxmasını ilkin insanların xəstəliklərlə bağlı təcrübələri ilə açıqlamağa çalışırdı. Onun fikrincə ilkin insanlar xəstəlik zamanı insanın içərisinə heyvani ruhların daxil olduğuna inanır, bu baxımdan şamanın da həmin ruhları xəstə insanın bədənindən uzaqlaşdırdığını, daha sonra da onları idarə etdiyini qeyd edir. Şamanizmdə nəzərdən keçirilən köməkçi ruhların varlığı da burda ortaya çıxır. Şaman köməkçi ruhları idarə edən biridir. (Perrin, 2001: s. 22) Mircea Elaide hər nə qədər şamanizmin formalaşması və inkişafında oturaq mədəniyyətlərin rolunun olduğunu qeyd etsə də, özlüyündə şamanizmin sadəcə bundan ibarət olmadığını, həm də bizim nəzərdən keçirdiyimiz ilkin şamanizmdə olduğu kimi Orta Asiya şamanlığının Şibir ovçu qəbilələrinin tarix öncəsi mədəniyyətlərinin ayrılmaz parçası olduğunu qeyd edir. Digər tərəfdən də şamanizm elementlərinə Amerika və Avstraliya başda olmaqla bir sıra ərazilərdə də rast gəlinmiş olmasını heç də birbaşa Buddizm və cənub mədəniyyətlərin təsiri ilə izah oluna bilməyəcəyini qeyd edir. (Elaide, 1999: s. 547)

Şamanizmin xarakterik yayılma areallarının səciyyəvi cəhəti nəzərdən keçirilən ərazilərin soyuq iqlimi ilə əlaqədar olması, sosial-iqtisadi baxımdan da köçəri ovçu toplumlar arasında yayılmış olmasıdır. Düşünürəm ki, şamanizm elementlərinin formalaşmasında digər amillər kimi köçərilik faktorunun və soyuq iqlim şəraitinin timsalında təbii şəraitlə aparılan mübarizənin mühüm rolu vardır. Köçəri həyat tərzi təbii olaraq əlverişsiz iqlim şəraiti ilə bağlı olaraq formalaşmışdır. Soyuq Şimali Asiya əraziləri oturaqlıq üçün yararsız olduğu üçün ilkin insanları ovçuluğa dolayısı ilə də köçəriliyi məcbur etmişdir. Məhz köçəriliyin yaratmış olduğu sosial-mədəni amillər ilkin ovçuların dini görüşlərində də özünəməxsus təsir göstərmişdir. Olhmarks şimal mədəniyyətlərində daha fərqli coğrafiyalardakı kimi idarəetmə sisteminin, daha doğrusu qəbilə başçısı anlayışının olmadığını qeyd edir. (Buluç, 1971) Bu bir tərəfdən şamanın qəbilə daxili rolunun önəmi baxımından, digər tərəfdən də çox güman ki, Şimali Asiya ovçu qəbilələrində uzun müddət davam edən matriarxal düşüncə tərzinin nəticəsi olara bu formanı almışdı.

İstifadə olunmuş ədəbiyyat

1. Barthold, V. (2004). Orta Asya dersleri, çev. Hüseynin Dağ, Ankara: Çağlar yayınları. – 223 s.
2. Buluç, S. (1971). Şamanizm // İslam Ansiklopedisi I-XIII, 1940-1988, Cild 11, İstanbul. – s. 310-335
3. Drury, N. (1996). Şamanizm, çev. Erkan Şimşek, İstanbul: Okyanus yayınları. - 184 s.
4. Elaide, M. (1999). Şamanizm, çev. İsmet Birkan, İstanbul: İmge yayınları. – 628 s.
5. Gökalp, Z. (1976). Türk töresi, Ankara: Kültür Bakanlığı Yayınları. – 141 s.
6. Heyət, C. (1993). Türklərin tarixi və mədəniyyətinə baxış (İslamdan əvvəl və İslam dövrü), başlanğıcdan XVI sərə qədər, Bakı: Azərnəşr. – 184 s.
7. Hoppal, M. (2012). Şamanizm ve semboler, çev. Fatih Sel, İstanbul: Yapı Kredi Yayınları. – 140 s.
8. İnan, A. (1986). Tarihte ve bu gün şamanizm, makaleler ve araştırmalar, Ankara: Türk Tarih Kurumu Yayınları. – 228 s.
9. Kafesoğlu, İ. (1998). Türk Milli kültürü, İstanbul: Ötüken yayınları, - 454 s.
10. Nioradze, G. (1925). Der Schamaismus bei den sibirischen Völkern, Stuttgart: Strecker und Schröder. – 121 p.
11. Ohlmarks, A. (1939). Studien zum Problem des Schamanismus, Lund: C.W.K. Gleerup. – 395 p.
12. Perrin, M. (2001). Şamanizm, çev. Bülent Arıbaş, İstanbul: İletişim yayınları. – 144 s.
13. Radloff, W. (2009). Türkler ve Şamanlık (Aus Sibirien), çev. A.Temir, İstanbul: Örgün yayınları. – 480 s.
14. Roux, J.P. (1994). Türklerin ve Moğolların eski dini, çev. Aykut Kazancıgil, İstanbul: İşaret yayınları. – 304 s.
15. Shmidt, W. (1952). Der Ursprung der Gottesidee: eine historisch-kritische und positive Studie. III. Teil, Die Religionen der Hirtenvolker, Munster in Westfalen: Aschendorffsche Verlagsbuchhandlung. – 864 p.

UOT: 1(091).

THE CONCEPT OF OBJECTİVE TİME İN THE HİSTORY OF PHİLOSOPHY

Ilaha Haxverdiyeva
Master
Baku Eurasia University, Azerbaijan
ilahehaqverdiyeva111@gmail.com
Orcid id: 0000-0001-6051-6998

Abstract. Time is an objective category, and philosophy is primarily interested in the objective study of this category. Since time is difficult to comprehend, it has formed a special view in people's minds. In this sense, the mystery of the concept of time and the interest in its study dates back to ancient times. Despite the fact that a number of philosophers are interested in the concept of time as a philosophical category and give different definitions of time, the attitude to the concept of time as a philosophical category is still unequivocally resolved. It is known that the basic forms of every being are time and space. In this sense, the study of the concept of time is still relevant in modern linguistics. The article discusses the views of philosophers on the concept of time, its position in philosophy, and the concept of time is considered in a more modern context as a philosophical category.

Keywords: objective time, philosophical time, concept, linguistic time

FƏLSƏFƏ TARİXİNDƏ OBYEKTİV ZAMAN ANLAYIŞI

Haxverdiyeva İlahə İltizam qızı
Magistr
Bakı Avrasiya Universiteti, Azərbaycan

Xülasə. Zaman obyektiv bir kateqoriyadır və fəlsəfə ilk növbədə bu kateqoriyanın obyektiv öyrənilməsində maraqlıdır. Zamanı anlamaq çətin olduğundan insanların şüurunda xüsusi bir baxış formalaşdırmışdır. Bu mənada zaman anlayışının sirri və onun öyrənilməsinə olan maraq qədim zamanlardan başlayır. Bir sıra filosofların fəlsəfi kateqoriya kimi zaman anlayışı ilə maraqlanmalarına və zamanın fərqli tərifləri verməsinə baxmayaraq, fəlsəfi kateqoriya kimi zaman anlayışına münasibət hələ də birmənalı şəkildə həll olunur. Məlumdur ki, hər varlığın əsas formaları zaman və məkandır. Bu mənada zaman anlayışının öyrənilməsi müasir dilçilikdə hələ də aktualdır. Məqalədə filosofların zaman anlayışı, fəlsəfədəki mövqeyi barədə fikirlərindən bəhs olunur və zaman anlayışı fəlsəfi bir kateqoriya kimi daha müasir bir kontekstdə nəzərdən keçirilir.

Açar sözlər: obyektiv zaman, fəlsəfi zaman, anlayış, linqvistik zaman

Giriş. Zaman anlayışı dilçiliklə yanaşı həm də fəlsəfi bir proeblemdir. Çünki zaman obyektiv bir kateqoriyadır və onun tədqiqi ilə ilk növbədə fəlsəfə maraqlanır. Fəlsəfi kateqoriya olaraq zamanla tarix boyu bir sıra filosoflar maraqlanmış və zamana müxtəlif tərifl ər vermişlər.

İnsan özünü dərk etməyə başladığı gündən zaman problemi insanı narahat etməyə başlamışdır. Qədim dövrlərdə belə zamana dəqiq tərif verən olmadığından hələ də bu mövzu öz mistikliyini qoruyub saxlamışdır. Fəlsəfə sahəsində bir çox mütəfəkkirlər zamana ya fərdi yanaşmış, ya da başqa mütəfəkkirlərin düşüncələrinə yönəlmiş və ya zamanın bilinməzliyinə dair fikirlər söyləmişlər.

Ensklopedik fəlsəfə lüğətində zamana belə tərif verilir: “Zaman [alm. Zeit; fr. Temps; ing. Time; lat. Tempus; yun. Khronos; ər. صيًا – [fəlsəfə termini olaraq zaman olub, keçən, dəyişmə və müddətlilik forması. Ərəbcədən gəlmədir. Kök hərfləri zəmənə]صي[dir. Zəmanə sözü də buradan qaynaqlanır. Zəmanə sözü zaman sözünün qadın cinsindəki halıdır. Qayıdışı olmayan bir istiqamətdə bir-biri ardından getmə (Nəzərova, 2014: s.215).

Zaman sürüb gedən doğru bir xətt olaraq düşünülə bilər. Obyektiv zaman ölçülə bilən, amma öz-özünə deyil, cisimlərin dəyişkənliyi ilə ölçülə bilər. Zaman anlayışının ən erkən nəzəri problemləşdirilməsi Antik dövrdə aparılır. Zaman paradoksu haqqında ilk fikirlər Elea Zenonuna aiddir. Bu mütəfəkkir qədim dövrlərdən zaman kosmosun həyatı ilə əlaqəli olduğunu düşünürdü.

Görkəmli filosof Aristotel zamanın yalnız şüur içində olduğunu və ya əksinə, yalnız şüur xaricində olduğunu və müstəqil olduğunu söyləsə, daha aydın olar. Bu vaxt Aristotel nə birini, nə də digərini demir. Məlum olur ki, onun həm şüur məhsulu, həm də şüurdan asılı olaraq mövcud olan bir hərəkət mülkü var. Zaman nə reallıq, nə də potensialdır, lakin hər ikisinə aiddir. Aristotel onu hər hansı bir kateqoriyaya daxil edə bilmir. Onu aydın başa düşmək və onun haqqında dəqiq bir fikir söyləmək də uğursuzdur (Nordlund, 2015: s.18).

Zaman haqqında fəlsəfi təlimlərdə, dəyər yönümlərinə uyğun olaraq, bu üç təzahürün fərqli çəkiləri var: məsələn, keçmiş və ya gələcək göz önünə gəlir, indiki isə kölgədə qalır. Bir çox filosoflar isə iddia edirlər ki, indiki zaman, ümumiyyətlə, mövcud deyidir.

Zaman anlayışı hadisələrin müddəti və ardıcıllığını ifadə edir. Deyə bilərik ki, vaxt bütün başlanğıclardan və ya bütün dövrlərdən ibarətdir. Zaman anlayışı hadisələrin müddəti və ardıcıllığını ifadə edir və dəyişikliklə ayrılmaz şəkildə bağlıdır, onsuz, yəni proseslərsiz, vaxt yoxdur. Zaman tam olaraq baş verən proseslərdən asılıdır. Zaman keçmişin, bu günün, gələcəyin vəhdətidir və ilk növbədə müddəti, cariliyi və aydınlığı ilə xarakterizə olunur.

Müddətlilik dedikdə o nəzərdə tutulur ki, vaxt ötür - bu, indinin mövcud olduğunu göstərir. "Keçmiş", "indiki", "gələcək" anlayışlarının mənası bununla tənzimlənir.

Carilik dedikdə isə fəlsəfədə o nəzərdə tutulur ki, hazırkı proseslərdə dəyişikliklər baş verir, deməli zaman axır. Beləliklə, zamanın carilik prinsipi təsdiqlənir.

Açıqlıq isə o deməkdir ki, zaman gələcəyə axır və hadisələr keçmişə dönür. Artıq gerçəkləşən və indiki hadisələrlə dolu keçmişdən fərqli olaraq, gələcək bunlarla dolmur və yaradılış üçün açıqdır. Zamanın bu xassəsinə isə açıqlıq deyilir (Потапова, 2009).

Özündən sonra gələn filosofların böyük əksəriyyəti Aristotelin yaratdığı obyektiv zaman anlayışını qəbul etdilər. Digər tərəfdən, bu dövr ərzində obyektiv zaman anlayışına qarşı hazırlanmış zaman anlayışları da mövcud idi. Bunların içərisində ən önəmlisi Avqustinin "subyektiv zaman" anlayışıdır. Avqustin zamanın hərəkətə bağlı olduğunu rədd edərək, heç bir hərəkətin olmadığı bir vəziyyətdə belə, beynimizin zamanın varlığını qoruyacağını söyləmişdir. Fiziki hadisələr ilə heç bir şəkildə varlığı isbat edilə bilməyən zaman qavramı idrak etmə, xatırlama və gözlənti şəklində insan zehnində yer tutmaqdadır. Bu konsepsiyada Avqustinin fiziki zamanın gerçək olmadığını, gerçək olanın isə fiziki hadisələrin zehnimizdə qoyduğu təəssürat olan subyektiv zaman olduğu qənaətinə gəlmişdir.

"Keçmişi və gələcəyi indiki zamana aid etmə Avqustinin fəlsəfəsində İlahi mütləqiyyətidir. O, Tanrının əbədi, maddi dünya isə müvəqqəti və məhvə məhkum oldugu qənaətində idi" (Bünyadzadə, 2009: s. 28). Avqustinə görə, keçmişin və gələcəyin həqiqi varlığı yoxdur, yalnız əbədi indiki mövcuddur. Ancaq keçmiş və gələcək dövrlər həqiqətən mövcuddur, buna görə Avqustin keçmişin və gələcəyin yalnız indiki kimi başa düşülə biləcəyini bəyan edir. Ondan insan yaddaşını düşünmək üçün yeni və qədim fəlsəfəyə xas olmayan - zamanın dərk edilməsi üçün ilk və ən əsas cəhd tapırıq (Bas.C.Van. Fraassen, 1985). Yunan filosofları vaxtı kosmik həyatın prizmasından və hər şeydən əvvəl, göy cisimlərinin hərəkəti ilə əlaqəli hesab edirdilərsə, Avqustin zamanın insan ruhunun özünə məxsus olduğunu sübut edir. Filosofun fikrincə, ümumiyyətlə, kosmos və onun hərəkəti olmasaydı, ancaq ruh qalsaydı belə , deməli, vaxt olacaqdı (Turner, 2007: s. 12). Avqustinə görə, zamanın mümkünlüyü üç fərqli münasibət ilə görə bilərik: gözləmə, istək, ümid - gələcəyə; diqqət, baxış -, bu günə; düşünülmüş düşüncə və yaddaş- keçmişə yönəlmişdir (Bas.C.Van. Fraassen, 1985).

Avqustinin nəzəriyyəsi ilə müqayisədə Kantın vaxt nəzəriyyəsi daha subyektivdir. Kant zaman problemini şüurla əlaqəli hesab edirdi Kant baxımından, vaxt yoxdur və ola da bilməz; yəni öz-özlüyündə vaxt yarana bilməz. Daha dəqiq vaxt hər şeydən əvvəl asılı bir şeydir və idrak fəaliyyətindən irəli gəlir (Turner, 2007).

Zaman araşdırmasına Kantın yanaşması, şübhəsiz ki, fəlsəfədə yeni bir söz idi və zamanın öyrənilməsində yeni və çox maraqlı bir baxış bucağı, yeni bir araşdırma sahəsi açdı. Kantın bəzi fikirlərinin sonrakı inkişafını Heidegger irsində izləmək olar. M. Heidegger tərəfindən təklif olunan vaxt anlayışı çox mürəkkəbdir. Dilinin mürəkkəbliyi səbəbindən, düşüncələrinin gedişində çətinliklər yaranır. M. Heidegger "zaman anlayışının əsas rolunu" kəşf edir. O yazır ki, nəinki tarix, həm də təbiət "müvəqqətidir". Bu konsepsiyada M. Heideggerin əsas müddəalarından biri, müvəqqəti anlayış - varlıq ilə əlaqələndirərək mahiyyətini anlamağı təklif etməsidir. Mənim fikrimcə, Heidegger zaman paradoksunu ən anlamlı şəkildə şərh edən mütəfəkkirdir. O, varlıq və zamanı bir bütöv kimi anlayır, varlıq olmadan zamanın absurd olduğunu vurğulayır (Heidegger, 1929: s. 86-89).

"Kant və Metafizika problemləri" (1929) əsərində M.Heydegger yenidən keçmişin, bu günün və gələcəyin insanın idrak qabiliyyəti ilə əlaqəsi probleminə qayıdır. Kantın fəlsəfəsinə çox özünəməxsus bir şərh verən M. Heidegger "zamanın üçqat birliyi" haqqında danışır (Heidegger, 1929).

Fəlsəfədə zaman anlayışını təhlil edənlərdən biri olan Nyutonun "mütləq və nisbi zaman" qavramını irəli sürmüşdür. Mütləq və nisbi zamanın tərifinin qısaldılmış formulu belədir: "Mütləq (riyazi) vaxt xarici bir axışa heç bir əlaqəsi olmadan vahiddir. Nisbi (dünyəvi) vaxt, hisslər tərəfindən hər hansı bir hərəkət yolu ilə qavranılan bir müddətdir" (http://metafizikajurnali.az/yukle/files/Vol.1-8%281%29.pdf).

Nyutonun nisbi vaxtı zamanla ölçülür, Mütləq vaxt isə abstraksiya istifadə edərək nisbi zamandan əldə edilən xüsusiyyətləri olan riyazi modeldir. Ümumiyyətlə zaman, məkan və hərəkət haqqında danışan Nyuton daim hisslərimizin dərk edildiyini və bununla da adi (nisbi) olduqlarını vurğulayır (http://metafizikajurnali.az/yukle/files/Vol.1-8%281%29.pdf).

20-ci əsrin əvvəllərində fransız filosofu A. Bergsonun təlimləri Avropada populyarlıq qazandı. Tanınmış fransız filosofu Henri Bergson, vaxtın ağıldan asılı olduğu fikrini

dəstəkləyənlərdən biridir. Bergsona görə real vaxtı riyazi olaraq analiz etmək olmur. Vaxtı ölçmək üçün hər hansı bir fəaliyyət vaxtında fasilə və ya pozğunluq yaratmaq deməkdir. A. Bergson yazırdı: “Zaman intervalını yalnız bizim üçün var və qarşılıqlı təsirlə birgə mövcuddur şüur altimiza nüfuz edir , bizdən kənərda mövcud ola bilməz" (Новиков, 2013: s. 22). Bergson görə, yalnız intuisiya mümkündür: zamanın xüsusiyyətlərini dönməz bir insan həyatına daxil edilmiş ayrılmaz bir axın kimi mənimsəməyə, dəqiq bir müddət kimi başa düşməyə imkan verir. Bergson xüsusilə maraqlandı və o, itirilmiş vaxtı yenidən canlandırmaq və gələcəyi düşünmək üçün yaddaş kimi şüurun bu kimi mexanizmlərini dərindən araşdırdı. A. Bergson dövrünün başa düşülməsi dövrümüzün bütün fəlsəfi düşüncəsinə xeyli təsir göstərmişdir.

Bu sənəddə zamanın əsas nəzəriyyələri nəzərdən keçirilir (Aristotel, Augustine, Kant, Heidegger, Bergson). Artıq qeyd edildiyi kimi, heç bir filosof düşüncələrində zaman anlayışı ətrafında getməmişdir. Buna görə də zaman nəzəriyyəsi haqqında çox uzun müddət danışmaq olar.

Hesab olunan nəzəriyyələr, şübhəsiz ki, bəşəriyyətin zamanla bağlı düşüncəsini tam şəkildə göstərmir, lakin şübhəsiz ki, onun formalaşmasına və inkişafına böyük təsir göstərmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Bas.C.Van. Fraassen. (1985). An introduction to the philosophy of time and space. – Random House, Columbia University Press.
2. http://metafizikajurnali.az/yukle/files/Vol.1-8%281%29.pdf
3. Bünyadzadə K. (2009). Gəncliyin fəlsəfəsi. – Bakı: “Nurlar” Nəşruyyat Poliqrafiya Mərkəzi.
4. Heidegger M. (1929). Kant and the Problem of Metaphysics. Volume 3. – Gesamtausgabe.
5. Nəzərova A. (2014). Fəlsəfə terminlərinin izahlı lüğəti. – Bakı: Elm və təhsil.
6. Потапова Т. В. (2009). ДИАХРОНИЯ КАТЕГОРИИ ВРЕМЕНИ ГЛАГОЛА (НА МАТЕРИАЛЕ РУССКОГО ЯЗЫКА И ЯЗЫКОВ РАЗНЫХ СИСТЕМ). // Диссертация на соиск.уч.спепени канд.филологических наук. – Ростов-на-Дону. – 204 с.
7. Nordlund T. (2015). The Physics of Augustine: The Matter of Time, Change and an Unchanging God. – University of Alabama at Birmingham. 17 March.
8. Turner W. (2007). Zeno of Elea: Where Space, Time, Physics, and Philosophy Converge. Fall.
9. Новиков Ю.Ю. (2013). КОНЦЕПЦИЯ ВРЕМЕНИ В ФИЛОСОФИИ А. БЕРГСОНА // Метафизика. № 5 (7) // https:// elib. spbstu.ru/dl/2560.pdf/download

CULTUROLOGY / KULTUROLOGİYA

THE MENTAL ASPECT OF VASİF ALLAHVERDIYEV'S CREATIVE WORK

Afaq Zamanova
Senior Lecturer
Nakhcivan State University, Azerbaijan
Zamanova.afaq@bk.ru
Orcid id: 0000-0003-1369-5385

Abstract. The article refers to the works of composer Vasif Allahverdiev. Symphony dedicated to the great Heydar Aliyev, Turkish folk songs on the high hills that in Turkey, Azerbaijan, the girls sing at weddings.
Key words: Composer,genre variations, Turkish folk, symphony, symphony poem, lyrical drama plot

VASIF ALLAHVERDIYEVIN ƏSƏRLƏRININ DÜŞÜNDÜRÜCÜ CƏHƏTLƏRI

Zamanova Afaq Xəlil qızı
baş müəllim
Naxçıvan Dövlət Universiteti, Azərbaycan

Xülasə. Məqalədə bəstəkar Vasif Allahverdiyevin əsərlərindən bəhs edilir. Dahi Atatürkə həsr olunmuş simfoniya, Ulu öndər Heydər Əliyevə həsr olunmuş "Ömür yolu" simfonik poeması, türk xalq mahnısı "Yüksək – yüksək təpələrə" hansını ki Türkiyədə və Azərbaycanda keçiri – lən toy mərasimlərində qızlar oxuyurlar. Vasif Allahverdiyevin "O yollar" əsəri də çox düşündürücüdür, insan sanki keçmiş xatirələrə dalır, arzularını xatırlayır.
Açar sözlər: Bəstəkar,variasiya janrı, türk xalq mahnısı, simfoniya, simfonik poema, lirik dramatik məzmun.

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Azərbaycan Milli Konservatoriyasının " Dirijorluq" kafedrasının professoru, bəstəkar Allahverdiyev Vasif Kərim oğlu öz sözünü demiş bəstəkardır. Vasif Allahverdiyev əsli Azərbaycanın gözəl guşəsi olan Naxçıvan şəhərindən olsada hal hazırda Bakıda yaşayıb öz valehedici əsərlərini ərsəyə gətirir.

Bəstəkar kimi fəaliyyət göstərən Vasif müəllim bir sıra əsərlərin müəllifidir: "Atatürkə həsr olunmuş 3 hissəli simfoniya (1995), "Heydər Əliyev"ə həsr olunmuş "Ömür yolu" simfonik poeması (1996); Fortepiano üçün sonatina (1997) və prelüdlər (1998) Solo tar üçün "Qarabağ balladası (1998), "Xor və simfonik orkestr üçün "Yüksək – yüksək təpələrə" türküsü (odası) Simli orkestr üçün musiqi "O yollar" "Azərbaycanım", "Hara gedirsən" ? "Bəlkə görüşdük", "Gözləyəcəm səni", səs və kamera orkestri üçün "Muğamsayağı", "Qəmli hekayə" "Sənsizlik Elegiyası", xalq çalğı alətləri orkestri üçün "Qarabağ" balladası "və digər yeni – yeni əsərləri hələ bəstələnəcəkdir.

Vasif Allahverdiyev 1992 – ci ildə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (İndiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq ixtisası üzrə bəstəkar İsmayıl Hacıbəyovun sinfini, 1994 – cü ildə isə tar ixtisası üzrə Afət Novruzovun sinfini bitirmişdir.

V. Allahverdiyev türk xalq mahnısı " Yüksək – yüksək" təpələrə xor və simfonik orkestr üçün çox gözəl işləmişdir (2001).

Bəstəkarın "O yollar" əsəri də diqqətə layiq əsərlərdəndir

Hanı mənə baxan yollar? Ürəyimi yaxan yollar
Qəmli – qəmli axan yollar. O yollarda gözüm qaldı, külə dönmüş közüm qaldı
Ey ömrümə yağan yollar, zülmətləri verən yollar.

Həsrətinə yağan yollar, həsrətdən yorulan yollar
O yollarda gözüm qaldı, külə dönmüş közüm qaldı
Yada düşər ötən yollar, taleyimdən itən yollar.
Xəyallara köçən yollar, o yollarda gözüm qaldı külə dönmüş közüm qaldı.
Ey ömrümə yağan yollar, zülmətləri yağan yollar
Həsrətinə yağan yollar, həsrətdən yorulan yollar
O yollarda gözüm qaldı, külə dönmüş közüm qaldı. Hanı mənə baxan yollar ?!.

Vasif Allahverdiyevi musiqi aləminə həvəsləndirən virtuoz tarzən və gözəl muğam bilicisi dayısı Tağı Tağıyev olmuşdur. Gənc ikən dayısının təşəbbüsü ilə dahi bəstəkar və dirijor Niyazi ilə görüşləri zamanı "Gənclik süitası" (1980) silsiləsini dinlədikdən sonra Niyazi V. Allahverdiyevin yaradıcılığı haqqında bir çox dəyərli məsləhətlər verərək öz müsbət rəyini bildirmişdir. Sonrakı yaradıcı – lıq illərində Vasif müəllim həmin süita üzərində bir çox redaktə işləri apararaq əsəri qızı Türkan Allahverdiyevaya həsr edir. Gənclik süitası beş hissədən ibarət olub, məzmun və xarakterinə görə bir – birindən fərqlənir.

Variasiya janrı da Vasif Allahverdiyevi bir bəstəkar kimi nəzər diqqətini cəlb edir. Bu janra müraciət edərək (1989) bəstəkar "Gül açdı" Azərbaycan xalq mahnısının mövzusu əsasında öz variasiyalarını yazır. Buradakı 9 variasiya öz səslənmələrinə görə müxtəliflik təşkil edərək coda ilə tamamlanır. Variasiya yazı ənənəsinin prinsiplərinə uyğun olaraq mövzunun çox sadə musiqi dili ilə seçilməsi V. Allahverdiyevə imkan verir ki, hər variasiyada obraz baxımından müxtəlifliyi seçə bilsin. Mövzu sadə 3 hissəli formadan ibarətdir (a b a1) Moderato tempində ¾ ölçüdə başlayır. Burada kənar hissələr "Şur" orta hissə "Sarənc" intonasiyaları üzərində qurulmuşdur. Faktura etibarı ilə homofon – harmonik və səsaltı polifonik elementlərdən istifadə əsas cəhət kimi ön plana çıxır. "Yüksək – yüksək təpələrə" Türküsü üslubca mahnıvari, məzmunca lirik bir əsərdir. Türkü səmimi və sadə ahənglərə malikdir. Türk xalq mahnısından götürülən xorun ədəbi orijinalı belədir:

Yüksək – yüksək tepelere ev kurmasınlar.
Ayrı – ayrı memlekete kız vermesinler.
Annesinin bir tanesini hor görmesinler
Uçanda kuşlara malum olsun ben annemi özledim
Hem annemi, hem babamı, ben köyümü özledim
Babamın bir atı olsa, binse de gelse
Annemin yelkeni olsa, açsa da gelse
Kardeşlerim yollarımı bilse de gelse
Uçanda kuşlara malum olsun ben annemi özledim
Hem annemi, hem babamı, ben köyümü özledim

Vasif Allahverdiyevin unison xor və simfonik orkestr üçün yazılmış "Yüksək – yüksək" təpələrə türküsü əsəri mahnının tematizmi üzərində qurulmuş orkestr girişi ilə başlanır. Zərb alətlərinin ritmik formulu ilk xanələrdən özünü büruzə verərək bütün əsər boyu ostinat kimi saxlanılır.

Ayrılıq, həsrət, hicran hissləri mahnının əsas ideyasını təşkil edir. Mahnını oxuyarkən aydın olur ki, poetik mətndə özgə məmləkətə köçən qızın acı iztirabları əks olunur, o öz el – obasından valideynlərindən ayrı düşərək əzab, iztirab çəkir və yanıqlı – yanıqlı bu türkünü oxuyur. Ümidi kəsilmiş qız uçan quşlara müraciət edərək öz həsrətini, arzularını onlara bildirir, sanki onlar o xəbəri onun elinə obasına çatdırsınlar.

Lirika Azərbaycan və türk xalqlarının naturasına xas olan səciyyəvi cəhətdir. Lirika həm musiqili aləmin, həm də milli təfəkkürün tarixən iqtisadi amillərlə şərtlənən xüsusi keyfiyyətidir. Bu mənada lirika güclü milli bədii özünü ifadə, qüvvətli özünü dərk etmə vasitəsi olaraq türksoylu xalqların milli estetikasını əks etdirir.

"Yüksək – yüksək" təpələrə türküsü lirik məzmunlu əsər olaraq bizi əhatə edən gerçəklikdə bir qəlbin çırpıntılarının inikası olsa da, bəlkədə bir neçə və yaxud da daha çox qəlblərin çırpınyılarını əks etdirən bir əsərdir.

"O yollar" əsərinin də sözlərinə diqqət yetirsək görərik ki, qəmginlik var bu sözlərdə. Sanki vətən həsrəti və ya vətən içində doğma yurdun həsrəti canlanır.

Əsər simli alətlərin ifası ilə başlanır və əsər boyu solisti müşayiət edir. Fleytanın (tütəyin) səsi də arada səslənir.

"Atatürkə" həsr olunmuş simfoniyanı dinlədikdə Türk xalq mahnısı "Yüksək – yüksək" təpələrə sədalarını duymuş oluruq. "Simfoniya" sanki həmin türkü üzərində bəstələnmişdir və bu da təbiidir. Əsəri dinləyərkən hər bir elementi duymuş oluruq,əsərin ideyasını sanki drama – turji məzmun təşkil edir. Orkestrin harmonikliyini əsasən alətlərin bir – biri ilə vəhdət təşkil etməsində duymaq mümkündür. Bu əsər mərd cəsur türk xalqının yaşam tərzini, qayda – qanunlarını,qorxmaz və igidliklərini özündə birləşdirir. Vasf Allahverdiyevin həm "Atatürkə" həsr olunmuş simfoniyası, həm də Heydər Əliyevə həsr etdiyi "Ömür yolu" simfonik poeması iki dahi şəxsiyyətin igidliyini, mərdliyini,öz xalqının, öz vətəninin qayğısını çəkən, qorxmaz və cəsur olmalarını özündə tərənnüm edir. Simfoniya yunan sözüdür mənası ahəngdar həm saz həm avaz deməkdir. Simfoniya orkestr üçün yazılmış bir – birindən sürət və ahənginə görə fərqlənən, adətən 3 – 4 hissəli böyük musiqi əsəridir. Mustafa Kamal Atatürk (19 Mayıs 1881, Selanik 10 Kasım 1938, İstanbul) Türk Qurtuluş Savaşının əsgəri və siyasi lideri idi. Türkiye Cumhuriyyetinin qurucusu və 1923 – 1938 dek (15 il) İlk Cumhurbaşkanı, Türk Ordusu Marşalı ve daha əvvəllər bir Osmanlı padşahı idi.

Müasir mənada sonata silsiləsi formasında yazılmış orkestr üçün əsərdir. Simfoniya XVIII əsrdə Avropa ölkələrində instrumental musiqinin təkamülü nəticəsində meydana gəlmişdir.

Simfoniya adətən dörd hissədən ibarət olur:

I hissə - dramatik xarakterli, sonata formasında olur.

II hissə - (şərti olaraq andante adlandırılır) ağır templi, lirik xarakterlidir, üç hissəli formada sonata və ya variasiya formasında yazılır

III hissə menuet və ya skerso olur – cəld templi, dəqiq ritmli, rəqs xarakterli musiqi məzmununa malikdir, üçhissəli (təzadlı orta bölmə trio formasındadır)

IV hissə final coşğun bayram əhval ruhiyyəlidir, rondo, variasiya və ya sonata formasında olur. Bəzi bəstəkarların yaradıcılığında beş, altı və yeddi hissəli simfoniyaya, bəzən bir hissəli simfoniyaya rast gəlinir. Simfoniya bəstələmiş bəstəkarlardan H. Berlioz " Fantastik" simfoniya (5 hissəli), L. V. Bethoven 3 simfoniya (4 hissəli), L. V. Bethoven Simfoniya 5 (4 hissəli), L. V. Bethoven simfoniya 6 (5 hissəli), A. Borodin "Bahadır" simfoniyası (4 hissəli), Y. Brams " Simfoniya № 4 " e – moll (4 hissəli)

Vasif Allahverdiyevin dahi Heydər Əliyevə həsr etdiyi " Ömür yolu "simfonik poeması da möhtəşəm bir əsərdir. Əsərdə M. Maqomayevin "Azərbaycan əsərinin elementləri eşidilir. Bəstəkarın bu əsərini dinləyərkən sanki Heydər Əliyevin fəaliyyət illəri, onun həyat yolunun necə çətin məqamlardan keçdiyi və Azərbaycanın illər ərzində necə ağır günləri gözlərimiz önündə canlanır. Əsərin ideya məzmununu da elə məhz bu mərhələləri izləyərkən görmək mümkündür . Harmonik cəhətdən alətlərin səslənməsinin uyğunluğunu duymaq mümkündür. Əsərdə dramaturji elementləri orkestrin dili ilə duymaq olur, sanki bir döyüş səhnəsidir və uzun bir mübarizədən sonra zəfər qələbə çalır.

Simfonik poema lirik və ya dramatik məzmunlu, rəvayət xarakterli birhissəli proqramlı simfonik əsərdir. Adətən sərbəst formada qurulur. Simfonik poema bəstələmiş bəstəkarlardan: C. Hacıyevin "Sülh uğrunda" simfonik poeması, Xəyyam Mirzəzadənin "Konserto qrosso simfonik poeması " Metamorfozlar", "Q. Qarayevin" Leyli və Məcnun" simfonik poeması (2 hissəlidir) F.List "Prelüdlər" simfonik poeması, Q. Sviridovun Sergey Yesenin" simfonik poemasını qeyd etmək olar.

İstifadə edilmiş ədəbiyyat

1. Vasif Allahverdiyev (2001). "Yüksək – yüksək təpələrə" xor və simfonik orkestr üçün türküsü (Əlyazma)
2. Babayeva A.R. "Vasif Allahverdiyevin xor və simfonik orkestr üçün Yüksək – yüksək təpələrə türküsü (odası) // Kültür Evreni

UOT: 008
791.43

FORMS OF ORGANIZATION OF FAMILY AND MARRIAGE RELATIONS IN A HISTORICAL CONTEXT

İlaha Sadıkhova
PhD student
Azerbaijan State University of Culture and Art
kreteida@mail.ru
Orcid id: 0000-0001-9386-8340

Abstract. The history of human development shows that no society could survive without a family. Even if it existed in its most primitive form. So far, the family is a unique and only educational social institution where people act as carriers of social, cultural and ethical information. Nowadays, scientists pay great attention to the problems associated with the state of the family. There are, of course, a number of reasons for this. First, the transformation of the family is becoming more widespread, which is perceived as the perception of the content of all changes and their causes. Secondly, the most important factor influencing all processes, both socio-economic and family, is globalization. This implies an objective approach to family values influenced by globalization.

Considering the family as a sociological structure, the meaning of which changes over time, scholars use either an institutional or a group approach. Having historically formed as a group, the family acquired a socially generalized character and became a social institution with the formation of civilization. Therefore, when studying family and marriage relations, it is very important to look at the historical stages in the development of these ideas, the forms of marriage that existed among different peoples and at different times. This article addresses the issues listed above.

Key words: family, marriage, society, family evolution, forms of marriage, organization of marriage, forms of family

AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİNİN TƏŞKİLİ FORMALARI TARİXİ KONTEKSTDƏ

Sadıqova İlahə Artur qızı
Dissertant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan

Xülasə: Bəşəriyyətin inkişaf tarixi göstərir ki, hələ heç bir toplum ailə olmadan mövcudluğunu sürdürə bilməmişdir. Hətta bu, ən primitiv şəkildə mövcud olmuş olsa belə. Hələlik ailə təkrarsız və yeganə tərbiyəverici sosial institutdur ki, burada insanlar sosial, mədəni və etik informasiyaların daşıyıcıları kimi çıxış edirlər. Müasir dövrdə alimlər ailə institutunun vəziyyəti ilə əlaqəli problemlərə çox diqqət ayırırlar. Bunun da təbii olaraq bir sıra səbəbləri var. Birincisi, ailə transformasiyası getdikcə geniş vüsət almağa başlayır ki, bu da baş verən bütün dəyişikliklərin məzmununu və onların səbəbinin qavranılması kimi dərk olunur. İkincisi, bütün proseslərə - sosial-iqtisadi və eləcə də ailə faktoruna təsir edən ən vacib amil qloballaşmadır. Bu, qloballaşmanın təsir tendensiyasının ailə dəyərlərinə obyektiv yanaşılmasını nəzərdə tutur.

Ailəni zaman keçdikcə əhəmiyyəti dəyişən sosioloji quruluş kimi nəzərdən keçirərkən, alimlər ya institusional, ya da qruplaşdırılmış yanaşmanı əsas götürürlər. Tarixən qrup kimi yaranmış ailə, sivilizasiya təşəkkül tapdığı vaxt sosial ümumiləşdirilmiş xarakter aldı və sosial instituta çevrildi. Bu səbəbdən, ailə-nikah münasibətlərinin öyrənilməsi zamanı bu anlayışların tarixi inkişaf mərhələlərinə, müxtəlif xalqlarda, müxtəlif zamanlarda mövcud olmuş nikah formalarına nəzər salmaq olduqca vacibdir. Məqalədə sadalanan məsələlər öz əksini tapıb.

Açar sözlər: ailə, nikah, cəmiyyət, ailənin təkamülü, nikahın formaları, nikahın təşkili, ailənin formaları

Hər bir insan üçün ailə sevginin, sədaqətin və güvənin mənbəyidir. Onun təməlində mənəvi əxlaqın və dözümlülüyün əsasları durur. Sağlam və möhkəm ailə istənilən cəmiyyətdə sabitlik və rifahın təminatçısıdır. Həyatımız boyu biz ailənin bir hissəsi oluruq, böyüyürük, ailədən ayrılaraq yeni bir ailə qururuq. Ailədə nəsillər bir-birini əvəz edir, insan dünyaya gəlir, nəsil davam edir. Ailə, onun formaları və funksiyaları bütövlükdə ictimai münasibətlərdən və cəmiyyətin mədəni inkişaf səviyyəsindən asılıdır.

Əgər sosioloqlar ailənin təyinatı ilə bağlı vurğunu qohumluq əlqələri üzərindən qururlarsa, iqtisadçılar təsərrüfat və birgə büdcə, psixoloqlar isə ailə üzvlərinin bir-birləri ilə qarşılıqlı münasibətlərini ailənin funksiyası kimi dəyərləndirirlər.

Qohumluq insanların (ata, ana, övlad, baba, nənə və s.) qan bağına əsaslanan, həmçinin evilik zamanı ortaya çıxan (qanuna görə qohumluq) münasibətdir.

Nikah iki yetkin insanın cəmiyyət tərəfindən qəbul olunmuş cinsi izdivacıdır. Sosial institut kimi isə nikah kişi ilə qadının birgə münasibətlərini qanunla tənzimləyən, eləcə də onların nəsillərini hüquqi cəhətdən tanıyan və müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır.

Ailə müasir cəmiyyətdə yaşayan bir çox insan üçün ən vacib dəyərdir. Ona görə də ailə və nikah münasibətlərinin öyrənilməsi bir çox elm sahələri üçün mühüm vəzifələrdən biridir, çünki insan ilk növbədə ailədə sosiallaşır. Onun ailədə üzləşdiyi hadisələr, hallar və aldığı tərbiyə gələcəkdə cəmiyyətdə hansı yeri tutması və sosiallaşa bilməsinə bağlıdır.

Evlənmək, ailə qurmaq dövrümüzdə o qədər adi bir haldır ki, bəzən insana elə gəlir ki, bu, hər zaman belə olub. Lakin monoqam nikahların yaranma tarixi bir neçə illərə dayanır. Gəlin tarixə qısa bir ekskurs edək və baxaq, ailə və nikah münasibətləri hər zamanmı monoqam formada olub?

Hesab olunur ki, ibtidai insan cəmiyyətində promiskuitet hökmranlıq edib. Promiskuitet nizamsız cinsi əlaqə deməkdir ki, bu zaman kişilərlə qadınlar saysız əks cins nümayəndələri ilə münasibətdə olurdular.

Promiskuitetə qarşı olanlar ailə-nikah münasibətlərinin təkamülünə nəzər salmağa əsas verirdilər. Belə bir fikir var ki, əgər əmlakın və arvadın bu cür ümumiliyi nə vaxtsa mövcud idisə, o zaman bu, Yer kürəsinin yalnız çox kiçik bir hissəsini əhatə edən və çox az sayda olan vəhşilər kimi yaşayan xalqlara mənsub idi. Əgər o vaxtlar arvadların ümumiliyi mövcud olsaydı, hansı kişi özünün olduğuna əmin olmayan uşağın qulluğunu öz özərinə götürərdi? Qadın da öz gücü hesabına övladına qayğı göstərməli olsaydı, onu qida ilə təmin edə bilməyəcəyinə görə o bəşəriyyət də mövcud ola bilməzdi. (Плосс Г, 1995: s.571)

Ümumiyyətlə, nikahın başlanğıcında nikahsızlıq dayanır, yəni aqamiya. Nikahsızlıq özü də bir neçə mərhələdən keçmişdir. Cinsi münasibətdən müvəqqəti kənarlaşdırma dolayı yolla cinsi münasibətləri tənzimləməyə başladı.

Ovçuluğun inkişaf etməsi ilə ibtidai insanlar üçün uzunmüddətli ova çıxmaq adi hala çevrilmişdir. Onlar ovladıqları əti qadınlar və uşaqlar olan məkana (mağaralar, alaçıqlar və s.) gətirirdilər. Adətən ovçular dəstəsinə qadınlar qatılmırdılar, həm psixofizioloji xüsusiyyətlərinə görə, həm də kişilər arasında mübahisələrin yaranmamasına görə. Mübahisələrin aradan qaldırılması zərurəti ova hazırlıq müddətində də kişilərin qadınlardan təcridolunması ilə müahidə olunurdu. Belə ki, onlara ova hazırlıq müddətində də qadınlarla bir dam altında qalmaq, onlarla yanbayan dayanmaq və ya onların bişirdiyi yeməyi yemək, onlara baxmaq, qadınlarla danışmaq qadağan olunurdu. Cinsi qadağaların ləğv olunduğu zamanlarda isə orgiastik bayramlar keçirilirdi. Bu zaman qadınlarla kişilərin saysız-hesabsız cinsəl ünsiyyəti olurdu. (Семенов, 1974: s.119)

İlk insan cəmiyyətinin tamamilə məhv olmasının qarşısını yalnız sabit cütlük münasibətlərinin yaranması xilas edə bilərdi. Bu cür sərbəst münasibətlərdən dolayı qadın kişiləri cəlb edən xüsusiyyətləri itirirdi. Kişiləri cəlb etməyə yönəlmiş siqnallar getdikcə daha fərdi xarakter almağa

bağladı. Bu da insanı heyvanlar aləminin digər nümaəyəndələrindən fərqləndirən bir əlamətin, cinsi cazibənin yüksək seçiciliyinin başlanğıcı idi.

İcmaların əmələ gəlməsi ilə cinsi münasibətlər bir qədər tənzimləndi, lakin bunu nikahın meydana gəlməsi dövrü kimi xarakterizə etmək doğru olmazdı. Cinsi münasibətlər nikahdaxili də, nikahdankənar da mövcuddur, nikah isə özündə cəmiyyət tərəfindən qəbul edilən bir çox öhdəlikləri ehtiva etməlidir. İlk dəfə bu cür öhdəliklər qrup nikahlarının yaranması ilə meydana çıxdı. Qrup nikahlarda iki fərqli qrupun (icmanın) üzvlərinin bir-biri ilə cinsi münasibətdə olmaq hüququ var idi. Qrup üzvlərinin yalnız bir-biri ilə münasibətdə olmaq hüququ var idi. Başqa bir qrupun üzvləri ilə hər hansı bir münasibət qəbul edilmirdi. Qrup nikahlarında ilk növbədə uşaqların və yeniyetmələrin tərbiyə edilməsi, qidalanması üçün hüquq və vəzifələr meydana gəlirdi. Bütün uşaqlar qadınlar olan qrupda olurdular, yalnız bir qədər böyüdükdən sonra oğlan uşaqları kişilər qrupuna keçirdilər. Aparıcı rol qadına aid olmağa başladı, yəni matriarxat (ana xaqanlığı) dövrü. Matriarxat qadının liderliyinə yox, onun çoxfunksionallığına söykənirdi.

Artıq uzun zamandır aydınlaşıb ki, bir çox xalqların ailə hüququnun əsaslarının başlanğıcı anadan gəlir, atadan yox. Qadın və kişi qrupları birgə təsərrüfatı aparmaqla yan-yana yaşayırdılar.

İlkin dövrlərdə nikah anlayışı yox idi, dolayısı ilə ailə də yox idi. Sadəcə qrup birlikləri mövcud idi ki, bunlarda da "kommunal nikah" hakim idi. Kiçik qrupdakı hər bir kişi özünü həmin qrupdakı bütün qadınların ərləri hesab edirdi. Bu nikah formalarında bir kişiyə bağlı olan qadın başqa kişi ilə cinsi əlaqəyə girə bilərdi. İbtidai insanlar arasındakı bu cür cinsi münasibətlərə heterizm deyirlər. Heterizm konsepsiyasının müəllifi sayılan Bahoven qeyd edirdi ki, bütün xalqlar bu mərhələdən keçərək hazırki ailə və nikah anlayışlarına qədər yol qət etmişlər. Bu nikah formalarında hətta qonaqpərvər heterizm anlayışı da mövcud idi ki, bu zaman qadın əri ilə eyni yaş qrupuna, eyni nəslə aid olan qonaqla cinsi əlaqədə ola bilərdi. Daha doğrusu, qonağa ev yiyəsinin arvadı ilə cinsi əlaqədə olmaq hüququ verilirdi. (Бахофен, 2019)

Bəşəriyyətin ibtidai icma dövrü üçün aşağıdakı evlilik və ailə münasibətləri tipik idi: 1) bir qrup qohumdan olan bölünməz ailə, bu tip ailələrdə qadınların konkret müəyyən edilmiş ərləri və uşaqların da ataları olmur, onlar qrupdakı bütün kişilərə aid olurlar; 2) seqmentar ailə: burada ailə başçılarının ayrıca arvadları olur, qardaşların ortaq arvadları, bütün bacıların isə bir neçə ortaq ərləri var; 3) fərdi ailə: burada qadınların ortaqlığı ləğv olunub, hər bir kişi bir və ya bir neçə arvada sahib olur (monoginiya, poliginiya), yaxud bir qadın bir neçə ərə sahib olur (poliandriya).

İbtidai insanlar arasında çoxarvadlılıq və ya çoxərliliyin olması iki səbəblə əlaqələndirilir: 1) Onlarda təkallahlılıq mövcud olmayıb, allahlar panteonu olub; 2) zahidliyin olmaması (İbadət etmək). Poliandriya sevgini inkar etmir, amma sevgi bizim vərdiş etdiyimiz monoqam münasibətlərdə də heç də hər zaman olmur.

Poliandriya, birincisi, matriarxatın qalığı olaraq bir qadının öz zövqünə uyğun özünə ər və ya bir neçə ər seçməsi; ikincisi, bəzi millətlərdə gəlinlər üçün yüksək məbləğdə başlıq pulu istənilirdi, ona görə də valideynlər çox xərcə düşməsinlər deyə, valideynlər bir neçə oğlu üçün bir gəlin almağa məcbur olması; üçüncüsü, nikah yaşına çatan kişilərin sayının nikah yaşına çatan qadınların sayından xeyli çox olması nəticəsində meydana gəlmişdir. (Куприянчик,1998)

Nikahın növbəti təşkili forması monoqam ailədir. Monoqamiya ailənin əsas və ən ali, lakin əsasları hələ də tam aydın olmayan formasıdır. Monoqamiya ailə və nikahın elə bir formasıdır ki, burada kişinin və qadının bir həyat yoldaşı olur və qrup nikahlarından fərqli olaraq, onlar arasındakı izdivac uzunmüddətli, bir çox hallarda ömürlük qurulur və cəmiyyət tərəfindən qəbul edilir. Monoqam nikahlarda ərlə arvad eyni təsərrüfata aid olduqları üçün həm də monolokal sayılırlar. Monoqamiyanın bir neçə formaları var. ***Konkubinat-*** kişilərin və qadınların nikah bağlamadan birgə yaşamasıdır. Konkubinat anlayışı qədim Romada meydana gəlmişdir. İmperiya dövründə konkubinat döyüşçülərin, həmçinin, nikah mümkün olmadığı zaman daimi nikahsız yaşama hallarında, məsələn, senatorların azad olunmuş qul və təhkimli kəndli qadın, hetera, artislərlə kəbinsiz yaşaması şərti olaraq qanuni tanınırdı. Əksər antik müəlliflərin dəlillərinə görə, konkubinat kifayət qədər geniş

yayılmışdır, həm də, nikah bağlamanın belə forması zamanı doğulan uşaqlar müəyyən hüquqlara malik idilər. Məsələn, torpaq varisi ola bilərdilər. Qanuni uşaqlar olmadığı halda, konkubinat nəticəsində doğulan uşaqlara tam hüquqi səlahiyyətə malik varis kimi baxılırdı. *Konsesual nikah*-ölkənin qanunlarına əsasən deyil, qarşılıqlı anlaşmaya və adət-ənənəyə əsasən qurulur. *Birgəyaşayış (vətəndaş nikahı)*-kişi və qadının cəmiyyət tərəfindən qəbul olunmayan, tərəflər arasında heç bir öhdəlik olmayan, münasibətlərə xitam verilərkən cəmiyyətinin iştirakını tələb etməyən cinsi və məişət-təsərrüfat birliyidir.

Beləliklə, monoqam ailəyə gələn yol uzun və olduqca çətin idi. Cinslər arasında münasibətlər daim dəyişikliyə məruz qalırdı. Müasir dövrümüzdə də bu dəyişikliklər baş verir, çünki kişilərlə qadınların cinsi davranışlara olan baxışları dəyişir.

Bütün ölkələrdə urbanizasiyanın səviyyəsi ailənin strukturuna da təsir etməyə başlayıb. Artıq böyük ailələrə çox az rast gəlinir, hətta ailədə uşaqların sayında da ciddi azalmalar hiss olunur. Müasir şəhərlərdə sərbəst tərəf müqabili seçimi kəskin dərəcədə artır, gənclərin nikaha daxil olma yaşları artır, ailə üzvlərinin fərdi yaşayışa meyli artır, ailə və nikah münasibətlərinin alternativ formaları yaranır, nikah dini, milli, sosial-demoqrafik təsirlərdən azad olur, ailədaxili problemlərin həllinin yeni formaları yaranır və s.

Hər bir mədəniyyətin ailənin müəyyən bir normativ modelini və ya bir qrup modelini yaratdığı ilə razılaşmaq olar.

Azərbaycan ailəsi tarixən formalaşmış, qan qohumluğu, qarşılıqlı cavabdehlik və məsuliyyət kimi keyfiyyətləri özündə birləşdirən cəmiyyətin kiçik bir hissəsidir. Azərbaycan ailəsinin təşəkkülü tarixçilərin araşdırmasına görə eneolit dövrünə qədər gedib çıxır. Bu barədə qədim Şumer kitabələrində yazılması da iddia edilir. Bütün türk xalqlarında olduğu kimi, Azərbaycan ailəsinin də iki forması mövcud olmuşdur: böyük və kiçik ailələr. Böyük ailələrə müasir ailələrdən fərqli olaraq təkcə ana, ata, uşaqlar, nənə və babalar deyil, eyni zamanda əmilər, dayılar, xalalar, bibilər və onların övladları da daxildir. Kiçik ailələrə isə ata, ana və övladları daxil idi. Azərbaycan etnoqrafı Q.Qeybullayev Azərbaycanda böyük ailələrin kiçik ailələrə bölünməsi prosesinin V əsrə təsadüf etdiyini və bu prosesin XX əsrin əvvəllərinədək davam etdiyini qeyd edir. (Qeybullayev, 1994: s.88).

Kiçik ailələr də öz növbəsində iki tipə ayrılırdı: sadə və mürəkkəb ailələr. Sadə ailələr təkcə ata, ana və övladlarından, mürəkkəb ailələr isə nənə-baba, ata-ana və övladlarından ibarət olandır. Bu parçalanmalara baxmayaraq, ailənin başçısı yenə də ata hesab olunurdu. Azərbaycan milli adət və ənənəsinə görə ailənin başçısı olan atanın övlad qarşısında 3 başlıca vəzifəsi vardır: onu tərbiyə etmək, təhsil vermək və evləndirmək. Azərbaycan ailəsi varislik ənənəsi ilə inkişaf etdiyinə görə, bu övladların da öz övladları qarşısındakı vəzifəsi kimi nəsildən-nəslə keçərək davam edən bir prosesdir. Ənənəvi türk ailəsindəki adətlərə görə ailənin 3 başlıca funksiyası vardır: təsərrüfat, nəsilartırma və uşaqların tərbiyə olunması. Təsərrüfat işi ilə ailənin bütün üzvləri məşğul olurdu. Ailədə qadının rolu isə yüksək qiymətləndirilirdi. O, nəsilartırma funksiyası ilə yanaşı ocağı qorumaq, uşaqları tərbiyə etmək kimi məsulliyyətli funksiyaları yerinə yetirirdi. Eyni zamanda qadınlar təsərrüfat işlərində də həyat yoldaşları ilə bərabər çalışırdılar. Təbii ki, bu yoxsul və orta imkanlı ailələrə aiddir. Nisbətən imkanlı ailələrdə isə qadınlar fiziki əməklə demək olar ki, məşğul olmurdular. Onların əvəzinə bu işləri kənizlər, nökərlər, dayələr görürdülər. (Azərbaycan etnoqrafiyası, 2007: s.360).

Azərbaycanda da ənənəvi nikah forması təkarvadlılıq (monoqam) olmuşdur. Hətta Azərbaycan ailələrinə məxsus ənənələr və xüsusiyyətlər şifahi və yazılı mədəniyyət abidələrimizdə də öz əksini tapmışdır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında Dirsə xan övladı olmayan arvadını "baxtıma çıxan qadınım" adlandırır və onun üstünə günü gətirmək fikrinə belə düşmür. O, yalnız bütünoğuz bəylərinə qonaqlıq verir, acları doydurur, çılpaqlara paltar verir və borcluların borcunu ödəyir ki,Tanrıya dua edib ona övlad diləsinlər. ("Kitabi-Dədə Qorqud", 2004: s.176-178) "Koroğlu" dastanında qəhrəman Koroğlu və Nigar xanımın övladları olmur. Onlar həyatlarındakı bu boşluğu Eyvaz adlı igidi oğulluğa götürməklə doldurur və monoqam ailəni qoruyub saxlayırlar

(Azərbaycan xalq dastanları, 2005: s.47). Buna baxmayaraq, orta əsrlərdə poliqam nikah formasına da rast gəlinmişdir ki, bu da tədricənazalaraq aradan çıxmışdır.

Azərbaycanda bir nikah forması da mövcud olmuşdur ki, bu da kuzen nikahlar adlanır. Kuzen nikahlar dedikdə əmioğlu ilə əmiqızının və yaxud xalaoğlu ilə xalaqızının nikahları (buna ortokuzen nikahlar deyilir), dayıoğlu ilə bibiqızının və bibiboğlu ilə dayıqızının nikahları (bunlara korsskuzen nikahlar deyilir) nəzərdə tutulur. Son illərə qədər Azərbaycanda bu tip nikahların qurulması davam edir. Bu tip nikahlara hüquqi qaydada qadağa qoyulmasa da, cəmiyyətdə bu cür nikahlara yol verilməməsi üçün bir sıra maarifləndirici işlər aparılır, TV-lərdə, sosial şəbəkələrdə xüsusi verilişlər, sosial çarxlar hazırlanır, geniş elmi məqalələr dərc olunur, kuzen nikahların psixoloji və bioloji cəhətdən mənfi tərəfləri izah olunaraq cəmiyyətə təqdim olunur. Tibbi statistikanın verdiyi məlumata görə bu tip ailələrdə dünyaya gələn uşaqlar bir çox irsi xəstəliklərin daşıyıcısı olur, sonsuzluq halı baş verir, və ya uşaqlar fiziki qüsurlu dünyaya gəlirlər. Bu cür hadisələr də dolayısı ilə bəzən ailələrin dağılması ilə nəticələnir ki, bu da ailə institutuna da zərbə kimi qiymətləndirilə bilər.

Müasir dünyada, eləcə də Azərbaycanda əksər gənclər nuklear ailə modelinə üstünlük verirlər. Bu ailələrdə yaşlı nəslin nümayəndələri - nənə və babalar ilə nəvələrin əlaqələri getdikcə azalmağa başlayır. Ailə təkcə valideyn və övladından ibarət olur (Bəzən sadəcə ər və arvaddan).

Bir çox gənc ailələr ayrı yaşamaq istəyirlər. Müstəqil həyat qurmaq, öz ayaqları üzərində durmaq, istədikləri şəkildə öz ailələrini qurmağa can atdıqları hiss olunur. Bütünlükdə gənc nuklear ailələrin qayəsi özünüifadə, fərdi qabiliyyətlərini nümayiş etdirə bilmək, həyat yoldaşlarının heç də hər zaman yaxşı olmayan şəxsi keyfiyyətlərini üzə çıxarmaq təşkil edir. Nuklear ailələrin xüsusiyyətlərindən biri də budur ki, burada tərəf müqabili sevilir, lakin onun fikirləri çox zaman dəyərləndirilmir. Hətta kiçik davalar belə bu cür ailələrdə çox vaxt təhlükəli olur, xüsusilə də evliliyin ilkin mərhələlərində, tərəflərin bir-birinə uyğunlaşma mərhələsində. Adi bəsit bir ifadədən, mənasız bir jestdən belə boşanmaya qədər yol ala biləcək davalara şahid olmaq olar. İstənilən əhəmiyyətli ictimai hərəkat kimi, ailə institutunun transformasiyası da bir problemi həll edir, digərinə yol açır.

Azərbaycanda bu proses demək olar ki, müstəqillik illərindən sonra, qərbləşmə meyli ilə özünü göstərməyə başladı. Artıq ənənəvi Azərbaycan ailələri, böyük ailələr, öz aktuallığını itirməyə başladı. Övladlar daha çox valideynlərindən ayrı yaşamağa can atırlar. Bu tip ailələrdə uşaqların tərbiyəsinə valideynlərin təsiri də bir o qədər hiss olunmur, əvəzində bu funksiyanı kütləvi informasiya vasitələri,məktəblər,cəmiyyətdə mövcud sosial qruplar və s yerinə yetirir. Bu da təbii ki, nəsillərarası konfliktlərə, mədəniyyətdə varislik prinsipinin pozulmasına gətirib çıxarır.

Unutmaq olmaz ki, cəmiyyət ailənin özəyi üzərində qurulur. Sağlam cəmiyyətə sahiblənə bilmək üçün, ilk növbədə, milli dəyərlərimizə söykənərək sağlam ailə qurmağa çalışmalıyıq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə. (2007). II c. – Bakı:Şərq-Qərb. – 384 s.
2. Azərbaycan xalq dastanları: 5 cilddə.(2005). IV c. – Bakı: Lider Nəşriyyat. – 464 s.
3. Qeybullayev Q.Ə. (1994). Azərbaycanlılarda ailə və nikah. – Bakı: Elm. – 264 s.
4. Kitabi-Dədə Qorqud. (2004). Əsil və sadələşdirilmiş mətnlər. – Bakı: Öndər nəşriyyat. – 376 s.
5. Куприянчик Л. Л. Психология любви. (1998) – Донецк: Сталкер. – 410 с
6. Плосс Г. (1995). Женщина в естествоведении и народоведении. Монография. Том I. Перевод М.Бартельса. –Сыктывкар-Киров: ПЕРЯ-МАА-ГИПП «Вятка». – 640 с.
7. Семенов Ю.И. (1974). Происхождение брака и семьи. –Москва: Издательство «Мысль». – 309 s.
8. Бахофен И.Я. (2019). Материнское право. – М.: Quadrivium. – 352 s.// https://www. gumer.info/ bogoslov_ Buks/Relig/ klass/04. php

SOİL SCİENCE / TORPAQŞÜNASLIQ

UOT: 631.4

PERSPECTIVE DIRECTIONS OF NATURAL RESOURCE POTENTIAL OF THE REGIONS OF THE AZERBAIJANI REPUBLIC RELEASED FROM OCCUPATION

Ilqar Xalilov
PhD, Associate Professor
Azerbaijan State University of Economics, Azerbaijan
xalilov.ilqar@inbox.ru
Orcid id: 0000-0001-7617-9439
Afag Hajıyeva
PhD, Senior Lecturer
Azerbaijan State University of Economics, Azerbaijan
afaq.adiu@mail.ru
Orcid id: 0000-0002-9813-7835

Abstract. The article analyses land resources' current ecological status in the Fizuli, Jabrayil and Zangilan regions, located along the Araz River and occupied by Armenia for up to 30 years. The main types of lands in the territory of administrative districts, their characteristics were characterised, and it was noted that the digging of trenches, fortifications, regular cutting or burning of greenery during the occupation caused severe environmental damage to land resources. As a result, the soil's water-physical properties were disturbed, their compaction increased, and the erosion process intensified. Work is now underway to restore the original condition of the liberated lands. It is proposed to implement a complex of phytomeliorative, reclamation, agro-technical, and engineering measures to eliminate the damage to the regions' land resources.

Keywords: land resources, military erosion, reclamation, phytomelioration, soil fertility, ecological and economic management, degradation.

AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ARAZ ÇAYI BOYU RAYONLARIN TƏBİİ RESURS POTENSİALININ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xəlilov İlqar Bəylər oğlu
Coğrafiya elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan
Hacıyeva Afaq Zakir qızı
Coğrafiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan

Xülasə. Məqalədə Araz çayı boyu yerləşən və 30 ilə qədər bir müddətdə Ermənistan tərəfindən işğal edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının torpaq ehtiyatlarının müasir ekoloji durumu təhlil olunmuşdur. İnzibati rayonların ərazisində yayılmış başlıca torpaq tipləri, onların xarakterik xüsusiyyətləri səciyyələndirilmiş və qeyd edilmişdir ki, işğal müddətində torpaqlarda səngərlərin, istehkamların qazılması, mütamadi olaraq yaşıllıqların kəsilməsi və ya yandırılaraq məhv edilməsi torpaq ehtiyatlarına ciddi ekoloji ziyan vurmuşdur. Nəticədə torpaqların su-fiziki xüsusiyyətləri pozulmuş, onlarda kipləşmə artmış və eroziya prosesi intensivləşmişdir. Hazırda işğaldan azad edilmiş həmin torpaqların ilkin vəziyyətinin bərpa edilməsi istiqamətində işlər aparılır. Rayonların torpaq ehtiyatlarına vurulmuş ziyanın aradan qaldırılması üçün fitomeliorativ, rekultivasiya, aqrotexniki və mühəndis-texniki tədbirlərin kompleks şəkildə həyata keçirilməsi təklif edilmişdir.

Açar sözlər: torpaq ehtiyatları, hərbi eroziya, rekultivasiya, fitomeliorasiya, torpaq məhsuldarlığı, ekoloji-iqtisadi idarəetmə, deqredasiya.

Azərbaycan Respublikası üçün pandemiya və qlobal iqtisadi böhrana baxmayaraq 2020-ci il zəfər ili kimi tarixə düşmüşdür. Azərbaycan 30 ilə yaxın bir müddətdə Ermənistan işğalçıları tərəfindən zəbt edilmiş tarixi ərazilərini azad etmişdir. Həmin ərazilərin bir hissəsi də Araz çayı boyu yerləşən və 3,17 min km^2 sahə tutan Füzuli, Cəbrayıl və Zəngilan inzibati ərazi vahidləridir. Azad edilmiş həmin ərazilər zəngin iqtisadi və təbii resurs potensialına malikdir. Hesablamalara görə Araz boyu ərazilərin potensialını ölkə iqtisadiyyatına inteqrasiya etməklə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin bərpaya çəkdiyi bütün maliyyə xərclərini bir neçə dəfə üstələyəcək. Təbii ki, Ermənistanın təcavüzü nəticəsində uzun illərdir işğal altında olan bu ərazilərdə fəaliyyət göstərən vahid nəqliyyat və rabitə sistemi dağılıb və istifadəyə yararsız vəziyyətə gətirilib. Bu səbəbdən, başlanğıcda gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, qaz, su, elektrik, rabitə) və əsasən mənzil şəraitinin yaradılmasını əhatə etməli və daha sonra iqtisadi inkişaf layihələrinə keçid həyata keçirilməlidir.Araz boyu rayonlarda dinc quruculuq işlərinə başlanıldıqdan sonra, ilk növbədə, ərazidəki torpaqların yeni uçotu aparılmalıdır. Yəni əkin, örüş, biçənək və otlaq sahələrinin konturları müəyyənləşdirilməlidir. Daha sonar məhsuldar torpaqlara malik ərazilərdə kənd təsərrüfatının bərpasını təmin etmək üçün ilk növbədə torpaqların minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsini, yaxşılaşdırılmasını, meliorasiya və irriqasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan elmi əsaslı tədbirlər planı işlənib hazırlanmalıdır.

İşğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının dağlıq hissələrində dəniz səviyyəsindən 600-1200 m hündürlüklər arasında dağ-meşə qonur və dağ-meşə qəhvəyi torpaqlar yayılmışdır. Dağ-meşə qonur torpaqlarda humusun miqdarı 5-8% arasında dəyişilir.Torpaqda udulmuş əsasların cəmi 100 qram torpaqda 28-40 mikro ekvivalent təşkil edir. Torpaqda pH miqdarı 6,0-6,7-dir. Dağ-meşə qonur torpaqları yuyulmuş və meşə altından çıxmış qonur torpaqlara ayrılır.Təəssüflə qeyd etməliyik ki, işğal müddətində qonur torpaqların ekoloji vəziyyəti dəyişilmiş, hərbi eroziyaya məruz qalmışdır.

Qonur torpaqlara nisbətən qəhvəyi dağ-meşə torpaqları mülayim-quru iqlimli ərazidə, düşən yağıntıların miqdarının 400-500 mm olduğu sahələrdə rast gəlinir. Dağ-meşə qəhvəyi torpaqlar əsasən meşələrin seyrək olduğu və kolluqların üstün olduğu sahələrdə yaranırlar.Bu torpaqlarda humusun miqdarı 6-8% arasında dəyişilir. Qəhvəyi torpaqların qranulometrik tərkibində gillər üstünlük təşkil edir.Torpaqda udulmuş əsaslar 100 qram torpaqda 40 mikro ekvivalent olmaqla kalsiumun yüksək konsentrasiyası ilə xarakterizə olunur. Ərazidəki qəhvəyi torpaqların fiziki-kimyəvi xassələri və morfoloji xüsusiyyətlərinə görə onları yuyulmuş, karbonatlı və tipik olmaqla yarımtiplərə ayırırlar. Meşə altında olan qəhvəyi torpaqlar həm də suqoruyucu xüsusiyyəti ilə tanınır. Meşədən azad olmuş sahələrdəki qəhvəyi torpaqların münbitliyi nəzərə alınaraq işğala qədər həmin torpaqlarda taxılçılıq, üzümçülük, meyvəçilik inkişaf etdirilmişdir. Müasir dövrdə də həmin torpaqların ekoloji durumunun yaxşılaşdırılması imkan verəcək ki, yaxın perspektivdə inzibati rayonlarda ənənəvi sahələr yenidən inkişaf etdirilsin.

Füzuli, Cəbrayıl və Zəngilan inzibati rayonlarında dəniz səviyyəsindən 200-600 m hündürlüklərdə, dağətəyi və alçaq dağlıq sahələrdə şabalıdı torpaq tipi yayılmışdır. Şabalıdı torpaqlarda əsasən quru bozqır və quru çöl bitki örtüyü xarakterikdir. Ərazidəki şabalıdı və açıq şabalıdı torpaqlar geniş yayılmışdır. Adətən açıq şabalıdı torpaqlar arid iqlimdə quru çöllərin yarımsəhra iqlimi ilə kəsişdiyi sahələrdə yayılmışdır. Şabalıdı torpaqlarda humusun miqdarı 3-5% olmaqla zəif qələvi xüsusiyyəti ilə fərqlənir. Bu torpaq da ağır gillicəlidir və udulmuş əsaslarda kalsiumun miqdarı 90%-ə yaxındır. Şabalıdı torpaqlar təkcə tədqiqat ərazisində deyil, eyni zamanda bütün ölkə ərazisində geniş mənimsənilmiş və əsasən taxıl bitkiləri,üzüm, meyvə-tərəvəz, pambıq becərilir və həmçinin heyvandarlıqda qış otlağı kimi istifadə edilir (Cəfərov, Babayev, İbrahimov, 2005).

Ermənistanın hərbi təcavüzü işğalda olan torpaqların təbiətinə və ərazinin təbii ehtiyyatlarına potensial təhlükə yaratmışdır. Meşələrin bilərəkdən yandırılması, torpaqların qəsdən zəhərlənməsi, minalanması və yer-altı resursların aşırı dərəcədə istifadə olunması təbii resursların tükənməsinə və aşınmasına səbəb olmuşdur. Bütün bunlar bütövlükdə müxtəlif demoqrafik, hərbi, iqtisadi və xüsusən

də ekoloji problemlər yaratmışdır. Cəbhə bölgəsində muasir tipli silahlardan istifadə, xüsusilə Ermənistan tərəfindən kimyəvi silahların tətbiqi, partlamamış mərmilərin zərərləşdirilməməsi kimi məsələlər təbii potensialın tükənməsinə səbəb olur. Partlayış nəticəsində ərazidə torpaqlar zədələnir, zərərli maddələrin, zəhərli qazların və toksinlərin havaya buraxılması atmosferin xeyli çirklənməsinə gətirib çıxarır ki, buda öz növbəsində su ehtiyatlarının tükənməsi, yeraltı suların və torpaqların çirklənməsinə səbəb olur.

İşğal dövründə təmas xəttində yerləşən Füzuli və Cəbrayıl rayonlarının əraziləri erməni işğalçıları tərəfindən düşünülmüş şəkildə od vurularaq yandırılmışdır. Ümumilikdə, Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüş, ətraf mühitə və canlı təbiətə əhəmiyyətli dərəcədə ziyan vurulmuşdur.

Araz çayı boyu yerləşən Füzuli, Cəbrayıl və Zəngilan inzibati rayonlarının yuxarıda qeyd edilən torpaq ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması üçün ilk növbədə işğal və müharibə dövründə torpaqlara dəyən ziyan aradan qaldırılmalıdır. Bölgədə hərbi eroziya, səngərlərin, tunellərin, istehkamların qazılması və bitki örtüyünün məhv edilməsi torpaq ehtiyatlarına böyük miqdarda iqtisadi və ekoloji zərər vurmuşdur. Bunun aradan qaldırılması üçün ilk olaraq torpaqlara vurulan ziyanlar meliorativ və rekultivasiya işləri ilə aradan qaldırılmalıdır. Bu prosesdə Araz boyu torpaqların məhsuldarlığının yüksəldilməsi, iqtisadi fəaliyyətdə kənd təsərrüfatı torpaqlarının maksimum dərəcədə qorunub saxlanılması, onların strukturlarının daha da yaxşılaşdırılması zərurəti nəzərə alınmalıdır. Ancaq əkinçilik altında torpaqların istifadəsi həmişə ən rasional olaraq qəbul edilə bilməz. Burada yaxşılaşdırılmış torpaqların sənaye, nəqliyyat, mənzil tikintisi, istirahət məqsədləri üçün geniş istifadəsi məhdudlaşdırılmalıdır. Əsas vəzifə torpağın digər məqsədlər üçün istifadəsini minimuma endirmək və mümkün olduqda əvvəllər istifadə olunmamış əraziləri iqtisadi dövriyyəyə cəlb etməkdir.

Bu məqsədlə Araz boyu rayonların torpaq idarəetmə sxeminin hazırlanması üçün tərəfimizdən aşağıdakılar təklif olunur:

- torpaqların vəziyyəti və istifadəsi barədə məlumatların, sənədlərin və materialların ümumiləşdirilməsi və sistemləşdirilməsi;
- təbii, iqtisadi, ekoloji qiymətləndirmə, demoqrafik və digər şərtlər, məskunlaşmanın təbiəti və s. əsas götürməklə bölgənin torpaq-resurslarının iqtisadi potensialının müəyyənləşdirilməsi;
- mövcud torpaq istifadəsinin təhlili və qiymətləndirilməsi, torpağın dövlət quruluşu və bölgüsü dinamikasında müasir tendensiyaların tətbiqi;
- təsərrüfat fəaliyyətinə dair məhdudiyyətlərin müəyyənləşdirilməsi, ərazilərdən istifadənin istiqamətləri və icazə verilən intensivliyi;
- istifadə üçün nəzərdə tutulmuş torpaq sahələrinin müəyyənləşdirilməsinə uyğun olaraq əmlak obyektlərinin yerləşdirilməsinin dövlət proqramları və investisiya layihələrinin hazırlanması;
- təkmilləşdirmə üçün təkliflərin hazırlanması və inzibati ərazi vahidlərinin sərhədlərinin dəqiqləşdirilməsi;
- təkliflərin və fəaliyyətlərin hazırlanması və əsaslandırılması, istifadə səmərəliliyinin artırılmasına yönəldilmiş kənd təsərrüfatı torpaqlarının müəyyənləşdirilməsi;
- torpaqların yenidən bölüşdürülməsi obyektlərinin və həcmlərinin müəyyənləşdirilməsi, xüsusi qorunan ərazilərdə torpaqdan istifadə şərtlərinin dəqiqləşdirilməsi;
- torpaq idarəetmə sxemi üçün təkliflərin effektivliyinin müəyyənləşdirilməsi.

Araz boyu rayonların kənd təsərrüfatı torpaqlarının səmərəliliyinin artırılması ərazi idarəetmə sxemində müasir yanaşmaların tətbiqini zəruri edir. Əkinçilik təsərrüfatlarında əkin sahələrinin sahəsinin optimallaşdırılması, torpaq sahələrinin yenidən planlaşdırılması və s. imkan verir ki, digər ərazilərdə yaşıllaşdırma işləri və xüsusən də meşələrin bərpası və yenilərinin salınması həyata keçirilsin.

Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad edilməsi 75 min hektar yeni ərazinin suvarılması və mövcud suvarılan torpaqların suya olan tələbatının yaxşılaşdırılması deməkdir. Bəzi təxminlərə görə, bu su anbarının həcmi 1,6 milyard kubmetr nəzərdə tutulmuşdur.

İran və Azərbaycan arasında imzalanmış müqaviləyə əsasən Araz çayı üzərində Xudafərin su anbarı üzərində həm də su elektrik stansiyası tikilir. Beləliklə, 2016-cı ilin fevral ayında Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərindəki hidroelektrik stansiyalarının, "Xudafərin" və "Qız qalası" hidrokompleklərinin inşası, istismarı, enerji və su ehtiyatlarının istifadəsinin davam etdirilməsində əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Araz çayındakı elektrik stansiyalarının ümumi gücü 280 meqavat təşkil edə bilər. Bu layihələrin icrası Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi gətirə bilər. Xudafərin su elektrik stansiyalarının ətraf bölgələrin enerji təchizatının yaxşılaşdırılması və azad edilmiş ərazilərin bərpası üçün fəal şəkildə istifadə ediləcəyi aydındır.

Araz çayı boyu yerləşən rayonların aqrar-sənaye kompleksində torpaq da daxil olmaqla resurslardan istifadənin yaxşılaşdırılması kənd təsərrüfatı torpaqlarının resurs potensialının qiymətləndirilməsi və onlardan ən səmərəli istifadə yollarının tapılması ilə əlaqələndirilir. Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında yaxın illərdə aparılacaq geniş miqyasda tikinti quruculuq işlərinin aparılması ildən-ilə xeyli torpaq sahəsinin kənd təsərrüfatı dövriyyəsindən çıxarılması ilə səciyyələnəcək. Buna görə də sənaye obyektlərinin tikilməsi, yollar çəkilməsi, dağ-mədən işləri görülməsi, yaşayış məntəqələrinin tikilməsi və genişləndirilməsi məqsədləri üçün kənd təsərrüfatına yararlı torpağın ayrılmasına ciddi plan əsasında nəzarət təmin edilməlidir. Yuxarıda göstərilən məqsədlər üçün torpaq sahəsinin ayrılmasında torpaq qanunvericiliyinə ciddi riayət olunmalıdır.

Arazboyu rayonların torpaq sahələrinin geri alınması məhsuldarlığı aşağı düşən torpaq ehtiyatlarının bərpasını zəruri edir. Buna görə əkin sahəsinin keyfiyyəti ümumiyyətlə yaxşılaşdırılmalıdır. Əkin altında istifadə edilməyən torpaqlar bir sıra göstəricilərə görə tədricən təbii torpaqlara yaxınlaşacaqdır. Hazırda onlarda su və külək eroziyası əlamətləri, torpaqların sıxılması, quruluşlarının məhv olması və su-fiziki xüsusiyyətlərinin pisləşməsi kəskin şəkildə zəifləyib və ya dayanır. Bununla birlikdə, torpaqların xüsusiyyətləri tədricən yaxşılaşa bilsə də, onlara (xüsusilə eroziya nəticəsində) dəymiş ziyan uzun müddət ərzində düzələ bilməyəcək.

Ümumiyyətlə, bölgədə torpaqların məhsuldarlığı əhəmiyyətli dərəcədə azalmışdır və deqradasiya prosesləri nəinki dayanmış, hətta intensivləşmişdir. Bunun səbəbi uzun illər boyu tətbiq olunan gübrələrin miqdarının kəskin azalması, tarla qoruyucu meşələrin məhvi və digər tədbirlərdir. Üzvi gübrələrin çatışmazlığı dehumusifikasiya sürətinin artmasına səbəb olur. Mineral gübrələrin tətbiqinin azaldılması torpaqlarda bitki qidalandırıcılarının mobil formalarının ehtiyatlarını azaltmağa kömək etmişdir (Əliyev, 2010). Əkin sahələri ağır metallarla və radioaktiv tullantılarla da çirkləndirilmişdir. Təbii meşələrin məhv edilməsi və tarlaqoruyucu zonaların azalması eroziya proseslərinin, o cümlədən ən zərərli olan – yarğanların intensivləşməsinə səbəb olmuşdur. Buna görə də, torpaq ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq üçün hansı torpaqların qeyd-şərtsiz əkin sahələri olduğu və əkin sahələrindən çıxarılmaması və ya tərkibinə qaytarılması, hansı sahələrin məhsuldar olmadığı və ya texnoloji mənfi xüsusiyyətlərə malik olması, bunun nəticəsində əkin sahələrindən xaric olunmağı və ya alınmamasını ciddi şəkildə müəyyənləşdirmək lazımdır (Коробкин, Передельский, 2006).

Ərazidə torpaq örtüyünün deqradasiyası və çirklənməsi onun ümumi ekoloji funksiyalarının pozulmasına, suyun, havanın, qidanın keyfiyyətinin pisləşməsinə səbəb olan xüsusiyyətlərdir ki, bütün bunlar son nəticədə əhalinin sağlamlığına zərər verə bilər.

Otuz ilə yaxın bir müddətdə rayon torpaqlarına artan hərbi-texnogen yükün nəticələrindən biri də torpaq örtüyünün intensiv dağılması və çirklənməsidir. Burada əsas torpaq çirkləndiriciləri ağır metallar və onların birləşmələri, radioaktiv elementlər, habelə kənd təsərrüfatında istifadə olunan

gübrələr və pestisidlər olmuşdur. Ən təhlükəli kimyəvi torpaq çirkləndiricilərinə qurğuşun, civə və onların birləşmələri daxildir.

Azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında təbiəti qorumaq vəzifələri arasında ən başlıcası torpaq eroziyasına qarşı mübarizədir. Ərazilərin bərpası prosesində eroziyanın qarşısını almaq üçün hazırlanmış ümumi tədbirlər arasında ərazilərdə əkinin düzgün aparılması, qoruyucu meşə əkinləri, hidravlik tikililər və digər eroziyaya qarşı tədbirlərin görülməsini təmin edən ümumi eroziyaya qarşı mühafizə məsələsini ayırmaq olar. Eroziyaya qarşı mübarizədə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri də dərələrdə və güclü aşınmış yamaclarda ot, ağac və kol bitkilərinin əkilməsi, iqtisadi əhəmiyyətə malik olan bağların və meşələrin salınmasıdır. Zəngilan rayonunda 107 ha sahədə olmuş Bəsitçay Dövlət Təbiət Qoruğu dünyada ikinci, Avropada birinci təbii çinar meşəsi olmuşdur. Burada olan Şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə, gövdələrinin diametri 4 metrə çatmış, hündürlüyü 54 metrdən yuxarı olmuşdur. Avropada analoqu olmayan bu nəhəng ağaclar ermənilər tərəfindən qəddarlıqla kəsilərək məhv edilmişdir (www.eko.gov.az).

Bitki örtüyünün bərpası və sahələrinin artırılması quraq ərazilərdəki hidroloji tarazlığı sabitləşdirməyə və torpağın keyfiyyətini və məhsuldarlığını qorumağa kömək edəcəkdir. Ekoloji cəhətdən təmiz, sosial cəhətdən məqbul, ədalətli və iqtisadi cəhətdən səmərəli torpaq istifadəsi sistemlərinin tətbiqi yolu ilə deqradasiyaya uğramış ərazilərin yaxşılaşdırılmasını təmin etmək və ekoloji durumu və morfoloji xüsusiyyətləri dəyişdirilmiş torpaqlarda bərpa tədbirlərini həyata keçirmək zəruridir. Bu, torpaq məhsuldarlığının artmasına və həssas ekosistemlərdə biotik ehtiyatların qorunmasına səbəb olacaqdır. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqbul hesab olunur:

- torpaq məhsuldarlığını davamlı artırmaq üçün daha yaxşı torpaq istifadəsi siyasətləri və təcrübələri;
- müvafiq, ekoloji cəhətdən etibarlı və iqtisadi cəhətdən əlverişli əkinçilik və otlaq təcrübələri;
- təkmilləşdirilmiş torpaq və su idarəetmə təcrübələri;
- kənd əhalisinin ehtiyaclarını ödəmək və yeni və ya uyğunlaşdırılmış texnologiyalara əsaslanaraq təbii ehtiyatların qorunması məqsədinə çatmaq üçün yaylaq əraziləri də daxil olmaqla torpaq ehtiyatlarının rasional istifadəsində geniş ictimaiyyətin iştirakını təşviq etmək;
- bioloji müxtəlifliyin qorunmasını təmin edərkən səhralaşma ilə mübarizə üçün qanunvericilik və digər tədbirlərin qəbulu yolu ilə yerli ekoloji ərazilərin mühafizəsini və qorunmasını təşviq etmək;
- quru ərazilərdəki meşə təsərrüfatına qanunvericilik daxil olmaqla müxtəlif təşviqlər yolu ilə investisiya qoyulmasını həvəsləndirmək və təşviq etmək;
-bərpa edilmiş torpaqların gələcəkdə deqradasiyasının qarşısının alınmasına yönələn və onların yaxşılaşdırılması məqsədilə yerli təcrübələrə əsaslanan torpaq istifadəsi modellərini inkişaf etdirmək. Bu modellər səhralaşmaya səbəb ola biləcək müxtəlif təbii və antropogen amillərin daha yaxşı qorunmasını təmin etməlidir. Bu modellərdə yeni və eyni zamanda ənənəvi torpaq deqradasiyasının qarşısının alınması təcrübələri ilə qarşılıqlı təsirlər nəzərə alınmalı və bütün ekoloji və sosial sistemin çevikliyi əks olunmalıdır (Николайкин, Николайкина, Мелихова, 2004).

Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının müvafiq ərazilərində yerli ekoloji vəziyyətə uyğunlaşdırılmış, quraqlığa davamlı, sürətlə böyüyən və məhsuldar bitki növlərini ətraf mühitin mövcud vəziyyəti nəzərə alınmaqla inkişaf etdirmək, sınaqdan keçirmək və tətbiq etmək torpaqların eroziyaya qarşı davamlığını artıran fitomeliorativ tədbirlər sırasına daxildir. Yaşıllıqların sahəsinin artırılması qrunt sularının səviyyəsinə də müsbət təsir edən amillərdəndir.

Məlumdur ki, eroziya nəticəsində dağılmış torpaqlara aşınma deyilir. Bölgədə hərbi eroziya torpaq örtüyünün vəziyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərib və bir çox hallarda onu tamamilə məhv etmişdir. Eroziyaya uğramış torpaqlarda adətən bitkilərin bioloji məhsuldarlığı və keyfiyyəti azalır.

Arazboyu rayonların hərbi işlər aparılan torpaq sahələrində külək eroziyasına da rast gəlinir. Külək eroziyası küləyin əsməsi zamanı kiçik torpaq hissəciklərinin daşınması və çökməsini nəzərdə tutur. Külək eroziyasının intensivliyi küləyin sürətindən, torpağın sabitliyindən, bitki örtüyünün

mövcudluğundan, relyef xüsusiyyətlərindən və digər amillərdən asılıdır. Antropogen amillər onun inkişafına böyük təsir göstərir. Məsələn, bölgədə bitki örtüyünün məhv edilməsi, mal-qaranın qaydasız otarılması, aqrotexniki tədbirlərdən düzgün istifadə edilməməsi eroziya proseslərini kəskin dərəcədə gücləndirmişdir.

Arazboyu yerləşən Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının torpaq ehtiyatlarının ekoloji durumuna ən çox antropogen amillər təsir etmişdir. Bunlara sənaye aşınması (açıq çuxurların inşası və qazılması zamanı kənd təsərrüfatı torpaqlarının məhv edilməsi), hərbi eroziya (istehkamlar, səngərlər), otlaq eroziyası (intensiv otarma), suvarma (kanalların çəkilməsi və suvarma normalarının pozulması zamanı torpaqların dağılması) və s. aiddir. Hər bir antropogen amilin təsvirindən göründüyü kimi, onlar elə ilkin mərhələdə, təbiətə insanın müdaxiləsi və müəyyən təsir göstərdiyi zaman hadisələrin təbii gedişatını pozur. Məsələn, bölgədə hərbi fəaliyyət öz-özlüyündə güclü eroziya effekti yaratmışdır.

Ancaq müasir bərpa dövründə torpaq eroziyasının nəticələri ilə mübarizə aparılmalıdır. Beləliklə, eroziya nəticəsində yaranan yarğanların əmələ gəlməsi prosesini dayandırmaq, qazılmış, dağıdılmış torpaq sahələrini bərpa etmək üçün həm aqrotexniki, həm də mühəndis-texniki tədbirlərdən birgə istifadə olunmalıdır. Aqrotexniki tədbirlər meşə bərpa və yeni meşə əkini, çoxillik otların əkilməsini əhatə edir. Mühəndis-texniki tədbirlərə yamacların hazırlanması, möhkəmləndirilməsi, su axını üçün arxların inşası daxildir. Külək eroziyasını (deflyasiya prosesləri) dayandırmaq üçün eyni vaxtda çoxillik otların, kol və ağac bitkilərinin əkilməsi təmin olunmalı, torpaq səthinə bağlayıcı kimyəvi maddələrin tətbiq edilməsindən də istifadə olunmalıdır. Bütün bu üsullar, torpağın üst qatının gücləndirilməsini və möhkəmləndirilməsini təmin edir, ayrı-ayrı hissəciklərin su və küləklə yuyulmasının və sovurulmasının qarşısını alır və beləliklə eroziya ilə mübarizə aparılması təmin edilir (Məmmədov, 2002).

Arazboyu yerləşən Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının torpaq ehtiyatlarından perspektivdə səmərəli istifadə edilməsinin ekoloji-iqtisadi və sosial məsələlərinin öyrənilməsi həmin inzibati ərazi vahidlərində məhsuldar qüvvələrin səmərəli inkişafı və yerləşdirilməsinin tərkib hissəsi olacaqdır. Məhsuldar qüvvələrin öyrənilməsində, xammal ehtiyatlarının mənimsənilməsi sistemində, tükənən və tükənməyən təbii sərvətlərin istifadəsində istehsalın kompleks inkişafını təmin edən əsas vasitə bölgədə iqtisadi-ekoloji ekspertizanın və monitorinqlərin aparılmasıdır. Torpaq ehtiyatların səmərəli istifadəsi, ekoloji mühitin tarazlığının bərpa edilərək saxlanılması, istehsalın inkişafı proseslərində məhsuldar qüvvələrə münasibət azad olunmuş ərazilərdə aparılacaq yeni iqtisadi islahat şəraitinə uyğun münasibətdən asılıdır. Belə olduğu şəraitdə milli sərvətlərdən, xüsusilə bölgənin torpaq ehtiyatlardan səmərəli istifadə, ekoloji mühitin mühafizəsi şəraitində ekoloji-iqtisadi və sosial-iqtisadi inkişafı təmin edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev M.C. (2010). Meliorativ coğrafiya. Pedaqoji universitetlər üçün dərs vəsaiti. – Bakı. – 106 s.
2. Cəfərov M.İ., Babayev A.H., İbrahimov Z.A. (2005). Azərbaycanın təbii sərvətləri və onlardan səmərəli istifadə. – Gəncə. – 290 s.
3. Məmmədov Q.Ş. (2002). Azərbaycanın torpaq ehtiyatları. – Bakı: Elm. – 132 s.
4. Николайкин Н.И., Николайкина Н.Е., Мелихова О.П. (2004). Экология: Учебник для вузов – 3-е изд. – М.: Дрофа. – 624 с.
5. Коробкин В.И., Передельский Л.В. (2006). Экология. Учебник для вузов. Изд. 10-е. – Ростов н/Д: Феникс. – 576 с.
6. www.eko.gov.az

CHEMİCAL AND BİOLOGİCAL SCİENCE / KİMYA VƏ BİOLOJİ ELMLƏR

OBTAINING STAPHYLOCOCCAL BACTERIAL AND ANATOXIN IMMUNOGENS



S.Rigvava, L.Gubeladze, M.Natidze, N.Qarumidze,
D.Gogiashvili, T.Dalaqishvili, L.Qavtaradze, T.Torok.
G.Eliava Institute of Bacteriophages, Microbiology and Virology
sergorigva@yahoo.com
Orcid id: 0000-0001-7475-9210

From 102 cultures of staphylococci received from different clinics of Georgia 30 strains (Staph.aureus 24 და Staph.epidermidis 6) with stable characteristics are selected. Basis for the selection of staphylococci was investigation of the morphological, cultural and enzymatic activity, determination of sensitivity against novobiocin and staphylococcal bacteriophage. Production of microcapsules, proteolytic, hemolytic, mannitol fermentation and plasmocoagulation values are indicative of typicality of Staph.aureus strains, which lacks Staph.epidermidis.

3 micro-series of staphylococcal alpha-hemolysin (α–toxin) are made. As a result of treating alpha-toxin by 0,4% formaldehyde safe immunogenic form - anatoxin is obtained. Using chemical agents (trichloroacetic acid, NaCl, 96^{O} rubbing alcohol) by triple gradual precipitation purified anatoxin is obtained. On the basis of anatoxin diagnostic test-system is made, which is designed for rapid serologic diagnostics of staphylococcal infection, as well as assessment of intensity of immunity after vaccination. Human serum analysis revealed that in passive hemagglutination reaction titer of antitoxic antibodies is normally

1:5 – 1:80. Investigation of clinical material approved that in patients infected with Staph.aureus titer of antibodies varies between 1:160 – 1:1280. Obtained immunogens – inactivated bacteria and anatoxin – will be used to obtain immune serum.

"This work was supported by Shota Rustaveli National Science Foundation of Georgia",Grant #AR-18-306: **"Development of Policlonal Immunoglobulin for the Treatment of the Complicated Staphylococcal Infections".**

OBTAINING POLYCLONAL ANTISTAPHYLOCOCCAL HYPERIMMUNE SERUM



S.Rigvava, L. Gubeladze, M.Natidze, N.Qarumidze, D.Gogiashvili, T.Dalaqishvili, T.Turiashvili, L.Qavtaradze, T.Torokiɔ.
George Eliava Institute of Bacteriophages, Microbiology and Virology

